

**“Azərbaycan xalqını bir daha əmin etmək istəyirəm ki, biz bundan sonra da həmişə inkişaf və tərəqqi yolu ilə gedəcəyik.”**

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

# AZƏRBAYCAN PROKURORLUĞU

**Təsisçi:**
Azərbaycan Respublikasının
Baş Prokurorluğu

*Elmi-praktiki jurnal*
*Aprel - İyun (2018-ci il)*

**REDAKSİYA HEYƏTİ**

**Baş redakor:**
Namiq Əsgərov

**Baş redaktorun müavini:**
Nazir Bayramov
(nazirbairamov@mail.ru)

**Redaksiya heyətinin üzvləri:**
Müqəddəs Sultanov
Nazim Rəcəbov
İlqar Cəfərov
Nazim Abbasov
Natiq Hüseynov

**Məsul katib:**
Günay Əyyubova

**Redaksiyanın ünvanı:**
AZ 1001, Azərbaycan Respublikası,
Bakı şəhəri, S.Tağızadə küçəsi, 78 A.
**Tel. / Faks:** 492 25 17
**www.genprosecutor.gov.az**

“Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikası Qanununa müvafiq qaydada təsis edilmişdir.

Jurnal 2003-cü ildən etibarən rübdə bir dəfə dövrilikdə dərc edilir.

Azərbaycan Respublikası Baş prokurorunun 1 iyun 2010-cuil tarixli, 10/53 nömrəli “Azərbaycan Prokurorluğu” elmi-praktiki jurnalının redaksiya heyətinin yeni tərkibinin təsdiqedilməsi haqqında əmrinə əsasən, Azərbaycan Respublikası Prokurorluğunun elmi-praktiki mətbu orqanı olan “Azərbaycan Prokurorluğu” jurnalının fəaliyyəti üçün məsul qurum kimi Baş Prokurorluğun Elm-Tədris Mərkəzi müəyyənləşdirilmişdir.

Materiallardakı faktların doğruluğuna jurnalın redaksiya heyəti məsuliyyət daşımır.

Materiallarımızdan istifadə zamanı jurnala istinad etmək vacibdir.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin mətbəəsində çap edilmişdir.

Çapa imzalanmışdır: 19.07.2018
60x84 1/8 formatda 178 səhifə həcmdə çap olunmuşdur.
Tiraj: 770 nüsxə

© “Azərbaycan Prokurorluğu”, 2018

# MÜNDƏRİCAT

## İCTİMAİ-SİYASİ TƏDBİRLƏR


**4** Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib

**15** Prezident İlham Əliyev 6 saylı seçki məntəqəsində səs verib

**18** Prezident seçkilərinin ilkin nəticələri açıqlanıb

**19** Prezident İlham Əliyev Prezident seçkiləri ilə bağlı Azərbaycan xalqına müraciət edib

**20** Prezident seçkilərində İlham Əliyevin inamlı qələbə qazanması münasibətilə Bakıda konsert proqramı təşkil olunub

**24** Növbədənkənar Azərbaycan Respublikasının Prezident seçkilərinin nəticələrinə dair Mərkəzi Seçki Komissiyasının qərarı və protokolu

**29** Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası Prezidenti seçkilərinin yekunlarını elan edib

**33** "2018-ci il aprelin 11-də keçirilmiş Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinin təsdiq və rəsmən elan edilməsinə dair" Konstitusiya Məhkəməsinin qərarı

**35** Prokurorluq orqanlarına seçki qanunvericiliyinin pozulması ilə əlaqədar müraciət daxil olmayıb

**36** Prezident İlham Əliyevin andiçmə mərasimi olub

**46** Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib

**47** Prezident İlham Əliyev Şəhidlər xiyabanını ziyarət edib

**49** Prezident İlham Əliyev Dövlət Bayrağı Meydanında olub

**51** Prezidenti İlham Əliyev Formula 1 Azərbaycan Qran-Prisinin əsas yarışını izləyib

**57** Prezident İlham Əliyev 9 May – Qələbə Günü münasibətilə Bakıda keçirilən mərasimdə iştirak edib

**61** Prezident İlham Əliyev ADA Universitetində keçirilən məzun günündə iştirak edib

**70** Prezident İlham Əliyev Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimində iştirak edib

**77** Prezident İlham Əliyev Moskvada futbol üzrə dünya çempionatının təntənəli açılış mərasimində iştirak edib

**79** Prezident İlham Əliyev Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə keçirilən təntənəli hərbi paradda olub

**89** "Azərbaycan Prokurorluğunun 100 illiyi (1918–2018)" Azərbaycan Respublikasının yubiley medalı: Qanun, Əsasnamə, Təsvir, Fərman

**91** Səbuhi Şahverdiyevin Naxçıvan Muxtar Respublikasının prokuroru təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı


## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ – 100


**92** "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)": Sərəncam, Fərman, Qanun, Əsasnamə, Təsvir, Sərəncam, Sərəncamdan çıxarış, Loqotip

**97** Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə ucaldılmış abidəni ziyarət edib

**99** Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə təşkil olunan rəsmi qəbulda iştirak edib

**106** Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr edilən təntənəli konsertdə iştirak edib

**109** Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə Bakıda hərbi orkestrlərin çıxışları olub

**110** Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illik və Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileylərinə həsr olunmuş süvari və gəmi yürüşləri təşkil olunub

**111** Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə yeni zirvə fəth olunub

**112** Azərbaycan Prokurorluq orqanlarında Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyinə həsr olunmuş konfrans keçirilib

**118** Naxçıvanda Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi qeyd olunub


## RƏSMİ TƏDBİRLƏR


**120** Azərbaycan Beynəlxalq Prokurorlar Assosiasiyasının işinə dəyərli töhfələr verir

**124** Baş prokuror Zakir Qaralov Türkiyə Respublikasının Ədliyyə naziri Əbdülhəmid Gülün başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

**125** Baş prokuror Zakir Qaralov Müstəqil Dövlətlər Birliyinin seçki müşahidə missiyası qərargahının rəhbəri Yevgeni Slobodanı qəbul edib

**126** Baş prokuror Zakir Qaralov Əlcəzair Xalq Demokratik Respublikasının ədliyyə naziri Əl-Tayib Louhu qəbul edib

**127** Baş prokuror Zakir Qaralov Rusiya mətbuatında Azərbaycana qarşı yönəlmiş təxribatla əlaqədar həmin ölkənin baş prokuroruna müraciət ünvanlayıb

**128** Prokurorluq orqanlarında vətəndaşların müraciətlərinə baxılması işi daim diqqət mərkəzindədir


## İCTİMAİYYƏTƏ HESABAT


**131** Azərbaycan Respublikasının prokurorluq orqanlarına qulluğa qəbulla əlaqədar müsabiqənin yazılı imtahan mərhələsi keçirilib

**133** Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi ilə Qida Təhlükəsizliyi Agentliyi arasında Anlaşma Memorandumu imzalanıb

**135** Baş Prokurorluğun Elm-Tədris Mərkəzi tərəfindən müxtəlif sahələr üzrə kurslar təşkil olunub

**137** Baş Prokurorluğun Elm-Tədris Mərkəzi ADA Universiteti ilə tədris sahəsində əməkdaşlıq edir

**138** Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin işçiləri Azərbaycan Polisinin 100 illik yubileyi münasibətilə təşkil olunan tədbirdə iştirak ediblər

**140** Baş Prokurorluğun Hüquqi təminat idarəsi tərəfindən müxtəlif sahələr üzrə seminarlar təşkil olunub

**142** Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsi tərəfindən müxtəlif sahələr üzrə seminarlar təşkil olunub

**145** Hərbi Prokurorluq tərəfindən yeni metodik tövsiyələr hazırlanıb

**147** Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanlarında müxtəlif sahələr üzrə seminarlar təşkil olunub

**152** Naxçıvan Muxtar Respublikasında tələbələr prokurorluq orqanlarının iş prinsipləri ilə tanış olublar


## BEYNƏLXALQ ƏLAQƏLƏR


**153** Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi BMT-də məruzə ilə çıxış edib

**154** Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi ilə İran İslam Respublikasının Baş Təftiş Təşkilatı arasında Anlaşma Memorandumu imzalanıb

**156** Hərbi prokurorluğun nümayəndə heyəti Rusiyada səfərdə olub

**159** Qazaxıstan Respublikası Prokurorluğunun informasiya-kommunikasiya texnologiyaları sahəsində təcrübəsi öyrənilib


## HÜQUQİ AKTLAR


**160** Prokurorluq üzrə hüquqi aktlar

**164** Qanunvericiliyə dəyişikliklər

# Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib

**Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib**

Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.

Dövlətimizin başçısı iclası giriş nitqi ilə açdı.

## Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqi



– Hər il olduğu kimi, bu il də aprel ayının birinci ongünlüyündə biz ilin birinci rübünün sosial-iqtisadi yekunlarını müzakirə edirik, gələcək planlar haqqında danışırıq. Mən ilin əvvəlində demişdim, əminəm ki, 2018-ci il də ölkəmiz üçün uğurlu il olacaq və birinci rübün yekunları bu sözləri təsdiqləyir. Azərbaycan bu müddət ərzində uğurla inkişaf etmişdir, qarşımızda duran bütün vəzifələr artıqlaması ilə yerinə yetirilir, ölkəmiz güclənir, hərtərəfli inkişaf edir. Əminəm, biz bu müsbət dinamikanı ilin sonuna qədər saxlayacağıq, bunu daha da artıracağıq ki, ölkəmiz 2018-ci ili də uğurla başa vursun.

Bu ilin birinci rübündə ölkəmizdə bir neçə mötəbər beynəlxalq tədbir keçirilmişdir. Bu tədbirlər

ölkəmizin beynəlxalq nüfuzunu artırır, Azərbaycanı dünyaya müasir, inkişafda olan ölkə kimi təqdim edir. Mən bu tədbirlər arasında VI Bakı Qlobal Forumunu xüsusilə qeyd etmək istəyirəm. Bu Forum qısa müddət ərzində dünya miqyasında böyük hörmət qazanmış bir beynəlxalq platformadır. Dünyada keçirilən aparıcı forumlar arasında Bakı Beynəlxalq Forumu qısa müddət ərzində öz layiqli yerini tuta bilmişdir. Bunu təsdiqləyən həm Forumda müzakirə olunan məsələlərdir, həm də gələn qonaqların siyahısıdır. Bu dəfə Forumda 50-dən çox ölkədən 47 fəaliyyətdə olan və sabiq dövlət və hökumət başçısı iştirak etmişdir. Yəni, bu, Forumun əhəmiyyətini göstərir. Dünya liderlərinin Foruma göndərdikləri məktublar, əlbəttə, göstərir ki, bu Forum doğrudan da böyük beynəlxalq tədbirdir. Birinci rübdə ölkəmizə 7 dövlət və hökumət başçısı səfər etmişdir. Bu səfərlər də ölkəmizin dost ölkələrlə ikitərəfli münasibətlərinin inkişafı üçün önəmli rol oynayır.

Bizim təşəbbüsümüzlə bu il ilk dəfə olaraq regional əməkdaşlıq çərçivəsində qonşularımızla dördtərəfli əməkdaşlıq formatına start verildi. Əlbəttə ki, regionda yaşanan problemlərin həlli, sabitliyin, təhlükəsizliyin, inkişafın təmin edilməsi üçün bu əməkdaşlıq formatı və digər əməkdaşlıq formatları böyük rol oynayır. Bu il ölkəmizdə Qoşulmama Hərəkatının xarici işlər nazirlərinin konfransı keçirilmişdir. Bu, çox önəmli beynəlxalq tədbirdir. Bildiyiniz kimi, Qoşulmama Hərəkatı dünyada BMT-dən sonra ikinci böyük təşkilatdır. Biz bu təşkilata 7 il bundan əvvəl üzv olmuşuq və qısa müddət ərzində təşkilatda böyük rəğbət və hörmət qazana bilmişik. Məhz bunun nəticəsidir ki, belə bir mötəbər beynəlxalq tədbir məhz ölkəmizdə keçirilir. Ondan da əlavə qeyd etmək istərdim ki, gələn ildən başlayaraq Azərbaycan dünyanın ikinci böyük təşkilatına sədrliyi öz üzərinə götürəcəkdir. Bu, 120 ölkənin Azərbaycana olan böyük hörmətinin, inamının təzahürüdür. Bu böyük təşkilat çərçivəsində Azərbaycan çox uğurlu fəaliyyət göstərir.

Qeyd etməliyəm ki, Qoşulmama Hərəkatı bizim təşəbbüsümüzlə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmasına dair önəmli qətnamə qəbul etmişdir. Bu dəfə də Bakıda keçirilmiş konfransda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bizim mövqeyimiz, yəni, ədalətli mövqe bir daha təsdiqləndi.

Bütün bu beynəlxalq tədbirlər çərçivəsində və eyni zamanda, Azərbaycana edilən səfərlər, ikitərəfli formatda aparılan danışıqlar nəticəsində bizim beynəlxalq mövqelərimiz daha da möhkəmləndi. Deyə bilərəm ki, mən bütün görüşlərdə həmkarlarıma və görüşdüyüm şəxslərə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın mövqeyini, münaqişə ilə bağlı həqiqətləri çatdırıram. Hər dəfə bildirirəm ki, Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır, işğalçı dövlət tərəfindən işğal edilib. Bu işğal nəticəsində bir milyondan artıq azərbaycanlı etnik təmizləməyə məruz qalmışdır, torpaqlarımız işğal altındadır, tarixi abidələrimiz, məscidlərimiz erməni vandalları tərəfindən dağıdılıbdır. Bildirirəm ki, bütün beynəlxalq təşkilatlar bu münaqişə ilə bağlı ədalətli, beynəlxalq hüquqa söykənən qərar və qətnamələr qəbul etmişlər və bu münaqişə yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bu görüşlərin və ümumiyyətlə, bu istiqamətdəki fəaliyyətimizin nəticəsi ondan ibarətdir ki, bu gün Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün hüquqi baza tam yaradılıb və heç bir dövlət qondarma "Dağlıq Qarabağ respublikası"nı tanımır və tanımayacaq. Kriminal xunta rejimi tərəfindən ötən il keçirilmiş dırnaqarası referendumu da heç kim tanımayıb. Bu, işğalçılara beynəlxalq aləm tərəfindən vurulan növbəti bir zərbədir. Bizim səylərimiz nəticəsində bu qondarma qurum regionun xəritəsində qara ləkə kimi tanınır və biz bundan sonra da bu istiqamətdə ardıcıl fəaliyyətimizi göstərməliyik. Beynəlxalq təşkilatlardakı fəaliyyətimiz çox önəmlidir. Düzdür, bunun praktiki nəticələri yoxdur, torpaqlarımız hələ də işğal altındadır. Biz torpaqlarımızın bir hissəsini hərbi yolla azad etdik, ancaq bununla bərabər münaqişənin həlli üçün hüquqi baza əsas şərtdir. Bu məsələdə Azərbaycan tam üstünlüyü əldə edib və növbəti illərdə beynəlxalq təşkilatlardakı fəaliyyətimiz daha da güclənəcək.

Onu da qeyd etməliyəm ki, bizim fəaliyyətimiz nəticəsində və eyni zamanda, Avropada baş qaldıran separatizmə qarşı yaranan yeni yanaşma nəticəsində Avropa İttifaqında münaqişələrlə bağlı Şərq Tərəfdaşlığı Proqramına üzv ölkələrin konfransında qəbul edilmiş qətnamə də ədaləti və beynəlxalq hüququ əks etdirir. Qətnamədə bu proqrama daxil olan ölkələrin ərazi bütövlüyü, suverenliyi, sərhədlərinin toxunulmazlığı bir daha təsdiqləndi. Bununla bərabər, biz münaqişənin həlli ilə bağlı bütün başqa istiqamətlərdə ardıcıl siyasətimizi aparırıq və aparacağıq. İlk növbədə, siyasi yanaşmadan sonra hərbi amil əlbəttə ki, öz rolunu oynayır və oynayacaqdır. Ordu quruculuğu bu gün də bizim üçün prioritet məsələdir, sabah da prioritet məsələ olacaq. Biz son illər ərzində güclü hərbi potensial yarada bilmişik, o potensial ki, bu gün Azərbaycan Ordusunu dünya miqyasında güclü ordular sırasına daxil edibdir. Bunu beynəlxalq məsələ ilə məşğul olan bütün qurumlar və reytinqlər təsdiqləyir. Biz bundan sonra da ən müasir silah, sursat, texnika

alacağıq ki, daim hərbi üstünlük təmin edilsin, necə ki, bu gün bu, təmin edilir.

Bu il Azərbaycan Ordusu genişmiqyaslı hərbi təlimlər keçirmişdir. Bu təlimlər bir daha bizim gücümüzü göstərdi, düşməni qorxuya saldı. Bilirik ki, bir neçə gün ərzində onlar panika içərisində idilər, səbirsizliklə gözləyirdilər ki, bu təlimlər başa çatsın. Yəni, bu, artıq reallıqdır, həqiqətdir. Hərbi amil münaqişənin ədalətli həlli üçün mühüm rol oynayır və biz bundan sonra da hərbi potensialımızı gücləndirəcəyik.

Bununla paralel olaraq bizim demək olar ki, bütün regional addımlarımız, təşəbbüslərimiz həm ölkəmizin maraqlarının təmin edilməsinə, Azərbaycan iqtisadiyyatının inkişafına, eyni zamanda, işğalçı dövlətin təcrid vəziyyətinə salınmasına hesablanıbdır. Bütün bu amillər artıq birləşib və öz səmərəsini verməkdədir. Ermənistan bu gün heç bir maraq doğurmayan ölkədir, heç bir investisiya qoyulmur. Müqayisə üçün deyə bilərəm ki, bu ilin birinci rübündə Azərbaycan iqtisadiyyatına 3,5 milyard dollar sərmayə qoyulubdur ki, bunun böyük əksəriyyəti xarici sərmayədir. Ermənistan iqtisadiyyatına isə keçən il ümumilikdə 200 milyon dollardan bir qədər çox vəsait qoyulmuşdur, onun da böyük payı xaricdə yaşayan diaspor təşkilatlarının üzərinə düşür. Yəni, bu, müqayisəedilməz vəziyyətdir və əlbəttə ki, biz bundan sonra da Ermənistanı bütün regional layihələrdən kənarda qoyacağıq. Bu gün Ermənistan bir dalana çevrilibdir. Biz onları siyasi dalana, iqtisadi, enerji, nəqliyyat dalanına çeviririk və bu siyasət davam etdiriləcək. Biz bunu gizlətmirik, açıq şəkildə bəyan edirik və biz haqlıyıq. Biz öz torpaqlarımızı istəyirik. Biz istəyirik ki, münaqişə tezliklə öz həllini tapsın, ölkəmizin ərazi bütövlüyü bərpa edilsin, soydaşlarımız öz doğma torpaqlarına qayıtsınlar. Bu, bizim üçün prioritet məsələdir. Bütün gücümüzü səfərbər etmişik ki, bu məsələnin həllinə nail olaq.

Əlbəttə, mən dəfələrlə demişəm, biz öz istəyimizə nail olmaq üçün daha da güclü olmalıyıq. Ermənistandan fərqli olaraq biz öz hesabımıza yaşayırıq, öz taleyimiz öz əlimizdədir. Əlbəttə, belə olan halda iqtisadi siyasət ön plana çıxır. Mən dəfələrlə demişəm ki, iqtisadi müstəqillik siyasi müstəqilliyin əsasıdır və bu istiqamətdə birinci rübün yekunları çox müsbətdir. Mən keçən ilin sonlarında demişdim ki, 2017-ci il sabitləşmə ili olubdur. Hətta 2017-ci ildə qeyri-neft sektorunun inkişafında çox müsbət nəticələr olmuşdur. Ancaq 2018-ci ilə gəldikdə, şübhəsiz qeyd edirdim ki, bu, uğurlu və sürətli inkişaf ili olacaqdır. Birinci rübün yekunları, sosial-iqtisadi göstəriciləri mənim sözlərimi təsdiqləyir. Beləliklə, birinci rübdə Azərbaycan iqtisadiyyatı 2,3 faiz artmışdır. Bu, çox gözəl göstəricidir və dünya miqyasında mövcud olan artımdan daha yüksək göstəricidir. Qeyri-neft sektorumuz isə təxminən 3 faiz artmışdır. Bu da iqtisadiyyatımızın şaxələndirilməsi istiqamətində aparılan siyasətin nəticəsidir.

Birinci rübdə sənaye istehsalı 2 faiz, qeyri-neft sənayesi isə təxminən 10 faiz artmışdır. Bu da ölkəmizdə son illər ərzində aparılan sənayeləşmə siyasətinin nəticəsidir. Qeyri-neft sənayemiz 10 faiz artıb və hesab edirəm ki, bu, rekord göstərici sayıla bilər. Kənd təsərrüfatı 4,2 faiz artıb. Bu artımın tərkibində biz daha çox bitkiçiliyin artımını görürük, 50 faizdən çox artmışdır. Bu da son illər ərzində ənənəvi və digər texniki məhsulların yetişdirilməsi ilə bağlıdır. Bu da çox müsbət göstəricidir.

Qeyd etdiyim kimi, ölkə iqtisadiyyatına 3,5 milyard dollar sərmayə qoyulubdur və bu sərmayənin böyük hissəsi xarici sərmayədir. Bu, onu göstərir ki, ölkəmiz xarici investorlar üçün çox cəlbedicidir.

Valyuta ehtiyatlarımız 2,2 milyard dollar artmışdır və hazırda 44,2 milyard dollara bərabərdir. Hesab edirəm, 3 ay ərzində 2 milyard dollardan çox artan valyuta ehtiyatlarımız bir tərəfdən onu göstərir ki, biz ehtiyatlarımızdan çox qənaətlə istifadə edirik, digər tərəfdən, bu, son illər ərzində apardığımız uğurlu neft siyasətinin nəticəsidir. Çünki bu vəsaitin tərkibində keçən il imzalanmış "Azəri-Çıraq-Günəşli" yatağının istismar müddətinin uzadılması ilə bağlı kontraktdan irəli gələn 450 milyon dollar bonus da vardır.

Bizim xarici ticarət dövriyyəmiz 31 faiz artmışdır. Bu da çox gözəl göstəricidir. İxrac isə 37 faiz artmışdır, daha doğrusu, qeyri-neft ixracı. Ümumi ixrac 24 faiz, qeyri-neft ixracı 37 faiz artmışdır. Bu da bizim siyasətimizin bariz nümunəsidir. Çünki ixracın şaxələndirilməsi iqtisadi sahədə əsas prioritet məsələdir ki, biz daha çox qeyri-neft sektorundan valyuta əldə edək və beləliklə, yerli istehsal güclənsin, yeni iş yerləri yaradılsın və ölkəmiz daha da sürətlə inkişaf etsin.

İş yerlərinin açılmasına gəldikdə, birinci rübdə 34 min yeni iş yeri yaradılmışdır ki, onlardan 31 mini daimi iş yeridir. Artıq biz 1 milyon 500 min iş yerinin yaradılmasına yaxınlaşırıq. Əgər biz birinci rübün rəqəmlərini də əlavə etsək, 2004-cü ildən bu günə qədər Azərbaycanda təxminən 1 milyon 500 min yeni daimi iş yeri yaradılmışdır.

Bu iqtisadi göstəricilərimiz əlbəttə ki, bizi çox sevindirir. Onu da əlavə etməliyəm ki, inflyasiya birinci rübdə cəmi 4 faiz olmuşdur. Bu barədə də mən ilin əvvəlində öz fikirlərimi bildirmişdim və qeyd etmişdim ki, əminəm, inflyasiya aşağı səviyyədə olacaq və əhalinin gəlirləri inflyasiyanı qabaqlayacaq. Belə də oldu. Əhalinin gəlirləri təxminən 10 faiz artmışdır, inflyasiya isə cəmi 4 faiz. Bax, budur

bizim birinci rübdə əldə edilmiş əsas sosial-iqtisadi göstəricilərimiz. Hesab edirəm ki, hər bir ölkə bu göstəricilərlə fəxr edə bilər, o cümlədən biz. Bu, onu göstərir ki, biz düzgün yoldayıq. Azərbaycanın qarşısında heç bir iqtisadi və maliyyə çətinliyi yoxdur. Biz güclü iqtisadiyyat yaradaraq, eyni zamanda, sosial məsələlərin həllində addımlar atırıq. Əgər iqtisadi imkanlarımız olmasaydı, biz nəyin hesabına pensiyaları, maaşları qaldıra bilərdik, nəyin hesabına böyük investisiya qoya bilərdik, infrastruktur layihələrini nəyin hesabına həyata keçirə bilərdik?! İqtisadi güc və ondan əlavə bizim siyasətimiz bütün bu reallıqları yaradır.

Sosial məsələlərin həllinə gəldikdə, qeyd etməliyəm ki, birinci rübdə maaşlar və pensiyalar artırıldı. Bu məqsədlər üçün dövlət büdcəmizdən yüz milyonlarla manat vəsait ayrıldı. Bu addım bir daha onu göstərir ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. İmkan yarandıqca biz dərhal birinci addımı sosial istiqamətdə atdıq. İnsanların sosial müdafiəsinin təmin edilməsi üçün praktiki addımlar atmışıq.

O ki qaldı, sosial infrastrukturun yaradılmasına, birinci rübdə Dövlət İnvestisiya Proqramında nəzərdə tutulmuş bütün məsələlər öz həllini tapır. Yeni xəstəxanalar, məktəblər tikilir. İlin əvvəlindən mənim tərəfimdən bu məsələlərin həlli üçün bir çox sərəncamlar verilmişdir. Yeni idman obyektləri, yeni “ASAN xidmət” mərkəzləri tikilir. Yəni, bu gün Azərbaycanda tikinti sektorunda böyük canlanma var. Mənzil İnşaatı Dövlət Agentliyinin xətti ilə sosial evlərin tikintisində irəliləyiş var. Ümumiyyətlə, indi özəl sektora, tikinti sektoruna böyük vəsait qoyulur. Təkcə Bakı şəhərində təqribən 150-yə yaxın hündürmərtəbəli binanın tikintisi nəzərdə tutulur. Onların bir çoxunun tikintisi başlamışdır. Bu, əlbəttə ki, tikinti sektoruna, tikinti materialları sektoruna müsbət təsir göstərir və yeni iş yerləri yaradır. Qeyd etməliyəm ki, biz bu il dövlət sektorunda da əlavə iş yerləri yaratmaq fikrindəyik. Həm dövlət qurumlarında, həm rayon icra hakimiyyətləri nəzdində yaradılan yeni qurumlar insanları işə cəlb edir. İctimai işlərə və dövlət şirkətlərində çalışmaq üçün cəlb edilənlərin sayını biz nəzərə alsaq, bu il ancaq dövlət sektorunda təqribən 50 mindən çox yeni iş yerinin yaradılması nəzərdə tutulur. Bu addımı biz iki il bundan əvvəl atmağa başlamışıq, o dövrdə ki, dünya iqtisadi böhranı bizə müəyyən dərəcədə mənfi təsir göstərmişdir. Bəzi iş yerləri ixtisara düşürdü, bəzi özəl qurumlar işçiləri işdən azad edirdilər. Ona görə dövlət dərhal öz addımını atdı və biz on minlərlə ictimai iş yeri yaratmışıq və bu gün bu proses davam edir. Xüsusilə bölgələrdə olarkən mən daim ictimai işlərlə maraqlanıram. Bu, bölgələrdə işsizliyi aşağı səviyyədə saxlamaq üçün çox önəmli addımdır. Hər bir rayonda yüzlərlə insan ictimai işlərə cəlb olunur. Nəzərə alsaq ki, indi Azərbaycanda o qədər böyük quruculuq, təmir işləri aparılır – binaların təmiri, parkların salınması, o parklara xidmət məsələləri. Əsas məqsədimiz işsizliyi daim aşağı səviyyədə saxlamaqdır. Yəni, sosial məsələlərin həlli bilavasitə iqtisadi imkanlarımıza bağlıdır. Biz iqtisadi cəhətdən nə qədər güclü olsaq, sosial məsələlər də o qədər uğurla öz həllini tapacaqdır.

Birinci rübdə bütün infrastruktur layihələri uğurla icra edilib. Əlbəttə ki, biz Cənub Qaz Dəhlizinin yaradılması ilə bağlı çox önəmli addımlar atmışıq. Fevral ayında Bakıda 4-cü Məşvərət Şurası keçirilmişdir. Bu Məşvərət Şurasında aparılan müzakirələrin nəticəsində bəyanat qəbul edilmişdir. Bu sənəddə ölkəmizin liderliyi bir daha əksini tapır. Cənub Qaz Dəhlizinin reallaşmasına az vaxt qalıb. Biz bu istiqamətdə uğurla addımlayırıq. Bu il bu layihənin 3 önəmli hissəsi başa çatacaq – TANAP, Cənubi Qafqaz Kəməri və “Şahdəniz-2”. Yəni, bu, tarixi nailiyyətimizdir və biz bu il bu istiqamətdə önəmli addımlar atmışıq.

Bu il nəqliyyat sektorunda əldə edilmiş razılaşmalar da, – onlar əslində əvvəlki illərdə görülmüş işlərin əsasında əldə edilibdir, – Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılmasına gətirib çıxaracaq. Onun çatışmayan hissəsinin tikintisinə təkan verildi. Bildiyiniz kimi, Azərbaycan öz ərazisində Şimal-Cənub nəqliyyat dəhlizi ilə bağlı bütün işləri tamamlayıb. Bundan sonra ancaq dəmir yolunun modernləşdirilməsi ilə bağlı işlər aparılacaq ki, sürət daha da artsın. Amma bizim bütün dəmir yolu infrastrukturu – şimal və cənub sərhədlərimizi birləşdirən dəmir yolu vardır. Vəsait qoyulub və indi biz bu məsələyə regional baxımdan ciddi diqqət göstəririk. Birinci rübdə bu istiqamətdə çox önəmli addımlar atılmışdır.

Ölkəmizdə ümumi inkişaf dinamikası çox müsbətdir. Ölkəmiz dünyada daha çox tanınır və turistlərin sayı getdikcə artır, birinci rübdə 12,5 faiz artmışdır. Əgər biz əvvəlki illəri də nəzərə alsaq görərik ki, bu dinamikada ardıcıllıq vardır. Bunun da bir çox səbəbləri var – Azərbaycanda hökm sürən sabitlik, təhlükəsizlik, xalqımızın qonaqpərvərliyi, tarixi abidələrimiz, infrastruktur, 6 beynəlxalq aeroport, yollar, otellər. Əlbəttə ki, ölkəmizdə keçirilən beynəlxalq tədbirlər Azərbaycanı dünyaya təqdim edir. Onların arasında Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, “Eurovision” müsabiqəsi və Formula 1 yarışları xüsusi rol oynayır. Çünki Formula 1 yarışlarının tamaşaçı auditoriyası yarım milyard insana bərabərdir. Bu yarışlar şəhərimizin mərkəzində keçirilir. Biz onu xüsusilə

belə təşkil etmişik ki, şəhərimiz göstərilsin, bu yarışa baxan azarkeşlər təkcə o yarışı görməsinlər, şəhərimizin gözəlliyini, müasirliyini görsünlər və daha çox Azərbaycana turist kimi gəlsinlər.

Bir sözlə, birinci rübün yekunları müsbətdir. Əlbəttə ki, üç ay ərzində daha bir sıra önəmli məsələlər öz həllini tapıb. Bir giriş sözümdə onların hamısını əhatə etmək mümkün deyil. Sadəcə olaraq, mən əsas məsələlər ətrafında fikirlərimi xalqa bildirdim. Azərbaycan xalqı bilir ki, Nazirlər Kabinetinin müntəzəm olaraq keçirilən toplantıları həm praktiki məsələlərin həllinə xidmət edir, eyni zamanda, bu, görülən işlər haqqında xalqa verilən hesabatdır.

***

“Azərişıq” Açıq Səhmdar Cəmiyyətinin sədri Baba Rzayev, “Azərsu” Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov, Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin İdarə Heyətinin sədri Samir Nuriyev çıxış etdilər.

***

Azərbaycan Prezidenti İlham Əliyev iclasda yekun nitqi söylədi.

## Prezident İlham Əliyevin yekun nitqi



– Mən əvvəlki çıxışlarda qeyd etdiyim kimi, 2017-ci il Azərbaycanda çox dərin iqtisadi islahatlar ili olmuşdur. Bu islahatlar bu il də davam etdirilir. Biz birinci rübdə əldə etdiyimiz göstəricilərlə fəxr edə bilərik. Bunlar doğrudan da Azərbaycanın uğurlu inkişafını əks etdirən göstəricilərdir. Ancaq biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik və islahatları davam etdirməliyik.

Bəzi hallarda sual yaranır ki, indi neftin qiyməti bir qədər sabitləşdi, bu islahatlar davam etdiriləcəkmi, yoxsa yox? Mütləq davam etdiriləcək. Neftin qiyməti bizim üçün əsas amil olmamalıdır və Azərbaycan iqtisadiyyatı elə bir səviyyəyə çatmalıdır ki, neftin istənilən qiyməti bizə böyük təsir etməsin, yalnız ehtiyatlarımızın artırılmasına xidmət göstərsin. Giriş sözümdə qeyd etdiyim kimi, bu ilin birinci rübündə biz 2,2 milyard dollar əlavə vəsait toplamışıq. Ona görə, bu il də iqtisadi islahatlar davam etdiriləcək. Nəinki iqtisadi və bütün digər sahələrdə islahatlar aparılacaqdır ki, ölkəmiz daha da güclənsin, müasirləşsin və Azərbaycanda dayanıqlı uzunmüddətli inkişaf təmin edilsin. Bu məqsədlərə nail olmaq üçün bir çox məsələlər gündəlikdədir. Onlardan biri biznes mühitinin yaxşılaşdırılması məsələsidir. Bu istiqamətdə son illər ərzində yaxşı nəticələr var və Dünya Bankı tərəfindən təqdim olunan “Doing Business” hesabatında Azərbaycan ardıcıl şəkildə öz mövqelərini gücləndirir, daha da yüksək pilləyə qalxır. Ancaq biz yenə də bu istiqamətdə səylərimizi davam etdirməliyik, xüsusilə bizi geriyə çəkən məsələlərdə daha da ciddi addımlar atmalıyıq və bunu edirik. “Doing Business” reytinqi dərin təhlil əsasında hazırlanır və bizim bu istiqamətdə əldə etdiyimiz uğurlar və nöqsanlar ciddi təhlil edilir.

Ona görə, biznes mühitinin yaxşılaşdırılması istiqamətində bundan sonra da addımlar atılacaqdır. Son vaxtlar vergi sistemində aparılan ciddi islahatlar, sağlamlaşdırma prosesi, bildiyimə görə, artıq biznes dairələri tərəfindən də müsbət qarşılanır və bu istiqamətdə əlavə addımlar atılacaq. Mən əvvəlki çı-

xışlarda da dəfələrlə demişəm ki, biz dünyada mövcud olan ən müsbət, ən şəffaf praktikanı Azərbaycanda tətbiq etməliyik və bizim bütün maliyyə sistemimiz tam şəffaf mexanizm kimi işləməlidir.

Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətliliyi istiqamətində son illər atılan addımlar böyük təqdirə layiqdir. Mən dəfələrlə demişəm, bu gün də demək istəyirəm ki, Davos İqtisadi Forumunun hesablamalarında rəqabətqabiliyyətliliyə görə 35-ci yerə yüksəlməyimiz tarixi nailiyyətdir. Biz bu gün dünyanın 35 ən rəqabətqabiliyyətli ölkəsindən biriyik və haqlı olaraq bununla fəxr edirik. Ancaq onu da bilməliyik ki, Davos reytinqlərinə digər ölkələr də çox böyük diqqətlə yanaşırlar. Bildiyimə görə, bir çox ölkələr çalışırlar ki, öz vəziyyətlərini daha da yaxşılaşdırsınlar. Ona görə, bu gözəl rəqəm bizi ancaq növbəti addımların atılmasına sövq etməlidir.

Azərbaycan inkişafda olan ölkələr arasında inklüziv inkişaf baxımından üçüncü yerdədir. Hesab edirəm ki, bu, tarixi nailiyyətdir. Bir çox böyük iqtisadi imkanları olan ölkələrdən biz öndəyik, baxmayaraq ki, müstəqil ölkə kimi cəmi 26 ildir yaşayırıq. Ona görə, bu aparıcı beynəlxalq qurumlar tərəfindən tərtib edilmiş bu reytinqlər bizim uğurlu siyasətimizi əks etdirir. Ancaq biz, yenə də deyirəm, əldə edilmiş nəticələrlə kifayətlənə bilmərik. Biz daim və daim inkişaf etməliyik. Biz sahibkarlığın inkişafı üçün də əlavə addımlar atmalıyıq.

Bu kompleks tədbirlər apardığımız siyasətin nəticəsidir. Bu il sahibkarlara dövlət tərəfindən güzəştli şərtlərlə 170 milyon manat vəsait ayrılır. Bu vəsait vaxtilə verilmiş və qaytarılan kreditlər hesabına ayrılır. Yəni bu, bir daha bizim siyasətimizin uğurlu olduğunu göstərir ki, vaxtilə verilmiş 2 milyard manatdan çox kreditlər indi qayıdır və yeni kreditlərin verilməsinə xidmət göstərir.

Dövlətin dəstəyi ilə yaradılan müəssisələr həm iş yerlərinin açılmasına xidmət edir, həm yerli istehsalı gücləndirir. Bir daha demək istəyirəm ki, biz sahibkarlığın inkişafına kompleks şəkildə yanaşırıq. İnstitusional islahatlar aparılır və aparılacaq, sahibkarlara maliyyə resursları, metodik tövsiyələr verilir, dövlət tərəfindən kənd təsərrüfatı texnikası alınır, subsidiyalar verilir, meliorativ tədbirlərə böyük vəsait xərclənir ki, kənd təsərrüfatı üçün daha yaxşı imkanlar yaradılsın.

Yol infrastrukturu, digər infrastruktur, elektrik enerjisi, içməli su, qaz xətləri – görülən bütün bu işlər vətəndaşlara və eyni zamanda, sahibkarlara xidmət göstərir. Ona görə, növbəti illərdə qeyri-neft sektorunun inkişafı iqtisadi siyasət istiqamətində əsas prioritet olacaqdır və bu istiqamətdə qəbul edilmiş qərarlar öz gözəl nəticəsini verir. Mən onların arasında xüsusilə investisiya təşviqi mexanizmini qeyd etmək istərdim. Biz bu mexanizmin tətbiqinə bu yaxınlarda start vermişik və qısa müddət ərzində çox gözəl nəticələr əldə edilibdir. Təkcə bu ilin birinci rübündə 28 investisiya təşviqi sənədi və bu günə qədər cəmi 257 investisiya təşviqi sənədi verilmişdir, 229 sahibkar bu imkanlardan faydalanıb. Bu layihələrə qoyulacaq və artıq qoyulmaqda olan sərmayənin həcmi 2,3 milyard manatdır. Baxın, əgər biz investisiya təşviqi mexanizmini işə salmasaydıq, bu vəsait ölkə iqtisadiyyatına qoyulmayacaqdı. Bu vəsait qoyulur, bu, böyük vəsaitdir və ilkin hesablamalara görə, təkcə bu proqram çərçivəsində 17 min yeni daimi iş yeri yaradılacaqdır. Görün nə qədər əlavə məhsul istehsal ediləcək və bu məhsul rəqabətqabiliyyətli məhsul olacaqdır. Çünki bütün bu məsələlərə dövlət qurumları çox diqqətlə yanaşırlar. Əminəm ki, bu məhsulun böyük hissəsi ixracyönümlü məhsul olacaqdır. Ona görə, bax, bir istiqamətdə aparılan islahat görün nə qədər böyük xeyir verir. Ona görə, mən deyəndə ki, islahatlar dərinləşməlidir, bu, sadəcə olaraq, söz deyil, bunun arxasında çox ciddi proqramlar dayanır. İnvestisiya təşviqi, ixracın təşviqi mexanizmləri artıq işə düşüb və sahibkarlar bundan da faydalanırlar. Biz dünyada mövcud olan ən mütərəqqi praktikanı Azərbaycana gətirməliyik, sınaqdan keçirməliyik və tətbiq etməliyik.

Sevindirici hal ondan ibarətdir ki, Azərbaycanda sənaye istehsalı artır. Son bir-iki il ərzində neftin qiymətinin və hasilatın müəyyən dərəcədə düşməsi nəticəsində sənaye istehsalı Azərbaycanda azalırdı. Qeyri-neft sənayesi az da olsa artırdı, amma ümumiyyətlə, sənaye istehsalı azalırdı. Artıq bu ildən başlayaraq dönüş yarandı, sənaye istehsalı qeyd etdiyim kimi, 2 faiz artmışdır, qeyri-neft sənayesi isə 9,9 faiz, yəni, təxminən 10 faiz. Çox gözəl göstəricidir, bir daha demək istəyirəm ki, bizim siyasətimizi əks etdirir, görülən işlərin nəticəsidir. Sənayeləşmə siyasəti Azərbaycanda bundan sonra da davam etdiriləcək.

Hesab edirəm ki, sənaye zonalarının, sənaye parklarının yaradılması artıq gözəl nəticələr veribdir. Bizim bir neçə sənaye zonamız artıq fəaliyyətə başlayıb. Sumqayıt Kimya Sənaye Parkı, Neftçala, Mingəçevir sənaye zonaları artıq fəaliyyətdədir. Keçən ilin sonunda Sumqayıtda 4 müəssisə açılıb, 3 müəssisənin təməli qoyulub. Bu il bizim sənaye inkişafımızı böyük dərəcədə gücləndirəcək iki nəhəng zavod işə düşəcəkdir – "SOCAR Polymer" və azot gübrələri zavodları. Bu zavodların tikintisinə, ümumiyyətlə, 2 milyard dollara yaxın vəsait qoyulub. Hazırda Sumqayıt Kimya Sənaye Parkında 17 rezident var. Ümumiyyətlə, oraya qoyulacaq investisiyaların həcmi 2,8 milyard dollardır. Baxın, əgər biz vaxtilə Sumqayıt Kimya Sənaye Parkını yaratmasaydıq, bu vəsaitlər də qoyulmayacaqdı –

2,8 milyard dollar və investisiya təşviqi sənədində 2,3 milyard manat. Bax, bu vəsaitlər sahibkarların əlində qalacaqdı, yaxud da ki, indi bu vəsaitin əlbəttə, böyük hissəsi kredit resurslarıdır, o götürülməyəcəkdi, investisiya qoyulmayacaqdı və sənaye inkişafı da mümkün olmayacaqdı.

Biz indi bir çox bölgələrdə oxşar zonalar yaradırıq. Mən onların arasında Mingəçevir Yüngül Sənaye Parkını xüsusi qeyd etmək istəyirəm. Mingəçevir şəhəri böyüyür və əhali artır. Mingəçevirdə iş yerləri ilə bağlı problemlər mövcud idi, bu gün də bu problemlər var. Bu şəhərin ətrafında kənd təsərrüfatı sahələri yoxdur. Ona görə, Mingəçevir ancaq sənaye və turizm şəhəri kimi inkişaf etməlidir. Bu istiqamətdə çox önəmli addımlar atılıbdır – infrastrukturla, yollarla, içməli su ilə və digər məsələlərlə, o cümlədən yeni iş yerlərinin yaradılması ilə bağlı. Bu il Mingəçevir Yüngül Sənaye Parkında 2 böyük müəssisə, iplik fabrikləri açılıbdır. Bu iplik fabrikləri bu günə qədər Azərbaycanda yaradılmış iplik fabriklərinin yarısını təşkil edir. Burada iyirmi min ton iplik istehsal ediləcək, onun böyük hissəsi ixrac olunacaq. Ən azı 700-750 nəfər işlə təmin ediləcəkdir. Yəni, Mingəçevir Yüngül Sənaye Parkı artıq fəaliyyət göstərir və biz növbəti aylarda yeni müəssisələrin yaradılması ilə bağlı təkliflər gözləyirik.

Bu il sənayemizin inkişafının təzahürü olan Neftçala Sənaye Məhəlləsində biz bu yaxınlarda avtomobil zavodunun açılışını qeyd etmişik. Neftçala Sənaye Məhəlləsinin açılışı keçən il mənim iştirakımla qeyd edildi və bu il 10 min avtomobil istehsal edən zavodun açılışı olmuşdur. Bu zavodda 300-dən çox insan işlə təmin ediləcək, həm daxili bazar, həm də xarici bazar üçün rəqabətqabiliyyətli avtomobillər istehsal olunacaq. Əlbəttə ki, dövlət qurumları, – mən bunu əvvəlki çıxışlarda da demişəm, – yerli avtomobillərə üstünlük verməlidirlər. Dövlət qurumları bu məsələyə çox ciddi nəzarət etməlidirlər.

Bizim statistikamıza görə, bu ilin birinci rübündə idxal olunan avtomobillərin sayı kəskin artmışdır. Bu, əlbəttə, iqtisadi canlanmanın təzahürüdür, onu göstərir ki, vətəndaşlarda indi əlavə maliyyə imkanları yaranıbdır, kəskin artıbdır. Bu, özlüyündə müsbət göstəricidir, ancaq bu, o deməkdir ki, valyutamızın xaricə köçürülməsi də kəskin artıbdır. Ona görə, Azərbaycanda istehsal olunan avtomobillər ən azı dövlət qurumları tərəfindən alınmalıdır. Əminəm, vətəndaşlar da görəcəklər ki, bu avtomobillər yüksək standartlara cavab verir və qiymət də xaricdən gətirilən avtomobillərlə müqayisədə daha münasibdir.

Bu il, bu yaxınlarda Gəncə avtomobil zavodunda onmininci traktor istehsal edilibdir. Bu da bizim müştərək əməkdaşlığımızın təzahürüdür. Biz indi fermerləri "Gəncə-Belarus" traktoru ilə təmin edirik. Bu traktorlara çox böyük maraq var. Mən bölgələrdə, tarlalarda olarkən maraqlanıram və bütün fermerlər bu traktorları çox yüksək qiymətləndirirlər. Əgər vaxtilə bu zavod yaradılmasaydı, bu traktorları istehsal etməsəydi, həmin texnikanın hamısını biz xaricdən alası olacaqdıq və nə qədər pul xərcləyəcəkdik. İndi isə biz həm ixrac edirik, həm də üçüncü ölkələrdə "Gəncə-Belarus" traktorlarının istehsalına başlayırıq. Bax, bu nəticələr deməyə əsas verir ki, yaranmaqda olan Hacıqabul, Masallı və Sabirabad sənaye zonalarının fəaliyyəti də uğurlu olacaq.

Kənd təsərrüfatı ilə bağlı mən giriş sözümdə dedim, artım 4,2 faizdir, yaxşı göstəricidir, xüsusilə bitkiçilikdə. Bunun böyük hissəsi pambığın istehsalı ilə bağlıdır. Biz növbəti illərdə əlbəttə ki, ərzaq təhlükəsizliyi məsələlərinə daha böyük diqqət yetirməliyik, xüsusilə taxılçılığa və heyvandarlığa. Biz ənənəvi texniki məhsulların inkişafı ilə bağlı çox ciddi addımlar atmışıq və bir çox müşavirələr keçirilibdir. Taxılçılıq, heyvandarlıq ərzaq təhlükəsizliyini təmin edən əsas sahələrdir. Bilirəm ki, dövlətin dəstəyi ilə və özəl qurumların fəaliyyəti nəticəsində buğda əkini genişlənir, yeni əkin sahələri dövriyyəyə çıxarılır, suvarma işləri təmin edilir. Bu sahəyə çox ciddi diqqət göstərilməlidir ki, biz özümüzü əsas ərzaq məhsulları ilə tam təmin edə bilək. Biz indi ət, süd məhsulları ilə özümüzü təqribən 80-90 faiz səviyyəsində təmin edirik, amma buğda ilə təminat sahəsində bu rəqəm daha aşağıdır. Ona görə, növbəti illərdə bu sahəyə və eyni zamanda, quş ətinin istehsalına daha böyük diqqət yetirilməli və investisiyalar qoyulmalıdır.

Ümid edirəm və əminəm ki, yaradılmaqda olan 45 aqropark bizim ixrac potensialımızı böyük dərəcədə artıracaq. Bu aqroparkların 28-i bitkiçilik, 17-si isə heyvandarlıq kompleksidir. Bu, həm ərzaq təhlükəsizliyinin təmin edilməsinə xidmət göstərəcək, eyni zamanda, ixrac imkanlarımızı genişləndirəcək. Biz mütləq yeni ixrac bazarlarına üz tutmalıyıq. İndi bu istiqamətdə işlər gedir, müxtəlif ölkələrə ixrac missiyaları ezam edilir. Daha da fəal olmalıyıq və daha ciddi nəticələr olmalıdır ki, kontraktlar imzalansın və bizim məhsulumuz növbəti, yəni, yeni bazarlara çıxa bilsin. Təbii ki, ənənəvi bazarlarda yerimizin möhkəmləndirilməsi istiqamətində addımlar atılır. Hazırda Azərbaycanda 400 hektarda, ondan da çox sahədə yeni istixana kompleksləri yaradılır. Onların bir hissəsi artıq fəaliyyətə başlayıb. Bu istixanaların əsas bazarı xarici bazarlardır. Çünki biz özümüzü tərəvəzlə artıqlaması ilə təmin edirik.

Kənd təsərrüfatı texnikasının alınması prosesi bundan sonra da davam etdiriləcəkdir. Bu il bu

məqsədlər üçün 160 milyon manat nəzərdə tutulur, ən azı 5 min texnika gətirilməlidir. Keçən il 10 min texnika gətirilmişdir, amma bu proses davam etməlidir. Çünki bizim hələ köhnədən qalan texnikamız kifayət qədər çoxdur, sıradan çıxan var. Biz texnika parkımızı tam müasirləşdirməliyik. Biz dünyanın aparıcı istehsalçılarının texnikasını gətirməliyik. Əslində, bunu edirik.

İndi təhlil aparmaq üçün bizdə daha geniş imkanlar var. Çünki "Azexport" portalına daxil olan sifarişlər, əslində, marketinq üçün çox əhəmiyyətli bir vasitədir. Əvvəllər marketinqi xarici bazarlarda aparmaq üçün bizim belə imkanımız yox idi. Bu işlər daha çox kor-təbii görülürdü. Amma "Azexport" portalının əhəmiyyəti ondadır ki, həm yerli istehsalçılar öz məhsulları barədə məlumatları bu saytda yerləşdirirlər, həm də xaricdən sifarişlər gəlir. Təhlil apararkən görürük, bəzən elə sifarişlər gəlir ki, biz o sifarişləri tam yerinə yetirə bilmirik. Bu, dövlət qurumlarına və sahibkarlara yol göstərir ki, həmin sahələr inkişaf etməlidir. Əlbəttə, çox istərdim ki, kənd təsərrüfatı məhsullarının emalı sənayesi daha sürətlə inkişaf etsin. Mövcud inkişaf bizi qane edə bilməz. Düzdür, son vaxtlar bir çox konserv və şirə istehsalı zavodları işə düşüb. Əlbəttə, bu, bizim potensialımızı əks etdirmir. Ancaq 400 hektarda yaradılacaq istixanaların məhsulu, onun bir hissəsi, yaxşı olar ki, böyük hissəsi Azərbaycanda emal olunsun və ixrac edilsin. Bizim indi kənd təsərrüfatı məhsulları arasında ən çox gəlir gətirən pomidor ixracıdır. Ancaq əgər burada yeni emal müəssisələri yaranarsa, biz hazır məhsul ixrac edərik və hazır məhsula, deyə bilərəm ki, daha böyük tələbat və daha az rəqabət var. Ona görə hesab edirəm ki, biz kənd təsərrüfatı emalı sahəsində səylərimizi gücləndirməliyik. Biz son vaxtlar daha çox istehsala üstünlük verirdik və kreditlər verilirdi. Bu ildən başlayaraq, çox ciddi konkret plan tərtib edilməlidir – hansı bölgələrdə, hansı emal müəssisələri, konserv, şirə zavodları açılsın.

Biz ixracyönümlü kənd təsərrüfatı sahələri üzrə işlərimizi bundan sonra da davam etdirəcəyik. Mən bir müddət bundan əvvəl tapşırıq vermişdim ki, üzümçülüklə, şərabçılıqla bağlı olan məsələlər ciddi təhlil edilsin. Çünki mövcud vəziyyət bizi heç cür qane edə bilməz. İndi ilkin məlumat ondan ibarətdir ki, bizim kifayət qədər emal gücümüz, yəni, şərab zavodlarımız var, amma onların bir çoxu çox zəif işləyir. Yəni, istehsal gücünün 20-30 faizi səviyyəsində işləyir. Bilmirəm, vaxtilə sahibkarlar bu zavodları nəyə görə tikiblər, bəlkə pulları çox idi, bilmirdilər ki, pulları haraya yatırsınlar – tikiblər, amma səmərəsiz istifadə edirlər. Bu, heç bir məntiqə sığmayan məsələdir. Ona görə, bizim indi vəzifəmiz ondan ibarətdir ki, bu şərab zavodlarını sahibkarlar düzgün şəkildə idarə etsinlər. Üzüm istehsalı bizdə artır, yeni üzüm bağları salınır və mən bunu alqışlayıram. Şərabın ixracı da artır və burada da dövlət öz rolunu oynayır. İxrac missiyaları, sərgilərdə iştirakımız bunu mümkün edir. Ancaq üzümçülük, şərabçılıqla bağlı növbəti xüsusi addımlar atılmalıdır. Vaxtilə biz dövlət proqramı qəbul etmişik. Mən deyə bilmərəm ki, bu proqram lazımi səviyyədə icra edilir. Ona yenidən baxmaq, təhlil aparmaq lazımdır ki, bu proqramın nəticəsində nə əldə etmişik? Yenə də deyirəm, yeni üzüm bağları salınır, şərab istehsalı artır, xarici bazarlara çıxır, amma bu, bizim çox gözəl ixrac məhsulumuz olmalıdır.

Son illərdə pambıqçılıqla bağlı görülən işlər bu sahənin bərpasına, dirçəlməsinə gətirib çıxarmışdır. Bir neçə dəfə zona müşavirələri keçirilmişdir və burada əsas məsələ işsizliyin aradan qaldırılmasıdır. Pambıqçılıqda 200 minə yaxın insan, yəni, bu günə qədər işsiz olan insan işlə təmin edilib. Biz satınalma qiymətini artıraraq tarlalarda işləyənlərin rifah halını yaxşılaşdırırıq. Əlbəttə ki, əgər pambıqçılığa belə güclü təkan verilməsəydi, Mingəçevir Yüngül Sənaye Parkının yaradılmasına da ehtiyac qalmayacaqdı. Çünki indi xaricdən pambıq alıb burada emal etmək heç bir iqtisadi səmərəyə uyğun gəlmir. Ona görə, pambıqçılığın inkişafı, ilk növbədə, sosial məsələdir, sosial təşəbbüsdür və tədarükçü şirkətlər, fermerlər, yerli icra orqanlarının nümayəndələri bunu bilsinlər ki, pambıqçılıq həm də yerli istehsala təkan verir, ixracı artırır. Biz keçən il 207 min ton pambıq tədarük etmişik, 2015-ci ildə isə cəmi 35 min ton. Mən sonuncu müşavirədə də demişəm, pambıqçılıq bundan sonra da ancaq məhsuldarlığın artırılması hesabına inkişaf etməlidir.

Son vaxtlar bizim tövsiyəmizi nəzərə alaraq, sahibkarlar zeytunçuluğa böyük diqqət göstərirlər, yeni bağlar salınır və dövlət kömək göstərir, su xətləri çəkir. Bu da çox gözəl ixracyönümlü məhsulumuz olacaq. Dünya bazarlarında zeytun yağına çox böyük tələbat var. Dünyada cəmi bir neçə ölkə bu yağı istehsal edir. Azərbaycan da onların arasında yer tutmalıdır, həm daxili bazarı təmin etməlidir, həm ixrac etməlidir.

Meyvə bağları genişlənir. Çayçılıq, çəltikçilik, fındıqçılıq, baramaçılıq, sitrus meyvəçiliyi, tütünçülük və digər sahələri inkişaf etdirmək üçün bir neçə müşavirə keçirilmişdir. Mən bəzi rəqəmləri səsləndirmək istəyirəm vətəndaşlar bilsinlər ki, görülən işlər necə səmərə verir. Tütünçülük. 2015-ci ildə cəmi 1300 hektarda tütün əkilmişdisə, 2018-ci ildə bu, 3300 hektara çatacaq. Tütünü biz indi ixrac edirik. Bu, ixracyönümlü məhsuldur.

Fermerlər yaxşı pul qazanırlar. İndi dövlət qurutma kameraları alır. Azərbaycanda tikilməkdə olan siqaret fabriki də bu tütünü alacaq, siqaret hazırlayacaq və ixrac edəcək, idxaldan asılılığı azaldacaq. Barama istehsalı. 2015-ci ildə 240 kiloqram barama tədarük olunmuşdusa, 2017-ci ildə bu rəqəm 240 tona qalxdı. Bu il biz təqribən 450-500 ton barama gözləyirik. İlk növbədə, bu da mənim üçün sosial layihədir. Çünki kümçülər indi az müddətdə – 30-40 gün ərzində böyük vəsait qazanırlar və Şəki ipək kombinatında yüzlərlə insan işlə təmin edilir. Əgər bu il biz 450-500 ton barama tədarük etsək, əminəm, Şəki ipək kombinatı, ola bilər ki, ilboyu fasiləsiz işləsin və xammal da kifayət qədər olacaq. Yüzlərlə insan Şəkidə işlə təmin edilir və bir çox rayonlarda pul qazanır.

Bildiyiniz kimi, fındıqçılıq bizim üçün ənənəvi sahədir və pomidor ixracından sonra kənd təsərrüfatında ikinci valyuta gətirən sektordur. Biz burada da çox ciddi işlər apardıq. Bu işlərə 2015-ci ildən başladıq, 2016-cı ildə fındıq bağlarının sahəsi 40 min hektara çatdırıldı. Bu il isə fındıq bağlarının sahəsi 67 min hektara çatacaq. Yəni, görün, biz fındıq bağlarının sahəsini nə qədər artırmışıq. Bu, fermerlər üçün çox böyük gəlir mənbəyi olacaq, ölkəmizə də valyuta gətirəcək. Ancaq bu da son hədd deyil. Mənim vaxtilə müəyyən etdiyim rəqəmə əminəm ki, biz gələn il çatacağıq. Çünki bu il və gələn il 16 min hektarda yeni fındıq bağları salınacaq. Beləliklə, Azərbaycanda 80 min hektardan çox sahədə fındıq yetişdiriləcək və fındıq istehsalına görə biz dünyanın üçlüyünə daxil ola bilərik.

Bütün bu işlər verilən tapşırıqlar və onların icrası nəticəsində mümkün olmuşdur. Əgər biz oturub gözləsəydik ki, kimsə gəlib bunu bizim əvəzimizə edəcək, hansısa investor gəlib pul qoyacaq, bunların heç biri mümkün olmazdı. Eyni zamanda, onu da qeyd etmək istəyirəm ki, sahibkarlara həm dəstək vermək, həm də yol göstərmək lazımdır. Bir çox hallarda onlar passivlik göstərirlər, təşəbbüs göstərmirlər, hətta yetişdirdikləri məhsulu xaricə aparmağa belə tənbəllik edirlər. Gözləyirlər ki, kimsə gəlib onların qapısını döyəcək, onların məhsulunu alacaq. Onlar özləri getməlidirlər, bazarları axtarmalıdırlar, kontraktlar imzalamalıdırlar, təmaslar qurmalıdırlar. Biz hətta xarici ölkələrin televiziyalarında kənd təsərrüfatı məhsullarının reklamını da dövlət hesabına edirik. Onu da etmirlər. Yaxşı, indi bir az hərəkətə gəlsinlər. Dövlət bu qədər səy göstərir, dəstək verir, vəsait ayırır, siyasi dəstək göstərir. Ona görə biz əgər bu işlərə başlamasaydıq, indi heç biri olmayacaqdı, bax, 2,8 milyard dollar, 2,3 milyard manat qoyulmayacaqdı, kənd təsərrüfatı istehsalı bu qədər artmayacaqdı, bu qədər iş yerləri yaradılmayacaqdı, yalnız pambıqçılıqda 200 min insan işlə təmin olunmayacaqdı. Bizim qəbul etdiyimiz qərarların real nəticələri bunlardır.

Mən giriş sözümdə qeyd etdim ki, turizmin inkişafı Azərbaycanda sürətlə gedir. Biz bundan sonra bu sahəyə daha sistemli şəkildə baxmalıyıq və oturub gözləməməliyik ki, kimsə bizə qonaq gələcək. Biz özümüz turistləri cəlb etməliyik. Biz indi elə bir şərait yaratmışıq ki, Azərbaycanı dünyada çox yaxşı tanıyırlar, bizim çox gözəl beynəlxalq imicimiz var. İndi Azərbaycana gələnlərin sayı artır. Biz beynəlxalq tədbirlər keçiririk. Qeyd etdiyim kimi, təkcə Forumla 1 yarışlarının Bakı şəhərinin küçələrində keçirilməsi görün, turist axınına nə qədər təkan verdi. Təhlükəsizlik, sabitlik, qonaqpərvərlik, gözəl iqlim, tarixi abidələrimiz, infrastruktur, 6-sı beynəlxalq olmaqla 7 aeroport, gözəl avtomobil yollarımız və viza rejiminin sadələşdirilməsi – indi 90-dan çox ölkənin vətəndaşları vizanı aeroportlarda alırlar. İndi bu sahədə də təkmilləşmə işləri aparılacaqdır. Çünki əfsuslar olsun ki, bu sahədə çox böyük pozuntular olmuşdur. Biz vizaları ləğv etdik. Çünki aeroportlarda gələn turistlərə əziyyət verirdilər, əsassız pul tələb edirdilər. Bu biabırçılığı yığışdırmışıq. Bu biabırçılığı, bu pozuntuları, bu cinayəti törədənlər də cinayət məsuliyyətinə cəlb olunub. Hamı bilsin ki, bu cinayətlər cəzasız qalmayacaq. Ancaq biz elə bir sistem yaratmalıyıq ki, turistləri daha çox cəlb edək. İndi aeroportlarda yeni sistem yaradılır və gələn aydan başlayaraq tətbiq ediləcək. Bizim bütün sərhəd-keçid məntəqələrimizdə qonaqlar üçün maksimum rahat şərait yaradılmalıdır. Çünki bəzi hallarda gələnləri incidirlər, yolda saxlayırlar, onlardan əsassız rüşvət, pul tələb edirlər, dilənçilik edirlər, keçidlərdə duran o adamlar xalqımızı, dövlətimizi biabır edirlər. Mən aidiyyəti qurumlara çox ciddi xəbərdarlıq etdim, onları tənbeh etdim. Bu pozuntular yığışdırılmalıdır. Ölkəmizin imicinə xələl gətirən adamlar cəzalandırılacaqlar. Sərhəd-keçid məntəqələri elə olmalıdır ki, xaricdən gələn qonaq orada əziyyət çəkməsin.

O ki qaldı, təhlükəsizliklə bağlı məsələlərə, indi bizim kifayət qədər imkanımız, texniki imkanlarımız var ki, öz təhlükəsizliyimizi qoruyaq. Ancaq bu, səbəb, bəhanə olmamalıdır ki, sərhədlərdə növbələr yaradılsın və o növbələri keçmək üçün kimdənsə nə isə qopardılsın.

Bəzən hüquq mühafizə orqanlarının işçiləri otellərə gəlib əsassız müdaxilə edirlər, qonaqları incidirlər, guya ki, onlar burada hansısa normaları gözləyirlər. Onun arxasında yenə də təmənna, pul qoparmaq, cibini doldurmaq niyyəti var. Buna da son qoyulmalıdır. Mən bu barədə dəfələrlə demişəm və bir daha deyirəm, turizm potensialına malik

olan hər bir ölkə çalışır ki, turistləri cəlb etsin, onlar üçün şərait yaratsın. Biz son vaxtlara qədər oturub gözləyirdik ki, kimsə gəlib qapımızı döysün. Vətəndaş vizanı almaq üçün bizim səfirliklərə gedirdi, orada da onları incidirdilər, onların qarşısına müxtəlif əsassız tələblər qoyurdular. Bu vizaları ləğv etdik. Ləğv edəndən sonra indi 90-dan çox ölkənin vətəndaşları gəlib vizanı aeroportda alırlar. Xarici həmkarlarımdan biri mənə deyir ki, Siz ləğv etmisiniz, amma indi bizim ölkəmizdən gələn vətəndaşdan fotoşəkil tələb olunur. Mən dəhşətə gəldim. Nə fotoşəkil?! Xaricə gedən bir adam özü ilə fotoşəkilmi aparır?! Nədir-nədir fotoşəklin yoxdur, gəl pulunu ver, keç. Bu dərəcədə biabırçılıq olmaz axı! Biz onları cəzalandırdıq, fotoşəkil məsələsi ortadan qalxdı. Ondan sonra yenə də eşidirəm ki, aeroportlarda xaricdən gələn qonaqlardan növbədənkənar keçmək üçün pul tələb olunur. Bu dərəcədə alçaqlıq, necə deyim, söz tapa bilmirəm, belə biabırçılıq olmaz. Çox ciddi tədbirlər görülüb və bir daha demək istəyirəm ki, əgər bu sahədə və hər hansı bir başqa sahədə bu pozuntular olarsa və ümumiyyətlə rüşvətxorluqla bağlı əgər bundan sonra bu özbaşınalıq davam edərsə, çox ciddi tədbirlər görüləcək, heç bir keçmiş xidmət nəzərə alınmadan bütün məsul şəxslər cəzalandırılacaqlar.

Turizmlə bağlı bizim əlavə addımlarımız dəmir yolu ilə bağlıdır. Mən bu layihəni artıq bəyan etmişəm. Biz bu il Qəbələ şəhərinə dəmir yolu çəkməyə başlayırıq. Bu, o bölgəyə turist axınını təmin edəcək. Bu il Qusar rayonuna dəmir yolunun çəkilməsi ilə bağlı tədqiqatlar, sənədləşmə işləri, texniki-iqtisadi əsaslandırma aparılır. Yəqin ki, gələn ildən başlayaraq biz bu dəmir yollarını əsas turizm yerlərinə çəkəcəyik.

Bu il 3 "ASAN xidmət" mərkəzi açılır. Onlardan biri fevral ayında Mingəçevir şəhərində istifadəyə verilib. Digər iki mərkəz isə Şəki və İmişli şəhərlərində açılacaq. Daha 5 mərkəzin tikintisi ilə bağlı göstəriş verilmişdir. Onlar gələn il açılmalıdır. Beləliklə, gələn ilin sonuna qədər bizdə 20 "ASAN xidmət" mərkəzi olacaqdır.

Ailə Biznesinə Asan Dəstək (ABAD) mərkəzləri yaradılır. Bunun da həm sahibkarlığın, həm də biznesin inkişafı üçün böyük əhəmiyyəti var. ABAD mərkəzlərində rəqabətqabiliyyətli məhsullar yaradılır. Mən dövlət şirkətlərinə göstəriş vermişdim və özəl şirkətlərə tövsiyə etmişdim ki, bu sahəyə diqqət göstərsinlər. Bu proses artıq başlamışdır.

Bu il 5-6 min insan özünüməşğulluq proqramı ilə əhatə ediləcək. Bu, işsizliyin aradan qaldırılması və yoxsulluğun azaldılması istiqamətində önəmli addım olacaqdır. Kifayət qədər vəsait var. Sadəcə olaraq bu işlər düzgün təşkil edilməlidir ki, ehtiyacı olan insanlara pul qazanmaq üçün vasitələr verilsin.

Bu il infrastruktur layihələri ilə bağlı bizim planlarımız çox böyükdür. İlin sonuna qədər ölkəmizdə qazlaşdırma 95 faizə çatmalıdır. "Şimal-2" elektrik stansiyasının tikintisi başa çatmalıdır. Bu, bizə təxminən 400 meqavata yaxın əlavə elektrik enerjisi verəcək. Biz indi elektrik enerjisini qonşu ölkələrə ixrac edirik. Bizdə çox gözəl ixrac potensialı yaradılıbdır. Ölkə daxilində bütün tələbat tam təmin edilir. Ancaq baxmalıyıq ki, bundan sonra bizə ümumiyyətlə nə qədər generasiya gücləri lazımdır. Ölkəmizin inkişafını, əhalinin artımını, sənayeləşmə prosesini nəzərə almalıyıq. Yəni, böyük inkişafı nəzərə alaraq baxmalıyıq ki, beş ildən, on ildən sonra bizə daxili istehlak üçün nə qədər elektrik enerjisi lazım olacaq. Bununla paralel olaraq, biz xarici bazarları təhlil etməliyik ki, beş ildən, on ildən sonra xarici bazarlara nə qədər enerji ixrac edəcəyik. Buna görə də addımlarımızı atmalıyıq ki, yeni stansiyalar tikilməlidir, yoxsa biz mövcud olan stansiyalarla kifayətlənməliyik? Biz mütləq alternativ enerji mənbələri yaratmalıyıq – külək, günəş, su elektrik stansiyaları tikməliyik. Yəni, bu sahədə çox ciddi təhlil aparılmalıdır və mənə təqdim edilməlidir.

İçməli su ilə bağlı layihələr uğurla gedir. Demək olar ki, bütün şəhərlərdə bu işlər ya icra edilib, ya da ki, icradadır. Hesab edirəm ki, bu da tarixi nailiyyətdir. Çünki indi Bakı şəhərinin 80 faizdən çoxu 24 saat içməli su ilə təmin edilir. Əlbəttə ki, bu rəqəm 100 faiz olmalıdır. Əminəm ki, biz buna da çatacağıq. Bütün bölgələrdə, bütün şəhərlərdə bu layihələr icra edilir, kəndlərin böyük hissəsində də daim diqqət mərkəzində olmalıdır.

Bu il meliorativ tədbirlər nəzərdə tutulur. Üç yüzdən çox subartezian quyusu qazılmalıdır. Bu il ən azı 100 min hektar suvarılmayan torpaqlara suyun verilməsi təmin edilməlidir.

Bu il 2 min kilometr uzunluğunda yeni yollar salınacaq, həm magistral, həm şəhərlərarası, həm də kənd yolları. Onlardan biri Sumqayıt-Rusiya sərhədi yoludur. Yeni yoldur, mövcud yola paralel olacaq və bölgənin inkişafı üçün şərait yaradacaq. O bölgənin turizm potensialı çox gözəldir. Orada sahilboyu turizm obyektləri yaradıla bilər. Altı yüzdən çox kənd yolu salınacaq. Beləliklə, 2004-cü ildən başlayaraq bu ilin sonuna qədər salınacaq yolların ümumi uzunluğu 15 min kilometrə çatacaq.

Bakı şəhərinin nəqliyyat problemləri kompleks şəkildə həllini tapmalıdır. Burada koordinasiya işləri aparılmalıdır. İndi Bakıda yeni yollar salınır, tunellər tikilir. Bununla şəhər nəqliyyatı daha da rahatlaşacaq.

Olimpiya Stadionu ilə üzbəüz yeni tunel tikilir. Bu da tıxacların aradan qaldırılması üçün çox önəmlidir. Böyükşor gölü üzərindən yeni genişzolaqlı yol tikilir. Bu da şəhər nəqliyyatı üçün çox önəmli layihədir. Biz Böyükşor gölünün bir hissəsini təmizlədik. İndi qalan hissənin təmizlənməsi nəzərdə tutulur. Bakıda dairəvi dəmir yolu tikiləcək. Bu məqsədlər üçün bu ilin investisiya proqramında 100 milyon manat vəsait nəzərdə tutulmuşdur. Bu, şəhər üçün çox rahat nəqliyyat vasitəsi, Bakıətrafı qəsəbələrin inkişafı və orada yaşayan insanların rahatlığı üçün çox önəmli layihə olacaq. Metro tikintisi müəyyən fasilədən sonra indi bərpa edildi.

Yəni, biz bütün bu məsələlərə kompleks şəkildə baxmalıyıq. Avtobusların alınması nəzərdə tutulur, dayanacaqlar, işıqforlar, metro, şəhərətrafı dəmir yolu, taksi dayanacaqları. Yəni, Bakı şəhərinin nəqliyyat sahəsində vahid idarəetmə olmalıdır ki, paytaxt nəqliyyatı dünyanın aparıcı şəhərlərinin səviyyəsində olsun. Biz indi metro vaqonları, avtobuslar, taksilər alırıq. Ancaq koordinasiya zəifdir. Ona görə bu məsələyə mütləq çox ciddi diqqət göstərilməlidir.

Nəqliyyat sektoru ilə bağlı qeyd etməliyəm ki, bu il biz Ələt Beynəlxalq Dəniz Ticarət Limanının birinci mərhələsinin açılışını qeyd edəcəyik. İndi Ələt limanı fəaliyyət göstərir. Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsi məhz Ələt limanında olmuşdur. Ancaq yaxın gələcəkdə birinci faza tam başa çatacaq. Xəzər dənizinin 15 milyon ton yükaşırma qabiliyyəti olan ən böyük ticarət limanı Azərbaycanda – Ələtdə tikilir.

Giriş sözümdə qeyd etdiyim kimi, biz Azərbaycanı nəqliyyat qovşağına çeviririk. Açıq dənizlərə çıxışı olmayan ölkə Avrasiyanın nəqliyyat mərkəzlərinin birinə çevrilir. Bakı-Tbilisi-Qars artıq reallıqdır. Əminəm ki, hər il bu yolla daşınan yüklərin həcmi kəskin artacaq. Şimal-Cənub nəqliyyat dəhlizini də biz qonşu ölkələrlə birlikdə reallığa çeviririk. Qeyd etməliyəm ki, bütün nəqliyyat layihələrimizin uğurlu həyata keçirilməsinin səbəbi həm bizim iradəmiz, təşəbbüsümüzdür, eyni zamanda, qonşu ölkələrlə sıx münasibətlərimizdir. Çünki tranzit ölkə, əgər hansısa ölkə tranzit ölkə olmaq istəyirsə, o, mütləq qonşularla sıx əlaqədə olmalıdır. Qonşularsız heç bir ölkə tranzit ölkəyə çevrilə bilməz.

Biz indi Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması ilə ciddi məşğuluq. Onun çatışmayan hissəsi, o cümlədən Azərbaycan tərəfinin iştirakı ilə reallaşacaq. Şərq-Qərb nəqliyyat dəhlizi artıq reallıqdır. Biz indi mövcud olan dəmir yolu infrastrukturumuzu modernləşdirməliyik ki, sürət daha da artsın. Çünki Azərbaycan ərazisindən çox böyük yüklər daşınacaq.

Sosial infrastrukturla bağlı bu il bir neçə şəhərdə, – daha dəqiq desəm, – Qazax, Qobustan, Şəmkir, Quba, Naftalan, Goranboy şəhərlərində yeni mərkəzi rayon xəstəxanalarının açılışı nəzərdə tutulur. Füzuli və Qəbələ şəhərlərində xəstəxanaların tikintisi davam etdiriləcək. Onların açılışı gələn il nəzərdə tutulur.

Bu il bölgələrdə 137 modul tipli məktəb tikiləcək. Bu məktəblərin tikintisi demək olar ki, bölgələrdə qəzalı vəziyyətdə olan məktəblərin problemini həll etmiş olacaq. Bakı şəhərində isə yay aylarında ondan çox məktəb əsaslı təmir ediləcək.

Bu il beş milyondan çox insan yenə də tibbi müayinədən keçir. Bu da Azərbaycan reallığıdır. Azərbaycan dövləti bu xidməti vətəndaşlara təmin edir. Əlbəttə ki, bizim bütün bölgələrdə mövcud olan müasir tibb ocaqları belə imkanları yaradır. Bu, yenə də bizim sosial siyasətimizin göstəricisidir. Hazırda Azərbaycanda dörd Olimpiya İdman Mərkəzi tikilir. Onlardan ikisi bu il istifadəyə verilməlidir.

Məcburi köçkünlər üçün bu il yeni evlər istifadəyə veriləcəkdir. Bu il ən azı 4 min ailə – 20 min köçkün yeni evlərlə, mənzillərlə təmin ediləcək. Keçən il 2300 ailə – yəni, 12 min köçkün evlərlə təmin edilib. Beləliklə, ilin sonuna qədər evlərlə, mənzillərlə təmin edilmiş köçkünlərin sayı təxminən 285-290 minə çatacaq.

Qeyd etdiyim kimi, Cənub Qaz Dəhlizi uğurla icra edilir. Mən bəzi rəqəmləri səsləndirmək istəyirəm. "Şahdəniz-2" layihəsinin icrası 99 faizdir. Cənubi Qafqaz Kəməri 96 faiz, TANAP 92 faiz. Yəni, bu layihələrdə Azərbaycan aparıcı rol oynayır. Biz, eyni zamanda, TAP layihəsinin səhmdarıyıq. Orada isə Azərbaycanın icra səviyyəsi 68 faizdir. Yəni, Cənub Qaz Dəhlizi artıq reallıqdır. Bu reallığı biz yaratmışıq və bu, ölkəmizin uzunmüddətli inkişafı üçün xüsusi əhəmiyyətə malik olan layihədir.

Gələn ay biz Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini qeyd edəcəyik. Mən bu ili "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan etmişəm. İlin əvvəlindən biz bu gözəl tarixi qeyd edirik. Bu tarixə nəzər salarkən görürük ki, Azərbaycan tarixdə heç vaxt indiki qədər güclü, indiki qədər qüdrətli dövlət olmamışdır. Bunu biz yaratmışıq. Azərbaycan xalqının iradəsi, Azərbaycan dövlətinin siyasəti bu gün ölkəmizin inkişafı üçün əsas amildir.

Mən şübhə etmirəm ki, Azərbaycan bundan sonrakı dövrdə də uğurla inkişaf edəcək. Bizim bütün planlarımız həyata keçirilir. Verdiyimiz bütün vədlər yerinə yetirilir. Son 15 il ərzində bir dənə də yerinə yetirilməyən vəd olmamışdır. Bu gün Azərbaycanın reallıqları onu göstərir ki, biz düzgün yoldayıq. Bu yolla uğurla gedəcəyik. Sağ olun.

# Prezident İlham Əliyev 6 saylı seçki məntəqəsində səs verib

## Azərbaycan növbəti 7 illik inkişaf mərhələsinə başlayır



Aprelin 11-i Müstəqil Azərbaycanın tarixində növbəti prezident seçkiləri günüdür.

Səsvermə prosesinin başladığı ilk dəqiqələrdən Bakı şəhərinin 29 saylı Səbail seçki dairəsinin 6 nömrəli orta məktəbdə yerləşən 6 saylı seçki məntəqəsində xüsusi canlanma müşahidə olunurdu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xanımı Mehriban Əliyeva və ailə üzvləri ilə birlikdə seçki məntəqəsinə gəldi.

Prezident İlham Əliyev səsvermə otağına daxil olub seçki bülletenini alaraq kabinəyə keçdi və sonra bülleteni qutuya saldı.

Bu anı respublikamızın və xarici ölkələrin





mətbuat orqanlarının, televiziya kanallarının nümayəndələri izlədilər.

Sonra birinci xanım Mehriban Əliyeva və ailə üzvləri səs verdilər.

***

Bakı şəhərinin 29 saylı Səbail seçki dairəsinin 6 saylı seçki məntəqəsində 582 seçici qeydiyyata alınıb.

Məntəqədə səsvermənin gedişini xarici müşahidəçilər, habelə qeyri-hökumət təşkilatlarının, müxtəlif siyasi partiyaların və prezidentliyə namizədlərin nümayəndələri izləyirdilər.

Beynəlxalq müşahidəçi, Moldova parlamentinin vitse-spikeri Vladimir Vityuk bildirib ki, seçicilər öz iradələrini sərbəst surətdə ifadə edə bilirlər. Biz Azərbaycan vətəndaşlarının respublikanın taleyinə olan marağının və səsvermə prosesində fəal iştirakının şahidiyik. Səsvermənin gedişi göstərir ki, prezident seçkiləri mütəşəkkil, demokratik və şəffaf şəkildə başa çatacaqdır.

Böyük Britaniya parlamentinin üzvü Lord Devid Çarlz Evans prezident seçkilərinin yüksək səviyyədə təşkil olunduğunu vurğulayaraq deyib: "Seçicilərin fəallığı çox yüksəkdir. Biz bir neçə seçki məntəqəsində olmuşuq. Proses qanunvericiliyə uyğun, demokratik şəraitdə davam edir. Bunlar deməyə əsas verir ki, Azərbaycanda prezident seçkiləri mükəmməl təşkil olunub".

Qeyd edək ki, Azərbaycanın hər yerində olduğu kimi, 29 saylı Səbail seçki dairəsinin 6 saylı seçki məntəqəsində də seçicilər xalqımızın xoşbəxt gələcəyinə, dövlətçiliyimizin daha da möhkəmləndirilməsinə, iqtisadi dirçəlişə, dinamik inkişafa, sabitliyə və əmin-amanlığa səs verirlər.





# Prezident seçkilərinin ilkin nəticələri açıqlanıb

## İlham Əliyevin böyük qələbəsi




Aprelin 11-də Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov prezident seçkilərinin ilkin nəticələri ilə bağlı mətbuat konfransı keçirib.

Məzahir Pənahov 125 seçki dairəsi üzrə 5 min 641 məntəqənin hamısından məlumatların MSK-nın İnformasiya Mərkəzinə daxil olduğunu söyləyib. O, seçicilərin səsvermədə iştirak fəallığının 74,30 faiz olduğunu deyib.

MSK sədri qeyd edib ki, seçki qutularından çıxarılmış seçki bülletenlərinin sayı 3 milyon 962 min 96, etibarsız hesab edilmiş səslərin sayı 12 min 490 (0,32 faiz), etibarlı hesab edilmiş səslərin sayı isə 3 milyon 949 min 606-dır (99,68 faiz). Etibarlı hesab edilən səslər prezidentliyə namizədlər arasında aşağıdakı kimi bölünüb:

| | |
|---|---|
| Əliyev İlham Heydər oğlu | – 3 milyon 397 min 664 səs (86,02 faiz); |
| Əlizadə Araz Məmməd-Mübariz oğlu | – 54 min 603 səs (1,38 faiz); |
| Hacıyev Hafiz Ələmdar oğlu | – 59 min 977 səs (1,52 faiz); |
| Həsənquliyev Qüdrət Müzəffər oğlu | – 119 min 390 səs (3,02 faiz); |
| Quliyev Fərəc İbrahim oğlu | – 46 min 10 səs (1,17 faiz); |
| Məmmədov Sərdar Cəlal oğlu | – 119 min 674 səs (3,03 faiz); |
| Nurullayev Razi Qulaməli oğlu | – 29 min 282 səs (0,74 faiz); |
| Oruc Zahid Məhərrəm oğlu | – 123 min 6 səs (3,12 faiz). |

Bu, ilkin nəticələrdir. Bu gündən artıq MSK-ya dairə seçki komissiyalarının rəsmi protokolları daxil olmağa başlayıb. Bu protokollar qəbul ediləcək, sənədlər araşdırılacaq, qanunvericiliyin tələbinə uyğun olaraq səsvermənin yekun protokolu hazırlanacaq, qərar qəbul ediləcək və bütün sənədlər Konstitusiya Məhkəməsinə göndəriləcək.

Məzahir Pənahov qeyd edib ki, səsvermə qanunauyğun keçirildi. Seçkiləri izləyən çoxlu sayda beynəlxalq və yerli müşahidəçi bütün bölgələrdə məntəqələrdə müşahidələr aparıb və nəticələri kütləvi informasiya vasitələrinə açıqlayıb. Bütün müşahidəçilərin seçki prosesi ilə bağlı fikirləri müsbətdir. Hətta kifayət qədər nüfuzlu beynəlxalq qurumlar seçkilərə hazırlığı və prosesin özünü nümunəvi təşkil olunmuş proses kimi qiymətləndiriblər. Müşahidəçilər, yerli və beynəlxalq KİV-lər hansısa pozuntu faktları ilə rastlaşmadıqlarını bildiriblər. Bu seçkilər Azərbaycanın həyatında tarixi bir hadisəyə çevrildi. Bu günlərdə artıq rəsmi protokolların qəbul olunması prosesi başa çatdırılacaq və Mərkəzi Seçki Komissiyası rəsmi nəticələri ictimaiyyətə açıqlayacaq.

# Prezident İlham Əliyev Prezident seçkiləri ilə bağlı Azərbaycan xalqına müraciət edib

## Prezident İlham Əliyevin müraciəti

– Əziz həmvətənlər.

Prezident seçkilərində Azərbaycan xalqı yenidən mənə böyük etimad göstərmişdir. Bu etimada, bu böyük dəstəyə görə doğma xalqıma minnətdarlığımı bildirmək istəyirəm.



Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss edirəm. Bu dəstək mənə güc verir. Bu dəstək bizim inkişafımız üçün əsas şərtdir. Xalq-iqtidar birliyi Azərbaycanda inkişafımızın əsas amilidir. Bu seçkilərdə Azərbaycan xalqı sabitliyə, təhlükəsizliyə, inkişafa, tərəqqiyə səs vermiş, son 15 il ərzində görülən işlərə yüksək qiymət vermişdir. Bütün bu uğurları biz sizinlə birlikdə qazandıq.

Xalq-iqtidar birliyi, bizim məqsədyönlü siyasətimiz bu gün Azərbaycanı qüdrətli dövlətə çevirmişdir. Azərbaycanın beynəlxalq nüfuzu artır, biz dünya miqyasında layiqli yer tuta bilmişik. Bu gün Azərbaycan dünyada çox böyük hörmətə, rəğbətə, dəstəyə malik olan bir ölkədir. Biz etibarlı tərəfdaşıq, bizimlə hesablaşırlar və biz beynəlxalq aləmdə öz mövqelərimizi böyük dərəcədə gücləndirə bilmişik.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı prinsipial mövqeyimizdən bir addım da geriyə atmamışıq. Bizim prinsipial mövqeyimiz daha da güclənir. Bu münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır, bunun başqa yolu yoxdur. Son illər ərzində bir çox mötəbər beynəlxalq təşkilatlar bizim mövqeyimizi, ədaləti dəstəkləyən bir sıra qərar və qətnamələr qəbul etmişlər. Biz böyük diplomatik qələbələrə nail olmuşuq. Eyni zamanda, döyüş meydanında biz böyük qələbəyə nail olmuşuq. Azərbaycan əsgəri, Azərbaycan Ordusu, Azərbaycan dövləti işğal altında olan torpaqlarımızın bir hissəsini işğalçılardan azad etmişdir. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi işğalçılardan təmizləndi və o torpaqlarda bu gün Azərbaycan bayrağı dalğalanır. İşğaldan azad edilmiş torpaqlara həyat qayıdır, insanlar qayıdır. O torpaqlarda prezident seçkiləri keçirilir. Gün gələcək və bu gün hələ də işğal altında olan bütün torpaqlarda Azərbaycan bayrağı qaldırılacaq, bu torpaqlarda prezident seçkiləri keçiriləcək, Azərbaycan Prezidenti seçiləcəkdir.

Biz daha güclü olmalıyıq. Güclü olmaq üçün daha güclü iqtisadiyyat qurmalıyıq. Son 15 il ərzində iqtisadi sahədə Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır. İqtisadiyyatımız 3,2 dəfə artmışdır və bu gün Azərbaycan dünyanın ən rəqabətqabiliyyətli ölkələri sırasındadır. Rəqabət qabiliyyətliliyinə görə biz 35-ci yerdəyik.

Siyasətimizin mərkəzində həmişə Azərbaycan vətəndaşı, onun problemləri, qayğıları, onun rifahı olubdur. Son 15 il ərzində maaşlar və pensiyalar 8 dəfə artmışdır. Bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Azərbaycan bu illər ərzində kosmik dövlətə çevrilibdir. Biz ən qabaqcıl texnologiyaları ölkəmizə gətiririk, tətbiq edirik və texnoloji, elmi inkişaf gələcək fəaliyyətimiz üçün də əsas prioritetlərdən biri olacaqdır.

Bir sözlə, bütün istiqamətlər üzrə nəticələr göz qabağındadır. Azərbaycan nəhəng enerji və nəqliyyat layihələrini icra edir. Bizim təşəbbüsümüz və fəal iştirakımızla o layihələr əsasında Avrasiyanın enerji və nəqliyyat xəritələri yenidən tərtib olunur. Azərbaycan dövləti heç vaxt bugünkü qədər güclü olmamışdır. Biz güclü dövlət qurmuşuq, daha da güclü Azərbaycan qurmalıyıq və əminəm ki, quracağıq.

Keçdiyimiz yol şərəfli yoldur, qələbələr, uğurlar yoludur. Əminəm ki, biz həmişə qələbələr yolu ilə gedəcəyik. Yeni qələbələrə doğru irəli!

# Prezident seçkilərində İlham Əliyevin inamlı qələbə qazanması münasibətilə Bakıda konsert proqramı təşkil olunub

## Möhtəşəm zəfərin böyük təntənəsi



Aprelin 11-də Azərbaycanda keçirilən prezident seçkilərində İlham Əliyevin inamlı qələbə qazanması münasibətilə Heydər Əliyev Mərkəzinin qarşısındakı parkda möhtəşəm konsert proqramı təşkil olunub.

Tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri iştirak ediblər.

Tanınmış televiziya aparıcısı, Əməkdar Artist Murad Dadaşov dedi:

–Əziz dostlar, dünən Azərbaycan xalqı, dünya azərbaycanlıları öz tarixi seçiminə imza atdılar. Azərbaycan xalqı bu uğur yoluna bir daha "davam" dedi, "İlham Əliyevlə davam" dedi.

Əziz həmvətənlər, əziz dostlar, siz Azərbaycan Prezidentinə öz sevginizi göstərdiniz və bu gün cənab Prezident sizə öz ürək sözlərini söyləmək üçün buraya, bu səhnəyə şəxsən özü təşrif buyurdu. Buyurun, qarşılayın, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev.







Tədbirdə çıxış edən Prezident İlham Əliyev dedi:

–Əziz dostlar, mən sizin hamınızı ürəkdən salamlayıram. Sizə və bütün Azərbaycan xalqına mənə yenidən göstərilən böyük dəstəyə görə təşəkkürümü bildirirəm.

Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss etmişəm, bu dəstəyə arxalanmışam. Mənim fəaliyyətimdə Azərbaycan xalqının dəstəyi əsas rol oynayır. Həmişə çalışmışam ki, xalqa sədaqətlə, ləyaqətlə xidmət edim.

Azərbaycan xalqı dünən öz seçimini etdi. Azərbaycan xalqı dünən bir daha bizim siyasətimizə öz səsini verdi. Bir daha sabitliyə, inkişafa, tərəqqiyə, müstəqil siyasətimizə səs verdi. Sözün əsl mənasında, müstəqil siyasət aparan Azərbaycan bu gün ən yüksək zirvələrə çatıbdır. Bizim beynəlxalq nüfuzumuz gündən-günə artır. Azərbaycan dünya miqyasında çox böyük hörmətə layiq bir ölkədir. Daxili vəziyyətimiz sabitdir. Azərbaycan xalqı sülh, əmin-amanlıq şəraitində yaşayır. Bütün azadlıqlar təmin olunur.

Dünən keçirilmiş prezident seçkiləri bir daha onu göstərir ki, Azərbaycanda bütün azadlıqlar təmin olunur, Azərbaycan demokratiya yolu ilə uğurla gedir. Açıq, şəffaf, ədalətli şəkildə keçirilmiş seçkilər Azərbaycan xalqının iradəsini əks etdirmişdir. Seçkilərdə mənə göstərilən dəstək məni daha da ruhlandırır, daha böyük güc verir. Seçkilərdə xalqımız həm görülən işlərə, real nəticələrə, eyni zamanda, bizim gələcəyimizə, xoşbəxt gələcəyimizə səs vermişdir. Əminəm ki, bundan sonra da ölkəmiz uğurla inkişaf edəcək. Bundan sonra da Azərbaycan xalqı sabitlik, təhlükəsizlik şəraitində yaşayacaq.

Bu gün Azərbaycan dünya miqyasında sabitlik adası kimi tanınır. Azərbaycan dünya miqyasında nümunəvi ölkə kimi tanınır. Son 15 il ərzində iqtisadi inkişaf baxımından Azərbaycan qədər nəticə göstərən ölkə olmamışdır.

Azərbaycan xalqı öz seçimini etdi. Biz hamımız çalışmalıyıq ki, bundan sonra da ölkəmizi gücləndirək. Bu gün də Azərbaycan güclü dövlətdir. Daha güclü dövlət qurmalıyıq. Daha güclü Azərbaycan qurmalıyıq. Yolumuz müstəqillik yoludur. Heç bir kənar qüvvə bizi bu yoldan döndərə bilməz. Bu yol Azərbaycan xalqının şüurlu seçimidir. Biz müstəqil ölkəyik. Biz böyük xalqıq. Ancaq böyük xalq bu qədər nəticələr əldə edə bilər. Ancaq müstəqillik şəraitində Azərbaycan bu qədər uğurlar əldə edə bilər. Bizim taleyimiz öz əlimizdədir. Mən Azərbaycan gənclərinə




üz tutub deyirəm, – görürəm ki, burada toplaşanların əksəriyyəti gənclərdir, – ölkəmizin gələcəyi sizin əlinizdə olacaq. Biz gənclərimizlə fəxr edirik. Bu gün yetişən gənc nəsil Azərbaycanı gələcəkdə idarə edəcək, müstəqillik yolu ilə xoşbəxt gələcəyə aparacaq.

Biz müstəqil ölkəyik, güclü ölkəyik. Biz tutduğumuz yolla gedirik. Əminəm ki, bu yol Azərbaycanı daha xoşbəxt gələcəyə çatdıracaq. Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!

***

Murad Dadaşov dedi:

– Eşq olsun Azərbaycan Prezidentinə! Əziz cənab Prezident, Sizə səs verənlərin bir hissəsi buradadır. Ancaq bütün Azərbaycan İlham Əliyevlə birlikdədir. Ürəkdən təbrik edirik. Təşəkkür edirik, cənab Prezident, minnətdarıq.

Əziz dostlar, Prezident İlham Əliyevi bir daha alqışlayaq. Azərbaycan hər zaman daha da böyük zirvələrə, daha da böyük qələbələrə öz əziz Prezidenti ilə bərabər gedəcək. Yaşasın Azərbaycan! Yaşasın Prezident!

***

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva səhnəyə qalxaraq incəsənət ustaları ilə görüşdülər, xatirə şəkilləri çəkdirdilər.

Dövlətimizin başçısının əldə etdiyi ən böyük nailiyyət onun xalqın sonsuz məhəbbətini qazanmasıdır. Prezident İlham Əliyev bütün təmaslarında, ilk növbədə, öz səmimiyyəti ilə insanları cəlb edə bilib, güclü iradəsi, liderlik keyfiyyətləri ilə milyonları ətrafında toplayıb, müstəqil və qüdrətli Azərbaycan uğrunda çalışıb. Prezident İlham Əliyevin həyata keçirdiyi inkişaf konsepsiyası bütün azərbaycanlıların həyatına birdəfəlik daxil olub. Çünki onun müəyyənləşdirdiyi dövlət siyasətinin mərkəzində ancaq bir qüvvə – Azərbaycan vətəndaşı dayanır.

Tədbir atəşfəşanlıqla başa çatdı.

# 2018-ci il aprelin 11-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidentinin seçkilərinə yekun vurulması və Mərkəzi Seçki Komissiyasının seçkilərin nəticələrinə dair protokolunun müvafiq sənədlərlə birlikdə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə təqdim edilməsi haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının QƏRARI

## № 16/90

**(16 Aprel 2018)**

Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin I hissəsinə əsasən növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərini 2018-ci il fevralın 5-də elan edərək, seçkilərin 2018-ci il aprelin 11-nə təyin olunmasını və qanunvericiliklə müəyyən olunmuş qaydada keçirilməsinin təmin edilməsini Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına həvalə etmişdir.

Mərkəzi Seçki Komissiyası 2018-ci il 6 fevral tarixli qərarı ilə Azərbaycan Respublikası Seçki Məcəlləsinin 179.2-ci maddəsinə uyğun olaraq seçkiləri 2018-ci il aprelin 11-nə təyin etmişdir. Bununla yanaşı, cari ilin əvvəlindən başlayaraq respublika üzrə daimi seçicilər siyahısının Seçki Məcəlləsinin 207-ci maddəsinin tələbi nəzərə alınmaqla tərtib edilməsi, dəqiqləşdirilməsi və ictimailəşdirilməsinə birbaşa rəhbərlik edən Mərkəzi Seçki Komissiyası seçkilərin hazırlanıb keçirilməsi ilə əlaqədar bütün tədbirləri qanunvericiliklə müəyyən olunmuş qaydada vaxtında və keyfiyyətlə həyata keçirmişdir.

Aidiyyəti qurumların iştirakı da təmin edilməklə maddi-texniki bazası möhkəmləndirilmiş aşağı seçki komissiyaları üzvləri üçün geniş maarifləndirmə proqramları təşkil edilmiş, seçicilər və digər çoxsaylı seçki subyektləri bu məqsədlə müxtəlif proqramlara cəlb edilmişlər.

Seçkilərə start verildikdən sonra qeydə alınmış 8 nəfər prezidentliyə namizədin öz platformalarını sərbəst surətdə seçicilərə çatdırmaları üçün, internet resursları və sosial şəbəkələr də daxil olmaqla, qanunvericilikdə nəzərdə tutulmuş bütün imkanlar və istisnasız bərabər şərait yaradılmış, seçkiqabağı təşviqat subyektləri yaradılmış imkanlardan heç bir maneə olmadan sərbəst şəkildə istifadə etmişlər.

İşğal olunmuş ərazilər istisna olmaqla, respublikanın bütün coğrafiyasını əhatə edən 20%-dək məntəqələrdə quraşdırılmış (1000 seçki məntəqəsində) veb-kameralar vasitəsilə səsvermə prosesini əvvəldən axıra kimi heç bir məhdudiyyət olmadan online izləmə imkanları təmin olunmuşdur. Seçkilərdə iştirak edən namizəd və siyasi partiyalar, habelə səsverməni izləyən 59 000-ə yaxın yerli müşahidəçinin, 59 ölkəni, 61 nüfuzlu beynəlxalq qurumu təmsil edən 894 müşahidəçinin, habelə 51 nüfuzlu beynəlxalq KİV-i təmsil edən 118 nəfər jurnalistin daxil olduğu on minlərlə müşahidəçi ordusu ümumilikdə seçki mühitini azad, ədalətli, sivil və müasir tələblərə cavab verən səviyyədə qiymətləndirmişdir.

Seçicilərin yüksək fəallıq nümayiş etdirdiyi səsvermə günü və seçki prosesində hər hansı qanun pozuntusu ilə əlaqədar Mərkəzi Seçki Komissiyasına heç bir şikayət daxil olmamış, seçkilər ümumən azad, ədalətli, şəffaf və geniş aşkarlıq şəraitində keçirilmiş, səsvermənin ilkin nəticələri vaxtında müəyyən edilərək elə həmin gün ictimaiyyətə çatdırılmışdır.

Seçkilərin nəticələrinin rəsmi qaydada müəyyən edilməsi üçün qanunda nəzərdə tutulmuş bütün müvafiq sənədlər aşağı seçki komissiyaları tərəfindən Mərkəzi Seçki Komissiyasına vaxtında təq-

dim edilmiş, dairə seçki komissiyalarının hamısının səsvermənin nəticələrinə dair protokolları və onlara əlavə edilmiş sənədlər obyektiv və hərtərəfli araşdırılmışdır. Bu zaman səsvermə günü fasiləsiz fəaliyyət göstərmiş veb-kameraların görüntüləri, internet resursları, habelə sosial şəbəkələrdə yayılmış məlumatlar da nəzərdən keçirilərək seçkilərin qanunvericiliyə uyğun keçirilməsinə və mövcud beynəlxalq standartlara cavab verməsinə xələl gətirə biləcək ən kiçik məqamlar belə araşdırılmışdır. Nəticədə 57 saylı Kürdəmir seçki dairəsinin 2 saylı, 69 saylı Cəlilabad – Masallı – Biləsuvar seçki dairəsinin 26 saylı, 73 saylı Lənkəran şəhər seçki dairəsinin 10 saylı və 74 saylı Lənkəran kənd seçki dairəsinin 12 saylı seçki məntəqələrində seçicilərin iradəsinin müəyyən edilməsinə imkan verməyən qanun pozuntuları aşkar edildiyindən həmin seçki məntəqələri üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsi və 57 saylı Kürdəmir seçki dairəsinin 2 saylı seçki məntəqəsi məntəqə seçki komissiyasının, habelə 73 saylı Lənkəran şəhər seçki dairəsinin 10 saylı seçki məntəqəsi məntəqə seçki komissiyasının tam tərkibdə buraxılması üçün əsaslar müəyyən edilmişdir.

Ona görə də qeyd edilənlərlə bağlı müvafiq tədbirlər görülərək dairə seçki komissiyaları protokollarındakı məlumatlar ümumiləşdirilməklə seçkilərin nəticələri barədə Mərkəzi Seçki Komissiyasının protokolu tərtib edilməlidir. Bununla yanaşı, protokol təsdiq edilərək seçkilərə yekun vurulmalı, imzalandıqdan sonra dərc edilmə tələbinə də əməl edilməklə müvafiq sənədlərlə birlikdə seçkilərin nəticələrinin təsdiq olunması üçün Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə təqdim edilməlidir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 203.1-ci maddəsinə uyğun olaraq Mərkəzi Seçki Komissiyası qanunvericilikdə nəzərdə tutulmuş müddətdə prezident seçkilərinə yekun vurur və seçkilərin nəticələrinin təsdiq olunması üçün müvafiq sənədləri Azərbaycan Respublikası Konstitusiyasının 102-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə təqdim edir.

Seçki Məcəlləsinin 203.5-ci maddəsinə əsasən, prezident seçkilərinin nəticələri haqqında protokol imzalandıqdan sonra 24 saat müddətində dərc edilir.

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası yuxarıda göstərilənləri əsas götürərək Azərbaycan Respublikası Konstitusiyasının 102-ci, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 203.1-ci və 203.5-ci maddələrinə uyğun olaraq qərara alır:

1. 2018-ci il aprelin 11-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidentinin seçkilərinə yekun vurulması ilə əlaqədar aparılmış araşdırmalar nəticəsində 57 saylı Kürdəmir seçki dairəsinin 2 saylı, 69 saylı Cəlilabad – Masallı – Biləsuvar seçki dairəsinin 26 saylı, 73 saylı Lənkəran şəhər seçki dairəsinin 10 saylı və 74 saylı Lənkəran kənd seçki dairəsinin 12 saylı seçki məntəqələri üzrə seçicilərin iradəsinin müəyyən olunmasına imkan verməyən qanun pozuntuları aşkar edildiyindən həmin seçki məntəqələri üzrə səsvermənin nəticələri etibarsız hesab edilsin.

2. 57 saylı Kürdəmir seçki dairəsinin 2 saylı və 73 saylı Lənkəran şəhər seçki dairəsinin 10 saylı məntəqə seçki komissiyaları tam tərkibdə buraxılsın.

3. Yuxarıdakılar nəzərə alınmaqla seçkilərin nəticələrinə dair Mərkəzi Seçki Komissiyasının protokolu tərtib edilsin.

4. Seçkilərin nəticələrinə dair protokol təsdiq edilməklə seçkilərə yekun vurulsun.

5. Protokol müvafiq sənədlərlə birlikdə seçkilərin nəticələrinin təsdiq olunması üçün Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə təqdim edilsin.

6. Protokol imzalandıqdan sonra 24 saat ərzində dərc edilsin (Əlavə edilir).

7. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

# NÖVBƏDƏNKƏNAR AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ SEÇKİLƏRİ

## 11 aprel 2018-ci il

### SƏSVERMƏNİN NƏTİCƏLƏRİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI MƏRKƏZİ SEÇKİ KOMİSSİYASININ

## P R O T O K O L U

**Bakı şəhəri**

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası səsvermənin nəticələri haqqında dairə seçki komissiyalarının protokollarındakı bütün məlumatları ümumiləşdirərək respublika üzrə səsvermənin nəticələrini **müəyyən etmişdir:**

Seçki dairələrinin sayı
*Bir yüz iyirmi beş* — **125**

Dairə seçki komissiyaları tərəfindən təqdim edilmiş protokolların sayı
*Bir yüz iyirmi beş* — **125**

Seçki məntəqələrinin ümumi sayı
*Beş min altı yüz qırx bir* — **5 641**

Səsvermənin nəticələri etibarsız hesab edilmiş seçki məntəqələrinin sayı
*Dörd* — **4**

Səsvermənin baş tutmadığı seçki məntəqələrinin sayı
*Sıfır* — **0**

1. Seçicilərin ümumi sayı
*Beş milyon üç yüz otuz iki min səkkiz yüz on yeddi* — **5 332 817**

a) seçici siyahılarında olan seçicilərin sayı *
*Beş milyon iki yüz doxsan üç min beş yüz altmış bir* — **5 293 561**

b) əlavə seçici siyahısında olan seçicilərin sayı
*On səkkiz min dörd yüz əlli iki* — **18 452**

c) qeydiyyatdan çıxma vəsiqəsi almış seçicilərin sayı
*İyirmi min səkkiz yüz dörd* — **20 804**

---

* Qeydiyyatdan çıxma vəsiqəsi alanlar istisna olmaqla

2. Mərkəzi Seçki Komissiyası tərəfindən dairə seçki komissiyalarına verilmiş seçki bülletenlərinin sayı
*Beş milyon üç yüz qırx yeddi min səkkiz yüz üç* — 5 347 803

3. Seçki bülleteni almış seçicilərin sayı **
*Üç milyon doqquz yüz altmış iki min yüz iyirmi üç* — 3 962 123

4. İstifadə edilmədən ləğv olunmuş seçki bülletenlərinin sayı
*Bir milyon üç yüz səksən üç min yeddi yüz doxsan iki* — 1 383 792

a) məntəqə seçki komissiyaları tərəfindən
*Bir milyon üç yüz on iki min üç yüz qırx dörd* — 1 312 344

b) dairə seçki komissiyaları tərəfindən
*Yetmiş bir min dörd yüz qırx səkkiz* — 71 448

5. Korlanmış seçki bülletenlərinin sayı
*Bir min səkkiz yüz səksən səkkiz* — 1 888

6. Seçki qutularında olan seçki bülletenlərinin sayı
*Üç milyon doqquz yüz əlli səkkiz min səkkiz yüz əlli iki* — 3 958 852

7. Etibarsız hesab edilmiş səslərin sayı
*On iki min dörd yüz on üç* — 12 413

8. Etibarlı hesab edilmiş səslərin sayı
*Üç milyon doqquz yüz qırx altı min dörd yüz otuz doqquz* — 3 946 439

**9. Etibarlı hesab edilmiş səslərin prezidentliyə namizədlər arasında bölünməsi:**

| Seçki bülleteninə daxil edilmiş prezidentliyə namizədlərin soyadı, adı, atasının adı (əlifba sırası ilə) | Hər bir namizədin lehinə verilmiş səslərin sayı | | |
|---|---|---|---|
| | sözlə | rəqəmlə | faizlə |
| **ƏLİYEV İlham Heydər oğlu** | *Üç milyon üç yüz doxsan dörd min səkkiz yüz doxsan səkkiz* | 3 394 898 | 86.02 |
| **ƏLİZADƏ Araz Məmməd Mübariz oğlu** | *Əlli dörd min beş yüz otuz üç* | 54 533 | 1.38 |
| **HACIYEV Hafiz Ələmdar oğlu** | *Əlli doqquz min doqquz yüz iyirmi dörd* | 59 924 | 1.52 |
| **HƏSƏNQULİYEV Qüdrət Müzəffər oğlu** | *Bir yüz on doqquz min üç yüz on bir* | 119 311 | 3.02 |
| **QULİYEV Fərəc İbrahim oğlu** | *Qırx beş min doqquz yüz altmış yeddi* | 45 967 | 1.17 |
| **MƏMMƏDOV Sərdar Calal oğlu** | *Bir yüz on doqquz min altı yüz iyirmi bir* | 119 621 | 3.03 |
| **NURULLAYEV Razi Qulaməli oğlu** | *İyirmi doqquz min iki yüz iyirmi doqquz* | 29 229 | 0.74 |
| **ORUC Zahid Məhərrəm oğlu** | *Bir yüz iyirmi iki min doqquz yüz əlli altı* | 122 956 | 3.12 |
| *Cəmi:* | *Üç milyon doqquz yüz qırx altı min dörd yüz otuz doqquz* | 3 946 439 | 100.00 |

** Seçicilərin fəallığı: 74.30 % [seçicilərin ümumi sayına nisbətən faizlə]

| | | |
|---|---|---|
| **Mərkəzi Seçki Komissiyasının sədri** | *PƏNAHOV Məzahir Məhəmməd oğlu* | ____________ |
| **Komissiya sədrinin müavini** | *MƏMMƏDOV Natiq Seyfulla oğlu* | ____________ |
| **Komissiyanın katibi** | *MUXTAROVA Arifə Ağaverdi qızı* | ____________ |
| **Komissiyanın katibi** | *RƏHİMOV Mikayıl Rəhman oğlu* | ____________ |
| **Komissiyanın üzvləri:** | *CAVADOV Fuad Musa oğlu* | ____________ |
| | *ƏLİYEV Saitdin Sərdar oğlu* | ____________ |
| | *İBRAHİMOV Ramiz Hilal oğlu* | ____________ |
| | *KAZIMOVA Validə Faiq qızı* | ____________ |
| | *PAŞAYEV Hüseyn Məmməd oğlu* | ____________ |
| | *MƏMMƏDOV İlham Sabir oğlu* | ____________ |
| | *NADİROV Nizami Hüseyn oğlu* | ____________ |
| **M.Y.** | *ORUCOV Qabil Əhməd oğlu* | ____________ |
| | *TAĞIYEV Azər Cabir oğlu* | ____________ |
| | *ƏSGƏROV Bəxşeyiş Məmməd oğlu* | ____________ |
| | *HƏSƏNOV Tofiq Eldar oğlu* | ____________ |
| | *QƏHRAMANLI Almas Əlisultan qızı* | ____________ |
| | *QULİYEV Etibar Cəfər oğlu* | ____________ |
| | *ŞAHBAZOV İlkin Zaur oğlu* | ____________ |

Protokol 2018-ci il aprelin 15-də saat 12:30-da tərtib edilmişdir.

Komissiyanın həlledici səs hüquqlu üzvünün xüsusi rəyi haqqında qeyd:

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

______________________________ ____________________
*(soyadı, adı, atasının adı)* *(imza)*

**Q e y d :**

Protokol Mərkəzi Seçki Komissiyasının həlledici səs hüquqlu üzvləri tərəfindən tərtib edilir və imzalanır. Mərkəzi Seçki Komissiyasının protokolla bütövlükdə və ya onun ayrı-ayrı hissələri ilə razılaşmayan üzvü protokola xüsusi rəyini əlavə edə bilər və bu barədə protokolda müvafiq qeyd aparılır.

# Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası Prezidenti seçkilərinin yekunlarını elan edib

**Azərbaycan Respublikasının Prezidenti səsvermədə iştirak edənlərin yarısından çoxunun səs çoxluğu ilə seçilib**



Aprelin 17-də Fərhad Abdullayevin sədrliyi ilə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun iclası keçirilib.

İclas Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinin rəsmən elan olunmasına həsr edilib.

Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev iclası açaraq bildirib ki, xüsusi konstitusiya icraatı üzrə məhkəmə iclasında 2018-ci il aprelin 11-də keçirilmiş Azərbaycan Respublikası Prezidenti seçkilərinin yekunlarına dair Mərkəzi Seçki Komissiyasının (MSK) 2018-ci il 15 aprel tarixli protokolunun təsdiq və rəsmən elan edilməsinə dair konstitusiya işinə baxılacaq.

Məhkəmə iclasının katibi Fəraid Əliyev deyib ki, iclasda xüsusi konstitusiya icraatı üzrə maraqlı subyekt qismində Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, sədr müavini Natiq Məmmədov, katibləri Arifə Muxtarova və Mikayıl Rəhimov, komissiyanın digər üzvləri, ha-

belə ekspert qismində Bakı Dövlət Universitetinin hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının baş müəllimi Elşad Nəsirov, həmin kafedranın dosent əvəzi, hüquq üzrə fəlsəfə doktoru Aytəkin İbrahimova, beynəlxalq xüsusi hüquq və Avropa hüququ kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru Turqay Hüseynov, Dövlət Statistika Komitəsi Aparatının şöbə müdirinin müavini Sona Dəmirçiyeva, Aparatın baş məsləhətçiləri Ulduzə Həmidova və Gülnar Əhmədova iştirak edirlər.

Fərhad Abdullayev məhkəmənin tərkibini elan edib.

"Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi haqqında" Qanunun 43-cü maddəsinə əsasən maraqlı subyektlərin qanuni nümayəndələrinin hüquq və vəzifələrini izah edən Konstitusiya Məhkəməsinin sədri bildirib ki, onlar bu Qanuna əsasən, iclasda iştirak və çıxış edə, sübutlar və digər materialları təqdim edə, vəsatət və təkliflər verə, sualları cavablandıra, şahid və ekspertlərin dəvət olunmasını xahiş edə və yekun sözlə çıxış edə bilərlər.

Konstitusiya Məhkəməsinin hakimi Sona Salmanova məruzə ilə çıxış edərək diqqətə çatdırıb ki, Konstitusiya Məhkəməsi 2018-ci il aprelin 11-də keçirilmiş Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinin təsdiq və rəsmən elan olunmasına dair konstitusiya işinə Azərbaycan Respublikası Konstitusiyasının, Seçki Məcəlləsinin və "Konstitusiya Məhkəməsi haqqında" Qanunun müvafiq müddəalarına uyğun olaraq baxır. "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 40.3.3-cü maddəsinə əsasən, Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinin rəsmi elan edilməsi ilə əlaqədar işlərə xüsusi konstitusiya icraatı qaydasında baxılır. 2016-cı il 26 sentyabr tarixli ümumxalq səsverməsi – referendumla Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin 1-ci hissəsinə edilmiş dəyişikliyə əsasən, Azərbaycan Respublikasının Prezidenti ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə 7 il müddətinə seçilir. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 fevral tarixli Sərəncamına və Seçki Məcəlləsinin 177-ci, 178-ci maddələrinə uyğun olaraq, 2018-ci il aprelin 11-də Azərbaycan Respublikası Prezidentinin seçkiləri keçirilib.

Diqqətə çatdırılıb ki, Seçki Məcəlləsinin 203.1-ci maddəsinə əsasən MSK səsvermə günündən başlayaraq 10 gündən gec olmayan müddətdə prezident seçkilərinə yekun vurur və nəticələri təsdiq olunmaq üçün Konstitusiyanın 102-ci maddəsinə uyğun olaraq Konstitusiya Məhkəməsinə təqdim edir. Konstitusiya Məhkəməsinin bu haqda qərarı qətidir. MSK səsvermənin nəticələri haqqında dairə seçki komissiyalarının protokollarındakı bütün məlumatları ümumiləşdirərək 2018-ci il aprelin 11-də keçirilmiş prezident seçkilərinin nəticələri barədə 2018-ci il aprelin 15-də protokol tərtib edib. Səsvermənin nəticələri haqqında MSK-nın protokolu, qərar və ona əlavə edilən sənədlər, səsvermənin nəticələrinin təsdiq və rəsmən elan edilməsi üçün Konstitusiya Məhkəməsinə təqdim olunub.

Konstitusiya Məhkəməsinin hakimi Rəfael Qvaladze məruzə ilə çıxış edərək, işdə olan materialların mahiyyəti və Konstitusiya Məhkəməsinin bu məsələyə hazırlıq mərhələsində gördüyü tədbirlər barədə məlumat verib. Diqqətə çatdırılıb ki, Konstitusiya Məhkəməsi prezident seçkilərinin yekunlarına dair MSK tərəfindən təqdim olunmuş protokolun Seçki Məcəlləsinin tələblərinə uyğun olub-olmamasının öyrənilməsi məqsədilə "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 45-ci maddəsinə müvafiq olaraq, Dövlət Statistika Komitəsinin və Bakı Dövlət Universitetinin əməkdaşlarını iş üzrə ekspert qismində cəlb edib.

Bundan başqa, "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 56-cı maddəsinə əsasən Apellyasiya məhkəmələrindən, Naxçıvan Muxtar Respublikasının və Azərbaycan Respublikasının Ali məhkəmələrindən və Azərbaycan Respublikası Prokurorluğundan seçki hüquqlarının müdafiəsi ilə bağlı baxılmış ərizələr haqqında məlumatlar tələb edilib. Bakı, Sumqayıt, Gəncə, Şirvan və Şəki Apellyasiya məhkəmələrinin, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin və Azərbaycan Respublikası Prokurorluğunun məktublarından göründüyü kimi, 2018-ci il aprelin 11-də keçirilmiş Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə bağlı seçki hüquqlarının müdafiəsinə dair həmin orqanlara ərizə və şikayətlər daxil olmayıb.

Bildirilib ki, Seçki Məcəlləsinin 28.2-ci maddəsinə uyğun olaraq, MSK-nın qərarları açıq səsvermə yolu ilə komissiyanın iclasında üzvlərinin 18-nin iştirak etdiyi halda və azı 12 üzvün səs çoxluğu ilə qəbul edilir. Seçki Məcəlləsinin 100.12-ci maddəsində nəzərdə tutulub ki, protokollar komissiyanın həlledici səs hüquqlu üzvünün ümumi sayının ən azı üçdə ikisi tərəfindən imzalanmalıdır. MSK-nın təqdim etdiyi

protokoldan da göründüyü kimi, bu protokol komissiyanın 18 üzvündən 17-si tərəfindən imzalanıb.

Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin 2-ci hissəsinə və Seçki Məcəlləsinin 203.4-cü maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Prezidenti səsvermədə iştirak edənlərin yarısından çoxunun səs çoxluğu ilə seçilir. MSK-nın protokolundan göründüyü kimi, etibarlı hesab edilmiş səslərin 3 milyon 394 min 898-i və ya 86,02 faizi Əliyev İlham Heydər oğlunun lehinə verilib.

vaxtında MSK-ya təhvil verə bilib. Həmin şəxslərin sənədləri ciddi araşdırılıb və yalnız səkkizinin qeydə alınması üçün əsaslar müəyyən olunub.

Bildirilib ki, namizədlərin hamısına bərabər şəraitdə təşviqat aparmaq üçün bütün imkanlar yaradılıb. Qeydə alınmış namizədlərin seçicilərlə sərbəst görüşlər, toplantılar keçirmələri üçün MSK ölkə üzrə 168 ünvan müəyyənləşdirərək rəsmi qaydada mətbuatda dərc edib. Eyni zamanda, İctimai Teleradionun efirində və təsisçisi dövlət orqanları olan, yaxud büdcədən maliyyələşən dövri nəşrlərin



Sonra maraqlı subyektin qanuni nümayəndəsi, Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov çıxış edib. MSK sədri deyib ki, bu il fevralın 5-də Azərbaycan Respublikasının Prezidenti Azərbaycanda prezident seçkilərinin keçirilməsi ilə bağlı Sərəncam imzalayıb. Həmin Sərəncam əsasında MSK-ya seçkiləri aprelin 11-nə təyin etmək və hazırlanıb keçirilməsi tapşırılıb. Seçki Məcəlləsinin tələbinə görə, MSK dərhal fəaliyyətə başlayıb və təqvim planı təsdiq edib. Seçkilər elan edildikdən sonra namizədliklə bağlı MSK-ya ümumilikdə 15 müraciət daxil olub. Onlardan səkkizi siyasi partiyaların, biri təşəbbüs qrupunun, altısı isə fərdi qaydada irəli sürülmüş namizədlərin müraciətləri olub. Müraciət etmiş şəxslərdən yalnız 10 nəfəri lazımi sənədləri

səhifələrində pulsuz vaxt və yer ayrılıb. Namizədlər demək olar ki, ölkəmizin bütün bölgələrində intensiv görüşlər keçiriblər. Bu görüşlərlə bağlı televiziya kanalları bütün namizədlər üçün eyni formatda məlumatlar yayıblar. Namizədlərin təşviqat kampaniyası sivil, Seçki Məcəlləsinin tələblərinə uyğun qaydada aparılıb. Bunun nəticəsində Azərbaycan seçicisi seçki məntəqəsinə gələndə artıq namizədlərlə bağlı kifayət qədər məlumatlı idilər. Seçkilərlə bağlı 60-a yaxın seminar-müşavirə, təlim keçirilib ki, bu tədbirlərdə də aşağı seçki komissiyalarının 30 minədək üzvü iştirak edib. Bunun nəticəsində çoxsaylı müşahidəçilər komissiyaların peşəkar fəaliyyətini xüsusi vurğulayıblar.

Məzahir Pənahov deyib ki, seçkilərin şəffaflığını

kifayət qədər təmin etmək üçün MSK və dairə seçki komissiyaları ilə yanaşı, məntəqə seçki komissiyaları üçün də ən müasir standartlara cavab verən imkanlar yaradılıb. Seçkilərin şəffaflığını və demokratikliyini təmin etmək üçün 61 təşkilat və 59 ölkədən 890-dan çox beynəlxalq müşahidəçi, habelə 51 beynəlxalq KİV-in 118 nümayəndəsi seçkiləri izləyib. Yerli müşahidəçilərin sayının da 59 minə yaxın olduğunu və ölkə üzrə 5641 məntəqənin yaradıldığını nəzərə alsaq, hər bir məntəqəyə 10-dan çox müşahidəçi düşüb. Müşahidəçilərdən 15 minə yaxını öz təşəbbüsü ilə qeydiyyatdan keçən vətəndaşlar olublar. Müşahidəçiliklə bağlı müraciət edən bütün şəxslərə müsbət cavab verilib.

Diqqətə çatdırılıb ki, seçki məntəqələrinin təxminən 20 faizində – 1000-ə yaxın məntəqədə quraşdırılmış veb-kameralar vasitəsilə də dünya ictimaiyyəti səsvermənin gedişini izləyib. Bu da seçkilərin tam şəffaf, azad və demokratik keçirilməsi üçün mühüm əhəmiyyət kəsb edirdi. Gün ərzində məntəqələrdə bütün proseslər fasiləsiz onlayn rejimində görüntülənib. Dünyanın istənilən ölkəsindən hər bir şəxsin həmin məntəqələrdəki veb-kameralar vasitəsilə səsvermə prosesini izləmək imkanı olub. Ümumilikdə səsvermə günü bütün proseslər qaydaya uyğun olaraq həyata keçirilib.

MSK sədri qeyd edib ki, səsvermə günü seçicilərin mütəşəkkil qaydada məntəqələrə gələrək öz istədikləri namizədlərə səs vermələri üçün hər cür şərait yaradılıb. Seçkilərdə seçici fəallığı 74 faizdən çox olub. Səsvermənin gedişi zamanı və sonra MSK-ya heç bir müraciət daxil olmayıb. Seçkilərdə şəffaflığı nümayiş etdirmək və səsvermənin nəticələrini operativ şəkildə çatdırmaq üçün gün ərzində səsvermənin gedişi barədə ictimaiyyətə 5 dəfə məlumat verilib. Səsvermə günü saat 23:00 radələrində MSK məntəqələrin təxminən 70 faizindən daxil olan nəticələr əsasında ilkin rəqəmləri ictimaiyyətə çatdırıb. Gecə saat 12-dən bir qədər sonra MSK məntəqələrin 93 faizindən daxil olan protokollar üzrə rəqəmləri səsləndirib. Saat fərqi ilə əlaqədar Azərbaycanın xaricdəki diplomatik nümayəndəliklərində olan məntəqələrdə, eləcə də bir sıra qaçqın məntəqələrində bəzi problemlər yaranıb. MSK seçkilərin ertəsi günü saat 12-yə qalmış 5641 məntəqənin hamısının protokolları əsasında ilkin nəticələri ictimaiyyətə çatdırıb.

Komissiyaya heç bir müraciət daxil olmadığından və bütün namizədlər KİV-lərdə qalib namizədi təbrik etdikdən dörd gün keçəndən sonra MSK seçkilərə yekun vurub və nəticələrin təsdiq olunması üçün sənədləri Konstitusiya Məhkəməsinə göndərməyi qərara alıb. MSK aprelin 15-də yekun iclasını keçirib və bütün araşdırmaların nəticələrini ümumiləşdirib qərar qəbul edib. Bu qərara əsasən, 5641 məntəqənin 4-də nəticələr ləğv edilib və bununla bağlı protokol tərtib olunaraq digər sənədlərlə birlikdə Konstitusiya Məhkəməsinə göndərilib.

Ümumilikdə 5 milyon 332 min 817 seçicinin yekunda siyahı ilə mövcud olduğu müəyyənləşib. Onlardan 18 min 452-si əlavə seçici siyahılarında olan seçicilər idi. Ona görə də bizim səsvermədən əvvəlki 5 milyon 314 min 365 seçicinin üzərinə bu 18 min 452 nəfər də əlavə olundu. Bu, ümumi seçicilərimizin 0,3 faizidir. Ona görə, bu proseslər zamanı hər hansı formada seçici siyahıları ilə bağlı narahatlıq bildirənlərin diqqətinə çatdırmaq istərdim ki, heç kim adının seçici siyahılarına daxil edilməməsi ilə əlaqədar müraciət etməyib.

Məzahir Pənahov bildirib ki, etibarlı hesab edilmiş səslərin sayı 3 milyon 946 min 439 olub. Etibarlı səslərin 86,02 faizi, yəni, 3 milyon 394 min 898 səs İlham Heydər oğlu Əliyevə verilib.

Dünyanın inkişaf etmiş dövlətlərinin, MDB ölkələrinin seçki komissiyalarının sədrlərindən və üzvlərindən ibarət beynəlxalq müşahidəçilərin gəldikləri nəticə ondan ibarət oldu ki, seçkilər bütün tələblərə yüksək səviyyədə cavab verib. Ona görə də MSK hesab edir ki, seçkilərin nəticələrini təsdiq etmək olar.

Sonra MSK sədri Konstitusiya Məhkəməsi sədrinin suallarını cavablandırıb.

Bakı Dövlət Universitetinin hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının baş müəllimi Elşad Nəsirov, Dövlət Statistika Komitəsinin Aparatının baş məsləhətçisi Ulduzə Həmidova çıxışlarında bildiriblər ki, 2018-ci il aprelin 11-də prezident seçkiləri mükəmməl seçki qanunvericiliyi və təkmil seçki infrastrukturu əsasında keçirilib. Həmçinin seçki prosesinin gedişində bir sıra yeni seçki texnologiyaları tətbiq olunub. Ekspertlər vurğulayıblar ki, MSK-nın prezident seçkilərinin yekunlarına dair protokolunu və digər sənədlərini araşdırıb, onların Seçki Məcəlləsinin müvafiq normalarına uyğunluğuna diqqət yetiriblər. Cəmi 4 seçki məntəqəsində səsvermənin nəticələrinin etibarsız hesab olunması ümumi nəticələrə və seçicilərin iradələrini ifadə

etmələrini müəyyənləşdirməyə heç bir xələl gətirmir. Səsvermə günü MSK-ya heç bir müraciət və şikayət daxil olmayıb.

Protokolun hüquqi aspektlərinə toxunan ekspertlər vurğulayıblar ki, 2018-ci il aprelin 11-də keçirilmiş prezident seçkilərinə dair Mərkəzi Seçki Komissiyasının 2018-ci il 15 aprel tarixli protokolu Seçki Məcəlləsinin 100-cü, 108-ci və 203-cü maddələrinin tələblərinə tam uyğundur. Qeyd edilənlər onu deməyə imkan verir ki, aprelin 11-də keçirilmiş prezident seçkiləri ilə bağlı səsvermənin nəticələrinin Konstitusiya Məhkəməsi tərəfindən təsdiq olunması üçün tam hüquqi əsas mövcuddur.

Ekspertlərin rəyləri Konstitusiya işinə əlavə olunub.

Məhkəmə araşdırmaları bitdikdən sonra Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinin təsdiq və rəsmən elan olunmasına dair qərarı oxuyub.

***

Salona toplaşanlar qərarı alqışlarla qarşılayıblar.

Sonra Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.

Fərhad Abdullayev Konstitusiya Məhkəməsi Plenumunun iclasını bağlı elan edib.

İclasda Milli Məclisin deputatları, ictimaiyyətin və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak ediblər.

**AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN**

AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİNİN QƏRARI

## 2018-ci il aprelin 11-də keçirilmiş Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinin təsdiq və rəsmən elan edilməsinə dair

17 aprel 2018-ci il | Bakı şəhəri

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova (məruzəçi-hakim), Südabə Həsənova, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze (məruzəçi-hakim), Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibləri Fəraid Əliyev və Elməddin Hüseynovun,

maraqlı subyektin nümayəndələri Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, sədr müavini Natiq Məmmədov, katibləri Arifə Muxtarova və Mikayıl Rəhimov, üzvləri Fuad Cavadov, Şaitdin Əliyev, Ramiz İbrahimov, Validə Kazımova, Hüseyn Paşayev, İlham Məmmədov, Nizami Nadirov, Qabil Orucov, Bəxşeyiş Əsgərov, Tofiq Həsənov, Almas Qəhrəmanlı, Etibar Quliyev və İlkin Şahbazovun,

ekspertlər Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin əməkdaşları Ulduzə Həmidova, Sona Dəmirçiyeva və Gülnar Əhmədovanın, Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının baş müəllimi Elşad Nəsirov və həmin kafedranın dosent əvəzi, hüquq üzrə fəlsəfə doktoru Aytəkin İbrahimovanın, Beynəlxalq xüsusi hüquq və Avropa hüququ kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru Turqay Hüseynovun iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 102-ci maddəsinə və 130-cu maddəsinin VIII hissəsinə müvafiq olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasından daxil olmuş materiallar üzrə 2018-ci il aprelin 11-də keçirilmiş Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinə dair xüsusi konstitusiya icraatı qaydasında konstitusiya işinə baxdı.

Hakimlər S.Salmanova və R.Qvaladzenin məruzələrini, maraqlı subyektin nümayəndəsi M.Pənahovun çıxışını, ekspertlər E.Nəsirov və U.Həmidovanın rəylərini dinləyib, iş materiallarını öyrənərək Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**M Ü Ə Y Y Ə N   E T D İ :**

Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin I hissəsinə, Azərbaycan Respublikası

Seçki Məcəlləsinin müvafiq maddələrinə və Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 fevral tarixli Sərəncamına uyğun olaraq 2018-ci il aprelin 11-də Azərbaycan Respublikası Prezidenti seçkiləri keçirilmişdir.

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 108.2 və 203.3-cü maddələrinə müvafiq olaraq səsvermənin nəticələri haqqında dairə seçki komissiyalarının protokollarında olan bütün məlumatları ümumiləşdirib, Azərbaycan Respublikası Prezidenti seçkiləri üzrə səsvermənin nəticələrinə dair 2018-ci il 15 aprel tarixli protokol tərtib etmişdir. Həmin protokol Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2018-ci il 15 aprel tarixli 16/90 nömrəli qərarı ilə təsdiq edilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 102-ci və Azərbaycan Respublikası Seçki Məcəlləsinin 203.1-ci maddələrinin tələblərinə müvafiq olaraq, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası səsvermənin nəticələrinə dair protokolu, həmin protokolun təsdiq edilməsinə dair qərarı və onlara əlavə edilmiş sənədləri Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinin təsdiq və rəsmən elan edilməsi üçün Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə təqdim etmişdir.

Seçkilərin yekunlarına dair Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası tərəfindən təqdim olunmuş sənədlərdən görünür ki, seçki qutularında müəyyən edilmiş 3 958 852 (üç milyon doqquz yüz əlli səkkiz min səkkiz yüz əlli iki) seçki bülletenindən 12 413 (on iki min dörd yüz on üç) səs etibarsız hesab edilmişdir.

Etibarlı hesab edilmiş 3 946 439 (üç milyon doqquz yüz qırx altı min dörd yüz otuz doqquz) səs Prezidentliyə namizədlər arasında aşağıdakı qaydada bölünmüşdür:

Əliyev İlham Heydər oğlu – lehinə 3 394 898 (üç milyon üç yüz doxsan dörd min səkkiz yüz doxsan səkkiz) səs və ya 86.02 faiz;

Əlizadə Araz Məmməd Mübariz oğlu – lehinə 54 533 (əlli dörd min beş yüz otuz üç) səs və ya 1.38 faiz;

Hacıyev Hafiz Ələmdar oğlu – lehinə 59 924 (əlli doqquz min doqquz yüz iyirmi dörd) səs və ya 1.52 faiz;

Həsənquliyev Qüdrət Müzəffər oğlu – lehinə 119 311 (bir yüz on doqquz min üç yüz on bir) səs və ya 3.02 faiz;

Quliyev Fərəc İbrahim oğlu – lehinə 45 967 (qırx beş min doqquz yüz altmış yeddi) səs və ya 1.17 faiz;

Məmmədov Sərdar Calal oğlu – lehinə 119 621 (bir yüz on doqquz min altı yüz iyirmi bir) səs və ya 3.03 faiz;

Nurullayev Razi Qulaməli oğlu – lehinə 29 229 (iyirmi doqquz min iki yüz iyirmi doqquz) səs və ya 0.74 faiz;

Oruc Zahid Məhərrəm oğlu – lehinə 122 956 (bir yüz iyirmi iki min doqquz yüz əlli altı) səs və ya 3.12 faiz.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 100.12-ci maddəsinə əsasən, protokollar seçki komissiyasının həlledici səs hüquqlu üzvlərinin ümumi sayının ən azı 2/3-si tərəfindən imzalanır. Həmin Məcəllənin 28.2-ci maddəsinə uyğun olaraq, Mərkəzi Seçki Komissiyasının qərarları açıq səsvermə yolu ilə Mərkəzi Seçki Komissiyasının iclasında komissiya üzvlərinin 18-i iştirak edərsə – azı 12 üzvün səs çoxluğu ilə qəbul edilir.

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə təqdim olunmuş səsvermənin nəticələri haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının protokolu Mərkəzi Seçki Komissiyasının 18 üzvündən 17-si tərəfindən imzalanmışdır.

Azərbaycan Respublikası Prezidenti seçkilərinin yekunlarına dair Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası tərəfindən təqdim olunmuş sənədlərin Azərbaycan Respublikası Seçki Məcəlləsinin tələblərinə uyğunluğunun yoxlanılması məqsədilə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu müvafiq ekspertləri cəlb etmiş, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 56-cı maddəsində nəzərdə tutulmuş qaydada Azərbaycan Respublikasının apellyasiya məhkəmələrindən, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsindən, Azərbaycan Respublikasının Ali Məhkəməsindən və Azərbaycan Respublikası Prokurorluğundan seçki hüquqlarının müdafiəsi ilə bağlı baxılmış ərizələr haqqında məlumatları tələb etmişdir.

Bakı, Sumqayıt, Gəncə, Şirvan və Şəki Apellyasiya Məhkəmələri, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi, Azərbaycan Respublikasının Ali Məhkəməsi və Azərbaycan Respublikası Prokurorluğunun məktublarından göründüyü kimi, 2018-ci il aprelin 11-də keçirilmiş Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə bağlı seçki hüquqlarının müdafiəsinə dair həmin orqanlara ərizə və şikayətlər verilməmişdir.

Ekspertlər U.Həmidova, S.Dəmirçiyeva, G.Əhmədova, E.Nəsirov, A.İbrahimova və T.Hüseynovun rəylərindən müəyyən edilir ki, Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2018-ci il 15 aprel tarixli protokolu Azərbaycan Respublikası Seçki Məcəlləsinin 100.2, 100.12, 108.2 və 203.3-cü maddələrinin tələblərinə uyğundur.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu yuxarıda göstərilənləri nəzərə alaraq, 2018-ci il aprelin 11-də keçirilmiş Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2018-ci il 15 aprel tarixli protokolunu Azərbaycan Respublikası Seçki Məcəlləsinin 100.2, 100.12, 108.2 və 203.3-cü maddələrinin tələblərinə uyğun hesab edir. Bununla əlaqədar olaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu belə nəticəyə gəlir ki, Azərbaycan Respublikası Prezidenti seçkilərinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının protokolunda əks olunmuş nəticələr təsdiq və rəsmən elan edilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin II hissəsinə əsasən, Azərbaycan Respublikasının Prezidenti səsvermədə iştirak edənlərin yarısından çoxunun səs çoxluğu ilə seçilir. Azərbaycan Respublikası Konstitusiyasının həmin maddəsinə əsaslanan Azərbaycan Respublikası Seçki Məcəlləsinin 203.4-cü maddəsində göstərilmişdir ki, prezidentliyə namizədə səsvermədə iştirak etmiş seçicilərin yarısından çoxu səs verdikdə, o, Azərbaycan Respublikasının Prezidenti seçilmiş sayılır.

Yuxarıda göstərildiyi kimi, etibarlı hesab edilmiş seçici səslərindən 3 394 898 (üç milyon üç yüz doxsan dörd min səkkiz yüz doxsan səkkiz) səs və ya 86.02 faiz Əliyev İlham Heydər oğlunun lehinə verilmişdir.

Beləliklə, Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin II hissəsinin və Azərbaycan Respublikası Seçki Məcəlləsinin 203.4-cü maddəsinin tələblərinə uyğun olaraq Azərbaycan Respublikasının Prezidentliyinə namizəd Əliyev İlham Heydər oğlu Azərbaycan Respublikasının Prezidenti seçilmiş elan edilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 102-ci maddəsini, 130-cu maddəsinin VIII və IX hissələrini, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 203.1-ci maddəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 56, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. 2018-ci il aprelin 11-də keçirilmiş Azərbaycan Respublikası Prezidenti seçkilərinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2018-ci il 15 aprel tarixli protokolunda əks olunmuş nəticələr təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Prezidentliyinə namizəd Əliyev İlham Heydər oğlu Azərbaycan Respublikasının Prezidenti seçilmiş elan edilsin.

3. Qərar elan olunduğu andan qüvvəyə minir.

4. Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.

5. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr** **Fərhad Abdullayev**

# Prokurorluq orqanlarına seçki qanunvericiliyinin pozulması ilə əlaqədar müraciət daxil olmayıb

Seçkilər zamanı seçki qanunvericiliyinin pozulması ilə əlaqədar Azərbaycan Respublikası Prokurorluğu orqanlarına hər hansı müraciət daxil olmayıb.

**Baş Prokurorluq**

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimi olub

## Azərbaycan Respublikası Prezidenti and içib






Aprelin 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Milli Məclisdə andiçmə mərasimi keçirilib.

Andiçmə mərasimində Azərbaycanın dövlət rəsmiləri, hökumətin üzvləri, Milli Məclisin deputatları və Prezidentin ailə üzvləri iştirak ediblər.

Prezident İlham Əliyevi müşayiət edən fəxri kortej Azərbaycan Respublikası Prezidentinin andiçmə mərasiminin keçirildiyi Milli Məclisə yola düşdü.

Ümumxalq səsverməsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Heydər oğlu Əliyevin andiçmə mərasimi açıq elan olundu.

Mərasim iştirakçıları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi hərarətlə qarşıladılar.

Silahlı Qüvvələrin əsgərləri Azərbaycan Respublikasının dövlət bayrağını və Azərbaycan Prezidentinin ştandartını (bayrağını) təntənəli marşın sədaları altında səhnəyə gətirdilər.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev və Konstitusiya Məhkəməsinin hakimləri səhnəyə dəvət olundular.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev çıxış edərək dedi:

– Hörmətli xanımlar və cənablar.

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi 2018-ci il 17 aprel tarixli qərarı ilə Azərbaycan Respublikası Prezidenti seçkilərinin yekunlarına dair Mərkəzi Seçki Komissiyasının nəticələrini təsdiq edərək, cənab İlham Heydər oğlu Əliyevi Azərbaycan Respublikasının Prezidenti elan etmişdir.

Azərbaycan Respublikasının Prezidenti seçilmiş cənab İlham Heydər oğlu Əliyev Azərbaycan Respublikası Konstitusiyasının 103-cü maddəsinə uyğun olaraq, Konstitusiya Məhkəməsi hakimlərinin iştirakı ilə andiçməyə dəvət olunur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əlini Azərbaycan Respublikası Konstitusiyasının üzərinə qoyaraq and içdi:






– Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm!

Azərbaycan Respublikasının dövlət himni səsləndi.

Sonra Prezident müqəddəs Qurani-Şərifə əl basaraq and içdi:

– Əlimi Qurani-Şərifə basaraq and içirəm: Azərbaycan xalqının əsrlər boyu yaratdığı milli mənəvi dəyərlərə və ənənələrə sadiq qalacağam, onları daim uca tutacağam.

Prezident İlham Əliyev təzim edərək, Azərbaycanın dövlət bayrağını öpdü.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev andiçmə mərasimində nitq söylədi.

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimində nitqi

– Hörmətli xanımlar və cənablar.

İlk növbədə, bir daha mənə bu seçkilərdə göstərilən yüksək etimada görə doğma Azərbaycan xalqına dərin təşəkkürümü bildirmək istəyirəm. Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss etmişəm və hiss edirəm. Bu dəstək mənə güc verir. Mən bu dəstəyə arxalanıram və xalqı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da xalqa və Vətənə ləyaqətlə xidmət edəcəyəm.

Prezident seçkiləri Azərbaycan xalqının iradəsini əks etdirib. Azərbaycan xalqı görülən işlərə yüksək qiymət vermişdir, görülən işlərə səs vermişdir. İnkişafa, tərəqqiyə, təhlükəsizliyə, gələcək inkişafımıza səs vermişdir. Seçkilər ədalətli və şəffaf şəkildə keçirilmişdir. Seçkilərdən əvvəl yerli və beynəlxalq təşkilatlar tərəfindən keçirilmiş rəy sorğuları, seçkilər günü yenə də beynəlxalq və yerli təşkilatlar tərəfindən keçirilmiş "exit-poll"lar




seçkilərin rəsmi nəticələri ilə üst-üstə düşür. Bu, bir daha onu göstərir ki, seçkilər xalqımızın iradəsini, onun fikirlərini əks etdirir.

Mən 2003-cü ildə, prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər mənə xalq etimad göstərərsə, mən ulu öndər Heydər Əliyev siyasətinə sadiq qalacağam, bu siyasəti davam etdirəcəyəm. Mən fəxr edirəm ki, xalq mənə inandı, məni dəstəklədi və mən də öz növbəmdə sözlərimə əməl etdim. Son 15 il ərzində Azərbaycanda hərtərəfli inkişaf təmin edilmişdir. Bunun əsas şərti ondan ibarətdir ki, biz Ulu Öndərin yolu ilə gedirik. Onun qoyduğu yol yeganə düzgün yoldur və Azərbaycanın müstəqillik tarixi bunun əyani sübutudur.

Son 15 il ərzində bu yolla gedərək biz böyük uğurlara imza atdıq, Azərbaycan xalqı təhlükəsizlik, sabitlik şəraitində yaşamışdır. Bu 15 il ərzində dünyanın müxtəlif bölgələrində, bizim bölgəmizdə, Avropada çox təhlükəli proseslər baş verirdi: qanlı toqquşmalar, müharibələr, vətəndaş müharibələri, dövlət çevrilişləri. Yəni, təhlükəsizlik baxımından son 15 il çox gərgin keçmişdir. Azərbaycanda isə xalqımız təhlükəsizlik şəraitində yaşamışdır. Biz daxili risklərin hamısını aradan qaldırdıq, xarici risklərdən isə özümüzü qoruya bilmişik, bu gün də qoruyuruq, əminəm ki, bundan sonra da qoruyacağıq. Azərbaycan xalqı bu 15 il ərzində sabitlik şəraitində yaşamışdır. Bu da inkişafımız üçün əsas şərtdir. Biz görürük ki, sabitlik pozulanda inkişafdan söhbət gedə bilməz. Sabitlik pozulanda xarici müdaxilə baş verir, ölkələr idarəolunmaz vəziyyətə düşür, qardaş qanı tökülür və ölkələrin gələcəyi böyük sual altına düşür. Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır və bizim siyasətimizdir. Ona görə xalq-iqtidar birliyi bizim uğurlarımızın əsas şərtidir. Azərbaycan bu gün dünya miqyasında sabitlik məkanı, sabitlik adası kimi tanınır və bu, bizim böyük nailiyyətimizdir.

Bu 15 il ərzində Azərbaycanda demokratik inkişaf çox sürətlə getmişdir, Azərbaycanda bütün azadlıqlar təmin edilmişdir. Hesab edirəm ki, bu 15 il demokratik inkişaf baxımından çox uğurlu

illər olmuşdur. Biz siyasi islahatları dərinləşdirərək bütün azadlıqları – söz azadlığını, mətbuat azadlığını, sərbəst toplaşma azadlığını, siyasi fəaliyyət azadlığını təmin etmişik. Təkcə onu demək kifayətdir ki, bu gün Azərbaycan vətəndaşlarının 80 faizi internet istifadəçiləridir və internet Azərbaycanda azaddır. Yəni, demokratik inkişafla bağlı bizim siyasətimiz çox düzgün siyasətdir və bizim milli maraqlarımızı təmin edir. Biz bunu kiminsə xoşuna gəlmək üçün yox, ona görə edirik ki, Azərbaycanda siyasi islahatlar daha da dərinləşsin, Azərbaycan xalqı həmişə öz taleyinin sahibi olsun, necə ki, bu gün Azərbaycan xalqı öz taleyinin sahibidir və seçkilər, onun nəticələri bunu bir daha təsdiqləyir.

Deyə bilərəm ki, son 15 il ərzində Azərbaycanda siyasi mübarizə mədəniyyəti istiqamətində də müsbət meyillər müşahidə olunur və prezident seçkiləri kampaniyası bunu bir daha göstərir. Namizədlərin çıxışlarında kifayət qədər kəskin tənqidi fikirlər səslənmişdir, mən bunu alqışlayıram, müsbət hal kimi qiymətləndirirəm. Bu, siyasi mübarizənin düzgün istiqamətdə inkişaf etməsindən xəbər verir. Qeyd etməliyəm ki, prezident seçkiləri kampaniyası zamanı namizədlər tərəfindən qaldırılmış məsələlərə diqqətlə baxılacaq və dəyərli təkliflər nəzərə alınacaqdır. Bir sözlə, bu 15 il ərzində biz çalışmışıq ki, Azərbaycanda siyasi mübarizə sivil qaydada təmin olunsun və buna böyük dərəcədə nail ola bilmişik. Fürsətdən istifadə edərək, seçkilərdə iştirak etmiş bütün namizədlərə öz təşəkkürümü bildirirəm, onlara gələcək fəaliyyətlərində uğurlar diləyirəm.

O ki qaldı, antimilli qruplaşmaya, onlar tam marginallaşıb. Bu seçkilər bir daha göstərdi ki, onların Azərbaycanın siyasi səhnəsində yeri yoxdur. Onların yerini Azərbaycan xalqı çoxdan müəyyən edib, bu da tarixin zibilxanasıdır. Xarici qrant, ianə hesabına fəaliyyət göstərən, öz dövlətinə qarşı çıxış edən, bir çox hallarda milli satqınlıq nümayiş etdirən ünsürlərə Azərbaycan xalqı bir daha öz yerini göstərdi. Seçkilərdən əvvəl və seçkilərdən sonra onların təşkil etdikləri yığıncaqlar bir daha onu göstərir ki, Azərbaycan xalqı heç vaxt imkan verməz ki, xaricdən idarə olunan qruplaşma Azərbaycanda hansısa mövqeyə sahib olsun. Biz bundan sonra da demokratik inkişafla bağlı səylərimizi artıracağıq, gələcək fəaliyyətimizdə də bu istiqamət önəmli yer tutacaqdır.

Azərbaycan bu 15 il ərzində uğurla inkişaf edib. Azərbaycan xalqı birlik, həmrəylik nümayiş etdirib. Bizim gələcək fəaliyyətimiz üçün milli ideologiyamız əsas rol oynayır. Azərbaycançılıq məfkurəsi Azərbaycanda tam bərqərar olub, Azərbaycan xalqı vahid milli ideya ətrafında birləşib və ölkəmiz çox uğurla inkişaf edir. Azərbaycanda dinlərarası, millətlərarası münasibətlər nümunəvi xarakter daşıyır. Azərbaycanda bütün xalqların, dinlərin nümayəndələri bir ailə kimi mehribanlıq şəraitində yaşayır və bundan sonra da yaşayacaqdır. Bizim siyasətimiz və cəmiyyətin istəkləri bu istiqamətdə atılacaq addımları da şərtləndirəcək.

Azərbaycan ölkə daxilində dinlərarası, millətlərarası münasibətlərin tənzimlənməsində çox böyük uğurlara nail olub və biz son 15 il ərzində bunu dünyaya nümayiş etdirmişik. Təkcə ona görə yox ki, özümüzü göstərək, ona görə ki, dünyada da müsbət meyillər üstünlük təşkil etsin. Əfsuslar olsun ki, son 15 il ərzində dünyada bu istiqamətdə çox təhlükəli proseslər cərəyan edib. İslamofobiya, ksenofobiya, ayrı-seçkilik artıq bəzi ölkələrdə dövlət siyasətinə çevrilir, başqa millətlərin, dinlərin nümayəndələrinə mənfi münasibət göstərilir. Ona görə biz çalışmışıq və bundan sonra da çalışacağıq ki, öz nümunəmizi göstərərək sübut edək ki, multikulturalizm yaşayır və yaşamalıdır. Eyni zamanda, biz öz milli mənəvi dəyərlərimizə sadiqik, buna bağlıyıq və təsadüfi deyil ki, 2016-cı və 2017-ci illər Azərbaycanda "Multikulturalizm" və "İslam Həmrəyliyi" illəri elan olunmuşdur.

Azərbaycan son 15 il ərzində beynəlxalq aləmdə böyük uğurlara imza atdı. Bizim dünyadakı mövqelərimiz möhkəmlənir, Azərbaycan çox müsbət beynəlxalq reputasiyaya malik olan bir ölkədir. Bizə qarşı dünya birliyi tərəfindən böyük rəğbət, dəstək var, biz bunu hiss edirik və əldə edilmiş nəticələr, qəbul edilmiş qərarlar bunu bir daha təsdiqləyir. Əlbəttə ki, bunun ən bariz nümunəsi bizim 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına seçilməyimiz olubdur. Bu, gənc müstəqil dövlət üçün çox böyük nailiyyətdir və bu, onu göstərir ki, dünya birliyinin mütləq əksəriyyəti bizi dəstəkləyir.

Biz son 15 il ərzində qonşu dövlətlərlə daha da sıx münasibətlər qura bildik. Deyə bilərəm ki, ikitərəfli münasibətlərimiz indi ən yüksək səviy-

yədədir, qonşu dövlətlərlə bizim heç bir problemimiz yoxdur, bütün məsələlər konstruktiv şəkildə öz həllini tapır və ikitərəfli əməkdaşlıq çoxtərəfli əməkdaşlığa şərait yaradır. Çoxtərəfli əməkdaşlıq da Azərbaycanın təşəbbüsü ilə baş verir. Bizim təşəbbüsümüzlə dörd qonşu ölkə ilə dörd çoxtərəfli əməkdaşlıq formatı yaradılıbdır və bu, işlək formatlardır. Biz bu üçtərəfli və dördtərəfli görüşlərdə çox önəmli məsələləri müzakirə edirik, həll edirik. Məsələlərin həlli bütün qonşu ölkələr, o cümlədən Azərbaycan üçün böyük fayda verir, eyni zamanda, qonşularla isti münasibətlərimiz regional sabitliyə, təhlükəsizliyə də öz müsbət təsirini göstərir.

Biz son 15 il ərzində beynəlxalq təşkilatlar çərçivəsində çox fəal iştirak etmişik, bundan sonra da fəal iştirak edəcəyik. Beynəlxalq təşkilatlar Azərbaycanın mövqeyini dəstəkləyir, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı bizim ədalətli mövqeyimizi dəstəkləyir. Təkcə onu demək kifayətdir ki, son 15 il ərzində bir çox ən mötəbər beynəlxalq təşkilatlar münaqişə ilə bağlı bizim təklifimizi qəbul edərək çox önəmli qətnamələr qəbul etmişlər. Orada göstərilir ki, münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. BMT-nin Baş Assambleyası, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası Parlament Assambleyası, Avropa Parlamenti, İqtisadi Əməkdaşlıq Təşkilatı, GUAM və digər təşkilatlar münaqişə ilə bağlı bizim mövqeyimizi dəstəkləyən qətnamələr qəbul etmişdir. Ondan əvvəlki dövrdə isə BMT Təhlükəsizlik Şurası və ATƏT qətnamələr qəbul etmişdir ki, bu, münaqişənin həlli üçün hüquqi baza yaradır.

Biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində beynəlxalq təşkilatların dəstəyini tam qazana bilmişik, Ermənistanın işğalçı siyasətini ifşa etmişik. Nail ola bilmişik ki, Ermənistan bu gün bütün regional layihələrdən təcrid edilmiş vəziyyətdədir. BMT Təhlükəsizlik Şurasının qətnamələri münaqişənin həlli üçün əsas bazadır, hüquqi bazadır. Dünyaya bir daha sübut edə bilmişik ki, biz haqlıyıq. Baxmayaraq ki, bizə qarşı kampaniyalar aparılır, erməni lobbi təşkilatları bizə qarşı kampaniyalar aparır. Ancaq bu kampaniyalar beynəlxalq təşkilatların qərarlarına təsir edə bilmədi. Biz siyasi və diplomatik uğurlar qazana bildik. Qondarma “Dağlıq Qarabağ”ı heç kim tanımır və əminəm ki, tanımayacaq. Orada keçirilən qondarma “referendum”u bizim qonşu ölkələrimiz və beynəlxalq təşkilatlar pislədilər.

Dağlıq Qarabağ Azərbaycanın tarixi torpağıdır. Hüquqi baza var. Biz 15 il ərzində bu bazanı möhkəmləndirdik. Biz son 15 il ərzində münaqişə ilə bağlı həqiqətləri dünya birliyinə çatdıra bilmişik, kitablar yazıldı, xəritələr, qədim xəritələr ortaya qoyuldu, təqdimatlar, sərgilər keçirildi. Ondan çox ölkə Xocalı qətliamını soyqırımı kimi tanıdı. Bizim diplomatik və siyasi uğurlarımız öz nəticəsini verməkdədir.

Bu gün Ermənistan dalan ölkəyə çevrilib. Biz gizlətmirik ki, səylərimiz nəticəsində Ermənistanı bütün regional layihələrdən təcrid etmişik və bu siyasət öz nəticələrini verməkdədir. Biz bundan sonra da bu siyasəti davam etdirəcəyik və əminəm ki, istədiyimizə nail olacağıq. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız və yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bunun başqa yolu yoxdur. Azərbaycan heç vaxt imkan verməz ki, bizim ərazimizdə ikinci qondarma erməni dövləti yaradılsın.

Onu da biz dünya birliyinə, ictimaiyyətinə çatdırırıq ki, nəinki Dağlıq Qarabağ, indiki Ermənistan bizim tarixi torpaqlarımızdır. Təkcə sözlə yox, biz sübutlarla dünya birliyinə bunu çatdırırıq. Elmi əsərlər yazılır, arxivlər qaldırılır, tarixi kitablar yazılır. Bunu sübut edən kifayət qədər tarixi sənəd var. XIX əsrin əvvəllərində İrəvan xanlığının əhalisinin 80 faizini azərbaycanlılar təşkil edirdi. Biz bir neçə deportasiyaya məruz qalmışıq. Bütün bunları biz çatdırmalıyıq, çatdırırıq və bu, öz səmərəsini verməkdədir.

Bizim Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı prinsipial mövqeyimiz Azərbaycan xalqı tərəfindən dəstəklənir. Biz bu siyasətdən dönməyəcəyik, bundan sonrakı illərdə də işğalçını bütün işlərdən, regional işlərdən təcrid edəcəyik, onları ifşa edəcəyik. Gələcək illərdə isə bizim gücümüz daha da artacaq. Çünki bu gün reallaşan böyük təşəbbüslər, layihələr bizim gücümüzü daha da artıracaqdır.

Eyni zamanda, biz yaxşı bilirik və bunu tarix, yaxın tarix və bölgədə gedən proseslər göstərir ki, bir çox hallarda beynəlxalq hüquq normaları işləmir. Kim güclüdür, o da haqlıdır. Biz bunu dəfələrlə görmüşük, bu gün də görürük. Demək

olar ki, son 15 il ərzində beynəlxalq davranış qaydaları dəyişdi, beynəlxalq hüquq normaları arxa plana keçdi. Güc amili daha önəm qazandı. Bu, reallıqdır. Biz real həyatda yaşayırıq və reallıqla hesablaşmalıyıq.

Bu reallıq bir də onu göstərir ki, bizim ordu quruculuğu ilə bağlı apardığımız siyasət yeganə düzgün siyasətdir. Bu siyasətin əvvəlində böyük işlər görüldü. Son 15 il ərzində ordu quruculuğu prosesi sürətlə getmişdir. Bəzi hallarda bizi tənqid edirdilər ki, siz nəyə görə bu məsələlərə bu qədər vəsait xərcləyirsiniz. Ancaq həyat göstərdi ki, biz düzgün siyasət aparmışıq. Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Təchizat, silah-sursat, texnika, döyüş qabiliyyəti baxımından ordumuz güclü ordular sırasındadır. Ordumuz üçün nə lazımdırsa, biz onu da təmin edirik. Ən müasir silahlar alınır və bundan sonra da alınacaq.

Ordumuzun gücünü düşmən də gördü. Aprel döyüşləri bizim şanlı tariximizdir, böyük qələbəmizdir. Azərbaycan Ordusu Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının torpaqlarının bir hissəsini işğalçılardan azad etdi, minlərlə hektar torpağa biz nəzarət edirik. Bu torpaqlara həyat qayıdır, bu torpaqlarda Azərbaycan bayrağı dalğalanır, insanlar qayıdır, yeni qəsəbə salınıbdır. Bizim hərbi qələbəmiz Azərbaycan xalqının gücünü, yenilməz ruhunu göstərir. Onu göstərir ki, Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayacaq. Bunu göstərir ki, biz öz torpaqlarımızı azad edəcəyik. Buna nail olmaq üçün daha da güclü olmalıyıq və olacağıq.

Cocuq Mərcanlı qəsəbəsi bizim dirçəliş rəmzimizə çevrilibdir. Cocuq Mərcanlıya qayıdan həyat hər bir Azərbaycan vətəndaşını ürəkdən sevindirir, onu qürurlandırır. Ermənilər, vandallar, Ermənistan rəhbərliyi bizim tarixi abidələrimizə də soyqırımı törədib, məscidlərimizi dağıdıb. Amma onlar başa düşmürlər ki, biz dağılmış məscidləri qəlbimizdə yaşadırıq. Biz dağılmış məscidləri qəlbimizdə ucaltmışıq. Torpaqlar işğaldan azad olunandan sonra vandallar tərəfindən dağıdılmış Şuşa məscidinin bənzərini biz Cocuq Mərcanlıya gətirdik, orada tikdik. Bu gün bu torpaqlarda bizim insanlarımız ibadət edə bilirlər. Bu, bir daha onu göstərir ki, biz heç vaxt işğalla barışmayacağıq.

Biz köçkünlərlə bağlı olan məsələləri də uğurla həll edirik. Yüzə yaxın qəsəbə salınıb, 280-290 min köçkün soydaşımız yeni evlərlə, mənzillərlə təmin edilibdir. Biz bundan sonra da onlara dəstək göstərəcəyik. Köçkünlərin məişət problemləri, onların məşğulluğu daim diqqət mərkəzindədir. Gələcəkdə də bu istiqamətdə addımlar atılacaqdır.

Ümumiyyətlə, deyə bilərəm ki, son 15 il ərzində biz sosial məsələlərin həllinə çox böyük diqqət göstərmişik. Bunu rəqəmlər də təsdiqləyir. Maaşlar təxminən 7 dəfə, pensiyalar 10 dəfədən çox artıb. Sosial infrastruktur yaradılır. 3100-dən çox məktəb tikilib və təmir edilib. 640-dan çox xəstəxana tikilib və təmir edilib. Bölgələrdə 43 Olimpiya İdman Mərkəzi yaradılıb. Yəni, sosial siyasət daim diqqət mərkəzindədir. Dəfələrlə bu məsələ ilə bağlı fikrimi bildirmişəm, bir daha demək istəyirəm ki, gələcək fəaliyyətimdə də Azərbaycan vətəndaşının maraqları, onun rifahı daim diqqət mərkəzində olacaqdır.

Nəzərə alsaq ki, növbəti illərdə biz çox ciddi islahatlar aparacağıq, islahatları dərinləşdirəcəyik, əminəm ki, vətəndaşlarımızın yaşayış səviyyəsi daha da yaxşılaşacaqdır. Yoxsulluğa qarşı mübarizədə Azərbaycan böyük uğurlara imza atıb. Demək olar ki, bu məsələlərlə məşğul olan bütün beynəlxalq təşkilatlar bunu nümunə kimi göstərirlər ki, yoxsulluq təxminən 50 faizdən 5,4 faizə düşübdür. İşsizliklə bağlı böyük işlər görülüb. İşsizlik Azərbaycanda 5 faiz səviyyəsindədir. Son 15 il ərzində əhalinin sayı 1,5 milyon nəfər artıb. Ancaq iş yerləri də təxminən o səviyyədə artıbdır. Mən bunu bir daha demək istəyirəm ki, gələcək fəaliyyətimizdə biz bu amili daim diqqətdə saxlayacağıq. Çünki bizdə mövcud olan müsbət demoqrafik dinamika tələb edir ki, iş yerlərinin yaradılması prosesi daim getsin. Əgər nəzərə alsaq ki, indi dünyada, o cümlədən Azərbaycanda yeni texnologiyalar tətbiq olunur və bu texnologiyalar bəzi hallarda insan əməyini aradan götürür, yeni texnoloji müəssisələrin yaradılması bizim planlarımızdadır. Biz yeni iş yerlərinin yaradılması ilə bağlı daha çevik və səmərəli siyasət aparmalıyıq.

Bu illər ərzində Azərbaycan intellektual məhsulun ixracatçısına çevrilibdir. "ASAN xidmət" artıq başqa ölkələrdə tətbiq olunur, bizim təcrübəmiz öyrənilir. Bu, ictimai xidmətlər sahəsində bir inqilab idi. Bu, sosial layihədir. Çünki bu layihə insanlara xidmət göstərir. On üç "ASAN xidmət" mərkəzimiz var. Bu ilin sonuna qədər onların sayı 15-ə, gələn ilin sonuna qədər isə 20-yə ça-

tacaqdır. "ASAN xidmət" mərkəzlərində 20 milyondan çox müraciət qeydə alındı və bu qurumu bəyənmə əmsalı 100 faizə yaxındır.

Bu, bir daha bizim niyyətimizi, siyasətimizi göstərir. Korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə aparılır, bundan sonra da aparılacaqdır. Bu istiqamətdə inzibati tədbirlər, cəza tədbirləri görüləcək və ən böyük səmərə verən sistem xarakterli tədbirlər, institusional islahatlar həyata keçiriləcəkdir. "ASAN xidmət" onların arasında xüsusi yer tutur. Azərbaycan vətəndaşları görürlər ki, biz tədricən bu qurumun funksiyalarını genişləndiririk.

Biz son 15 il ərzində iqtisadi islahatlar aparmışıq və iqtisadi məsələlərə xüsusi diqqət yetirmişik. Çünki mən dəfələrlə demişəm və həyat bunu göstərir, ancaq iqtisadiyyatı güclü olan ölkələr müstəqil siyasət apara bilərlər. Əgər sən kimdənsə asılısansa, – ya kreditdən asılısan, ya başqa dövlətdən asılısan, – heç vaxt, sözün əsl mənasında, müstəqil siyasət aparmaq iqtidarında olmayacaqsan. Ona görə biz çalışırdıq ki, iqtisadi müstəqilliyə çataq və buna da nail olduq. Biz indi heç bir kreditə möhtac deyilik, özümüz kreditlər veririk. Bizim dövlət borcumuz ümumi daxili məhsulumuzun 20 faizini təşkil edir. Mən qarşıya vəzifə qoymuşam və biz gələcək illərdə dövlət borcumuzu daha da aşağı səviyyəyə salmalıyıq. İqtisadiyyat son 15 il ərzində 3,2 dəfə artıbdır. Bu, çox böyük göstəricidir. Əlbəttə ki, bu göstəricinin tərkibində neft amili xüsusi yer tutur. Ancaq bununla bərabər, bizim qeyri-neft ixracımız 15 il ərzində dörd dəfədən çox artıbdır. Bu da onu göstərir ki, bizim islahatlarımız böyük səmərə verir.

Sənaye istehsalı 2,6 dəfə artmışdır. Valyuta ehtiyatlarımız 24 dəfə artmışdır, bu gün 44 milyard dollara bərabərdir. Ölkəmizə 230 milyard dollardan çox sərmayə qoyulub. Ölkəmizdə çox gözəl investisiya iqlimi vardır. Xarici və yerli sərmayə ölkəmizə bundan sonra da qoyulacaqdır. Davos Ümumdünya İqtisadi Forumu Azərbaycanı rəqabətqabiliyyətliliyinə görə 35-ci yerə layiq görübdür. İnkişafda olan ölkələr arasında inklüziv inkişaf indeksinə görə biz üçüncü yerdəyik. Yəni, bu göstəricilər özlüyündə hər şeyi açıq-aydın bildirir, onu göstərir ki, iqtisadi sahədə əldə edilmiş uğurlar, nailiyyətlər tarixi nailiyyətlərdir.

Bu gün də Azərbaycan iqtisadiyyatı inkişaf edir. Biz dünyada baş vermiş böhranlar zamanı da bu böhranlardan ən az itkilərlə çıxa bilmişik. Artıq bu böhranlar arxada qalıb və iqtisadi sabitlik, maliyyə sabitliyi, əlbəttə ki, həm investisiya iqliminə müsbət şərait yaradır, həm də biznes mühitini daha da yaxşılaşdırır. Gələcək illərdə biznes mühitinin yaxşılaşdırılması istiqamətində əlavə addımlar atılacaq, iqtisadi islahatlar dərinləşəcək. İqtisadi sahədə tam şəffaflıq təmin edilməlidir, bütün xoşagəlməz hallara son qoyulmalıdır. Bütün iqtisadi qurumlar dünyanın inkişaf etmiş ölkələrində olan müsbət təcrübəni tətbiq etməlidirlər. Belə göstərişlər verilibdir. Əminəm ki, Azərbaycan vətəndaşları, sahibkarlar yaxın gələcəkdə bizim islahatlarımızın müsbət təsirini görəcəklər.

Sahibkarlığın inkişafı sürətlə getmişdir. Bu illər ərzində sahibkarlara 2 milyard manatdan çox güzəştli şərtlərlə kreditlər verilmişdir. Bu kreditlər hesabına və sahibkarların öz vəsaiti hesabına yüzlərlə, bəlkə də minlərlə yeni müəssisə yaradılmışdır və qeyri-neft sektorunun inkişafı təmin edilmişdir. Növbəti illər ərzində, qeyd etdiyim kimi, iqtisadi sahədə islahatlar təmin ediləcək, dərinləşəcək ki, Azərbaycan iqtisadiyyatı dayanıqlı şəkildə inkişaf etsin və biz neft-qaz amilindən asılılığı azaldaq.

Bu illər ərzində biz yeni texnologiyalara böyük diqqət vermişik. Azərbaycan dünyanın məhdud sayda üzvü olan kosmik klubuna daxil oldu. Bizim indi iki peykimiz var və üçüncü peykin orbitə buraxılması nəzərdə tutulur. Azərbaycan bu sahədə də liderlik nümayiş etdirir. Bu, onu göstərir ki, biz gələcəyə baxırıq və gələcək də elmi-texnoloji inkişafla bağlıdır. Məhz buna görə biz təhsilə, elmə diqqət veririk, növbəti illərdə daha da böyük diqqət göstərməliyik. Çünki hər bir dövlətin uğurlu inkişafı texnoloji təminata əsaslanır. Biz ən müasir texnologiyaları Azərbaycanda tətbiq etməliyik. Buna nail olmaq üçün bizdə hazırlıqlı kadr potensialı olmalıdır, bu istiqamətdə bundan sonrakı illərdə də işlər görüləcəkdir.

Əlbəttə ki, bizim iqtisadiyyatımızın əsas hissəsini neft-qaz sektoru təşkil edir. Təbii ki, son 15 il ərzində bu sahəyə xüsusi diqqət göstərilirdi və bundan sonra da göstəriləcək. Bu illər ərzində biz doğrudan da tarixi nailiyyətlərə nail ola bilmişik. Ulu öndər Heydər Əliyevin öz əlləri ilə təməlini qoyduğu Bakı-Tbilisi-Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verildi və beləliklə, biz

böyük gəlirlər əldə etməyə başlamışdıq. Ondan bir il sonra Bakı-Tbilisi-Ərzurum qaz kəməri Azərbaycanı qaz ixrac edən ölkəyə çevirmişdir. Hazırda biz Cənub Qaz Dəhlizinin icrası ilə məşğuluq. Bu layihə bizim təşəbbüsümüzlə həyata keçirilir. 2012-ci ildə bu layihəyə start verildi. Ondan əvvəlki illər isə demək olar ki, nəticəsiz keçmişdir. Çünki Azərbaycan qazını böyük həcmlərlə Avropa bazarlarına çıxarmaq üçün bir neçə il ərzində müzakirələr gedirdi, amma heç bir nəticə yox idi. Biz bunu görəndə artıq bildik ki, ancaq özümüzə güvənməliyik və tarixi qərarlar qəbul edildi. Çox çətin layihəni uğurla icra edirik. Bu, həm iqtisadi, həm texniki cəhətdən maliyyə tutumlu layihədir. Cənub Qaz Dəhlizinə qoyulan sərmayə 40 milyard dollara bərabərdir. Bu vəsaitin böyük hissəsi xarici tərəfdaşlar, banklar tərəfindən qoyulur. Ona görə xüsusilə bu da dünyada mövcud olan iqtisadi böhrana təsadüf etdi və bu vəsaiti ölkəmizə cəlb etmək o qədər də asan məsələ deyildi. Biz, əlbəttə, diplomatik, siyasi və iqtisadi yollarla buna nail ola bilmişik. “Cənub Qaz Dəhlizi” layihələrinin üçü bu il istifadəyə veriləcəkdir – “Şahdəniz-2”, “Cənubi Qafqaz Kəməri” və TANAP. Biz artıq Avropanın, Avrasiyanın enerji xəritəsini dəyişdirmişik. Bundan sonrakı illər ərzində Azərbaycan Avrasiyada çox önəmli enerji resurslarını dünya bazarlarına çıxaran ölkə kimi fəaliyyət göstərəcək. Əlbəttə, bizə əlavə gəlirlər gələcək ki, bu gəlirləri də biz ölkəmizin inkişafına yönəldəcəyik. Biz bu illər ərzində “Azəri-Çıraq-Günəşli” yatağının gələcək işlənilməsi ilə bağlı önəmli addımlar atmışıq, yeni kontrakt imzalanıb. Kontraktın müddəti 2050-ci ilə qədər uzadılıb və biz öz payımızı artıra bilmişik. Eyni zamanda, 3,6 milyard dollar bonus almışıq və onun birinci hissəsi artıq bu il xəzinəyə daxil olub. Növbəti illərdə biz neft-qaz sektorunda digər perspektiv strukturlar ətrafında tərəfdaşlarla işləyəcəyik. Demək olar ki, neft-qaz sektorunda Azərbaycan istədiyinə artıq nail olubdur və bir-iki ildən sonra Cənub Qaz Dəhlizi tam istifadəyə veriləcəkdir.

Biz bu illər ərzində ölkə daxilində enerji təminatını yaxşılaşdıra bilmişik. Böyük infrastruktur layihələri icra edilib. Son 15 il ərzində 30-dan çox elektrik stansiyası tikilib. Onların generasiya gücü 3900 meqavata bərabərdir. Müqayisə üçün deyə bilərəm ki, bizim indi ümumi generasiya gücümüz təqribən 6,5 min meqavata bərabərdir. Onun 3,9 min meqavatını biz 15 il ərzində yarada bilmişik. Azərbaycan elektrik enerjisini idxal edən ölkədən ixrac edən ölkəyə çevrilmişdir.

Qazlaşdırma bu ilin sonuna qədər Azərbaycanda 95 faizə çatacaqdır. Hesab edirəm ki, bu, dünya miqyasında ən yüksək göstəricilərdən biridir və biz bundan sonra da bu işlərlə məşğul olacağıq.

Bu ilin sonuna qədər, – əgər 2004-cü ilin əvvəlindən hesablasaq, – ölkəmizdə 15 min kilometr yeni yol çəkilişi təmin edilmiş olacaqdır. Bu proses bundan sonrakı illərdə də davam edəcək. Bütün kənd yolları ilə bağlı təkliflər artıq bizə daxil olub. İmkan olduqca biz bütün kənd yollarını yenidən quracağıq. Bu istiqamətdə artıq böyük işlər görülübdür.

2004-cü ildə Bakının su təchizatı ilə bağlı problemləri çox ciddi idi. O vaxt Bakı sakinlərinin 29 faizi davamlı təmiz içməli su ilə təmin olunurdu. Bu gün bu rəqəm 81 faizə çatıbdır. Ölkə üzrə isə 2004-cü ildə təqribən 20 faiz əhali içməli su ilə təmin edilirdi, hazırda bu rəqəm 67 faizə çatıbdır. Bundan sonrakı illərdə bu günə qədər görə bilmədiyimiz işləri biz başa çatdıracağıq. Bütün şəhərlərdə, bütün kəndlərdə insanlar təmiz içməli su ilə təmin olunmalıdırlar. Bizim proqramlarımızda bu var. Bu da infrastruktur layihələri arasında xüsusi yer tutan sahədir.

Kənd təsərrüfatının inkişafı üçün böyük meliorasiya tədbirləri görülübdür, dörd böyük su anbarı tikilib və son bir neçə il ərzində biz hər il 100 mindən çox hektara yeni su mənbəyi gətiririk. Əminəm ki, kənd təsərrüfatının inkişafına bunun çox böyük təsiri olacaqdır.

Biz son illərdə ölkə daxilində nəqliyyat infrastrukturu ilə çox ciddi məşğul olmuşuq. Demək olar ki, nəqliyyat infrastrukturuna çox böyük vəsait qoyulubdur. Biz yeddi aeroport tikmişik, onlardan altısı beynəlxalq statusa malikdir. O aeroportlar indi işləyir, xaricdən gələn turistlərin sayır artır. Ələtdə Xəzər dənizində ən böyük yeni ticarət limanı tikilir, yaxın gələcəkdə istifadəyə veriləcəkdir. Dəmir yolu infrastrukturu yeniləşir. Azərbaycan Xəzər dənizində ən böyük donanmaya malikdir. Burada da biz liderliyi möhkəmləndiririk. Gəmiqayırma zavodunun tikintisi artıq xaricdən gəmilərin alınmasına ehtiyac qalmadığını göstərir.

Bir sözlə, nəqliyyat infrastrukturunun yeniləşməsi, yaradılması, əlbəttə ki, daxili tələbat idi.

Eyni zamanda, biz qonşularla əməkdaşlıq edərək regional infrastrukturu da yaratmışıq. Keçən ilin oktyabrında Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı növbəti tarixi nailiyyətimizdir. Qonşularla birlikdə bu tarixi yolu biz istifadəyə verdik və indi Azərbaycan ərazisindən yüklərin daşınması gündən-günə artmaqdadır. Bununla paralel olaraq, hazırda biz Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması ilə məşğuluq və Azərbaycan ərazisində bütün işləri tamamladıq. İndi biz, ümumiyyətlə, Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması ilə məşğuluq. Əminəm ki, qonşu ölkələrlə əməkdaşlıq edərək bu yolun çatışmayan hissəsi də yaxın gələcəkdə tikilib istifadəyə veriləcək. Beləliklə, açıq dənizlərə çıxışı olmayan ölkə olan Azərbaycan Avrasiyanın nəqliyyat mərkəzlərindən birinə çevrilir. Bu, real işlərin nəticələridir.

Bizim coğrafi yerləşməyimiz bir tərəfdən əlverişlidir, digər tərəfdən əlverişsizdir. Biz Avropa ilə Asiya arasında yerləşirik, ancaq, eyni zamanda, bizim açıq dənizlərə çıxışımız yoxdur. Əgər olsa idi, onda heç neft və qaz kəmərlərini tikməyə ehtiyac qalmazdı. Ona görə, belə qapalı şəraitdə Avrasiyanın nəqliyyat mərkəzlərindən birinə çevrilməyimiz tarixi nailiyyətimizdir.

Qeyd etməliyəm ki, biz digər sahələrdə də böyük uğurlar qazanmışıq. Bir çıxışda onların hamısını sadalamaq mümkün deyil. Təkcə onu demək istəyirəm ki, 2004-cü ildə Azərbaycana xaricdən bir milyon qonaq gəlmişdirsə, bu il gələcək qonaqların sayı üç milyona çatacaqdır. Biz ölkəmizi dünyada tanıtdıra bilmişik. Beynəlxalq tədbirlərin keçirilməsi, Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, Formula 1 yarışları, siyasi, humanitar tədbirlər Azərbaycanı dünyaya təqdim etdi. Bununla paralel olaraq, xalqımızın qonaqpərvərliyi, gözəl iqlim, təhlükəsizlik, gözəl infrastruktur, şərait, tarixi abidələrimiz Azərbaycanı sürətlə inkişaf edən böyük turizm mərkəzinə çevirir. Əlbəttə, bu, ölkəmizə valyuta gətirir, bu, ölkəmizi daha da gücləndirir və bu sahədə minlərlə iş yeri yaradılır və yaradılacaqdır.

Biz böyük idman uğurları ilə fəxr edə bilərik. Bizim idmançılarımız son 15 il ərzində Olimpiya Oyunlarında, dünya, Avropa çempionatlarında böyük qələbələr qazanmışlar. Avropa Oyunlarında biz ikinci yerə layiq görüldük, İslam Həmrəyliyi Oyunlarında isə bütün müsəlman ölkələri arasında birinci yerə nail olduq. Biz Rio Olimpiya Oyunlarında medalların sayına görə 14-cü yerdəyik. Tarixi qələbələrdir. Hara baxsaq, hansı sahəyə baxsaq biz inkişaf, nəticə və uğur görürük. Nəyə görə? Çünki bizim siyasətimiz xalq tərəfindən dəstəklənir. Bir daha qayıdıram çıxışımın əvvəlinə, xalq-iqtidar birliyi bütün bu uğurları mümkün edir. Biz regional inkişafla çox ciddi məşğul olmuşuq. Üç regional inkişaf proqramı qəbul edilibdir. Üçüncüsü bu il başa çatır. Regionların siması dəyişilib, şəhərlər abadlaşıb, gözəlləşib. Bakı dünyanın ən gözəl şəhərlərindən birinə çevrilibdir. Bakı şəhəri bizim qürur mənbəyimizdir.

Yəni, son 15 il ərzində kifayət qədər uğurlar, nailiyyətlər var. Ancaq biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik. Biz gələcəyə baxmalıyıq və baxırıq. Növbəti illərdə görüləcək işlər haqqında bizim çox aydın təsəvvürümüz, planlarımız, proqramlarımız var. Biz qeyd etdiyim sahələr üzrə səylərimizi davam etdirəcəyik, Azərbaycanı daha da qüdrətli ölkəyə çevirəcəyik. Hər bir sahə üzrə bizim konkret proqramlarımız, planlarımız var. Həm beynəlxalq məsələlərlə, həm bölgələrimizin möhkəmləndirilməsi, siyasi-iqtisadi islahatların dərinləşməsi, sosial siyasət, ordu quruculuğu ilə bağlı bizim konkret proqramlarımız var. Güclü siyasi iradə, böyük maliyyə resurslarımız var. Biz bu maliyyə resurslarını öz əlimizlə yaratmışıq və biz indi öz hesabımıza yaşayırıq. Xalq-iqtidar birliyi var. Ona görə mən əminəm ki, bütün Azərbaycan xalqı və biz hamımız gələcəyə çox böyük nikbinliklə baxırıq. Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar.

Çıxışımın sonunda bir məsələni də qeyd etməliyəm. Bütün bu uğurlar ancaq müstəqillik dövründə mümkün olmuşdur. Azərbaycan xalqı bir daha görür ki, müstəqilliyimizin üstünlükləri nədən ibarətdir. Bizim taleyimiz öz əlimizdədir, biz öz taleyimizin sahibiyik. Biz ancaq müstəqillik dövründə belə böyük uğurlara nail ola bilərdik. Bu gün müstəqillik bizim üçün ən böyük sərvətdir, ən böyük nemətdir, ən böyük xoşbəxtlikdir. Biz bundan sonra da müstəqillik və qələbələr yolu ilə gedəcəyik.

Eşq olsun Azərbaycan xalqına!

Yaşasın Azərbaycan!

***

Bununla da andiçmə mərasimi başa çatdı.

# Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib

## Ümummilli lider Heydər Əliyevin xatirəsi dərin ehtiramla yad olunub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 18-də andiçmə mərasimindən sonra ailə üzvləri ilə birlikdə Fəxri xiyabana gəlib müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət edərək xatirəsini ehtiramla yad edib.



Dövlət başçısı Ulu Öndərin məzarı önünə əklil qoydu, onun ruhu qarşısında baş əydi.

Sonra Prezident İlham Əliyev və ailə üzvləri görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət etdilər və üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin məzarlarının üstünə də gül dəstələri düzüldü.

# Prezident İlham Əliyev Şəhidlər xiyabanını ziyarət edib

### 20 Yanvar şəhidlərinin xatirəsi yad olunub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 18-də ailə üzvləri ilə birlikdə xalqımızın müqəddəs and yeri olan Şəhidlər xiyabanını ziyarət edib.

Dövlətimizin başçısı Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının əziz xatirəsini ehtiramla yad etdi, "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu.







Prezident İlham Əliyev və ailə üzvləri paytaxt Bakının mənzərəsini seyr etdilər.
Sonra xatirə şəkli çəkdirildi.

# Prezident İlham Əliyev Dövlət Bayrağı Meydanında olub

**Dövlət Bayrağı Meydanında təntənəli mərasim keçirilib**






Aprelin 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ailə üzvləri Dövlət Bayrağı Meydanında olublar.





Fəxri qarovul dəstəsinin rəisi Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi.

Dövlətimizin başçısı əsgərləri salamladı.

Azərbaycan Respublikasının dövlət himni səsləndi.

Azərbaycan Respublikası Prezidentinin, Silahlı Qüvvələrin Ali Baş Komandanının şərəfinə yaylım atəşi açıldı.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlətimizin başçısının qarşısından keçdi.

Sonda xatirə şəkli çəkdirildi.

# Prezident İlham Əliyev Formula 1 Azərbaycan Qran-Prisinin əsas yarışını izləyib

**Bakıda Formula 1 Azərbaycan Qran-Prisinin əsas mərhələsi keçirilib**



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Formula 1 üzrə dünya çempionatının dördüncü mərhələsinin – Azərbaycan Qran-Prisinin əsas yarışına baxıblar.

Dövlətimizin başçısı və birinci xanım əvvəlcə yarışın paytaxtın Azadlıq meydanındakı idarəetmə mərkəzində yaradılan şəraitlə tanış oldular.

Məlumat verildi ki, böyük ərazini əhatə edən kompleksdə yarışa nəzarət binası, Beynəlxalq Avtomobil Federasiyasının, Formula 1 rəhbərliyinin ofisləri, eləcə də iştirakçıların hər biri üçün dayanacaqlar tikilib. Kompleksdə Paddok klubun üzvləri üçün də yerlər nəzərdə tutulub. Paddok klubun üzvləri burada pit-stop əməliyyatlarını rahatlıqla izləyirlər. Məhz bu ərazidə yarışın startı və finişi yerləşir.

Sonra pilotların paradı və himn mərasimi keçirildi.

Paradda və himn mərasimində pilotları azyaşlılar müşayiət etdilər. Formula 1 şirkətinin və Beynəlxalq Avtomobil Federasiyasının “Gələcəyin ulduzları” adlı birgə təşəbbüsü çərçivəsində qəbul edilən yeni qərara əsasən, builki mövsümdən etibarən həm parad, həm də himn mərasimlərində pilotlar azyaşlılar tərəfindən müşayiət ediləcəklər.



Daha sonra Azərbaycan Respublikasının dövlət himni ifa olundu. Dövlət himnini Azərbaycanın Əməkdar Artisti, Prezident təqaüdçüsü İsfar Sarabskinin pianoda müşayiəti ilə "Səs Azərbaycan" musiqi yarışmasının qalibi Samirə Əfəndi ifa etdi.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Fox Sport" televiziya kanalına müsahibə verdi.

Prezident İlham Əliyev: Bu, dünya əhəmiyyətli bir tədbirdir. Biz çox şadıq ki, üçüncü dəfə Formula 1 Bakıda keçirilir. Hamı yarışdan həzz alır. Əminəm ki, qonaqlar da həzz alır, onlar burada bizimlədirlər. Onlar Azərbaycan xalqının qonaqpərvərliyini görürlər. Qonaqlar şəhərimizin necə də gözəl olduğunu görürlər və bu, möhtəşəm bir tədbirdir. Biz çox şadıq.

**Müxbir:** Siz bu küçələri tanıyırsınız, bu gün kim qalib gələcək?

**Prezident İlham Əliyev:** Mən bilmirəm. Hər kəsə qalib olmağı arzu edirəm və qalib gələn hər kəs burada qəhrəman olacaq.

**Müxbir:** Təşəkkür edirəm.

***

Sonra Formula 1 Azərbaycan Qran-Prisinin 51 dövrədən ibarət final mərhələsinə start verildi.

Final mərhələsində hər birində iki pilot olan on komandanın bir gün əvvəl keçirilən sıralanma yürüşünün nəticəsinə əsasən start xəttinə ən yaxın məsafədə "Ferrari" komandasının pilotu Sebastian Fettel, "Mercedes" komandasının sürücüləri Luis Hamilton və Valtteri Bottas dayandılar.

Bakı trekinin uzunluğu 6 kilometr, ümumu məsafəsi isə 306 kilometrdir. Təhlükəsizliyin ən yüksək səviyyədə təmin olunduğu Bakı treki ən sürətli yarışlar kateqoriyasına daxildir. Trekin ən


Fikirləri
dəyişən yarış
27–29 Aprel


ENGINEERED INSANITY




geniş yerinin eni 13, ən dar hissəsinin eni isə İçərişəhər ətrafında, o cümlədən 7-ci və 8-ci döngələrdə 7,6 metr təşkil edir.

Gərgin idman mübarizəsi şəraitində keçən Qran-Prinin əsas mərhələsində 20 pilotdan 13-ü finiş xəttinə çata bildi. Azərbaycan Qran-Prisinin qalibi "Mercedes" komandasının britaniyalı pilotu Luis Hamilton oldu. Pilot məsafəni 1 saat 43 dəqiqə 44,291 saniyəyə başa vurdu. "Ferrari"nin sürücüsü Kimi Raikkonen ikinci, "Force India" komandasının pilotu Serxio Peres isə üçüncü oldular.

Sonra qaliblərin mükafatlandırılması mərasimi keçirildi.

Qran-Prinin qalibi Luis Hamiltona kuboku Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təqdim etdi.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Konstruktorlar kubokunu "Mercedes" komandasının nümayəndəsi Uilyam Qolbourna təqdim etdi.

İkinci yerin sahibi, "Ferrari"nin sürücüsü Kimi Raikkonenə kuboku Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov, üçüncü yeri tutan "Force India" komandasının pilotu Serxio Peresə isə kuboku Azərbaycan Avtomobil Federasiyasının prezidenti Anar Ələkbərov təqdim etdilər.

Qeyd edək ki, Bakı trekində qalib gəlməklə Luis Hamilton "Ferrari"nin pilotu Sebastian Fetteli qabaqlayaraq çempionatda liderliyi ələ alıb. Bu qələbə sayəsində xallarının sayını 70-ə çatdıran britaniyalı pilot birinci sıraya yüksəlib. İkinci sıraya geriləyən S.Fettelin aktivində 66 xal var. Azərbaycan Qran-Prisində ikinci yeri tutan "Ferrari"nin pilotu Kimi Raikkonen xal ehtiyatını 48-ə çatdıraraq üçüncü sırada qərarlaşıb. Qran-Pridə üçüncü olan "Force India" komandasının pilotu Serxio Peres isə 9-cu sıraya yüksəlib.




Komandaların yarışında isə “Ferrari” komandası 114 xalla birinci sıradadır. “Mercedes” 110 xalla ikinci, “Red Bull Racing” isə 55 xalla üçüncü sırada qərarlaşıblar.

Bakıda Formula 1 Azərbaycan Qran-Prisinə aprelin 27-də start verilib. Yarışın birinci günündə pilotlar 6 kilometrlik Bakı şəhər trekində iki sərbəst yürüşdə güclərini sınayıblar. Birinci sərbəst yürüşdə “Mercedes” komandasının pilotu Valtteri Bottas qalib gəlib. “Red Bull Racing” komandasının pilotu Daniel Rikkardo ikinci, “Force India”nın pilotu Serxio Peres isə üçüncü olublar. İkinci sərbəst yürüşdə “Red Bull Racing”in pilotu Daniel Rikkardo fərqlənib. “Ferrari”nin pilotu Kimi Raykonnen ikinci, “Red Bull Racing”in digər pilotu Maks Ferstappen isə üçüncü sırada qərarlaşıblar. Yarışın üçüncü sərbəst yürüşü aprelin 28-də keçirilib. Gərgin idman mübarizəsi şəraitində keçən yürüşdə “Ferrari” komandasının pilotu Sebastian Fettel birinciliyə yüksəlib. “Mercedes”in pilotu Luis Hamilton yürüşü ikinci, “Ferrari”nin digər pilotu Kimi Raikkonen isə üçüncü yerdə başa vurub. Ötən gün keçirilmiş sıralanma yürüşündən sonra isə Qran-Pridə pilotların düzülüşü müəyyənləşib.

Qran-Pri çərçivəsində Formula 2 üzrə yarışların qalibləri də müəyyənləşib. Aprelin 28-də keçirilmiş ilk yarışda “Dams” komandasının pilotu Aleksander Albon qalib adını qazanıb. “ART Grand Prix”in pilotu Cek Aitken ikinci, “Charouz Racing System”in üzvü Antonio Fuoko üçüncü yeri tutublar. Aprelin 29-da keçirilən ikinci yürüşün qalibi isə “ART Grand Prix” komandasının pilotu Corc Russel olub. “Carlin” komandasının pilotu Serjio Sette Kamara finiş xəttinə ikinci, “Pertamina Prema Theodore Racing”in pilotu Nik De Vries üçüncü çatıblar.




Xatırladaq ki, 2016-cı ildə Bakıda keçirilən Formula 1 Avropa Qran-Prisinin qalibi "Mercedes"in almaniyalı pilotu Niko Rosberq olub. Ötən il isə Formula 1 Azərbaycan Qran-Prisi "Red Bull Racing" komandasının avstraliyalı pilotu Daniel Rikkardonun qələbəsi ilə başa çatıb.

Dünyada yarım milyard tamaşaçı auditoriyası olan Formula 1 yarışının növbəti dəfə Bakıda keçirilməsi ölkəmizin beynəlxalq idman aləmində qazandığı uğurları bir daha əks etdirir. Son illərdə birinci Avropa Oyunlarına, IV İslam Həmrəyliyi Oyunlarına və bir çox nüfuzlu beynəlxalq yarışlara uğurla ev sahibliyi edən paytaxt Bakının Formula 1 kimi mühüm yarışı da yüksək səviyyədə təşkil etməsi bir daha Azərbaycanın idman dövləti olduğunu, bu missiyanın ölkəmizin timsalında hər zaman özünü doğrultduğunu təsdiqləyir. Bütün bunlar da ölkəmizin dünyada getdikcə artan nüfuzundan, siyasi və iqtisadi sahədə qazandığı uğurların yetərincə olmasından qaynaqlanır. Bu, həm də onu göstərir ki, qədim tarixə, zəngin mədəniyyətə, milli mənəvi dəyərlərə, ən əsası da parlaq idman ənənələrinə malik ölkəmiz qarşıya qoyulan hər bir məqsədə, hər bir niyyətə uğurla çatır.

Formula 1 yarışlarının Bakı mərhələsi dünyada böyük maraq toplayıb. Almaniyalı Herman Tilke tərəfindən layihələndirilən şəhər trası nadirliyi ilə seçilir. Ona görə ki, Monte-Karlo, Melburn, Monako və Sinqapur kimi Azərbaycan Qran-Prisi də şəhər trasına ev sahibliyi edir. Belə ki, Bakıda keçirilən yarış zamanı avtomobillər Dənizkənarı Bulvar boyunca hərəkət edir, şəhərin ən qədim hissəsi olan və UNESCO-nun dünya irsi siyahısına daxil edilən İçərişəhər Tarix-Memarlıq Qoruğunun ətrafında dövr edirdi. Beləliklə, yarışı izləyən televiziya tamaşaçıları və qonaqlar şəhərimizin gözəlliyini görmək imkanı qazanırlar.

Beləliklə, növbəti Formula 1 Azərbaycan Qran-Prisi uğurla başa çatdı. Bu dəfə də bu mötəbər yarışı qəbul edən Bakı dünya tamaşaçılarına və şəhərimizin qonaqlarına maraqlı idman yarışı təqdim etməklə yanaşı, Azərbaycanın belə mötəbər yarışlara uğurla ev sahibliyi etdiyini nümayiş etdirdi. Qarşıda hələ neçə-neçə mötəbər beynəlxalq yarışların keçiriləcəyi paytaxtımız yenə də dünyanın diqqət mərkəzinə çevrildi, Formula 1 tamaşaçıları ölkəmizdə gedən inkişaf proseslərinin şahidi oldular.

# Prezident İlham Əliyev 9 May – Qələbə Günü münasibətilə Bakıda keçirilən mərasimdə iştirak edib

**İkinci Dünya müharibəsində faşizm üzərində Qələbənin ildönümü qeyd edilib**



İkinci Dünya müharibəsində faşizm üzərində Qələbənin 73-cü ildönümü münasibətilə Bakıda təntənəli mərasim keçirilib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Azərbaycan xalqı faşizm üzərində tarixi Qələbəyə sanballı töhfələr verib. İkinci Dünya müharibəsində keçmiş SSRİ-nin qazandığı tarixi Qələbədə çox böyük payı olan Azərbaycan xalqı özünün 700 min



oğul və qızını cəbhəyə yola salıb. Onların 300 mindən çoxu döyüşlərdə həlak olub. Həmin müharibə zamanı göstərdikləri igidliyə görə 123 nəfər azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib. Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçib, yüzlərlə həmyerlimiz isə partizan dəstələrinin tərkibində vuruşub. Bu Qələbədə Azərbaycan nefti həlledici rol oynayıb. Müharibə illərində Sovet İttifaqında hasil olunan neftin dörddəüç hissəsi, aviasiya benzini və yüksəkkeyfiyyətli motor yağlarının 85-90 faizi Azərbaycanın payına düşüb.

Azərbaycanın əsgər və zabitləri Brest, Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Ukrayna, Belarus, Pribaltika cəbhələrində cəsarətlə vuruşublar. Azərbaycanlılardan ibarət 416-cı, 402-ci, 396-cı, 223-cü, 77-ci milli diviziyalar Simferopolun, Odessanın, 77-ci diviziya Polşa və Çexoslovakiyanın, 223-cü diviziya isə Yuqoslaviyanın azadlığı uğrunda fəal iştirak ediblər.

İkinci Dünya müharibəsində şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının tarixi şücaətləri yaddaşlardan silinmir. Bu qəhrəmanlıq gənc nəslə vətənpərvərlik nümunəsidir. Ulu öndər Heydər Əliyev 1993-cü ildə Azərbaycanda hakimiyyətə qayıdandan sonra müharibə veteranlarının hüquqlarını bərpa etdi. Ümummilli Lider onları "Xalqımızın qızıl fondu" adlandırırdı. Prezident İlham Əliyev də müharibə veteranlarının sosial problemlərinin həlli istiqamətində daim mühüm addımlar atır. 9 May – Qələbə bayramı ərəfəsində onlara birdəfəlik maddi yardımlar göstərilir. Bu isə həmin



kateqoriyadan olan insanların sosial vəziyyətinin daim diqqət mərkəzində olduğunu nümayiş etdirir.

İkinci Dünya müharibəsinin veteranları xalqımızın fəxridir. Onların müharibə illərində göstərdiyi qəhrəmanlıq bu gün də böyük hörmətlə xatırlanır, həlak olan soydaşlarımızın xatirəsi ehtiramla yad olunur. Böyük Qələbənin qazanılmasından 73 il keçsə də, İkinci Dünya müharibəsində misilsiz şücaət göstərmiş xalqımızın xidmətləri heç vaxt öz əhəmiyyətini itirmir.

Prezident, Ali Baş Komandan İlham Əliyev iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun abidəsi önünə əklil qoydu, İkinci Dünya müharibəsində misilsiz qəhrəmanlıqlar göstərən cəsur sərkərdənin xatirəsini ehtiramla yad etdi.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Böyük Vətən müharibəsi veteranları ilə xatirə şəkli çəkdirdilər.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Prezident İlham Əliyevin qarşısından keçdi.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun ailə üzvləri, yaxın qohumları ilə görüşdülər, Qələbə günü münasibətilə onları təbrik etdilər.





Mərasimdə Baş nazir Novruz Məmmədov, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak edirdilər.

# Prezident İlham Əliyev ADA Universitetində keçirilən məzun günündə iştirak edib

## Azərbaycan Diplomatik Akademiyası Universitetinin məzunlarına diplomlar təqdim olunub




Mayın 26-da ADA Universitetində məzun günü keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva tədbirdə iştirak ediblər.

ADA Universitetinin rektoru, xarici işlər nazirinin müavini, səfir Hafiz Paşayev dövlətimizin başçısına bu təhsil ocağının fəaliyyətinin genişləndirilməsi layihəsi ilə bağlı məlumat verdi.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin nəzdində fəaliyyət göstərən ingilisdilli dövlət ali təhsil müəssisəsi olan ADA Universiteti müasir təhsil standartlarını əsas tutaraq qabaqcıl dünya təcrübəsini tətbiq edir, innovativ və qlobal dünyagörüşünə malik kadrlar hazırlayır.

ADA Universitetinin prorektoru Fariz İsmayılzadə daha bir tədris ilinin uğurla başa çatdığını deyərək bildirdi ki, bu gün universitetin məzunlarının



nailiyyətləri, vətənpərvərlik ruhu təntənə ilə qeyd edilir.

Məzun günü təhsil müəssisəsinin professor-müəllim heyətinin səhnəyə çıxması ilə başladı.

ADA Universitetində tələbə, müəllim və işçi heyətini 46 müxtəlif ölkədən olan insanların təşkil etməsi burada beynəlmiləl mühitin yaradılmasına böyük töhfə verir. Tələbələr bu təhsil ocağında müasir tələbə şəhərciyi mühitindən, fəal və maraqlı tələbə həyatından, yüksək akademik göstəricilərlə oxuyan tələbələrə təhsil haqqında güzəştlərdən və dünyanın 60 aparıcı universiteti ilə təhsil mübadiləsi imkanlarından yararlanırlar.

Sonra universitetdə təhsil alan əcnəbi tələbələr öz dövlət bayraqlarını gətirdilər.

Burada 41 ölkədən 2200 tələbə təhsil alır ki, onlardan da 85 faizi bakalavr, 15 faizi isə magistr pilləsindədir. Təhsil müəssisəsində ictimai və beynəlxalq münasibətlər, biznes, informasiya texnologiyaları və mühəndislik fakültələri fəaliyyət göstərir. ADA-da tələbələr bakalavr pilləsi üzrə beynəlxalq münasibətlər, dövlət və ictimai münasibətlər, hüquqşünaslıq, biznesin idarə edilməsi, iqtisadiyyat, kompüter mühəndisliyi, kompüter elmləri, informasiya texnologiyaları, magistr pilləsi üzrə isə diplomatiya və beynəlxalq münasibətlər, dövlət idarəetməsi, biznesin idarə olunması, MBA, təhsil menecmenti ixtisasları üzrə təhsil alırlar.

Daha sonra fəxri qarovul dəstəsi Azərbaycan bayrağını gətirdi.

Dövlət himni səsləndirildi.

Azərbaycan Prezidenti İlham Əliyev məzun günündə çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı




– Əziz dostlar, bu gün ADA Universitetində məzun günüdür. Bu münasibətlə bütün məzunları ürəkdən təbrik edirəm, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıram.

Məzunlar üçün yeni dövr başlayır. Mən əminəm ki, universitetdə aldıqları biliklər onlara həyatda layiqli yer tutmaq üçün kömək edəcəkdir. ADA Universiteti Azərbaycanın aparıcı ali məktəblərindən biridir. Bu universitetdə təhsilin səviyyəsi çox yüksəkdir. Universitet həm ölkəmizdə, həm xaricdə böyük nüfuz qazanmışdır və bu gün burada səsləndi ki, universitetdə 41 ölkədən tələbələr oxuyur. Bu, özlüyündə bir göstəricidir. Onu göstərir ki, doğrudan da ADA qısa müddət ərzində çox yüksək nüfuz qazanaraq ölkəmizin aparıcı ali məktəblərindən birinə çevrilmişdir.

ADA-da təhsil alan tələbələr əminəm ki, gələcəkdə ölkəmizin həyatında fəal rol oynayacaqlar, ölkəmizin hərtərəfli inkişafına öz töhfələrini verəcəklər. Bir neçə il bundan əvvəl mənim təşəbbüsümlə Azərbaycan tələbələrinin xaricdə təhsil almaları üçün müvafiq proqramlar qəbul edildi, vəsait ayrıldı və bizim gənclərimiz dünyanın aparıcı ali məktəblərinə ezam olundular. Bu proqramların çox böyük faydası oldu, minlərlə Azərbaycan gənci xaricdə yüksək təhsil alaraq Vətənə qayıdıblar və bu gün ölkəmizin inkişafında fəal rol oynayırlar. Ancaq, əlbəttə, əsas vəzifəmiz ondan ibarət olmalıdır ki, Azərbaycanda təhsilin səviyyəsi artsın və beynəlxalq standartlara cavab versin. ADA Universitetinin yaradılması bu məqsədi güdürdü. Bu gün tam əminliklə demək olar ki, burada tələbələrə verilən biliklər, təhsil ən yüksək standartlara uyğundur. Mən ADA-nın bütün professor-müəllim heyətinə, universitetin rəhbərliyinə gördükləri işlərə görə minnətdarlığımı bildirmək və onlara gələcək fəaliyyətlərində yeni uğurlar arzulamaq istəyirəm.

Təhsil hər bir dövlətin gələcəyidir. Bu sözlər dəfələrlə müxtəlif kürsülərdən səsləndirilib. Yəqin



ona görə ki, bu, həqiqətdir, bu, doğrudan da belədir. Əgər biz inkişaf etmiş ölkələrin tarixinə və bugünkü inkişaf dinamikasına nəzər salsaq görərik ki, əsas hərəkətverici qüvvə təhsildir, elmdir, texnologiyalardır, innovasiyalardır. Təbii resurslar yox, məhz biliklər. Ona görə biz də çalışırıq və bundan sonra da çalışmalıyıq ki, Azərbaycanda təhsilin səviyyəsi daha da qalxsın. Təhsilin səviyyəsi dünyanın ən yüksək standartlarına cavab versin. Əgər biz buna nail ola bilsək, – mən inanıram ki, buna nail olacağıq, – onda ölkəmizin uzunmüddətli, dayanıqlı inkişafı təmin ediləcəkdir. Bizim gənclərimiz bilikli, peşəkar və vətənpərvər olmalıdırlar. Bax, bu amillərin sintezi bizim ölkəmizin gələcək uğurlu inkişafını şərtləndirəcəkdir. Mən əminəm ki, bizim gənclərimiz məhz bu istiqamətdə öz fəaliyyətlərini davam etdirəcəklər. Mən bilirəm ki, bizim gənclərimizin mütləq əksəriyyəti dediyim meyarlara tam uyğundur.

Ölkəmizdə savadlılığın səviyyəsi təxminən 100 faizə yaxındır. Eyni zamanda, təhsillə bağlı olan islahatlar, yeniliklər əlbəttə ki, öz nəticəsini verəcək və verir. Buna müəyyən vaxt, zaman lazımdır. Ancaq biz düzgün yoldayıq və əminəm ki, ölkəmizin uğurlu inkişafını güclü kadr potensialı təmin edəcək. Əsas məqsəd bundan ibarətdir və biz ADA-nın timsalında, digər aparıcı ali məktəblərimizin timsalında bunu görürük. Azərbaycanda təhsil ölkəmizin dinamik inkişafı ilə addımlamalıdır. Təhsilə göstərilən diqqət bizim büdcə xərclərimizdə də özünü büruzə verir. Büdcə xərclərimizin əsas hissəsi təhsillə və müdafiə potensialımızla bağlıdır. Bu da təbiidir. Çünki biz müharibə şəraitində yaşayırıq və müdafiə xərcləri əlbəttə ki, prioritet məsələ olmalıdır. Bu gün Azərbaycan Ordusu dünya miqyasında 50 ən güclü ordu sırasındadır. Ümid edirəm ki, təhsilimizin səviyyəsi də bu hədəfə yaxınlaşacaqdır.

Bildiyiniz kimi, ADA Azərbaycan Diplomatik Akademiyası kimi yaradılmışdır və bunun adında da bu, öz əksini tapır. Əlbəttə ki, burada bundan sonra digər fənlər üzrə tədris proqramları tərtib edildi, universitetin maddi-texniki bazası möhkəmləndirildi. Bakının bu gözəl guşəsində indi gözəl universitet şəhərciyi yaradılmışdır. Buraya gələrkən mənə yeni korpusların tikintisi ilə bağlı məlumat verildi. Mən çox şadam ki, şəhərimizdə belə müasir təhsil şəhərciyi vardır. Mən ADA-nın




gələcək genişləndirmə proqramını da bəyənirəm. Azərbaycan dövləti, əlbəttə, bu məsələlərin həllinə diqqət yetirəcək və lazımi vəsait də ayrılacaq ki, bu işlər davam etdirilsin.

Ancaq nəzərə alsaq ki, ADA universitetinin əsas məqsədi xarici siyasətlə bağlı kadrlar hazırlamaqdır, mən xarici siyasətimizlə bağlı bir neçə fikrimi bildirmək istəyirəm. Azərbaycanın xarici siyasəti prinsipial siyasətdir və müstəqil siyasətdir. Hesab edirəm ki, buna görə biz beynəlxalq aləmdə böyük nüfuza malikik və bu gün Azərbaycan dünya miqyasında çox etibarlı tərəfdaş, ləyaqətli dövlət kimi tanınır. Bizimlə hesablaşırlar, bizimlə əməkdaşlıq etmək istəyən ölkələrin saylı getdikcə artır və bütün beynəlxalq arenalarda Azərbaycan öz milli maraqlarını müdafiə edir. Xarici siyasətimiz daxili siyasətimizin davamıdır və ölkəmizin beynəlxalq nüfuzunun artırılmasına və iqtisadi maraqlarımızın təmin edilməsi istiqamətinə hesablanan xarici siyasətdir.

Müstəqil siyasət aparmaq xüsusilə bizim bölgəmizdə və indiki şəraitdə o qədər də asan məsələ deyil. Ancaq bizim mövqeyimiz həmişə ondan ibarət olub ki, biz müstəqil siyasətimizlə xalqımızın maraqlarını təmin etməliyik. Azərbaycan xalqının maraqları bizim üçün hər şeydən üstündür. Məhz buna görə hesab edirəm ki, biz böyük hörmətə nail ola bildik və bunun əyani təzahürü BMT Təhlükəsizlik Şurasına seçilməyimizdir. 155 ölkə Azərbaycana etimad göstərib bizi dünyanın ən mötəbər qurumu olan Təhlükəsizlik Şurasına üzv seçmişdir. Bu, bizim beynəlxalq nüfuzumuzun bariz nümunəsidir. O gündən artıq bir neçə il keçibdir. Mən tam əminəm ki, bu gün Azərbaycan beynəlxalq müstəvidə daha da möhkəm dayaqlara və hörmətə layiq bir ölkədir.

Xarici siyasətimizin əsas məsələsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Biz prinsipial mövqeyimizdən bir addım geri dönmürük və dönməyəcəyik. Dağlıq Qarabağ Azərbaycanın əzəli torpağıdır, bizim tarixi torpağımızdır. Beynəlxalq hüququn normaları da bu ərazini Azərbaycanın ayrılmaz hissəsi kimi təsdiqləyir və bu məsələ ilə bağlı mötəbər beynəlxalq təşkilatların bir çox qərar və qətnamələri vardır. Onların arasında BMT Təhlükəsizlik Şurasının 4

qətnaməsi və digər mötəbər beynəlxalq təşkilatların qərar və qətnamələri bizim mövqeyimizi daha da gücləndirir və münaqişənin həlli üçün hüquqi əsaslar yaradır. Son vaxtlar Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası, ECO və digər təşkilatlar tərəfindən məsələ ilə bağlı qərarlar qəbul edilib. Bu məsələ ancaq və ancaq ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyü qeyd-şərtsiz bərpa edilməlidir, BMT Təhlükəsizlik Şurasının qətnamələri qeyd-şərtsiz və dərhal icra olunmalıdır.

Biz bu məsələ ilə bağlı bundan sonra da prinsipial siyasət aparacağıq. Ancaq bunu da yaxşı bilirik ki, bugünkü dünyada beynəlxalq hüquq heç də hər zaman işləmir. Son vaxtlar ümumiyyətlə işləmir. Bu, reallıqdır. Biz real dünyada yaşayırıq və əlbəttə ki, öz siyasətimizi dünyada mövcud olan real vəziyyətə uyğunlaşdırmalıyıq. Ona görə, əlbəttə, biz bundan sonra da həm iqtisadi sahədə, həm ordu quruculuğu sahəsində və digər sahələrdə öz gücümüzü artıraraq münaqişənin həllini yaxınlaşdırmalıyıq.

Bu gün dünyada güc amili ön plana çıxır. Biz bunu demək olar ki, hər gün görürük. Əlbəttə, biz bu istiqamətdə öz addımlarımızı atmışıq və atacağıq. Son illər ərzində ordu quruculuğuna ayırdığımız diqqət və qoyduğumuz vəsait bir daha göstərir ki, biz düzgün yoldayıq və bu yolu davam etdirəcəyik.

Azərbaycan regional əməkdaşlıq formatında çox fəal çalışır. Biz regional əməkdaşlıq formatlarının yaradılmasına çalışmışıq və demək olar ki, buna nail ola bilmişik. Bizim təşəbbüsümüzlə hazırda bölgədə dörd üç və dördtərəfli regional əməkdaşlıq formatı mövcuddur. Biz bu əməkdaşlıq formatlarının təşəbbüskarı olmuşuq. Onların çox praktiki mənası var. Bu əməkdaşlıq bu formatlarda iştirak edən bütün ölkələr üçün faydalıdır. Biz bu işi davam etdirəcəyik. Biz bu bölgədə yaşayırıq və əlbəttə, bölgədə sülhün, sabitliyin təmin edilməsi, o cümlədən beynəlxalq əməkdaşlıqdan asılıdır. İşğalçı Ermənistandan başqa bizim heç bir ölkə ilə heç bir problemimiz yoxdur. Əksinə, bizim bütün ölkələrlə əlaqələrimiz inkişaf edir. Bu əlaqələr bərabərhüquqlu əlaqələrdir, qarşılıqlı hörmət, bir-birinin işinə qarışmamaq əsasında formalaşan əlaqələrdir. Biz heç bir ölkənin daxili işinə heç vaxt qarışmamışıq və qarışmırıq. Əlbəttə ki, eyni yanaşmanı bütün ölkələrdən gözləyirik və bunu təmin edirik. Ona görə regional çərçivədə əməkdaşlıq əlbəttə ki, ikitərəfli əlaqələrin üzərində qurulubdur. Biz bu ikitərəfli əlaqələri çoxtərəfli əlaqələrə çevirə bilmişik.

Bu gün bizim təşəbbüsümüzlə həyata keçirilən nəhəng enerji və nəqliyyat layihələrinin uğurla icra edilməsi, o cümlədən regional vəziyyətdən də asılıdır. Biz bu vəziyyəti özümüz dəyişdiririk, müsbətə doğru dəyişdiririk. Bizim xarici siyasət konsepsiyamızda qarşılıqlı faydalı əməkdaşlıq xüsusi yer tutur. Biz hesab edirik ki, qonşu ölkələr, dost ölkələr bir-birinə kömək etməlidir, bir-birinin problemlərini qəbul etməlidir və birgə səylərlə problemlərin həlli işində çalışmalıdırlar.

Biz çox uğurlu enerji diplomatiyası aparırıq. Bizim nəhəng enerji layihələrimiz, o cümlədən böyük dərəcədə diplomatik səylər nəticəsində mümkün olmuşdur. Əlbəttə ki, burada bir neçə amil öz rolunu oynayır – həm iqtisadi baxımdan Azərbaycanda mövcud olan gözəl investisiya iqlimi, sabitlik, əmin-amanlıq, beynəlxalq əməkdaşlıq və həm də bizim diplomatik səylərimiz. Çünki biz enerji layihələrimizi ancaq qonşu və dost ölkələrlə birlikdə icra edə bilərik. Bizim açıq dənizlərə çıxışımız yoxdur. Ona görə istənilən enerji layihəsi beynəlxalq əməkdaşlıq tələb edir. Ona görə enerji diplomatiyamız da çox uğurlu olmuşdur və bu gün bunu bütün dünya etiraf edir. Biz nəinki regionun, Avrasiyanın enerji xəritəsini yenidən tərtib etmişik. Bir neçə gündən sonra rəsmi açılışı olacaq Cənub Qaz Dəhlizi bizim tarixi nailiyyətimizdir, tarixi qələbəmizdir.

Biz nəqliyyat diplomatiyasını uğurla icra edirik. Demək olar ki, enerji dəhlizlərinin marşrutu ilə inkişaf edən nəqliyyat marşrutları, o cümlədən çox ciddi diplomatik səylər nəticəsində mümkün olub. Biz Avrasiyanın nəqliyyat xəritəsini də yenidən tərtib etmişik və bu işlərdə uğurlar qazanmışıq. Deyə bilərəm ki, enerji, nəqliyyat diplomatiyası ilə bağlı bizim bütün təşəbbüslərimiz, bütün addımlarımız uğurlu olub və həm bizə, həm bizimlə bərabər işləyən ölkələrə böyük dividendlər gətirir və bizi bundan sonra da hələ böyük mənfəət gözləyir. Bu gün icra edilən layihələr ölkəmizin qüdrətini uzunmüddətli formatda təmin edəcək, ölkəmizin dayanıqlı inkişafını təmin edəcək. Əlbəttə, bax, bu layihələrin icrasında diplomatik səylər böyük rol oynayır.

Əlbəttə, biz təbii resurslarımızdan səmərəli şəkildə istifadə edərək ölkəmizi inkişaf etdirdik,

gücləndirdik. Bu gün Azərbaycan dünya miqyasında ən sabit ölkələrdən biridir. Azərbaycanda böyük quruculuq işləri aparılır. Mən bilirəm ki, ADA Universitetində biznes fənlərə, iqtisadi fənlərə böyük diqqət göstərilir. Hesab edirəm ki, biz bu sahədə də çox təsirli nailiyyətlərə imza atdıq. Bu gün Azərbaycan iqtisadiyyatı tam daxili resurslar üzərində qurulmuş iqtisadiyyatdır, heç bir xarici maliyyə institutundan, yaxud da ki, xarici ölkədən asılı olmayan iqtisadiyyatdır. Bizim xarici dövlət borcumuz ümumi daxili məhsulumuzun cəmi 20 faizini təşkil edir. Bizim valyuta ehtiyatlarımız xarici borcumuzdan 4-5 dəfə böyükdür. Biz istənilən vaxtda bütün borcları ödəyə bilərik.

Biz gözəl sərmayə iqlimi yaradaraq ölkəmizə son 15 il ərzində 230 milyard dollar sərmayə cəlb edə bilmişik. Yoxsulluqla, işsizliklə bağlı atılan addımlar dünya birliyi tərəfindən yüksək qiymətləndirilir. Biz gənc müstəqil dövlətik. Ancaq biz rəqabətqabiliyyətliliyinə görə dünya miqyasında 35-ci yerdəyik. Biz dünya miqyasında inklüziv inkişaf indeksinə görə inkişafda olan ölkələr arasında üçüncü yerdəyik. Yəni, bütün bu rəqəmlər dediyim sözlərin əyani təsdiqidir.

Əminəm ki, bu gün ölkə qarşısında duran vəzifələr uğurla icra ediləcək. Çünki bizim güclü iqtisadi potensialımız, çox müsbət beynəlxalq nüfuzumuz var. Çox dinamik cəmiyyətimiz, fəal gənclərimiz, çox bilikli vətəndaşlarımız və güclü siyasi iradəmiz var. Əsas vəzifə ondan ibarətdir ki, ölkəmizin uzunmüddətli dayanıqlı inkişafı təmin edilsin. Bu isə bax, bu gün burada əyləşən və bizim başqa ali məktəblərdə bu gün eyni tədbiri keçirən gənclərdən asılıdır. Bir daha demək istəyirəm ki, gənclər bizim gələcəyimizdir. Gələcəkdə ölkəmizin taleyi, müstəqilliyi, xoşbəxtliyi gənclərdən asılı olacaq. Ona görə gənclər daim Vətən sevgisi ilə yaşamalıdırlar, peşəkar, bilikli, Vətənə bağlı olmalıdırlar. Əminəm ki, bizim gənclərimiz bu yüksək meyarlara daim cavab verəcəklər.

Əziz gənclər, mən bir daha sizi məzun günü münasibətilə təbrik etmək istəyirəm. Demək istəyirəm ki, sizin qarşınızda bütün imkanlar mövcuddur. Siz gözəl, qüdrətli ölkədə yaşayırsınız. Siz gözəl təhsil almısınız. Siz xarici dillər bilirsiniz. Əminəm ki, siz tam yetişmiş peşəkarlar kimi istənilən sahədə işləyə bilərsiniz. Mən sizə ancaq və ancaq uğurlar arzulamaq istəyirəm. Arzulamaq istəyirəm ki, siz bu gözəl şansı əldən verməyəsiniz, həyatda layiqli yer tutasınız və ölkəmizin inkişafına öz dəyərli töhfənizi verəsiniz. Bir daha təbrik edirəm və uğurlar arzulayıram. Sağ olun.

***

Onu da deyək ki, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə təhsil ocağında builki məzun gününün mövzusu "100 ilin təfəkkürü, maarifi və dəyərləri"dir.

Tədbirdə ADA məzunlarına həsr olunan videoçarx nümayiş olundu.

***

Sonra universitetin məzunu, biznes fakültəsinin iqtisadiyyat üzrə bakalavrı Azər Əliyev, ADA-nın tədris işləri üzrə prorektoru Vəfa Kazdal çıxış etdilər.

***

ADA Universitetinin rektoru, xarici işlər nazirinin müavini Hafiz Paşayev məzun günündə dərin məzmunlu çıxışına görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi. Bunun hər bir məzunun həyatında unudulmaz xatirə kimi qalacağına əminliyini ifadə etdi. Dövlətimizin başçısının 2012-ci ildə ilk dəfə ADA-ya gəldiyini və burada yeni kampusun açılışında iştirak etdiyini, təhsil ocağının fəaliyyət istiqamətlərinin genişləndirilməsi ilə bağlı tövsiyələrini verdiyini bildirən rektor dedi:

– Həmin gün Prezidentimiz cəmi bir ixtisas üzrə 14 məzunu təbrik etmişdi. Bu gün isə o, təbrik sözlərini 11 ixtisas üzrə bitirən 530 məzuna ünvanladı. O zamanla müqayisədə tələbələrimizin sayını 115-dən 2200-ə çatdırmışıq. Bunların arasında 380 tələbə qaçqın və məcburi köçkün ailələrindəndir, 500 tələbəmiz isə Azərbaycanın müxtəlif bölgələrindən gəlmiş gənclərdir. Biz əsl beynəlmiləl ali məktəb yarada bilmişik – dünyanın 41 ölkəsinin nümayəndəsi burada təhsil alır. Mübadilə proqramı ilə tələbələrimiz ADA-nın 60-dan çox xarici tərəfdaş universitetlərinə gedə bilirlər. Biz fəxr edirik ki, dövlətimizin başçısının etimadını doğrultmaqdayıq.

ADA Universitetinin tələbə və məzunlarının məşğulluq göstəricisi 90 faizdən çoxdur. Xüsusilə qeyd etmək istərdim ki, bu gün informasiya texnologiyaları və mühəndislik fakültələrini bitirən ilk məzunlar Azərkosmos, ASAN İnnovasiyalar Mərkəzi, Azercell və digər dövlət və özəl qurumlarda artıq öz biliklərini tətbiq edirlər. Bu statistikadan kənar qalanlar isə ölkəmizdə və dünyanın mötəbər universitetlərində ali təhsillərini davam etdirəcəklər.

Rektor Hafiz Paşayev əmin olduğunu bildirdi ki, universitetin məzunları bilik və bacarıqlarını Vətən uğrunda şərəf və ləyaqətlə tətbiq edəcək, Azərbaycanın ərazi bütövlüyü naminə dövlətimizin başçısının apardığı qətiyyətli siyasətə güc qatacaqlar.

Təhsil müəssisəsinin infrastrukturunun genişləndiyini, yeni akademik proqramların üzərində iş getdiyini, növbəti tədris ilindən hüquqşünaslıq üzrə bakalavr təhsilinə başlanılacağını deyən Hafiz Paşayev son illərdə universitetdəki elmi mərkəzlərin sayının artdığını, Xəzər Enerji və Ətraf Mühit Mərkəzi ilə yanaşı, Data Təhlilinin Tədqiqat Mərkəzinin, Avropa İttifaqı üzrə Bilik Mərkəzinin, ADA İnnovasiya və Start-up Mərkəzinin tələbələrə ölkədə strateji sahələri daha yaxından öyrənməyə imkan yaratdığını bildirdi. Bu il universiteti bakalavr pilləsinin dörd ixtisası, magistr pilləsinin isə bir ixtisası üzrə məzunların bitirdiyini diqqətə çatdırdı. Tədbirin Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyi ərəfəsində keçirildiyini və “100 ilin təfəkkürü, maarifi və dəyərləri” mövzusuna həsr olunduğunu deyən rektor ötən əsrin əvvəlində Azərbaycan mütəfəkkirlərinin və maarifçilərinin azad demokratik dövlət qurmaq yolunda səylər göstərdiyini bildirdi, milli kadrların hazırlanması üçün 1919-cu ildə ilk universitetin təsis edildiyini, 100-ə yaxın tələbənin ali təhsil almaq üçün Avropa və Rusiya universitetlərinə göndərildiyini vurğuladı. “1991-ci ildə müstəqilliyini bərpa edən Azərbaycan Respublikası Xalq Cümhuriyyətinin varisi kimi təkcə onun rəmzlərini qəbul etmədi, həm də bu müstəqilliyi daimi edəcək dövlət quruculuğu siyasətini yürütməyə başladı”, – deyən Hafiz Paşayev müstəqil ölkəmizin inkişafında ulu öndər Heydər Əliyevin xidmətlərini vurğulayaraq bildirdi:

– Azərbaycanın ictimai-siyasi və iqtisadi intibahının memarı Heydər Əliyev elm və təhsilin inkişafı üçün hələ sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə ciddi addımlar atmışdı. O zaman ölkədə beş yeni ali təhsil müəssisəsi açıldı, ali məktəblərdə təhsil alanların sayı 70 mindən 100 minə qədər artdı. Respublikaya rəhbərlik etdiyi illərdə Heydər Əliyevin himayəsi ilə dünyanın qabaqcıl məktəblərində minlərlə kadr yetişdi.

Bu gün Heydər Əliyev siyasətinin davamçısı Prezident İlham Əliyev də təhsilin müasirləşməsinə və inkişafına böyük diqqət yetirir. Onun təşəbbüsü ilə xüsusi Dövlət Proqramı həyata keçirilib. 2007-2015-ci illərdə minlərlə gənc Dövlət Neft Fondu hesabına xaricdə təhsil alıb. Bu proqramın məzunlarından bəziləri ADA Universitetində akademik fəaliyyətə cəlb edilərək müəllim kimi çalışırlar.

Məhz bu Dövlət Proqramı hesabına ADA Universitetinin Maastrixt Menecment Məktəbi ilə birgə təklif etdiyi biznesin idarə edilməsi ixtisasında tələbələrimiz hər iki universitetin beynəlxalq akkreditə olunmuş diplomunu almaqdadırlar.

Cənab Prezident, 2006-cı ildə Azərbaycan Diplomatik Akademiyasını yaradarkən Siz yeni təhsil ocağında təkcə humanitar elmləri deyil, digər istiqamətləri, xüsusilə də dəqiq elmləri inkişaf etdirməyi bizə tapşırmışdınız. Buna cavab olaraq, ilk addım 2013-cü ildə informasiya texnologiyaları və mühəndislik fakültəsinin yaradılması oldu.

Universitetin rektoru Hafiz Paşayev onu da qeyd etdi ki, hər bir ali məktəbin müvəffəqiyyəti onun müəllimlərinin keyfiyyətindən asılıdır. Bu isə “Xaricdə təhsil” Dövlət Proqramını yeni formada bərpa etmək zərurətini ortaya qoyur. Belə ki, istedadlı gənclərin dünyanın ən aparıcı universitetlərində magistr və doktorantura pillələrində təhsil alıb alim və müəllim kimi Vətənə dönmələri ölkə universitetlərinin uğurlu gələcəyini təmin edə bilər.

Daha sonra rektor valideynlərə müraciət edərək dedi:

Bilirəm ki, tələbələrimizin bugünkü uğurlarının arxasında həm də valideynlərin dəstəyi, yuxusuz gecələri, imtahan nəticələrini övladları ilə birgə gözləmək həyəcanı dururdu. Prezident İlham Əliyev bu gün burada yalnız mötəbər qonaq qismində iştirak etmir. O, Mehriban xanımla birlikdə həm də bir valideyn kimi buradadır. İcazə verin, Heydərin bugünkü akademik zirvəsi münasibətilə Sizi, cənab Prezident, Mehriban xanımı və bütün ailənizi universitetimiz adından təbrik edim.

Valideynlərin sevincinə şərik oluruq. Sizi təbrik edərək, eyni zamanda, sizə təşəkkürümü bildirmək istəyirəm ki, bizə inanıb, övladlarınızı universitetimizə etibar etmisiniz. Əminəm ki, əziz valideynlər, övladlarınız sizin və bizim ümidlərimizi həyat boyunca həmişə doğruldacaqlar. Valideynlərin sevincindən heç də az olmayan sevinc hisslərini müəllimlərimiz də keçirir.

Əziz müəllimlər, günbəgün sinif otaqlarına girib bilik və təcrübənizi tələbələrlə bölüşdüyünüzə, fədakar əməyinizə görə sizə xüsusi təşəkkürümü bildirmək istəyirəm.

Cənab Prezident, ADA Universitetinə yarandığı gündən göstərdiyiniz etimada, Azərbaycanın




istedadlı gənclərinə Vətəni tərk etmədən müasir ali təhsil almağa imkan verən məktəb qurmaqda bizə dəstək olduğunuza görə Sizə minnətdarıq. Diqqətinizə görə sağ olun.

İndi isə məzun günümüzün ən həyəcanlı hissəsinə keçirik – diplomların təqdim olunmasına. Bu mərasimi başlamaq üçün mən səhnəyə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi dəvət edirəm.

***

Sonra diplomların təqdim edilməsi mərasimi başladı.

Prezident İlham Əliyev məzunların bir qrupuna diplomları təqdim etdi.

Qeyd edək ki, bu tədris ilində ADA universitetində 11 ixtisas üzrə 530 tələbə məzun adını qazanıb. Bu il ilk məzunlarını buraxan ixtisaslar isə bakalavr pilləsi üzrə dövlət və ictimai münasibətlər, iqtisadiyyat, informasiya texnologiyaları və sistem mühəndisliyi, kompüter elmləri, magistr pilləsində isə təhsil üzrə menecment fakültələridir.

Fəaliyyət göstərdiyi illər ərzində ADA Universiteti yüksək səviyyədə təhsil verməklə yanaşı, tələbələr arasında sıx münasibətlərin qurulması, müəllim-tələbə münasibətləri, ölkənin ictimai-siyasi həyatında yaxından iştirak etmək baxımından da nümunəvi fəaliyyəti ilə seçilir. Bu təhsil ocağının məzunları yüksək ixtisaslı peşəkarlar kimi yetişməklə yanaşı, çalışdıqları sahələrdə əsl vətənpərvər şəxsiyyət kimi ölkəmizin ümumi inkişafına təkan verir, Azərbaycanın tərəqqisinin davamlılığını təmin etmək üçün əllərindən gələni edirlər. Universitetin məzunları hökumət və ictimai qurumlarda, biznes və konsaltinq xidmətlərində, maliyyə və bank, neft və qaz, QHT sektorlarında və istehsal sənayesi sahələrində çalışırlar.

# Prezident İlham Əliyev Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimində iştirak edib

**“Cənub Qaz Dəhlizi”nin işə düşməsi ilə regionun inkişafında yeni səhifə açılır**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da Səngəçal terminalında Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimində iştirak edib.

Həmçinin XXV yubiley Beynəlxalq Neft və Qaz sərgisinin də açılışı olub, mərasim sərginin keçirildiyi Bakı Ekspo Mərkəzində canlı yayımlanıb.

Dövlət başçısı mərasimdə nitq söylədi.

## Prezident İlham Əliyevin nitqi




– Hörmətli xanımlar və cənablar.

Əziz dostlar.

Bu gün ölkəmizin tarixində çox əlamətdar bir gündür, tarixi bir gündür. Bu gün Cənub Qaz Dəhlizinin rəsmi açılışı günüdür. Bu gün münasibətilə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Biz bu günü burada – Səngəçal terminalının ərazisində qeyd edirik. Səngəçal terminalı dünyanın ən böyük neft-qaz terminalıdır və məhz burada dörd il bundan əvvəl Cənub Qaz Dəhlizinin təməli qoyulmuşdur. Eyni zamanda, onu da qeyd etməliyəm ki, bu gün Bakı Ekspo Mərkəzində XXV Xəzər Neft-Qaz Sərgisi öz işinə başlayıb və



sərgidə iştirak edən yoldaşlar bu gün bu mərasimdə də iştirak etmiş kimi sayıla bilərlər. Mən onları da salamlayıram. Bildirmək istəyirəm ki, 25 il ərzində ilk dəfədir ki, Xəzər Neft-Qaz Sərgisinin açılışı sərgi yerində yox, Səngəçal terminalında baş verir.

Xəzər Neft-Qaz Sərgisinin Azərbaycanın enerji siyasətinin reallaşmasında çox böyük rolu olmuşdur. İlk sərgi 1994-cü ildə keçirilmişdir. O vaxt Azərbaycan gənc müstəqil dövlət idi və riskli dövlət kimi sayılırdı. Bu sərginin Azərbaycana investisiya qoyuluşu üçün çox önəmli rolu olmuşdur. Ötən 25 il ərzində bu sərgi dünya miqyasında çox mötəbər sərgi kimi tanınır və sərgidə iştirak edən şirkətlərin, ölkələrin sayı getdikcə artmaqdadır.

Qeyd etdiyim kimi, 4 il bundan əvvəl bu ərazidə Cənub Qaz Dəhlizinin təməli qoyulub. O zaman mən tam əmin idim ki, bu layihə uğurla, vaxtında icra ediləcək, baxmayaraq ki, bu, çox nəhəng və texniki-iqtisadi cəhətdən çox mürəkkəb bir layihədir. Bu layihə geniş beynəlxalq əməkdaşlıq tələb edən bir layihə idi. İlk dəfə olaraq Azərbaycan belə genişmiqyaslı beynəlxalq iqtisadi və siyasi əməkdaşlığı tələb edən layihəyə start vermişdir, onun təşəbbüskarı olmuşdur. Cənub Qaz Dəhlizinin rəsmi açılışı onu göstərir ki, biz qarşımıza qoyduğumuz bütün hədəflərə çatdıq və bu gün ölkəmizin həyatında neft-qaz sənayesinin inkişafında yeni dövr başlayır.

Dünən Azərbaycan xalqı Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini təntənəli şəkildə qeyd etmişdir. Bu da tarixi hadisə idi. Çünki ilk dəfə olaraq 1918-ci ildə müsəlman aləmində demokratik respublika yaradılmışdır. Biz haqlı olaraq fəxr edirik ki, bu respublikanı məhz Azərbaycan xalqı yaratmışdır. Dünən təntənəli mərasimdə çıxış edərkən bildirdim ki, əgər 1920-ci ildə müstəqillik əldən verilməsəydi və Azərbaycan Xalq Cümhuriyyəti süqut etməsəydi, bu gün Azərbaycan bəlkə də dünyanın ən inkişaf etmiş və ən zəngin ölkələrindən biri ola bilərdi. Çünki bizim təbii ehtiyatlarımız, zəngin neft ehtiyatlarımız çox böyük imkanlar açır. Ancaq Azərbaycan müstəqilliyini itirdi və ondan əvvəlki dövrdə Azərbaycan müstəqil olmadığı üçün Azərbaycan xalqı öz təbii ehtiyatlarından bəhrələnə bilməmişdir.

Dünya neftinin tarixi Azərbaycandan başlayır. 1846-cı ildə dünya miqyasında ilk dəfə olaraq sənaye üsulu ilə neft məhz Azərbaycanda, Bakıda hasil edilmişdir. O tarixi anı əks etdirən abidə şəhərimizin mərkəzində bir neçə il bundan əvvəl ucaldılıb. O vaxt – XIX əsrin ikinci yarısında və XX əsrin əvvəlində Azərbaycan dünya neft hasilatının əksəriyyətini təmin edirdi. Ancaq Azərbaycan xalqı bundan bəhrələnə bilibmi?! Əlbəttə ki, yox. O illərin şəkillərinə, statistik məlumatlarına baxmaq kifayətdir ki, hər kəs görsün ki, xalq səfalət içərisində yaşayırdı, yoxsulluq hökm sürürdü, heç bir sənaye inkişafından söhbət getmirdi. Sadəcə olaraq, Azərbaycan resurs mənbəyi idi və Azərbaycandan çıxarılan "qara qızıl" Azərbaycan xalqının inkişafına xidmət etmirdi. Bizim neftimiz tükənirdi. Neftdən əldə edilən gəlir Azərbaycan xalqının rifahına yönəldilmirdi və eyni zamanda, biz Abşeron yarımadasında böyük ekoloji problemlərlə üzləşmişdik. Bu problemləri bu gün müstəqil dövlətimiz həll edir.

Bu gün müstəqil Azərbaycan və bizim uğurlu neft-qaz siyasətimiz göstərir ki, ancaq müstəqillik şəraitində, müstəqillik dövründə Azərbaycan xalqı öz təbii ehtiyatlarından istifadə edə bilər, ancaq müstəqillik dövründə Azərbaycan uğurla inkişaf edə bilər. Bu gün biz müstəqil dövlət kimi ayaqda möhkəm dayanmışıq, ölkə qarşısında duran bütün vəzifələri uğurla icra edirik, belə nəhəng layihələri tərəfdaşlarımızla birlikdə icra edirik və Avropanın enerji xəritəsini yenidən tərtib edirik.

Sovet İttifaqı dağılanda Azərbaycan 1991-ci ildə öz dövlət müstəqilliyini bərpa etdi. Ancaq müstəqilliyimizin ilk iki ili çox ağır keçmişdir. Ölkə demək olar ki, idarəolunmaz vəziyyətdə idi, xaos, anarxiya, böhran hökm sürürdü, neft sənayesi tamamilə tənəzzülə uğramışdı, vətəndaş müharibəsinə start verilmişdi. Yəni, ölkə çox böyük təhlükələrlə üzləşmişdi və müstəqilliyimizin ilk iki ili formal xarakter daşıyırdı. Çünki Azərbaycan müstəqil siyasət apara bilmirdi.

1993-cü ildə Azərbaycan xalqı Heydər Əliyevə müraciət edərək onu hakimiyyətə dəvət etdi, Prezident vəzifəsinə seçdi və ondan sonra Azərbaycanın uğurlu inkişaf dövrü başlamışdır. Biz əgər tarixə baxsaq görərik ki, məhz o vaxtdan bu günə qədər Azərbaycan inamla inkişaf edir, ölkə qarşısında duran bütün vəzifələr uğurla icra edilir və ölkə iqtisadiyyatının əsas hissəsini təşkil edən neft-qaz sektorumuz da inkişaf edir.

Qeyd etdiyim kimi, 1994-cü ildə birinci Xəzər Neft-Qaz Sərgisi təşkil edilmişdir. Azərbaycanın dünyada zəngin resurslara malik ölkə kimi tanıdılmasında bu sərginin çox böyük rolu olmuşdur. 1994-cü il sentyabrın 20-də "Əsrin kontraktı" imzalanmışdır. "Azəri-Çıraq-Günəşli" neft yataqları dünyanın ən böyük neft yataqlarından biridir və 24 il bundan əvvəl imzalanmış "Əsrin kontraktı"nın müddəti keçən il 2050-ci ilə qədər uzadıldı. Yəni, bu, özlüyündə onu göstərir ki, bu yataqda nə qədər böyük neft ehtiyatları var. "Əsrin kontraktı" Azərbaycana nəfəs verdi, ölkəmizin canlanmasına xidmət göstərdi. İlk dəfə olaraq Xəzər dənizi xarici şirkətlər üçün açıldı. Biz o xarici şirkətləri dəvət etdik və bu gün "Əsrin kontraktı"nın icrası çox uğurla gedir və bu kontraktın imzalanmasından sonra Azərbaycanın iri neft strategiyası icra olunmağa başlamışdır.

Mən o tarixi günləri yaxşı xatırlayıram. Çünki o vaxt mən Dövlət Neft Şirkətinin vitse-prezidenti kimi bu işlərlə bilavasitə məşğul idim. O vaxt Azərbaycanın neft strategiyası müəyyən olundu və bu gün biz bu strategiyanın, görülən işlərin bəhrəsini görürük.

1994-cü ildən sonra ikinci böyük kontrakt "Şahdəniz" qaz yatağı üzrə imzalanmışdır. Onu da qeyd etməliyəm ki, bu kontrakt 1996-cı il iyunun əvvəlində məhz Xəzər Neft-Qaz Sərgisinin keçirildiyi gündə imzalanmışdır. Beləliklə, Azərbaycan dünyaya özünü nəinki neft ölkəsi, həm də qaz ölkəsi kimi təqdim etdi. Onu da yaxşı xatırlayıram ki, o vaxt dünyada enerji təhlükəsizliyi məsələlərində qaz amili o qədər də ciddi rol oynamırdı. Hətta qaz yataqlarının işlənilməsi o qədər də böyük maraq doğurmurdu. Çünki mənfəət neft yataqları ilə müqayisədə daha aşağı idi. Ona görə bu layihəyə investorları cəlb etmək o qədər də asan məsələ deyildi. Ancaq bu gün, bu tarixi gündə Cənub Qaz Dəhlizinin açılışını qeyd edərkən biz görürük ki, bu, nə qədər vaxtında atılmış və müdrik addımdır. "Şahdəniz" qaz yatağı Cənub Qaz Dəhlizinin əsas resurs bazasıdır.

1997-ci ildə isə "Əsrin kontraktı"nın icrası nəticəsində "Çıraq" platformasından ilk neft çıxarılmışdır. Bu tarixi videokadrlar artıq göstərilir

və doğrudan da tarixi bir gün idi. İlk dəfə olaraq xarici şirkətlər tərəfindən Xəzərdə yeni yataqdan neft hasil edilmişdir.

Azərbaycan açıq dənizlərə çıxışı olmayan bir ölkədir. Ona görə neft kəmərləri tikilməli idi və 1999-cu ildə artıq birinci neft kəməri – Bakı-Supsa kəməri istifadəyə verilmişdir. Yəni, bu, onu göstərir ki, biz bu böyük işləri nə qədər qısa müddət ərzində görmüşük. Bu işlər həm böyük maliyyə vəsaiti tələb edirdi, həm də texniki cəhətdən çox çətin layihələr idi. Onu da deməliyəm ki, 1999-cu ildə bizim hələ böyük vəsaitimiz də yox idi. Ondan sonra Bakı-Tbilisi-Ceyhan neft kəməri istifadəyə verildi. Ona görə bu layihələrin həyata keçirilməsi doğrudan da böyük səylər, böyük müdriklik tələb edirdi. Bakı-Supsa neft kəmərinin istifadəyə verilməsi ilə biz tarixdə ilk dəfə Xəzər dənizini Qara dənizlə neft kəməri ilə bağlamışıq.

Ondan sonra 2002-ci ildə artıq biz “Azəri-Çıraq” yatağından böyük neft gözləyərkən məhz burada – Səngəçal terminalının ərazisində Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təməlini qoyduq. Bu kəmər 2006-cı ildə istifadəyə verildi və bu gün Azərbaycan xalqına, bütün dost ölkələrə xidmət edir. Bu gün Bakı-Tbilisi-Ceyhan neft kəməri vasitəsilə nəinki Azərbaycan nefti, eyni zamanda, digər ölkələrin nefti də nəql edilir. Xəzərin şərq sahilində digər ölkələr tərəfindən hasil edilən neft artıq bu kəmər vasitəsilə dünya bazarlarına çıxarılır. Azərbaycan bu gün, eyni zamanda, etibarlı tranzit ölkə kimi qonşu ölkələrə öz imkanlarını təqdim edir.

2007-ci ildə isə Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verildi. Bu da çox önəmli layihədir. Bu layihə olmadan “Şahdəniz” yatağının işlənməsi mümkün deyildi. Beləliklə, ilk dəfə olaraq 2007-ci ildə Azərbaycan qazı Gürcüstana və Türkiyəyə nəql edilməyə başlamışdır. O günü də mən çox yaxşı xatırlayıram. Ceyhandakı mərasimi də yaxşı xatırlayıram. Bu gün buraya gələrkən bütün o tarixi anlar, o günlər bir daha mənim yaddaşımda oyandı və bir daha mən demək istəyirəm ki, doğrudan da bunlar tarixi nailiyyətlərdir.

“Şahdəniz” yatağının gələcək işlənilməsi ilə bağlı addımlar atılmağa başlanıldı. Əlbəttə, biz hamımız yaxşı bilirdik ki, böyük həcmdə Azərbaycan qazını dünya bazarlarına çıxarmaq üçün qaz kəməri lazımdır. Beləliklə, Cənub Qaz Dəhlizinin yaradılması ilə bağlı praktiki işlərə start verildi. Çox ciddi işlər, danışıqlar aparıldı və nəhayət, 2012-ci ildə Azərbaycan ilə Türkiyə arasında TANAP – Transanadolu qaz kəməri üzrə müqavilə imzalandı. Beləliklə, Cənub Qaz Dəhlizinin reallaşmasına güclü təkan verildi. TANAP layihəsi Cənub Qaz Dəhlizinin önəmli hissəsidir. Biz gələn ay TANAP layihəsinin istifadəyə verilməsini də qeyd edəcəyik. Qeyd etdiyim kimi, 2014-cü il sentyabrın 20-də, – o da çox rəmzi məna daşıyır, çünki “Əsrin kontraktı” 1994-cü il sentyabrın 20-də imzalanmışdır, – 20 ildən sonra Cənub Qaz Dəhlizinin təməli qoyulmuşdur. Bu gün biz bu layihənin rəsmi açılışını qeyd edirik və bu, doğrudan da böyük və tarixi hadisədir.

Cənub Qaz Dəhlizi nəhəng infrastruktur layihəsidir. Bu layihənin icra edilməsinə 40 milyard dollardan çox sərmayə qoyulubdur və qoyulur. Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrə bərabərdir. Əminəm ki, bundan böyük həcmdə resurslarımız var. Gələcək kəşfiyyat və istismar işləri əminəm ki, bunu təsdiqləyəcək.

Bu layihələrin həyata keçirilməsi beynəlxalq əməkdaşlıq olmadan mümkün olmazdı. Mən, ilk növbədə, regional əməkdaşlıq haqqında danışmaq istərdim. Azərbaycan, Gürcüstan və Türkiyə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və digər önəmli layihələri, o cümlədən nəqliyyat sahəsində Bakı-Tbilisi-Qars layihəsini icra edərkən artıq çox güclü üçtərəfli regional əməkdaşlıq formatı yaratmışlar. Ona görə bu layihələrin icra edilməsində bu üç ölkənin birgə səyləri xüsusi yer tutur. Mən bu gün fürsətdən istifadə edərək həm Türkiyə, həm Gürcüstan rəhbərliyinə əməkdaşlığa görə təşəkkürümü bildirmək istəyirəm. Mən bu gün Amerika Birləşmiş Ştatlarının hökumətinə təşəkkürümü bildirmək istəyirəm. Çünki Amerika Birləşmiş Ştatları bütün layihələrimizdə bizə böyük dəstək olub, bizə kömək göstərib, həm siyasi dəstək, həm mənəvi dəstək. Əlbəttə, bu layihələr böyük resurslar tələb edir və maliyyə resurslarının böyük hissəsi banklar tərəfindən verilir. Amerika hökumətinin bu işdə çox böyük səyləri olub. Biz bu dəstəyi, o cümlədən Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və “Cənub Qaz Dəhlizi” layihələrinin reallaşmasında həmişə

hiss etmişik və hiss edirik. Bu dəstək bu layihələrin icra edilməsində çox böyük rol oynamışdır.

Böyük Britaniya hökuməti də həmişə bizim yanımızda olub. Bildiyiniz kimi, BP şirkəti energetika sahəsində bizim əsas investorumuzdur. Böyük Britaniya hökuməti bu layihələrin reallaşmasında həmişə bizə dəstək göstərmişdir, biz bu dəstəyi bu gün də hiss edirik. Keçən ay Londonda Baş nazir xanım Mey ilə mənim iştirakımla BP ilə SOCAR arasında növbəti kontrakt imzalanmışdır. Bu, bizim strateji əlaqələrimizi bir daha əks etdirir.

Avropa İttifaqı bu layihənin icrasında çox önəmli rol oynamışdır. Hələ 2011-ci ildə Bakıda Avropa İttifaqı ilə Azərbaycan arasında Cənub Qaz Dəhlizi haqqında Birgə Bəyannamə imzalanmışdır. Bu illər ərzində biz daim Avropa İttifaqının dəstəyini hiss etmişik. Azərbaycanın və Avropa İttifaqının təşəbbüsü ilə son dörd il ərzində Bakıda hər il Cənub Qaz Dəhlizinin Məşvərət Şurasının iclasları keçirilir. 2015-ci ildən bu günə qədər Avropa İttifaqı bu toplantılarda ən yüksək səviyyədə təmsil olunur. Avropa İttifaqı ilə Azərbaycanın əməkdaşlıq formatında energetika sektoru təbii ki, çox böyük yer tutur.

Bu layihələrin həyata keçirilməsi maliyyə institutlarının maliyyəsi olmadan mümkün olmazdı. Mən bugünkü mərasimdə bizə dəstək olan beynəlxalq səviyyədə tanınmış banklara da öz təşəkkürümü bildirmək istəyirəm. Onlar da bizə inanır və öz maliyyə resurslarını ayırırlar. Onlar da əmindirlər, biz də əminik ki, Azərbaycan etibarlı tərəfdaş kimi bütün borcları vaxtında qaytarır və qaytaracaq.

Bir sözlə, geniş beynəlxalq əməkdaşlıq çərçivəsində həyata keçirilən bu layihə əminəm ki, gələcəkdə nəinki energetika sahəsində, bütün başqa sahələrdə Avropada və bizim bölgədə əməkdaşlığın dərinləşməsinə xidmət göstərəcək.

Cənub Qaz Dəhlizinin icrasında yeddi ölkə iştirak edir. Mən o ölkələrin adlarını bu gün çəkmək istərdim – Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliya. Bax, geniş beynəlxalq əməkdaşlıq yaradılıb.

Eyni zamanda, üç Balkan ölkəsi – Bosniya və Herseqovina, Xorvatiya və Monteneqro tərəfdaşlar kimi əminəm ki, növbəti mərhələdə bu layihəyə qoşulacaqlar. Cənub Qaz Dəhlizinin qolları olmalıdır. Biz ixrac imkanlarımızı genişləndirmək istəyirik. Bilirik ki, Avropada da Azərbaycan qazına tələbat var. Biz də istəyirik daha çox qazı Avropaya sataq, çünki Avropa bazarı bizim üçün ən əlverişli bazardır.

Cənub Qaz Dəhlizi enerji təhlükəsizliyi məsələlərinin həllinə də kömək göstərəcək. Bu gün enerji təhlükəsizliyi ilə bağlı məsələlər dünya gündəliyində çox ciddi dayanır və ölkələrin milli təhlükəsizliyi, o cümlədən enerji təhlükəsizliyindən böyük dərəcədə asılıdır.

Cənub Qaz Dəhlizi enerji resurslarının şaxələndirilməsi işində də çox önəmli layihədir və hesab edirəm ki, əvəzolunmaz layihədir. Bu layihədə biz həm mənbələrin, həm marşrutların şaxələndirilməsini görürük. Çünki ancaq bu təqdirdə biz tam mənada enerji resurslarının şaxələndirilməsi haqqında danışa bilərik. Sadəcə olaraq, yeni marşrutların açılması və eyni mənbədən qidalanması tam mənada enerji şaxələndirilməsi məsələsi deyil. Biz isə, sözün əsl mənasında, enerji şaxələndirilməsi layihəsini icra edirik. Azərbaycan qazı yeni mənbədir və Cənub Qaz Dəhlizi yeni enerji damarıdır, Avropanın enerji təhlükəsizliyini yenidən tərtib edən layihədir. Bu layihənin həyata keçirilməsində iştirak edən bütün tərəflərin maraqları təmin edilib. Bu da çox önəmlidir. Burada maraqlar balansı gözlənilib.

Hasilatçı ölkə Azərbaycan, tranzit ölkələr, o cümlədən Azərbaycan və başqa ölkələr və istehlakçı ölkələr, – hansılar ki, Azərbaycan qazını alternativ qaz kimi alacaqlar, – beləliklə, onlar üçün enerji təhlükəsizliyi məsələləri daha da dolğun şəkildə, tam şəkildə təmin ediləcək. Yəni, maraqlar balansı olmasaydı, bu layihə həyata keçirilə bilməzdi. Bizim enerji siyasətimizlə bağlı yanaşmamız məhz bundan ibarətdir. Biz qarşılıqlı faydalı əməkdaşlığı təmin etməliyik.

İştirak edən bütün tərəflər, şirkətlər, ölkələr öz mənfəətini götürməlidirlər – həm siyasi, həm təhlükəsizlik, həm iqtisadi. Şirkətlər öz mənfəətini götürməlidirlər və Azərbaycan resursların sahibi kimi, əlbəttə ki, öz mənfəətini götürür və götürəcək.

Çıxışımın sonunda bu layihələrin ölkəmiz üçün nə qədər böyük fayda gətirdiyini qeyd etmək istərdim. Bu gün Azərbaycan ayaqda möhkəm duran bir ölkədir, müstəqil ölkədir, müstəqil siyasət aparan ölkədir, güclü iqtisadiyyata malik olan bir ölkədir. Son 15 il ərzində Azərbaycan




iqtisadiyyatı, ümumi daxili məhsul üç dəfədən çox artmışdır. Ölkə iqtisadiyyatına son 15 il ərzində 230 milyard dollardan çox sərmayə qoyulmuşdur.

Azərbaycanda xarici dövlət borcu çox aşağı səviyyədədir, ümumi daxili məhsulumuzun cəmi 20 faizini təşkil edir. Bizim valyuta ehtiyatlarımız xarici borcumuzdan 4-5 dəfə çoxdur. Yəni, biz istənilən vaxtda bütün borcları rahatlıqla ödəyə bilərik. Azərbaycanda son 15 il ərzində yoxsulluq səviyyəsi təxminən 50 faizdən 5,4 faizə düşüb, işsizlik 5 faiz səviyyəsindədir. Bu, onu göstərir ki, qara qızıl, neft və qaz insan kapitalına çevrilib. Onu göstərir ki, bizim siyasətimiz ondan ibarət olmuşdur ki, biz neft-qaz əməliyyatlarından əldə olunan gəlirləri cəmiyyətdə bərabər, ədalətli şəkildə bölək və ölkə iqtisadiyyatının inkişafı üçün lazım olan layihələrə yönəldək. Dünya Davos İqtisadi Forumu Azərbaycan iqtisadiyyatını dünya miqyasında rəqabətqabiliyyətliliyinə görə 35-ci yerə layiq görüb. Bu, onu göstərir ki, biz iqtisadi şaxələndirmə siyasətini uğurla aparırıq. Neftdən əldə edilmiş gəlirlər iqtisadiyyatın qeyri-neft sektoruna yönəlib. Davos Forumunun hesablamalarına əsasən inkişafda olan ölkələr arasında inklüziv inkişaf indeksinə görə Azərbaycan üçüncü yerdədir. Bu işlərin təməlində bizim uğurlu neft-qaz siyasətimiz dayanır. Ancaq, eyni zamanda




və böyük dərəcədə bu işlərin təməlində düşünülmüş siyasət dayanır. Bir çox ölkələr var ki, onların bizdən qat-qat böyük neft resursları, neft hasilatı var. Ancaq ölkələrin uğurlu inkişafını təbii resurslar həll etmir. Düşünülmüş siyasət, xalq-iqtidar birliyi, şəffaflıq, bütün azadlıqların təmin edilməsi, düzgün iqtisadi siyasət və regional əməkdaşlıq uğurlu inkişafın əsas amilləridir.

Bu gün bu tarixi gündə mən bu tarixi məqamları bir daha sizin və Azərbaycan xalqının diqqətinə çatdırmaq istərdim. Çünki bugünkü günün təməli məhz o illərdə qoyulub. Sadəcə olaraq, biz bütün bu işləri ardıcıllıqla görmüşük. Bu gün bizim ölkəmizin həyatında çox əlamətdar tarixi bir gündür. Bu gündə mən Cənub Qaz Dəhlizinə uzun və uğurlu ömür arzulayıram.

Sağ olun.

***

Mərasimdə ABŞ Dövlət katibinin köməkçisinin enerji məsələləri üzrə müavini xanım Sandra Oudkirk çıxış etdi.

Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson tədbirdə çıxış etdi, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri xanım Tereza Meyin mərasim iştirakçılarına müraciətini oxudu.

Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral Prezident Rəcəb Tayyib Ərdoğanın müraciətini səsləndirdi.

Tədbirdə Neft İxrac Edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Məhəmməd Barkindo, Qaz İxrac Edən Ölkələr Forumunun baş katibi Yuri Sentyurin və "BP Group Upstream"in baş icraçısı Bernard Luney də çıxış etdilər.

Sonra "Şahdəniz-2" və "Cənub Qaz Dəhlizi" layihələri haqqında videoçarx təqdim olundu.

Daha sonra Prezident İlham Əliyev Cənub Qaz Dəhlizinin rəsmi açılışını etdi.

Sonda xatirə şəkilləri çəkdirildi.

# Prezident İlham Əliyev Moskvada futbol üzrə dünya çempionatının təntənəli açılış mərasimində iştirak edib

**Futbol üzrə növbəti dünya çempionatı başlayıb**



İyunun 14-də Moskvadakı "Lujniki" stadionunda futbol üzrə növbəti dünya çempionatının təntənəli açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva mərasimdə iştirak ediblər.

Qeyd edək ki, iyirmiyə yaxın ölkənin dövlət və hökumət başçılarının da qatıldığı açılış mərasiminin proqramı zənginliyi və əvvəlki dünya çempionat-



larının açılış mərasimlərinin proqramlarından fərqli formatı ilə əsaslı şəkildə seçildi. Budəfəki tədbir daha qısa vaxt ərzində və yığcam oldu, məşq ərəfəsində deyil, birbaşa Rusiya-Səudiyyə Ərəbistanı matçından əvvəl keçirildi.

Britaniyalı müğənni Robbi Uilyamsın və Vyana Operasının solisti, tanınmış opera müğənnisi Aida Qarifullinanın ifası mundialın açılış mərasiminə əlavə əzəmət qatdı.

Açılış mərasiminin prodüseri Rusiyanın Birinci kanalıdır. Bu əzəmətli şounun konsepsiyasının müəllifi isə rejissor Feliks Mixaylovdur. Bu işdə ona İlya Averbux da kömək göstərib. İkiqat dünya çempionu, braziliyalı futbolçu Ronaldo da açılış mərasiminə qatılıb.

Dünya çempionatına ev sahibliyi edən Rusiya Federasiyasının Prezidenti Vladimir Putin mərasimdə çıxış etdi.

Rusiya dövlətinin başçısı bütün qonaqları Moskvanın əfsanəvi "Lujniki" stadionunda salamlayaraq, dünyanın mehriban futbol ailəsini çempionatın açılışı münasibətilə təbrik etdi. Bu möhtəşəm idman hadisəsinin ilk dəfədir ki, Rusiyada keçirildiyini deyən Vladimir Putin ölkəsində bu idman növünə xüsusi sevginin bəslənildiyini də əlavə etdi. O, bu idman bayramını Rusiyada qəbul etmək üçün dünya çempionatına məsuliyyətlə hazırlaşdıqlarını bildirdi. "Harada yaşamağımızdan, hansı ənənələrə riayət etdiyimizdən asılı olmayaraq bizim hamımızı bu parlaq idman növü – futbola sevgi birləşdirir. Futbolun gücünün əsasını humanizm təşkil edir. Çünki bu, birlikdir", – deyən Rusiya Prezidenti bu birliyi gələcək nəsillər üçün qoruyub saxlamağın vacibliyini vurğuladı.

FIFA-nın prezidenti Canni İnfantino da çıxışında Rusiyada başlayan futbol üzrə dünya çempionatının idmanın bu növünün həvəskarlarına maraqlı anlar yaşadacağını söylədi.

Otuz iki ölkənin yığma komandalarının mübarizə apardığı budəfəki futbol üzrə dünya çempionatı iyunun 14-dən iyulun 15-dək davam edəcək. Çempionat Rusiyanın 11 şəhərinin 12 stadionunda keçiriləcək.

Xatırladaq ki, açılış mərasimini "Lujniki" stadionunda 80 min, televiziya ilə birbaşa yayımla isə təqribən 1 milyard nəfərə qədər tamaşaçı izləyib.

Rusiyada təşkil olunan futbol üzrə növbəti dünya çempionatı meydan sahiblərinin oyunu ilə başladı.

Açılış mərasimindən dərhal sonra "A" qrupunda mübarizə aparan Rusiya və Səudiyyə Ərəbistanının yığma komandalarının görüşü oldu.

FIFA dünya kubokunun ilk matçı olduğundan bütün diqqətlərin yönəldiyi qarşılaşma Bakı vaxtı ilə saat 19-da start götürdü.

Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Rusiya Prezidenti Vladimir Putin və digər dövlət və hökumət başçıları həmin görüşü izləyirlər.

# Prezident İlham Əliyev Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə keçirilən təntənəli hərbi paradda olub

**Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyi qeyd edilib**



Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi münasibətilə iyunun 26-da Bakının Azadlıq meydanında təntənəli hərbi parad keçirilib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva paradda olublar.

Dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, xarici ölkələrin respublikamızdakı səfirləri, hərbi attaşeləri, beynəlxalq təşkilatların əməkdaşları, yubiley tədbiri ilə əlaqədar ölkəmizə gələn nümayəndə heyətlərinin rəhbərləri, müharibə veteranları və paytaxt ictimaiyyətinin nümayəndələri hərbi paradı izləyiblər.

Hərbi paradda Müdafiə, Daxili İşlər, Fövqəladə Hallar nazirliklərinin, Dövlət Təhlükəsizliyi, Dövlət Sərhəd və Xüsusi Dövlət Mühafizə xidmətlərinin, eləcə də Türkiyə Respublikası Silahlı Qüvvələrinin parad heyətindən ibarət 4 min nəfərədək şəxsi heyəti iştirak edib.

Təntənəli mərasimdə 240-dan çox hərbi texnika, gəmilər, 70-dən artıq uçuş vasitəsi, o cümlədən silahlanmaya yeni qəbul edilmiş ən müasir zirehli texnikalar, raket və artilleriya qurğuları, hava

hücumundan müdafiə sistemləri, helikopterlər, pilotsuz uçuş aparatları kimi müxtəlif növ ən yeni silah və texnikalar nümayiş olunub.

Paradda, həmçinin Türkiyə, Pakistan, Belarus, Bəhreyn, Birləşmiş Ərəb Əmirlikləri, Gürcüstan, İran, İsrail, Qazaxıstan, Özbəkistan, Rusiya, Səudiyyə Ərəbistanı və Ukraynadan olan 100-dək nümayəndə iştirak edib.

Azadlıq meydanına toplaşanlar Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevi sürəkli alqışlarla qarşıladılar.

Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdi.

Dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyev hərbi paradda iştirak edən şəxsi heyəti salamladı.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestri Azərbaycan Respublikasının dövlət himnini ifa etdi.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev hərbi paradda nitq söylədi.

## Prezident, Ali Baş Komandan İlham Əliyevin nitqi

– Əziz əsgərlər, zabitlər, generallar.

Əziz hərbçilər.

Hörmətli qonaqlar.

Xanımlar və cənablar.

Mən sizi və bütün Azərbaycan xalqını Azərbaycan Ordusunun 100 illiyi münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycan Silahlı Qüvvələrinin bütün şəxsi heyətinə yeni uğurlar, yeni nailiyyətlər arzulayıram.

Keçən ay biz Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini qeyd etmişik. Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qəbul edilmiş ən önəmli qərarlardan biri Azərbaycan Ordusunun yaradılması ilə bağlı qərar idi. Əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı. İki ildən sonra respublika süqut etdi və Azərbaycan dövlət müstəqilliyini itirdi. Bu, bir daha onu göstərir ki, müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən daha çətin işdir.

Azərbaycanın dövlət müstəqilliyi 1991-ci ildə bərpa edilmişdir. Ancaq bildiyimiz kimi, müstəqilliyimizin ilk iki ili ölkəmiz üçün çox ağır keçmişdir, faciəvi illər idi. Sanki tarix XX əsrin sonunda təkrarlanırdı. 1991-1993-cü illərdə Azərbaycan böyük fəlakətlə üz-üzə qalmışdı. Ölkə idarəolunmaz vəziyyətdə idi. Müstəqilliyimiz formal, şərti xarakter daşıyırdı. Azərbaycan müstəqil siyasət apara bilmirdi. Ölkə daxillində çəkişmələr, hakimiyyət uğrunda mübarizə vəziyyəti daha da ağırlaşdırırdı. İqtisadi tənəzzül, böhran hökm sürürdü. 1992-ci ildə Xalq Cəbhəsi və Müsavat tərəfindən dövlət çevrilişi vəziyyəti daha da ağırlaşdırdı. Azərbaycanda vəziyyət kritik həddə çatmışdı. Bundan istifadə edən Ermənistan xalqımıza, gənc dövlətimizə qarşı işğalçılıq siyasəti aparırdı. Bu siyasət nəticəsində torpaqlarımızın bir hissəsi işğal altına düşmüşdür. Demək olar ki, müstəqilliyimizin ilk iki ili Azərbaycanın gələcəkdə müstəqil ölkə kimi yaşamasını sual altına qoymuşdu. Belə bir ağır vəziyyətdə Azərbaycan xalqı həmişə olduğu kimi, müdriklik göstərdi, ulu öndər Heydər Əliyevə müraciət etdi, onu hakimiyyətə dəvət etdi. Ancaq bundan sonra, ulu öndər Heydər Əliyev hakimiyyətə gələndən sonra vəziyyət sabitləşdi və Azərbaycan bu ağır vəziyyətdən çıxa bildi.

Müstəqilliyimizin ilk illərində nizami ordu yaradılmamışdı. Ayrı-ayrı silahlı birləşmələr Azərbaycanın ərazi bütövlüyünü qoruya bilməmişlər. Ona görə, Ulu Öndər tərəfindən qəbul edilmiş bir çox önəmli qərarlar arasında nizami ordunun yaradılması qərarı xüsusi yer tutur. Nizami ordunu yaratmaq üçün iqtisadi imkanlar olmalı idi. Məhz buna görə, o illərdə Azərbaycanda çox ciddi iqtisadi islahatlar aparılmışdır, xarici sərmayənin cəlb olunması təmin edilmişdir, Azərbaycan beynəlxalq təcriddən çıxa bilmişdir. Ölkədə aparılan siyasi, iqtisadi islahatlar vəziyyəti sabitləşdirdi və Azərbaycan 1993-cü ildən sonra inkişaf və tərəqqi yolu ilə gedir. Bu siyasət bu gün də davam etdirilir. 1993-2003-cü illər sabitlik və inkişaf illəri kimi tariximizdə qalmışdır.

2003-cü ildən başlayaraq bütün istiqamətlər üzrə işlər sürətlə gedir, o cümlədən ordu quruculuğu sahəsində. Ordu quruculuğu bizim üçün ən başlıca, ən prioritet məsələdir. Bu da təbiidir. Çünki biz müharibə şəraitində yaşayırıq. Müharibə

hələ bitməyib. Müharibənin birinci mərhələsi başa çatıb. Bizim əsas vəzifəmiz ölkəmizin ərazi bütövlüyünü bərpa etməkdir.

Qeyd etdiyim kimi, Ermənistan müstəqilliyimizin ilk illərində ölkəmizdə gedən mənfi proseslərdən, o cümlədən Xalq Cəbhəsi-Müsavat tərəfindən başlanmış vətəndaş müharibəsindən istifadə edərək torpaqlarımızı zəbt etmişdir. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır, tarixi Azərbaycan torpağıdır. Əsrlər boyu Azərbaycan xalqı bu torpaqlarda yaşamış, yaratmışdır. Beynəlxalq hüquqa görə də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır və dəstəkləyir. Son illər ərzində dünyanın aparıcı beynəlxalq təşkilatları münaqişə ilə bağlı bir çox qərar və qətnamələr qəbul etmişlər. O cümlədən BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul etmişdir və orada da göstərilir ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Bu qətnamələr hələ də qüvvədədir və öz qüvvəsini itirməyib.

Xalqımıza qarşı etnik təmizləmə siyasəti aparılmışdır, Xocalı soyqırımı törədilmişdir. Aralarında uşaqlar, qadınlar, qocalar da olan 600-dən çox günahsız insan erməni cəlladları tərəfindən qətlə yetirilmişdir. Mindən çox insan itkin düşmüşdür. Bu gün dünyanın 10-dan çox ölkəsi Xocalı soyqırımını rəsmən soyqırımı kimi tanıyıb.

Azərbaycan işğalla heç vaxt barışmayacaq. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməlidir və bərpa edəcək. Bunun üçün güclü ordu yaratmalı idik. Bu gün tam əminliklə deyə bilərəm ki, buna nail ola bilmişik. Bu gün Azərbaycan ordusu dünyanın güclü orduları sırasındadır. Ordu quruculuğu əsas vəzifəmizdir. Güclü ordunu yaratmaq üçün güclü iqtisadiyyatımız olmalıdır. Biz bu istiqamətdə çox fəal işləmişik. Son 15 il ərzində iqtisadi sahədə Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır. İqtisadiyyatımız 3,2 dəfə artmışdır. İqtisadi potensialına görə Azərbaycan bu gün özünü çox rahat hiss edir. Bütün aparıcı beynəlxalq təşkilatların reytinqlərində Azərbaycan ən qabaqcıl yerlərdədir. İnkişafda olan ölkələrin arasında Azərbaycan inkişafına görə dünya miqyasında üçüncü yerdədir. Biz öz hesabımıza yaşayırıq, heç bir yerdən yardım almırıq. Buna ehtiyac da yoxdur. Öz zəhmətimizlə qazanılan vəsaiti ölkə qarşısında duran əsas məqsədlərin həllinə yönəldirik. Onların arasında ordu quruculuğu birinci yerdədir.

2003-cü ildən bu günə qədər bizim hərbi xərclərimiz 15 dəfə artmışdır. Hərbçilərin xidmət şəraiti yaxşılaşır. Son illər ərzində onlarla hərbi şəhərcik yaradılmışdır. Hərbçilərin xidmət şəraiti çox yaxşıdır. Hərbi hissələrimizin, hərbi şəhərciklərimizin 80 faizi son bir neçə il ərzində yenidən tikilib və ya əsaslı təmir edilib. Növbəti 2-3 il ərzində bizim bütün şəhərciklərimiz tam təmirli olacaq. Beləliklə, bu məsələ də öz həllini tapmış olacaq. Hərbçilərin mənzil-məişət məsələləri həll olunur. Qəbul edilmiş qərar əsasında 20 il orduda qüsursuz xidmət etmiş hərbçilərə dövlət tərəfindən pulsuz mənzillər verilir. Bu gün bizim hərbi hissələrimizdə 20 mindən çox mülki vətəndaş çalışır. Əvvəllər bu işlərdə əsgərlər işləyirdilər. Biz əsgərləri məişət işlərindən azad etdik. Eyni zamanda, mülki vətəndaşlar üçün 20 mindən çox iş yeri yaradılmışdır.

Ordumuz ən müasir silahlarla, texnika ilə təchiz edilmişdir. O cümlədən Azərbaycanda istehsal olunan bir çox hərbi təyinatlı məhsullar ordumuzun potensialını gücləndirir. Bizim təşəbbüsümüzlə son illər ərzində 20-dən çox hərbi zavod yaradılmışdır. Bu zavodlarda 1200 adda hərbi təyinatlı müxtəlif məhsullar istehsal olunur, ordumuz təchiz edilir. Eyni zamanda, biz artıq hərbi məhsullarımızı ixrac etməyə də başlamışıq. Həmçinin Azərbaycan bir çox ölkələrdən ən müasir silah və texnika alır. Bu gün bu silahların kiçik bir hissəsi paradda nümayiş etdiriləcək.

Son illər ərzində ən müasir texnika və silahlar alınıbdır. Onların arasında yüzlərlə zirehli texnika, bir çox gözətçi gəmiləri, hərbi gəmilər, hava hücumundan müdafiə sistemləri, ən müasir standartlara cavab verən sistemlər, onlarla döyüş təyyarəsi, yüzdən çox döyüş, hərbi nəqliyyat, nəqliyyat helikopteri, ən müasir kəşfiyyat və döyüş pilotsuz uçuş aparatları, ən müasir artilleriya qurğuları, uzaqmənzilli raketlər, yaylım atəşli raket sistemləri, əməliyyat-taktiki raket kompleksləri – bütün bunlar bizim hərbi gücümüzü artırır. Deyə bilərəm ki, ordunun maddi-texniki təchizatı baxımından Azərbaycan dünya miqyasında nadir ölkələrdən biridir.

Biz bütün bunları ona görə edirik ki, Azərbaycan Ordusu daha da güclü olsun. Ona görə edirik ki, hərbi potensialımız güclənsin. Ona görə edirik ki,

görürük və dünyada gedən proseslər də onu göstərir ki, beynəlxalq hüquq işləmir. Əgər işləsəydi Azərbaycan torpaqları çoxdan işğalçılardan azad olunardı. Beynəlxalq təşkilatlar tərəfindən qəbul olunmuş qərar və qətnamələr icra edilmir, onların icra mexanizmi yoxdur. Güc amili dünyanın müxtəlif bölgələrində əsas amil kimi çıxış edir. Belə olan halda əlbəttə ki, bizim apardığımız siyasət düzgün siyasətdir. Bu siyasəti biz uzun illərdir ki, aparırıq. Bu hərbi potensialı biz bir ilə əldə etməmişik. Bir neçə il ərzində ardıcıl siyasət nəticəsində, o cümlədən dost ölkələrlə səmərəli əlaqələr sayəsində biz dünyanın ən müasir silahlarını əldə etmişik və bu proses davam etdiriləcəkdir. Bundan sonra da Azərbaycan ən müasir silah və texnikanı alacaq. Buna nail olmaq üçün bizim dost ölkələrlə çox səmərəli əlaqələrimiz var. Bizim böyük maliyyə resurslarımız və güclü iradəmiz var.

Ordumuzun döyüş qabiliyyəti artır. Mən dəfələrlə hərbi hissələrdə vəziyyətlə tanış olarkən qeyd edirdim ki, Azərbaycanda çox yüksək vətənpərvərlik ruhu var. Azərbaycan Ordusunun döyüş qabiliyyəti ən yüksək səviyyədədir və bunu yaxın tarix göstərir. İki il bundan əvvəl Ermənistan xalqımıza qarşı növbəti hərbi təxribat törətmişdir, bizim mövqelərimizi atəşə tutmuşdur, mülki əhaliyə qarşı təcavüz etmişdir. Həm hərbçilərimiz, həm mülki vətəndaşlar şəhid olmuşdur. Azərbaycan Ordusu işğalçını cəzasız qoymadı, onlara layiqli cavab verdi, onları yerinə oturtdu, uğurlu əks-hücum əməliyyatı keçirərək işğal edilmiş torpaqlarımızın bir hissəsini işğalçılardan azad etdi. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi işğalçılardan azad edildi, iki min hektar ərazi təmizləndi. Uğurlu əks-hücum əməliyyatı nəticəsində minlərlə hektar torpağa bu gün Azərbaycan Ordusu nəzarət edir. Ermənilərin torpaqlarımızda, işğal edilmiş torpaqlarda qazdıqları səngərlərdə bu gün bizim əsgərlərimiz xidmət göstərir. Lələtəpədə bizim bayrağımız dalğalanır. Ağdərə dağlarında bizim bayrağımız dalğalanır. Biz strateji yüksəklikləri əldə etmişik və bu, bizə çox böyük üstünlük verir. Aprel döyüşləri bizim şanlı qələbəmizdir. Azərbaycan əsgəri, zabiti, generalı – Azərbaycan Ordusu əsl qəhrəmanlıq, peşəkarlıq, rəşadət göstərmişdir. Bir daha göstərmişdir ki, Azərbaycan xalqı bu işğalla barışmayacaq. Bir daha göstərmişdir ki, Ermənistan tərəfindən onların ordusu ilə bağlı uzun illər ərzində yayılan nağıllar mif idi. Biz bu mifi darmadağın etdik. Biz onların illər boyu yaratdıqları dırnaqarası möhkəm müdafiə xəttini bir neçə gün ərzində yardıq, məhv etdik. Aprel döyüşləri tariximizin şanlı səhifəsidir.

Naxçıvanın 1990-cı illərin əvvəllərində ermənilər tərəfindən zəbt edilmiş 11 min hektar torpağı bu bayram ərəfəsində – keçən ay Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu tərəfindən aparılmış uğurlu əməliyyat nəticəsində azad edildi. Çox böyük mühəndislik və kəşfiyyat işləri aparıldı. Naxçıvan əməliyyatı yüksək məharətlə, peşəkarlıqla həyata keçirildi. Azərbaycan hərbçisi bir daha qəhrəmanlıq, rəşadət göstərmişdir. Biz strateji yüksəklikləri zəbt etdik. Biz indi strateji kommunikasiya yollarını nəzarət altında saxlayırıq. Naxçıvan əməliyyatı bir daha onu göstərdi ki, Azərbaycan Ordusu güclü ordudur. Bir daha onu göstərdi ki, biz istənilən vəzifəni icra edə bilərik və icra edirik, böyük məharətlə və peşəkarlıqla. Bundan sonra Azərbaycan Ordusu hər an hazır olmalıdır ki, öz ərazi bütövlüyünü bərpa etsin. Biz istəyirik ki, münaqişə sülh yolu ilə həll olunsun və Azərbaycanın apardığı siyasət bunun əyani sübutudur. Ancaq bir daha demək istəyirəm ki, biz bu vəziyyətlə heç vaxt barışmayacağıq. Biz çox güclü ordu yaratmışıq. Düşmən bilməlidir ki, onun bir dənə də olsun hərbi və ya strateji obyekti yoxdur ki, Azərbaycan Ordusu onu məhv edə bilməsin. Düşmənin bütün hərbi obyektləri, bütün strateji əhəmiyyətli məntəqələri Azərbaycan Ordusu tərəfindən məhv edilə bilər. Bizim bu gün nümayiş etdirəcəyimiz silahlar həm Azərbaycan xalqına, həm düşmənə, həm də bütün dünyaya bunu göstərəcək. Ona görə, hesab edirəm ki, məsələnin tezliklə danışıqlar yolu ilə ədalətli həlli, Azərbaycanın ərazi bütövlüyünün tezliklə bərpa edilməsi qarşı tərəfin də marağında olmalıdır.

Azərbaycan getdikcə güclənəcək. Biz inkişaf yolundayıq. Bizim qarşımızda bütün yollar açıqdır, üfüqlər aydındır. Bundan sonra da Azərbaycan yalnız və yalnız inkişaf yolu ilə gedəcək. Ermənistan bizimlə heç cür rəqabət apara bilmir və bilməyəcək. Tarixi ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, iqtisadi güc bizdədir, hərbi güc bizdədir, vətənpərvərlik ruhu bizdədir. Aprel qələbələri, Naxçıvan qələbələri bir daha ordumuzun, xalqımızın vətənpərvərlik ruhunu möhkəmləndirir, bir daha Azərbaycan xalqını

əmin edir ki, o, tam arxayın ola bilər, Azərbaycan Ordusu istənilən vəzifəni icra etməyə qadirdir və buna hazırdır.

2016-cı ilin Aprel döyüşlərində, 2018-ci ilin Naxçıvan əməliyyatında işğalçılardan azad edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırıldı. Bunun çox böyük mənəvi əhəmiyyəti var. Həmin o bayraqlar bu gün bu paradda, Azadlıq meydanında nümayiş etdiriləcək. Bu bayraqlar hərbçilərimizi qabağa aparırdı. Bu bayraqlar döyüşdə olan bayraqlardır. Bu gün bu bayraqlar Azərbaycanın işğaldan azad edilmiş torpaqlarında dalğalanır və bu parad üçün buraya gətirilib. Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək. Biz bu müqəddəs günü yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq.

Eşq olsun Azərbaycan Ordusuna!

Yaşasın Azərbaycan!

***

Sonra Silahlı Qüvvələrin şəxsi heyətinin və hərbi texnikanın təntənəli keçidi başladı.

Meydana əvvəlcə Azərbaycan Respublikasının dövlət bayrağı gətirildi.

Yüz il əvvəl Azərbaycan Xalq Cümhuriyyəti dövründə qəbul edilmiş üçrəngli dövlət bayrağımız 72 ildən sonra ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə yenidən qaldırılıb. Xalqımız və Silahlı Qüvvələrimizin şəxsi heyəti bu bayraq altında yeni-yeni zəfərlərə doğru inamla irəliləməkdədir.

Dövlət bayrağının ardınca quruda, dənizdə və havada müqəddəs Vətənin keşiyini çəkən Silahlı Qüvvələrin qoşun növlərinin döyüş bayraqlarını aparan hərbçilər addımlayırdılar. 2016-cı ilin aprelində Füzuli, Cəbrayıl və Tərtər rayonlarının ərazilərinin bir hissəsinin işğaldan azad edilməsində xüsusi xidmətləri olan hərbi hissələrin və bu yaxınlarda Naxçıvan Muxtar Respublikasında bir çox strateji yüksəklikləri azad edərək 11 min hektar ərazinin nəzarətə götürülməsində fərqlənən Əlahiddə Ümumqoşun Ordusunun hərbi hissələrinin döyüş bayraqları tribuna önündən aparıldı.

Ulu öndər Heydər Əliyevin 1971-ci ildə yaratdığı Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursant-





larından ibarət parad heyəti tribunaya yaxınlaşdı. Xalqımızın haqlı olaraq Heydər Əliyev Məktəbi adlandırdığı bu xüsusi təyinatlı təhsil ocağının Azərbaycan Ordusunun yaranmasında və formalaşmasında müstəsna rolu var.

Azərbaycan Ordusunun zabitlərindən ibarət parad heyətləri də mətin addımlarla tribunanın önündən keçdi. Ulu öndərimiz Heydər Əliyev vaxtilə demişdir: "Vətəni, torpağı, dövləti qorumaq peşəsi hər bir peşədən üstündür, şərəflidir!". Zabitlərimiz xalqımızın və Ordumuzun gələcəyinin təminatıdır.

Azərbaycanın xüsusi təyinatlı təhsil müəssisələrinin flaqmanı olan Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin parad heyəti tribunanın önündən keçdi. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində müxtəlif ixtisaslar üzrə peşəkar zabitlər hazırlanır. Onlar hərbi xidmətin çətinliklərinin öhdəsindən layiqincə gələrək respublikamızın müstəqilliyi və ərazi bütövlüyünün qorunması uğrunda hər bir əmrə hazırdırlar. Məktəbin 15 məzunu "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb. Hərbi Hava Qüvvələri, Hava Hücumundan Müdafiə Qoşunları, Hərbi Dəniz Qüvvələri fakültələrində aviasiyanın döyüş idarəetməsi, eləcə də dənizçi ixtisasları üzrə peşəkar zabitlər, təyyarəçilər, şturmanlar, mexaniklər, silahlanmanın müxtəlif sistemləri üzrə mütəxəssislər, aviasiya xidmətləri, radiotexniki vasitələr üzrə mühəndislər hazırlanır.

İlk dəfə bu paradda qardaş Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələrinin parad heyəti də iştirak etdi. 1918-ci il sentyabrın 15-də türk-Azərbaycan birləşmiş qoşunlarının cəmləşdiyi Qafqaz İslam Ordusu bu möhtəşəm hərbi paradın keçirildiyi Bakını daşnak-bolşevik qüvvələrindən təmizləyərək Azərbaycan dövlətinin paytaxtını azad etdi. Türk ordusunun parad heyətinin bu tədbirdə iştirakı da 100 il əvvəl olduğu kimi, sarsılmaz dostluğun və qardaşlığın növbəti göstəricisi oldu.

Sülhməramlı, Əməliyyat İmkanları Konsepsiyası və Əməliyyat Ehtiyatları taborlarını təmsil edən hərbi qulluqçular da mətin addımlarla tribuna önündən keçdilər. Sülhməramlı taborumuz sülhməramlı əməliyyatlarda fəal iştirak edir, beynəlxalq sülhün və sabitliyin bərqərar olunmasına ölkəmizin töhfəsini verir. Azərbaycan sülhməramlıları hazırda NATO-nun "Qətiyyətli Dəstək" qeyri-döyüş missiyası çərçivəsində Əfqanıstanda vəzifələrini şərəflə yerinə yetirirlər.

Doğma Azərbaycanımızın qorxmaz, igid övladları – Xüsusi Təyinatlı Qüvvələrin və Dəniz Piyadaları bölmələrinin hərbi qulluqçuları, Daxili İşlər Nazirliyinin, Dövlət Təhlükəsizliyi Xidmətinin, Fövqəladə Hallar Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin, Xüsusi Dövlət Mühafizə Xidmətinin Milli

Qvardiyasının hərbi qulluqçuları tribuna önündən keçərək Vətənə, xalqa, dövlətə, Ali Baş Komandana və Heydər Əliyev ideyalarına öz sədaqətlərini bir daha bildirdilər.

Müasir silah, xüsusi avadanlıq və texnika ilə təchiz edilmiş Xüsusi Təyinatlılar ən ekstremal şəraitdə belə düşmən dərinliyində mühüm əhəmiyyətli obyektləri ələ keçirmək, qarşıya qoyulmuş digər müxtəlif dərəcəli tapşırıqları uğurla yerinə yetirmək imkanına malikdirlər. Şəxsi heyətin tribuna önündən keçməsi ilə eyni vaxtda paraplanlarda uçuş fəaliyyətləri nümayiş etdirilərək havada xüsusi tapşırıqlar yerinə yetirildi.

vəzifələrini nəinki ölkə daxilində, habelə xarici dövlətlərdə də şərəflə yerinə yetirir. Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları Vətənimizin hüdudlarını etibarlı şəkildə mühafizə edirlər. Xüsusi Dövlət Mühafizə Xidməti ölkə rəhbərliyinin, respublikamıza gələn xarici ölkələrin rəsmi nümayəndələrinin təhlükəsizliyinin təmin edilməsi, həmçinin mühüm dövlət obyektlərinin, o cümlədən neft-qaz infrastrukturunun mühafizəsinin təşkili və təmin edilməsi üzrə vəzifələrinin öhdəsindən layiqincə gəlir.

Azərbaycan Ordusu yenilməzdir, güclüdür. Azərbaycan əsgəri vətənpərvərdir, mübarizdir,



Dəniz piyadaları və döyüş dalğıcları dövlət dəniz hüdudlarının müdafiəsi üzrə dənizdə və su altında bütün tapşırıqları yerinə yetirməyə hər an hazırdırlar. Onlar vətəndaşın, cəmiyyətin və dövlətin mənafeyinin qorunması, ictimai asayişin mühafizəsi, həmçinin mühüm dövlət obyektlərinin mühafizəsi üzrə tapşırıqları müvəffəqiyyətlə yerinə yetirir.

Dövlət Təhlükəsizliyi Xidməti xalqımızın mənafeyini və dövlətimizin təhlükəsizliyini bu gün qətiyyətlə qoruyur. Fövqəladə Hallar Nazirliyinin şəxsi heyəti fövqəladə halların fəsadlarının aradan qaldırılması, xilasetmə və humanitar əməliyyatların həyata keçirilməsi üzrə öz

qorxmazdır, cəsarətlidir, yüksək hazırlıqlıdır. Azərbaycan əsgəri Vətəninə, xalqına, dövlətinə, Ali Baş Komandanına həmişə sadiqdir. Zaman bu deyilənlərin nə qədər həqiqət olduğunu tarixdə dəfələrlə sınaqdan çıxarıb. Vətənpərvərlik ruhu ilə silahlanmış Azərbaycan əsgərinin qarşısında ən müasir silahlara sarılmış düşmən belə tab gətirə bilməz. Azərbaycan əsgəri bu keyfiyyətlərini 2016-cı ilin aprel döyüşlərində, bu yaxınlarda Naxçıvan Muxtar Respublikasının Şərur rayonu istiqamətində də bir daha təsdiq etdi. Bu gün Azərbaycan bayrağı Talış zirvəsində, Lələtəpədə, Naxçıvanın Günnüt, Qızılqaya yüksəkliklərində əzəmətlə dalğalanır. Strateji əhəmiyyət daşıyan



bu yüksəkliklərin geri qaytarılması sübut edir ki, Azərbaycan məhz Prezident İlham Əliyevin Ali Baş Komandanlığı altında öz tarixi torpaqlarını mütləq geri qaytaracaq, respublikamızın ərazi bütövlüyü təmin ediləcək, dövlət bayrağımız Şuşada, Xankəndidə, Laçında və işğal altında olan digər torpaqlarımızda da vüqarla dalğalanacaq.

Silahlı Qüvvələrin 100 illiyinə həsr olunmuş paradı birləşmiş hərbi orkestr müşayiət etdi.

Sonra hərbi paradda Azərbaycan Ordusunun güc və qüdrətinin təqdimatı, ən müasir hərbi və xüsusi texnikaların keçidi başladı. Bu texnikalar bir daha göstərdi ki, son illərdə Ordumuz əhəmiyyətli dərəcədə güclənib. Güclü iqtisadiyyata söykənən güclü ordu formulu Prezident İlham Əliyevin fəaliyyətinin əsas istiqamətlərindən birinə çevrilib. Ölkəmizin iqtisadi inkişaf tempi Silahlı Qüvvələrin müasir standartlara cavab verən peşəkar orduya çevrilməsində mühüm rol oynayıb. Sabitlik, dinamik iqtisadi inkişafla yanaşı, güclü ordu quruculuğu müasir Azərbaycanı xarakterizə edən əsas amillərdən biridir.

Çoxtəyinatlı zirehli avtomobillər tribuna önündən keçdi. Bu avtomobillər kəşfiyyat, komanda-qərargah, müxtəlif silah növləri ilə təchiz edilmiş xüsusi çevik qüvvələrin xidmətində olmaqla bir neçə konfiqurasiyada mövcuddur.

Zirehli avtomobillər üzərində quraşdırılmış "SPAYK-LR", silahlanmaya yeni qəbul edilmiş daha güclü "SPAYK-ER" tank əleyhinə idarə olunan raket kompleksləri paradı izləyənlərin böyük marağına səbəb oldu. 2016-cı ilin aprel döyüşləri zamanı bu silah vasitəsilə 30-dan artıq düşmən tankı və digər zirehli döyüş texnikası məhv edilib.

Üzərində pilotsuz uçuş aparatları əleyhinə qurğu yerləşdirilmiş zirehli avtomobillər, mina əleyhinə yüksək müdafiə sistemi ilə təchiz olunmuş "MARAL-1" və "MARAL-2" zirehli avtomobilləri tribunaya yaxınlaşdı. Bu hərbi texnikalar Azərbaycanın Müdafiə Sənayesi Nazirliyinin zavodlarında istehsal olunur.

Ağır hərbi texnika istehsalında yenilik hesab edilən zirehli transportyor "BTR-82A"nın xüsusiyyətləri onu bütün növ qoşunlarda, həmçinin desant və kəşfiyyat bölmələrində istifadə etməyə imkan verir.

Tribuna önündən Dövlət Sərhəd Xidmətinin hərbi texnikaları keçdi. Çevik hərəkət maşınları, zirehli piyada daşıyan maşınlar, zirehli transportyorlar, mobil müşahidə sistemləri dövlət sərhədlərimizin mühafizəsi üçün təyin olunub.

Çöl şəraitində qərargah və kəşfiyyat orqanlarının fəaliyyətini təmin etmək üçün nəzərdə tutulmuş zirehli komanda-qərargah və kəşfiyyat avtomobillərində quraşdırılan və kabinədən idarə olunan "LORENS" yerüstü müşahidə stansiyası



qoşunların döyüş düzülüşündə fəaliyyət göstərərək kəşfiyyat məlumatlarının əldə edilməsinə və real vaxt rejimində idarəetmə məntəqələrinə ötürülməsinə imkan yaradır.

"ORBİTER 1K", "ORBİTER 3B", "AEROSTAR BP" pilotsuz uçuş aparatları hava kəşfiyyatının aparılması və taktiki səviyyədə düşmənin canlı qüvvəsinin və yüngül zirehli texnikasının zərərsizləşdirilməsi, müşahidə və kəşfiyyat, artilleriya dəstəyi və xüsusi əməliyyatlarla bağlı qarşıya qoyulmuş vəzifələrin icrası üçün yüksək dəqiqliyi ilə seçilir. Uzun müddət havada qalma qabiliyyətinə malik və müasir peyk-naviqasiya sistemi ilə təchiz olunan "HERON", orta ölçülü çoxməqsədli "HERMES 900", "HERMES 450", "HAROP" pilotsuz uçuş aparatları da paradda nümayiş etdirildi. Hava məkanında patrul funksiyasını yerinə yetirərək hədəfi aşkar etdikdə "mərmi-təyyarəyə" çevrilərək yer hədəflərini yüksək dəqiqliklə məhv etmək imkanına malik "HAROP" aparatları Aprel döyüşlərində düşmənə sarsıdıcı zərbələr vurub.

Zirehli-tank texnikası, özüyeriyən artilleriya qurğuları, ən müasir, modernləşdirilmiş piyadaların döyüş maşınları, dünyada ən döyüşkən tank kimi tanınan "T-90S" tankı, Hava Hücumundan Müdafiə silahları sistemləri, yüksək mobilliyi ilə seçilən "BUK-MB" zenit-raket kompleksi, "S-300 FAVORİT" çoxkanallı universal mobil zenit-raket sistemi, "İldırım" və "Qalxan" hava hücumundan müdafiə kompleksləri, yubiley ərəfəsində Azərbaycan Ordusunun silahlanmasına daxil edilmiş yüksək dəqiqliyə malik qanadlı hava-yer raketi, artilleriya silahları sistemləri, silahlanmaya yeni daxil olmuş avtomatik idarəetmə sistemi ilə təchiz edilmiş 152 millimetrlik özüyeriyən artilleriya qurğusu, 300 millimetrlik yaylım atəşli reaktiv sistemləri, raket silahları sistemləri, avtomatik idarəetmə sistemi ilə təchiz edilmiş 301 millimetrlik və 624 millimetrlik əməliyyat-taktiki raket kompleksləri də hərbi paradda nümayiş olundu.

Xalqımız əmin ola bilər ki, bu gün paradda nümayiş etdirilən silah sistemləri və hərbi texnikalarla Azərbaycanın hava məkanı düşmənin istifadəsində olan istənilən texnika və silah növlərindən, hava və yerüstü zərərvurma vasitələrindən etibarlı şəkildə qorunub və bundan sonra da qorunacaq.

Azərbaycan Ordusunun 100 illiyi münasibətilə təşkil olunan parada Hərbi Dəniz Qüvvələrinin gəmiləri dənizdən dəstək verdi. Dənizdə fəxri keçid edən hərbi gəmilərimiz Xəzərin Azərbaycan sektorunda dövlətimizin iqtisadi və strateji ma-

raqlarını qorumaqla yanaşı, yüksək döyüş hazırlığı nümayiş etdirdi.

Bunun ardınca Azadlıq meydanı üzərində Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus döyüş təyyarələrinin və helikopterlərin uçuşu başladı. Hərbi Hava Qüvvələrinin uçuş nümayişini "Mi-17" tipli iki helikopter açdı. Helikopterlər Azərbaycan Respublikasının dövlət bayrağını və xalqımızın ümummilli lideri Heydər Əliyevin portretini Azadlıq meydanı üzərində dalğalandırdı.

Paradda yüngül çoxməqsədli, yüksək manevr qabiliyyətinə malik "BELL-412", dənizdə və su hövzələri üzərində axtarış-xilasetmə tapşırıqlarının yerinə yetirilməsi, həmçinin dəniz desantının su hövzələrinə çıxarılması üçün təyin olunan "KA-32", çoxfunksiyalı hərbi-nəqliyyat təyinatlı "Mi-24 QRİFİN", şəxsi heyətin və müxtəlif yüklərin daşınması, iriölçülü yüklərin xarici asqılarda nəqli üçün təyin olunan "Mi-17-1V" döyüş-nəqliyyat, eləcə də "LAHAT", "SPAYK NLOS" tipli raketlərlə silahlanmış "Mi-17", habelə "Mİ-35" və "Mİ-24" helikopterləri müxtəlif düzülüşlərdə hərəkət edərək Azadlıq meydanının üzərindən keçdi.

Helikopterlərdən sonra Bakı səmasına döyüş təyyarələri və qırıcılar daxil oldu, milli şahinlərimiz paytaxt səmasında nümunəvi uçuşları davam etdirdilər.

Təlim-döyüş təyyarəsi uçuş heyətinin səriştələrinin artırılması və idarəolunmayan raket və bombalarla döyüş tapşırıqlarının yerinə yetirilməsi üçün təyin edilən "L-39", yaxın və orta məsafələrdə hava döyüşlərinin aparılması üçün nəzərdə tutulan "MiQ-29", təyyarələrə, yerüstü hədəflərə idarəolunmayan raket, müxtəlif növ bombalar və 30 millimetrlik top ilə həmlə imkanına malik "Su-25" təyyarələri müxtəlif düzülüşlərdə hərəkət edərək yüksək pilotaj fiqurları nümayiş etdirdilər.

Məhz bu paradda hərbi aviasiya tarixində ilk dəfə Azərbaycan şahinləri "SU-25" hücum təyyarələri ilə yüksək pilotaj məharəti göstərdilər. Onlar paytaxt səmasında üçrəngli bayrağımızın möhtəşəm əksini yaratdılar.

Azərbaycanın Hərbi Hava Qüvvələri hərbi əməliyyatlar zamanı istənilən nöqtədə düşmənə sarsıdıcı zərbələr endirmək qabiliyyətinə malikdir. Qırıcı-bombardmançı aviasiya bütün hündürlüklərdə hava hədəflərini məhv etmək, yerləşdiyi məkandan asılı olmayaraq yerüstü obyektlərə və hədəflərə zərbələr endirmək iqtidarındadır. Hücum və döyüş helikopterləri tam qüvvələri ilə Quru Qoşunlarına aviasiya dəstəyi göstərmək və bütün cəbhə boyu düşmənə fasiləsiz zərbə vurmaq gücündədir. Nəqliyyat aviasiyası desant və kəşfiyyat qruplarının düşmənin arxa cəbhəsinə çıxarılması və ehtiyatların təmin edilməsi istiqamətində tapşırıqları müvəffəqiyyətlə yerinə yetirir.

Azərbaycan Respublikası Hərbi Hava Qüvvələrinin döyüş təyyarələrinin və helikopterlərinin Bakı səmasında uçuşu xalqımızda düşmən üzərində qəti qələbəyə sarsılmaz inamı daha da möhkəmləndirdi.

1997-ci ildə Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbinin ilk buraxılış mərasimində ulu öndərimiz Heydər Əliyev demişdi: "Çox sevinirəm ki, indi milli şahinlərimiz var. Sevinirəm ki, bizim şahinlərimiz Azərbaycan səmasını daim qorumağa, Azərbaycan ərazisini qorumağa, Azərbaycanın müstəqilliyini qorumağa qadirdirlər".

Paraddan sonra Prezident İlham Əliyev Azərbaycan Ordusunun yaranmasının 100 illiyi münasibətilə və Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə, qarşılarında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə dövlətimizin başçısının iyunun 25-də imzaladığı Sərəncamla 1-ci dərəcəli "Rəşadət" ordeni ilə təltif olunmuş general-polkovnik Zakir Həsənova, general-polkovnik Nəcməddin Sadıkova və general-leytenant Kərəm Mustafayevə həmin ordenləri təqdim etdi.

Sonda xatirə şəkilləri çəkdirildi.

***

Azərbaycan Ordusunun 100 illiyi ilə əlaqədar keçirilən möhtəşəm hərbi parad başa çatandan sonra qardaş Türkiyənin "Solo Türk" və "Türk Ulduzları" aviaqrupuna daxil olan 2 ədəd "F-16" və 8 ədəd "F-5" tipli təyyarə də Bakı buxtası üzərində nümunəvi uçuşlar keçirdi.

Beləliklə, bu parad bir daha göstərdi ki, peşəkar ordusu olan xalqın müstəqilliyi əbədidir və bu ordunun gücü onun öz xalqına və dövlətinə sədaqətində, Vətən sevgisindədir. Millətimizin ləyaqət rəmzi, özünütəsdiq imkanı olan ordumuz xalqımızın milli düşüncəsində ali və müqəddəs ucalıqda dayanır, dövlətimizin varlıq, mövcudluq və milli kimlik meyarı kimi çıxış edir və bütün bu ali ideyaları yalnız bir milli dəyər birləşdirir – Müstəqillik!

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## “Azərbaycan Prokurorluğunun 100 illiyi (1918–2018)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 23, maddə 996; 1993, № 23–24, maddə 676; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 251; 2003, № 12 (I kitab), maddə 677; 2005, № 4, maddə 291; 2006, № 10, maddə 846; 2007, № 3, maddə 213; 2008, № 6, maddələr 452, 472; 2009, № 1, maddə 4, № 5, maddə 312, № 7, maddələr 514, 515, № 12, maddə 974; 2010, № 3, maddə 174, № 11, maddə 960; 2011, № 11, maddə 992; 2012, № 7, maddə 664, № 11, maddələr 1036, 1048, 1061; 2013, № 5, maddələr 460, 478, № 10, maddə 1143, № 12, maddə 1477; 2014, № 6, maddələr 612, 623; 2015, № 12, maddə 1447; 2016, № 12, maddələr 1979, 2040; 2017, № 1, maddələr 16, 27, № 7, maddə 1311, № 10, maddə 1771, № 11, maddə 1962, № 12 (I kitab), maddələr 2242, 2269; 2018, № 2, maddə 168, № 3 maddə 387, Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1049-VQD nömrəli, 24 aprel tarixli 1072-VQD nömrəli, 1 may tarixli 1092-VQD nömrəli qanunları) 2-ci maddəsinə “Azərbaycan Polisinin 100 illiyi (1918-2018)” Azərbaycan Respublikasının yubiley medalı;” hissəsindən sonra aşağıdakı məzmunda yeni hissə əlavə edilsin:

“Azərbaycan Prokurorluğunun 100 illiyi (1918–2018)” Azərbaycan Respublikasının yubiley medalı;”.

**Maddə 2.** “Azərbaycan Prokurorluğunun 100 illiyi (1918–2018)” Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə” təsdiq edilsin (əlavə olunur).

**Maddə 3.** “Azərbaycan Prokurorluğunun 100 illiyi (1918–2018)” Azərbaycan Respublikasının yubiley medalının təsviri” təsdiq edilsin (əlavə olunur).

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 31 may 2018-ci il.

## “Azərbaycan Prokurorluğunun 100 illiyi (1918–2018)” Azərbaycan Respublikasının yubiley medalı haqqında ƏSASNAMƏ

*Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli Qanunu ilə təsdiq edilmişdir*

**Maddə 1. Təltif edilən şəxslər**

“Azərbaycan Prokurorluğunun 100 illiyi (1918–2018)” Azərbaycan Respublikasının yubiley medalı ilə prokurorluq orqanlarında vəzifələrini nümunəvi yerinə yetirən, xidmətdə yüksək nəticələr əldə edən, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi sahəsində peşəkarlığı ilə fərqlənən, uzun müddət qüsursuz xidmət edən prokurorluq orqanlarının əməkdaşları və veteranları, prokurorluq orqanlarının inkişafında xüsusi xidmətləri olan digər şəxslər, habelə beynəlxalq tərəfdaşlar təltif edilirlər.

**Maddə 2. Təltif edən orqan**

“Azərbaycan Prokurorluğunun 100 illiyi (1918–2018)” Azərbaycan Respublikasının yubiley medalı ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxsləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi dövlət orqanının rəhbəri təltif edir.

**Maddə 3. Taxılma qaydası**

“Azərbaycan Prokurorluğunun 100 illiyi (1918–2018)” Azərbaycan Respublikasının yubiley medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda onlardan sonra taxılır.

## "Azərbaycan Prokurorluğunun 100 illiyi (1918–2018)" Azərbaycan Respublikasının yubiley medalının TƏSVİRİ

*Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli Qanunu ilə təsdiq edilmişdir*




**Maddə 1. Medalın ümumi təsviri**

"Azərbaycan Prokurorluğunun 100 illiyi (1918–2018)" Azərbaycan Respublikasının yubiley medalı (bundan sonra – medal) bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, diametri 38 mm olan səkkizguşəli ulduz formalı lövhədən ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

**2.1.** Medalın ön tərəfində hər bir guşəsi relyefli xətlərlə işlənmiş və 1 mm enində hamar zolaqlarla konturlanmış səkkizguşəli ulduzun üzərində ətrafı 1 mm enində ağ mina ilə örtülmüş, xarici və daxili çevrələrlə konturlanmış dairəvi lövhə yerləşdirilmişdir.

**2.2.** Xarici və daxili konturların arasında yaşıl minalı fonda qövs boyunca yuxarı hissədə "AZƏRBAYCAN PROKURORLUĞU" sözləri, aşağı hissədə isə "100" rəqəmi yazılmışdır.

**2.3.** Yazılarla "100" rəqəmi arasında hər birinin diametri 1,8 mm olan iki səkkizguşəli ulduz və kompozisiyanı tamamlayan xətlər təsvir olunmuşdur.

**2.4.** Daxili çevrənin içərisində Azərbaycan Prokurorluğunun rəsmi emblemi həkk olunmuş, emblemdən sol tərəfdə "1918", sağ tərəfdə isə "2018" rəqəmləri yazılmışdır.

**2.5.** Yazılar, rəqəmlər və emblem qabarıqdır.

**Maddə 3. Medalın arxa tərəfi**

**3.1.** Medalın konturlanmış arxa tərəfinin səthi hamardır, mərkəzində "AZƏRBAYCAN PROKURORLUĞU" sözləri, sözlərdən aşağıda "1918–2018" rəqəmləri yazılmışdır.

**3.2.** Aşağı hissəsində medalın seriyası və nömrəsi həkk olunmuşdur.

**Maddə 4. Medalın elementləri**

**4.1.** Medal paltarın yaxasına bərkidilmək üçün elementi olan, 37 mm x 50 mm ölçülü beşbucaqlı xara lentə iki halqa və ilgək vasitəsilə birləşdirilir. Xara lentin mərkəzində 10 mm enində boz rəngli, mərkəzdən sol və sağ kənarlara doğru ardıcıl olaraq, 1 mm enində qızılı rəngli, 1,5 mm enində yaşıl rəngli, 1 mm enində ağ rəngli, 10 mm enində tünd göy rəngli şaquli zolaqlar təsvir olunmuşdur.

**4.2.** Xara lentin yuxarı hissəsinə üzərində palıd yarpaqlarından ibarət çələng təsvir olunmuş 40 mm x 5,5 mm ölçülü lövhə bərkidilmişdir.

**4.3.** Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçülü qəlib əlavə edilir.

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

**"Azərbaycan Prokurorluğunun 100 illiyi (1918–2018)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1170-VQD nömrəli Qanununun tətbiqi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Prokurorluğunun 100 illiyi (1918–2018)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1170-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**1.1.** Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Prokurorluğunun 100 illiyi (1918–2018)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.3.** mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.4.** həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Müəyyən edilsin ki:

**2.1.** Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1170-VQD nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Prokurorluğunun 100 illiyi (1918–2018)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə"nin 2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

**2.2.** həmin Əsasnamənin 2-ci maddəsində "dövlət orqanı" dedikdə Azərbaycan Respublikasının Baş Prokurorluğu nəzərdə tutulur.

**3.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Prokurorluğunun 100 illiyi (1918–2018)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 26 iyun 2018-ci il.

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

**S.Z.Şahverdiyevin Naxçıvan Muxtar Respublikasının prokuroru təyin edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 133-cü maddəsinin IV hissəsini rəhbər tutaraq **qərara alıram:**

Səbuhi Zəhmət oğlu Şahverdiyev Naxçıvan Muxtar Respublikasının prokuroru təyin edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 7 may 2018-ci il.

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

## 2018-ci ilin Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi haqqında

1918-ci il mayın 28-də Azərbaycan xalqının həyatında misilsiz hadisə baş vermiş, Müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti qurulmuşdur. Cəmi iki ilə yaxın yaşamış Azərbaycan Xalq Cümhuriyyəti zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tarixində silinməz izlər qoymuş, xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə respublikanın gələcək müstəqilliyi üçün etibarlı zəmin hazırlamışdır.

2018-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü tamam olur. Bu əlamətdar hadisənin dövlət səviyyəsində layiqincə qeyd edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" 2017-ci il 16 may tarixli 2867 nömrəli Sərəncamına əsasən, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə müvafiq tədbirlər planının hazırlanıb həyata keçirilməsi tapşırılmışdır. Bu tədbirlərlə yanaşı, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü ilə əlaqədar ölkədə və ölkə xaricində silsilə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

2018-ci il Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 10 yanvar 2018-ci il.

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918–2018)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli 1092-VQD nömrəli Qanununun tətbiqi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918–2018)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli 1092-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**1.1.** Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918–2018)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.3.** mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.4.** həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Müəyyən edilsin ki, Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli 1092-VQD nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918–2018)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə"nin 2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

**3.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918–2018)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 15 may 2018-ci il.

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 23, maddə 996; 1993, № 23-24, maddə 676; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 251; 2003, № 12, I kitab, maddə 677; 2005, № 4, maddə 291; 2006, № 10, maddə 846; 2007, № 3, maddə 213; 2008, № 6, maddələr 452, 472; 2009, № 1, maddə 4, № 5, maddə 312, № 7, maddələr 514, 515, № 12, maddə 974; 2010, № 3, maddə 174, № 11, maddə 960; 2011, № 11, maddə 992; 2012, № 7, maddə 664, № 11, maddələr 1036, 1048, 1061; 2013, № 5, maddələr 460, 478, № 10, maddə 1143, № 12, maddə 1477; 2014, № 6, maddələr 612, 623; 2015, № 12, maddə 1447; 2016, № 12, maddələr 1979, 2040; 2017, № 1, maddələr 16, 27, № 7, maddə 1311; № 10, maddə 1771, № 11, maddə 1962, № 12, I kitab, maddələr 2242, 2269; Azərbaycan Respublikasının 2018-ci il 13 fevral tarixli 1001-VQD nömrəli və 23 fevral tarixli 1018-VQD nömrəli qanunları) 2-ci maddəsində "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 20 illiyi" yubiley medalı;" hissəsindən sonra aşağıdakı məzmunda yeni hissə əlavə edilsin:

"Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı;"

**Maddə 2.** "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə" təsdiq edilsin *(əlavə olunur).*

**Maddə 3.** "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalının təsviri" təsdiq edilsin *(əlavə olunur).*

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 1 may 2018-ci il.

## "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə

*Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli Qanunu ilə təsdiq edilmişdir*

**Maddə 1. Təltif edilən şəxslər**

"Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı ilə Azərbaycan Xalq Cümhuriyyəti liderlərinin varisləri və Azərbaycan Xalq Cümhuriyyəti irsinin tədqiqində və təbliğində, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin qorunub saxlanılmasında və inkişafında, ölkənin ictimai-siyasi həyatında xüsusi xidmətlərinə görə Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər təltif edilirlər.

**Maddə 2. Təltif edən orqan**

"Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxslər müvafiq icra hakimiyyəti orqanı tərəfindən təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

"Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda, onlardan sonra taxılır.

## “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)” Azərbaycan Respublikasının yubiley medalının təsviri

*Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli Qanunu ilə təsdiq edilmişdir*










**Maddə 1. Medalın ümumi təsviri**

“Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)” Azərbaycan Respublikasının yubiley medalı (bundan sonra – medal) bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, səkkizguşəli dalğavari konturlu, diametri 40 mm olan, üzərində ikitərəfli hamar şüalı səkkizguşəli ulduz yerləşdirilmiş lövhədən ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

**2.1.** Medalın ön tərəfində dalğavari səkkizguşəli konturlu hissəsində, səkkizguşəli ulduzun guşələrinin ar**asında kontur xətləri təsvir olunmuşdur.**

**2.2.** Səkkizguşəli ulduzun üzərində xarici və daxili çevrələrlə konturlanmış dairəvi lövhə yerləşir. Xarici və daxili konturların arasında yuxarı qövs boyunca “Azərbaycan Xalq Cümhuriyyəti” sözləri, aşağı qövs boyunca mərkəzdə 3 mm diametri bir səkkizguşəli ulduz, ondan sol və sağ tərəflərdə hər birinin diametri 2 mm olan iki səkkizguşəli ulduz təsvir olunmuşdur. Ulduzların və ulduzlarla sözlərin arasında kompozisiyanı tamamlayan xətlər vardır.

**2.3.** Dairəvi lövhənin daxili konturunun içərisində doğan günəş şüaları üzərində aypara və səkkizguşəli ulduz təsvir olunmuşdur. Ulduzdan sol tərəfdə “1918”, sağ tərəfdə “2018” rəqəmləri yazılmışdır. Ayparanın daxilində “100” rəqəmi həkk olunmuşdur. Bütün elementlər, yazılar və kontur xətləri, relyefli olaraq qabarıqdır.

**Maddə 3. Medalın arxa tərəfi**

Medalın arxa tərəfi hamar səthlidir, aşağı hissəsində medalın seriyası və nömrəsi həkk olunmuşdur.

**Maddə 4. Medalın elementləri**

**4.1.** Medal paltara bərkidilmək üçün elementi olan, 42 mm x 15 mm ölçülü bant şəklində bükülmüş, üzərində hər birinin eni 5 mm olmaqla, Azərbaycan Respublikasının Dövlət Bayrağının rənglərini əks etdirən üfüqi zolaqlar təsvir edilmiş ipək lentə 2 halqa və ilgək vasitəsilə birləşdirilir.

**4.2.** İpək lentin mərkəzində 17 mm x 22,5 mm ölçülü altıbucaqlı lövhə bərkidilir. Lövhənin üzərində günəş şüaları fonunda aypara və səkkizguşəli ulduz təsvir olunmuşdur. Lövhənin sol və sağ tərəfləri kontur boyunca palıd çələngləri formasında işlənmişdir. Günəş şüaları, aypara, ulduz və palıd çələngləri relyefli olaraq qabarıqdır.

**4.3.** Medala paltara bərkidilmək üçün elementi olan, eyni ipək lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçülü qəlib əlavə olunur. Qəlibin mərkəzinə diametri 8 mm olan, üzərində aypara və səkkizguşəli ulduz təsvir olunmuş dairəvi lövhə bərkidilir.

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

## Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında

2018-ci il may ayının 28-də müsəlman Şərqində ilk parlamentli respublikanın – Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi tamam olur.

Qədim və zəngin dövlətçilik ənənələrinə malik Azərbaycan xalqı keçmişinin müəyyən dövrlərində tarixin hökmü ilə böyük imperiyalar tərkibinə qatılmaq məcburiyyətində qalmışdır. Azərbaycan Xalq Cümhuriyyəti məhz dünyanın siyasi nizamının yenidən qurulduğu bir vaxtda, XIX əsrin axırları və XX əsrin əvvəllərində Azərbaycanın yaşadığı parlaq mədəni yüksəliş mərhələsinin məntiqi yekunu kimi meydana çıxmışdır.

XIX əsrin birinci yarısından etibarən maarifçilik ideyalarının yayılması ilə Azərbaycanda baş vermiş köklü ictimai-siyasi və mədəni dəyişikliklər yeni tipli teatrın, məktəbin və mətbuatın yaranmasını təmin etməklə milli özünüdərkin gerçəkləşməsi üçün zəmin hazırladı. Abbasqulu ağa Bakıxanov və Mirzə Fətəli Axundzadə ilə başlayan bu yolu yeni tarixi mərhələdə Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Əli bəy Hüseynzadə və digər görkəmli şəxsiyyətlər davam etdirərək milli məfkurənin təşəkkülü və inkişafına mühüm təsir göstərirdilər. Həmin dövrdə güclü sahibkarlar təbəqəsinin formalaşdığı neft şəhəri Bakı, eyni zamanda, milli ruhlu ziyalılar nəslinin yetişdiyi ictimai-siyasi fikir mərkəzinə çevrilmişdi. Rusiyanın Dövlət dumalarına və Müəssislər məclisinə seçilmiş azərbaycanlılar müstəmləkədən azad, demokratik dövlət sistemi yaratmağa hazır idilər.

Bununla yanaşı, Rusiyada çarizmin süqutundan sonra bolşeviklərin hakimiyyəti ələ keçirməsi ilə keçmiş imperiya ərazisində mürəkkəb geosiyasi vəziyyət yaranmışdı. Dünyanın aparıcı dövlətlərinin Bakı neftinə marağının siyasi çarpışmaları daha da gərginləşdirdiyi belə bir şəraitdə Azərbaycanın tərəqqipərvər siyasi elitası müstəqil milli dövlətçiliyin yaradılması naminə birləşdi.

1918-ci il may ayının 28-də Azərbaycanın müstəqilliyini bəyan edən İstiqlal bəyannaməsi qəbul edildi. Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni imkanlarının ən son həddində çalışaraq şərəflə yerinə yetirdi. Azərbaycanın ilk Parlamenti və Hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi. Ölkənin ərazi bütövlüyü və milli təhlükəsizliyi təmin edildi, qısa müddətdə yüksək döyüş qabiliyyətli hərbi hissələr yaradıldı, milli tələblərə və demokratik prinsiplərə uyğun dövlət orqanları quruldu, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi, Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü.

Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Cümhuriyyət parlamentinin il yarımlıq fəaliyyəti boyunca qəbul etdiyi qanunlar milli dövlətin müstəqilliyinin möhkəmləndirilməsinə, siyasi və iqtisadi inkişafa, mədəniyyət və maarif sahələrində sürətli irəliləyişə imkan verdi. Azərbaycan Xalq Cümhuriyyəti daim sülhsevər siyasət apararaq bütün dövlətlərlə qarşılıqlı əməkdaşlıq əlaqələri yaratmağa və bir-birinin hüquqlarına hörmət prinsipləri əsasında münasibətlər qurmağa cəhd göstərirdi. Dünya birliyi tərəfindən tanınmış Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində Azərbaycanın beynəlxalq hüququn subyekti olması 1920-ci ilin aprel ayındakı bolşevik işğalından sonra Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı.

Azərbaycan Xalq Cümhuriyyəti təcavüzə məruz qaldığı üçün qarşıya qoyduğu məqsədlərə tam müvəffəq ola bilmədən süquta uğrasa da, onun şüurlarda bərqərar etdiyi müstəqillik ideyası unudulmadı. Azərbaycan xalqı ötən dövr ərzində milli dövlətçilik atributlarının bir çoxunu qoruyub saxlaya bildi. Ümummilli lider Heydər Əliyevin respublikada uğurla gerçəkləşdirdiyi siyasət xalqımızın tarixi-mədəni yaddaşını özünə qaytararaq milli mənlik şüurunu inkişaf etdirdi, azərbaycançılıq məfkurəsi işığında müstəqillik arzularının güclənməsi və yaxın gələcəkdə yenidən həqiqətə çevrilməsinə zəmin yaratdı.

1991-ci ildə müstəqilliyinin bərpasına nail olarkən müasir Azərbaycan Respublikası özünün qədim dövlətçilik ənənələrinə sadiq qaldığını göstərdi, Xalq Cümhuriyyətinin siyasi və mənəvi varisi olmaqla onun üçrəngli bayrağını, gerbini, himnini qəbul etdi. Xalqımız Cümhuriyyətin istiqlalını dünyaya yaydığı 28 May gününü həmin vaxtdan Respublika Günü olaraq təntənə ilə qeyd edir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli dövlətçilik salnaməsini müstəsna dərəcədə zənginləşdirmiş Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyi respublikada dövlət səviyyəsində geniş qeyd edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

**3.** Azərbaycan Respublikasının Milli Məclisinə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin yaranmasının 100 illik yubileyi münasibətilə xüsusi iclasın keçirilməsi tövsiyə edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 16 may 2017-ci il.

### Məhkum edilmiş bir sıra şəxslərin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə əfv olunması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı-ndan çıxarış

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının xalqımızın müstəqilliyi tarixində əlamətdar hadisə olduğunu vurğulayaraq, ümummilli lider Heydər Əliyevin müasir Azərbaycan dövlətinin qurulmasında ümumbəşəri dəyərlər, qanunun aliliyi, ədalət və demokratiya ideallarına xüsusi önəm verdiyini xatırlayaraq, Heydər Əliyev siyasətinin mərhəmətlik və humanizm ənənələrinə sadiq qalaraq, cəzadan azad olunacaq şəxslərin cəmiyyətə qovuşaraq müstəqil dövlətimizin inkişafı yolunda fəaliyyət göstərəcəklərinə inanaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 22-ci bəndini rəhbər tutaraq, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə **qərara alıram:**

**1.** Azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş aşağıdakı şəxslər cəzanın çəkilməmiş hissəsindən azad edilsinlər:

**...**

**6.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 24 may 2018-ci il.

***

Dövlət başçısının mayın 24-də Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə imzaladığı bu sərəncam ümumilikdə 634 nəfərə şamil olunub. Onlardan azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş 607 nəfər cəzanın çəkilməmiş hissəsindən azad edilib. Əfv olunanlar sırasında 39 xarici vətəndaş var.

## "Azərbaycan Xalq Cümhuriyyəti 100" loqotipi

Bu il "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan olunub. Bu səbəbdən Mədəniyyət və Turizm Nazirliyi tərəfindən "Azərbaycan Xalq Cümhuriyyəti 100" loqotipi hazırlanıb.

Azərbaycan Respublikası prezidentinin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" 16 may 2017-ci il tarixli, "2018-ci ilin Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi" haqqında 10 yanvar 2018-ci il tarixli sərəncamlarına əsasən Mədəniyyət və Turizm Nazirliyi tərəfindən "Azərbaycan Xalq Cümhuriyyəti 100" loqotipi hazırlanıb.

Loqotipin müəllifi Zaur Həmzəyevdir. Loqotip Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubiley tədbirlərində, eləcədə "Azərbaycan Xalq Cümhuriyyəti ili" çərçivəsində keçiriləcək tədbirlərdə istifadə olunması üçün nəzərdə tutulub.

# Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə ucaldılmış abidəni ziyarət edib

## İstiqlal irsinə böyük ehtiram



Mayın 28-də Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə paytaxtın İstiqlaliyyət küçəsində ucaldılmış abidəni milli bayram – Respublika Günü münasibətilə ziyarət edib.

Abidənin ətrafında fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısı abidənin önünə əklil qoydu.

Azərbaycan Respublikasının dövlət himni səsləndirildi.

***

Düz 100 il bundan əvvəl - 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ölkəmizin həyatına böyük tarixi hadisə kimi daxil oldu. Müstəqil, azad, demokratik respublika qurmaq məqsədini qarşıya qoyan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə xalqın milli mənlik şüurunu özünə qaytardı, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirdi. 1918-ci il mayın 28-də qəbul edilən İstiqlal Bəyannaməsindən – Əqdnamədən də göründüyü kimi, bu möhtəşəm tarix xalqımızın müstəqillik hisslərini daha da gücləndirdi.

Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni şərəflə yerinə yetirdi. Azərbaycanın ilk Parlamenti və Hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəy-



yənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, ordu quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi. Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü.

Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Dünya birliyi tərəfindən tanınan Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində ölkəmizin beynəlxalq hüququn subyekti olması 1920-ci ilin aprel ayında bolşevik işğalından sonra Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı.

XX əsrin sonunda yenidən müstəqilliyinə qovuşan Azərbaycan öz suverenliyini qoruyub saxlamağı bacardı. Yenidən hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər gördü, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar etdi. Beləliklə, Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan dövləti quruldu və sürətli inkişaf yoluna qədəm qoydu.

Ulu Öndərimiz dəfələrlə bildirmişdi ki, biz bu gün demokratik Azərbaycan dövlətini qururuqsa, ayağa qaldırırıqsa, Xalq Cümhuriyyətinə borcluyuq. Azərbaycan Xalq Cümhuriyyətinin tariximizdəki yeri və roluna xüsusi qiymət verən Heydər Əliyev deyirdi: "Biz ilk Demokratik Cümhuriyyətin yaranması gününü əziz tutaraq, onu Azərbaycanın dövlət müstəqilliyi günü – Respublika Günü elan etmişik və bu, bizim milli bayramımızdır".

Ümummilli Liderin bu siyasətini Prezident İlham Əliyev uğurla davam etdirir. Dövlətimizin başçısının Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında Sərəncam imzalaması, 2018-ci ili ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan etməsi onun milli dövlətçilik tariximizə diqqət və qayğısının göstəricisidir.

# Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə təşkil olunan rəsmi qəbulda iştirak edib

**Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə rəsmi qəbul təşkil olunub**






Mayın 28-də Heydər Əliyev Mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə rəsmi qəbul təşkil olunub.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva rəsmi qəbulda iştirak ediblər.

Azərbaycanın dövlət himni səsləndirildi.

Dövlətimizin başçısı rəsmi qəbulda nitq söylədi.

## Prezident İlham Əliyevin nitqi



– Hörmətli xanımlar və cənablar.

Mən sizi və bütün Azərbaycan xalqını Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisədir. İlk dəfə olaraq müsəlman aləmində demokratik respublika yaradılmışdır. Biz haqlı olaraq fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıbdır. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı böyük xalqdır, Azərbaycan xalqı azadlıqsevər, mütərəqqi xalqdır. Azərbaycan dövləti Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsinə böyük hörmətlə yanaşır. Bir neçə il bundan əvvəl mənim Sərəncamımla Bakının mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə abidə ucaldılmışdır. Xalq Cümhuriyyətinin qurucularının adları əbədiləşdirildi. Bu il isə Azərbaycanda "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunmuşdur və həm ölkəmizdə, həm də bir çox xarici ölkələrdə bu yubileyi qeyd edərək biz böyük tədbirlər keçirmişik, keçiririk və ilin sonuna qədər bu tədbirlər keçiriləcəkdir.

Bir daha demək istəyirəm ki, biz bu tarixi hadisə ilə haqlı olaraq fəxr edirik. Azərbaycan Xalq Cümhuriyyəti 23 ay ərzində fəaliyyət göstərmişdir. Ancaq bu müddət ərzində böyük işlər görə bilmişdir. Azərbaycanın dövlət bayrağı təsis edilmişdir, Azərbaycan vətəndaşlığı təsis edilmişdir, milli ordumuz yaradılmışdır. Gələn ay biz ordumuzun 100 illiyini qeyd edəcəyik. Azərbaycanın Milli Ordusu 1918-ci ilin sentyabrında Qafqaz İslam Ordusu ilə birlikdə Bakını erməni-bolşevik dəstələrindən, işğaldan azad etmişdir və bizim qədim tarixi şəhərimiz olan Bakını Azərbaycan xalqına qaytarmışdır. Xalq Cümhuriyyəti tərəfindən sərhəd dəstəsi yaradılmışdır. Gəncənin tarixi adı qaytarılmışdır. Qısa müddət ərzində 200-dən çox qanun qəbul edilmişdir. Əlbəttə




ki, onların arasında qadınlara səsvermə hüququnun verilməsi qanunu xüsusi yer tutur. Bakı Dövlət Universiteti yaradılmışdır və bu, onu göstərir ki, Azərbaycan Xalq Cümhuriyyəti kadrların yetişdirilməsi işində, təhsilin inkişafında böyük işlər görmək əzmində idi. Azərbaycan dili - ana dili bütün təhsil müəssisələrində qəbul edilmişdir.

Bir sözlə, görülmüş işlər çox idi. Xalq Cümhuriyyətinin niyyəti ondan ibarət idi ki, güclü dövlət yaratsınlar və Azərbaycan xalqı azadlıq, əmin-amanlıq şəraitində yaşaya bilsin. Əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı, 23 aydan sonra respublika süqut etdi. Bu, bizim böyük faciəmizdir. Mən tam əminəm ki, əgər 1920-ci ildə müstəqillik əldən verilməsəydi, bu gün Azərbaycan dünyanın ən zəngin və ən inkişaf etmiş ölkələrinin sırasında ola bilərdi. Çünki bizim təbii ehtiyatlarımız, coğrafi yerləşməyimiz imkan verirdi ki, bu təbii resurslardan biz səmərəli şəkildə istifadə edək. XIX əsrin ikinci yarısında - XX əsrin əvvəllərində dünya neft hasilatının böyük hissəsi məhz Azərbaycanda, Bakıda təmin edilmişdir.

Əfsuslar olsun ki, biz müstəqilliyi itirdik. Bu, bir daha onu göstərir ki, müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən daha çətin işdir. 1918-ci ildə qaldırılmış bayraq 1920-ci ildə endirildi və onu bir də o tarixdən 70 il sonra Naxçıvanda, Naxçıvanın Ali Məclisinin sessiyasında ulu öndər Heydər Əliyev qaldırmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi Naxçıvan Ali Məclisinin sessiyasında qəbul edilmişdir.

XX əsrdə Azərbaycan iki dəfə müstəqilliyə qovuşmuşdur, ikinci dəfə 1991-ci ildə. Bu da tarixi şans idi və Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan ikinci dəfə müstəqil ölkə kimi yaşamağa başlamışdır. Əfsuslar olsun ki, müstəqilliyimizin ilk illəri ölkəmiz üçün faciəli, çox ağır illər kimi tarixdə qaldı. Əfsuslar olsun ki, Azərbaycan rəhbərliyində olan qüvvələr 1991-1993-cü illərdə ölkəmizi lazımi səviyyədə idarə edə bilməmişlər. Onların üzərinə düşən yüksək məsuliyyəti dərk etməmişlər və gənc müstəqil dövləti demək olar ki, idarəolunmaz vəziyyətə salmışdılar. 1991-1993-cü illərdə Azərbaycanda yaşanan xoşagəlməz hadisələr, hallar ölkəmizin müstəqilliyini sual altına qoymuşdur. Xüsusilə 1992-ci ildə AXC-Müsavat cütlüyünün dövlət çevrilişindən, hakimiyyətin güc yolu ilə zəbt edilməsindən sonra vəziyyət daha da ağırlaşdı. Ölkəmizdə xaos, anarxiya, özbaşınalıq hökm sürürdü. AXC-Müsavat hakimiyyəti talançılıqla məşğul idi. Torpaqlarımız işğal altına düşmüşdür və bununla bağlı çoxsaylı qaçqınlar-köçkünlər yaranmışdır.

AXC-Müsavat hakimiyyəti qardaş qanı axıtdı, vətəndaş müharibəsinə start verdi və bu, xalqımızın böyük faciəsi idi.

Bir sözlə, o illər bizim tariximizdə qara ləkədir, rüsvayçılıq illəridir. Azərbaycan xalqı cəmi bir il o antimilli hakimiyyətə dözə bildi və bir ildən sonra o hakimiyyəti tarixin arxivinə göndərdi. Azərbaycan xalqı öz liderinə – Heydər Əliyevə müraciət etmişdir, onu hakimiyyətə dəvət etmişdir və nə qədər müdrik xalq olduğunu bir daha sübut etmişdir. Heydər Əliyevin hakimiyyətə dəvət edilməsinin bir çox səbəbləri var idi. İlk növbədə, onun Azərbaycanın rəhbəri kimi 1970-1980-ci illərin əvvəllərində gördüyü işlər, Azərbaycanın inkişafı, quruculuq və abadlıq işləri xalqın yaddaşında əziz xatirə kimi qalmışdır. Məhz onun rəhbərliyi ilə 1970-ci illərdə Azərbaycan sovet məkanında ən geridə qalmış yerdən ən qabaqcıl yerə yüksəlmişdir. Digər səbəblər ondan ibarətdir ki, Heydər Əliyev xalqımız üçün ən ağır məqamlarda daim xalqla birlikdə olmuşdur, böyük müdriklik, cəsarət göstərmişdir. Qanlı Yanvar faciəsindən dərhal sonra - 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək sovet hakimiyyətini, Kommunist Partiyasını törətdiyi cinayətə görə pisləmişdir, tənqid etmişdir, o qanlı faciəni qınamışdır, Azərbaycan xalqının ağrılarını bütün dünyaya çatdırmışdır. O vaxt AXC-Müsavat təşkilatı demək olar ki, qorxudan görünmürdü, gizlənmişdir, fərarilik etmişdir. Heydər Əliyev təkbaşına, özü də Sovet İttifaqının mərkəzində öz haqq səsini ucaltmış, xalqla həmrəyliyini göstərmiş və bu faciəni bütün dünyaya çatdırmışdır. Azərbaycan xalqı əlbəttə ki, bu tarixi yaxşı bilirdi. Naxçıvanda fəaliyyət göstərdiyi dövrdə Ulu Öndər Naxçıvanı erməni işğalından qoruya bilmişdir, o da çox çətin vəzifə idi. Naxçıvan düşmənin əhatəsində idi və orada özünümüdafiə qrupları təşkil edilmiş və düşmənə layiqli cavab verilmiş, düşmən yerinə oturdulmuşdur.

Qeyd etdiyim kimi, Azərbaycan Xalq Cümhuriyyətinin dövlət bayrağını ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sessiyasında dövlət bayrağı kimi məhz Heydər Əliyev təsdiq etmişdir. Sovet İttifaqının saxlanmasına dair referendumun Naxçıvanda keçirilməsinə imkan verməmişdir, baxmayaraq ki, Azərbaycanın bütün başqa yerlərində bu referendum keçirilmişdir. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adını dəyişdirmiş və "Sovet Sosialist" sözlərini oradan çıxarmışdır. Yəni, əlbəttə, xalq yaxşı bilirdi ki, Heydər Əliyev güclü liderdir, Vətənə bağlı olan insandır və məhz belə bir insan Azərbaycana rəhbərlik etməlidir.

1993-cü il tariximizdə dönüş nöqtəsi olmuşdur. Əslində, bizim müstəqil tariximiz o ildən başlamışdır. Çünki 1991-1993-cü illərdə müstəqillik formal, şərti xarakter daşıyırdı. Azərbaycan demək olar ki, xaricdən idarə olunurdu. Biz hamımız bunu yaxşı bilirik. Ona görə Azərbaycan xalqı haqlı olaraq Heydər Əliyevi Azərbaycanın dövlət müstəqilliyinin banisi, Azərbaycan dövlətinin qurucusu kimi tanıyır və bu, tarixi həqiqətdir.

Bu çətin şəraitdə Heydər Əliyev Azərbaycanı o ağır vəziyyətdən çıxara bilmişdir, inkişaf yoluna qoya bilmişdir. 1993-cü ildən başlayaraq bu günə qədər Azərbaycan, sözün əsl mənasında, müstəqil həyat yaşayır. Dövlətçiliyin əsasları qoyuldu, müstəqil dövlətin Konstitusiyası qəbul edildi, milli ideologiyamız qəbul olundu, azərbaycançılıq məfkurəsi bu gün bizim ideoloji əsaslarımızı təşkil edir. Siyasi islahatlar aparılmağa başlamışdır, demokratik inkişafla bağlı önəmli qərarlar, qanunlar qəbul edilmişdir. İqtisadi sahədə liberallaşma siyasəti aparılmağa başlamışdır və bazar iqtisadiyyatına keçid məhz Heydər Əliyevin təşəbbüsü ilə baş vermişdir.

Beynəlxalq təcridə son qoyulmuş, Azərbaycan dünyanın aparıcı ölkələri ilə konstruktiv münasibətlər qura bilmişdir. Qonşu dövlətlərlə münasibətlər normallaşdı. Çünki bu, bir absurd vəziyyət idi ki, 1993-cü ilə qədər Azərbaycan, demək olar, bütün qonşu dövlətlərlə çox gərgin münasibətlər şəraitində yaşayırdı. Qonşu dövlətlərlə, böyük dövlətlərlə münasibətlərin qurulması Heydər Əliyevin tarixi xidmətlərindən biridir. Ciddi iqtisadi islahatların nəticəsi olaraq Azərbaycana böyük sərmayə axını müşahidə edilməyə başlamışdır. "Əsrin kontraktı" imzalanmışdır ki, bu, iqtisadi müstəqilliyimizi şərtləndirən əsas amil olmuşdur. Hamımız yaxşı bilirik ki, iqtisadi müstəqillik olmadan siyasi müstəqillikdən söhbət gedə bilməz. Ordu quruculuğunda böyük addımlar atılmışdır. Azərbaycanda nizami ordu yaradıldı. Bir sözlə, 1993-cü ildən başlayaraq Azərbaycan inkişaf yolu ilə inamla gedir və bu gün bu inkişaf davam edir.

2003-cü ildən sonra Azərbaycanın dinamik inkişafı təmin edilmişdir. Biz güclü, qüdrətli dövlət qura bilmişik. Bu gün Azərbaycan, sözün əsl mənasında, müstəqil siyasət aparan ölkədir. Bu gün

dünya xəritəsində belə ölkələrin sayı o qədər də çox deyil. Xüsusilə biz ərazisi, əhalisi o qədər də böyük olmayan ölkələrə fikir versək görərik ki, müstəqil siyasət aparmaq iqtidarında olan ölkələr o qədər də çox deyil. Biz tam müstəqil siyasət aparırıq. Bizim siyasətimiz milli maraqlar üzərində qurulubdur. Azərbaycan xalqının maraqları bizim siyasətimizin mənbəyidir, onun əsasıdır. Kənardan bizim siyasətimizə təsir etmə imkanları sıfıra bərabərdir. Bunu yaxın tarix göstərib. İndi deyə bilərəm ki, belə cəhdlər də yoxdur. Ona görə ki, biz prinsipial siyasət aparırıq. Bu siyasət Azərbaycan xalqı tərəfindən dəstəklənir və müdafiə olunur. Xalq-iqtidar vəhdəti bizim uğurlarımızın əsas səbəbidir.

Azərbaycan bu gün beynəlxalq arenada öz mövqelərini gücləndirir, beynəlxalq aləmdə çox böyük nüfuza malik olan bir ölkədir. Bizimlə əməkdaşlıq edən ölkələrin sayı getdikcə artır. Biz dünyanın ən mötəbər qurumu olan BMT Təhlükəsizlik Şurasına iki dəfə sədrlik etmişik. Gələn il biz BMT-dən sonra ikinci böyük təşkilata – Qoşulmama Hərəkatına sədrlik etməyə başlayacağıq. Biz bütün digər aparıcı beynəlxalq təşkilatlarla çox sıx əməkdaşlıq edirik. Bəzi təşkilatların üzvüyük, bəzi təşkilatlarla əməkdaşlıq çərçivəsində fəaliyyət göstəririk. Dünya birliyi Azərbaycana böyük hörmətlə, böyük rəğbətlə yanaşır. Bu gün dünyanın siyasi xəritəsində Azərbaycanın yeri çox möhkəmdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı son illər ərzində apardığımız işlər münaqişənin həlli üçün hüquqi bazanı daha da genişləndirmişdir. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi və ATƏT-in qərarları, əlbəttə, bu hüquqi bazanın əsasını təşkil edir. Həmçinin 2003-cü ildən bu günə qədər digər beynəlxalq təşkilatlar oxşar qərar və qətnamələr qəbul etmişlər. Onların arasında Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası, GUAM, ECO və digər təşkilatlar var. Bu, münaqişənin həlli üçün hüquqi bazanın yaradılması deməkdir. Biz münaqişənin həlli üçün iqtisadi zəmin də yaratmışıq, güclü ordu formalaşdırmışıq. Görülən kompleks tədbirlər nəticəsində Azərbaycan bu məsələ ilə bağlı siyasi və diplomatik üstünlüyü tam təmin edibdir. Məhz bunun nəticəsidir ki, nə qədər dünya erməniliyi çalışsa da, heç bir dövlət qanunsuz Dağlıq Qarabağ rejimini tanımayıb.

Biz yaxşı bilirik ki, bu gün beynəlxalq hüququn normaları bir çox hallarda pozulur, işləmir. Güc amili ön plana çıxır və bu, reallıqdır. Ona görə dünya birliyinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bizim mövqeyimizi dəstəkləməsi böyük nailiyyətimizdir. Hesab edirəm ki, beynəlxalq hüququn normalarından başqa, burada güclü Azərbaycan amili dayanır. Biz güclü dövlət qura bilmişik. Bir daha demək istəyirəm ki, bizimlə əməkdaşlıq edən və etmək istəyən ölkələrin sayı artır. Bizə hörmət artır, bizim işimizə göstərilən rəğbət göz qabağındadır. Belə bir vəziyyətdə heç bir ölkə qanunsuz rejimlə heç bir əlaqə qura bilməz və biz buna heç vaxt imkan verməyəcəyik. Biz heç vaxt imkan verməyəcəyik ki, tarixi torpağımızda ikinci erməni dövləti yaradılsın. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin bir yolu var, o da Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyünün bərpasıdır.

Biz güclü ordu yaratmışıq. 1918-ci ildə Azərbaycan Ordusunun yaradılması haqqında qərar veriləndə yəqin ki, Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları heç təsəvvür edə bilməzdilər ki, bu gün Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasında olacaq. Bizim ordumuzun həm maddi-texniki təchizatı, həm də döyüş qabiliyyəti ən yüksək səviyyədədir. Biz bunu döyüş meydanında sübut edə bilmişik. Azərbaycan Ordusu işğal altında olan torpaqların bir hissəsini iki il bundan əvvəl işğalçılardan azad etmişdir. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi işğalçılardan azad edildi. Azad edilmiş o torpaqlara Azərbaycan vətəndaşları qayıtmışlar. O torpaqlara həyat qayıtmışdır və bunu Azərbaycan dövləti etdi, Azərbaycan Ordusu etdi.

Güclü ordu müstəqilliyimizin əsasıdır, təhlükəsizliyimizin qarantıdır. Azərbaycanda təhlükəsizlik tam təmin edilibdir. Azərbaycan bu gün müstəqil ölkə kimi dünya miqyasında ən sabit ölkələrdən biridir. Biz güclü iqtisadiyyat yaratmışıq. Biz təbii resurslarımızdan çox böyük səmərə ilə istifadə etmişik və iqtisadi müstəqillik siyasi müstəqilliyimizin əsas amilidir. İqtisadi müstəqillik olmadan siyasi müstəqillikdən söhbət gedə bilməz. Güclü iqtisadi əsaslar gələcəkdə də imkan verəcək ki, Azərbaycan heç kimdən asılı olmayaraq uğurla inkişaf etsin.

Son 15 il ərzində iqtisadi inkişafımız dünya miqyasında rekord səviyyədədir - Azərbaycan iqtisadiyyatı 3,2 dəfə artmışdır və bu, dünya miqyasında analoqu olmayan inkişafdır. Biz böyük valyuta ehtiyatlarımızı yaratmışıq. Bizim valyuta ehtiyatlarımız

ümumi daxili məhsulumuza bərabər səviyyədədir. Bizim xarici borcumuz o səviyyədədir ki, ehtiyatlarımız xarici borcumuzu 4-5 dəfə üstələyir. Yəni, əgər dünyanın iqtisadi xəritəsinə baxsaq görərik ki, belə göstəricilər çox nadir hallarda baş verir. Bunu biz özümüz yaratmışıq, heç bir yerdən kömək, yardım almadan, düşünülmüş siyasət, atılan düzgün addımlar nəticəsində. Bu gün Azərbaycan iqtisadi cəhətdən tam müstəqil dövlətdir, heç kimdən asılı deyil və məhz buna görə də inamla öz müstəqil siyasətini aparır.

Bizim iqtisadi uğurlarımız mötəbər beynəlxalq iqtisadi qurumlar tərəfindən də yüksək qiymətləndirilir. Rəqabətqabiliyyətliliyə görə Azərbaycan dünya miqyasında 35-ci yerdədir, inkişafda olan ölkələr arasında inkişafa görə üçüncü yerdədir. Bunu biz demirik, bunu dünyanın birinci iqtisadi forumu olan Davos İqtisadi Forumu deyir.

Yəni, bu güclü iqtisadiyyat imkan verir ki, biz Azərbaycanda istənilən sosial layihəni, infrastruktur layihələrini icra edək və edirik. Azərbaycan sosial dövlətdir. Sosial sahəyə ayrılan diqqət imkan verir ki, bir çox sosial problemlər öz həllini tapsın, o cümlədən sosial infrastrukturla bağlı olan layihələr. Son 15 il ərzində 3 mindən çox məktəb, 600-dən çox tibb ocağı, 40-dan çox Olimpiya mərkəzi tikilib. Bütün bunların təməlində həm bizim siyasətimiz, həm də iqtisadi gücümüz dayanır. Biz təbii resurslarımızı - nefti insan kapitalına çevirmişik. Bu istiqamətdə işlər davam edir və davam edəcəkdir. Biz ölkəmizin müstəqilliyini gücləndirən güclü infrastruktur yaratmışıq. O infrastruktur ki, bundan sonra onilliklər ərzində Azərbaycan xalqına xidmət edəcək. Demək olar ki, bütün əsas infrastruktur layihələrini sıfırdan yaratmışıq.

Biz dənizləri neft–qaz kəmərləri ilə birləşdirdik. Tarixdə ilk dəfə olaraq Xəzər dənizi Qara dənizlə, Aralıq dənizi ilə neft kəmərləri vasitəsilə birləşdi. Bizim təşəbbüsümüzlə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Supsa neft və qaz kəmərləri inşa edildi.

Enerji təhlükəsizliyi baxımından Azərbaycan nəinki regionda, dünya miqyasında önəmli ölkəyə çevrildi. Hazırda Cənub Qaz Dəhlizinin icrası ilə bağlı böyük işlər görülür və sabah Cənub Qaz Dəhlizinin rəsmi açılışı olacaqdır. Bu da böyük tarixi qələbəmizdir.

Biz nəqliyyat infrastrukturunu yaratmaqla qitələri birləşdirdik. Açıq dənizlərə çıxışı olmayan Azərbaycan bu gün dünyanın nəqliyyat mərkəzlərindən birinə çevrilir. Təşəbbüskarı olduğumuz Bakı-Tbilisi-Qars dəmir yolu, nəqliyyat infrastrukturu ilə bağlı digər layihələr, Xəzərin ən böyük limanı olan Ələt Limanının işə düşməsi, "Şimal-Cənub" nəqliyyat dəhlizinin yaradılması istiqamətində atılmış addımlar bir məqsədi güdür ki, Azərbaycanı dünyanın nəqliyyat mərkəzlərindən birinə çevirək. Bu istiqamətdə böyük işlər görüldü. Bu, müstəqilliyi gücləndirən amildir. Bu, qeyri-neft sektorunu inkişaf etdirən amildir. Biz bu məsələ ilə bağlı çox ciddi məşğuluq. Gec-tez bizim təbii resurslarımız tükənəcək. Baxmayaraq ki, "Azəri-Çıraq-Günəşli" kontraktının müddəti 2050-ci ilə qədər uzadıldı. Ən azı o vaxta qədər bu kontrakt qüvvədə olacaq. Mən tam əminəm ki, 2050-ci ildən sonra da kifayət qədər neft ehtiyatları "Azəri-Çıraq-Günəşli"də qalacaq.

O ki qaldı, bizim təbii qaz resurslarımıza, bu resurslar ən azı 100 il bundan sonra bizə və bizdən bu əməkdaşlıq nəticəsində faydalanan ölkələrə kifayət edəcəkdir. Amma buna baxmayaraq, biz yenə də qabağa baxmalıyıq. Biz ölkəmizin uzunmüddətli, dayanıqlı inkişaf strategiyasını təmin etməliyik. Bu məsələ ilə bağlı bizim çox aydın fikirlərimiz, baxışlarımız var.

Hesab edirəm ki, müstəqil dövlət kimi Azərbaycan humanitar sahədə tarixi nailiyyətlərə imza atdı. Bu gün Azərbaycan dünyada multikulturalizmin mərkəzlərindən biri kimi tanınır. O şəraitdə ki, bu yanaşmaya indi dünyada o qədər də isti münasibət göstərilmir. Ancaq buna baxmayaraq, biz öz yolumuzla gedirik. Tam əminik ki, biz düzgün yoldayıq. Çünki bizim nümunəmiz, bizim gördüyümüz işlər dinlərarası, millətlərarası dialoqun güclənməsinə gətirib çıxarır və nəticə etibarilə sabitliyə, təhlükəsizliyə xidmət göstərir.

Heç kim təsəvvür edə bilməzdi ki, Azərbaycan idman sahəsində dünyanın aparıcı ölkələrinin sırasında olacaqdır. Biz buna nail ola bilmişik. Sovet dövründə əgər bizim hansısa bir idmançımız Avropa, ya dünya çempionatında yüksək yer tuturdusa, biz bunu böyük bir tarixi hadisə kimi qəbul edirdik. Bu gün bizim idmançılarımız Avropa, dünya çempionatlarında, Olimpiya Oyunlarında yüzlərlə medal qazanmışlar. Son Olimpiya Oyunlarında medalların sayına görə Azərbaycan dünya miqyasında 14-cü yerdədir. Təsəvvür edin, 200-ə yaxın ölkənin iştirak etdiyi bu Oyunlarda 14-cü olmaq nə qədər böyük nailiyyətdir. Bu, nəyin nəticəsidir? Görülən işlərin,

aparılan düzgün siyasətin, xalqımızın istedadının, xalqla iqtidar arasında birliyin nəticəsidir. Bu gün hansı sahəyə baxsan inkişaf var, tərəqqi var və gələcək dinamik inkişaf üçün aydın baxışlar var. Bu gün müstəqil Azərbaycan hər bir Azərbaycan vətəndaşı üçün qürur mənbəyidir. Biz Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının arzularını reallığa çevirdik. Biz elə bir dövlət qurduq ki, əminəm, hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı bu dövlətlə fəxr edir. Mən tam əminəm ki, əgər Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları bugünkü Azərbaycanı görə bilsəydilər, onlar da ölkəmizlə fəxr edərdilər.

Azərbaycanın zəngin təbii resursları vardır və baxmayaraq ki, onların böyük hissəsi tükənib, ancaq yenə də var. Azərbaycan o diyardır ki, dünyada ilk dəfə sənaye üsulu ilə neft 1846-cı ildə məhz Azərbaycanda hasil edilmişdir. O hadisəni əks etdirən abidə də qoyulub. O vaxt dünya neftinin böyük hissəsini onilliklər ərzində Azərbaycan təmin edirdi. Ancaq Azərbaycan xalqı bu təbii resurslardan faydalana bilibmi? Yox. Baxın, biz hansı vəziyyətdə idik. Biz bu gün Xalq Cümhuriyyətinin 100 illiyini qeyd edirik. Baxın, o vaxta qədər və o vaxt bizim ölkəmiz hansı vəziyyətdə idi. Yoxsulluq, səfalət, savadsızlıq, tamamilə dağılmış tarixi şəhərlərimiz. Nəyə görə? Çünki Azərbaycan müstəqil deyildi. Sovet dövründə, İkinci Dünya müharibəsi zamanı Azərbaycan nefti olmasaydı, Sovet İttifaqı faşizm üzərində Qələbəni əldə edə bilməzdi. Bunu hamı bilməlidir. Biz Qələbəyə həlledici töhfə vermişik. O vaxt Azərbaycan xalqı, Azərbaycan zəhmətkeşləri, neftçiləri, Azərbaycan nefti ümumittifaq büdcəsinə xidmət göstərirdi. Heydər Əliyev 1969-cu ildə Azərbaycanda rəhbərliyə gəlməyənə qədər Azərbaycan bütün bu sərvətlərə baxmayaraq, Sovet İttifaqında ən axırıncı yerdə idi. Nəyə görə? Çünki müstəqil deyildik. Taleyimiz əlimizdə deyildi.

1970-ci illərdə Heydər Əliyevin yorulmaz səyləri nəticəsində Azərbaycan çox böyük dərəcədə inkişaf etmişdir. Ancaq yenə də müstəqil deyildi. Müstəqilliyin ilk illərində xalqımızın başına gələn bəlalar, işğal, vətəndaş müharibəsi, AXC-Müsavat cütlüyünün yarıtmaz fəaliyyəti demək olar ki, ölkəmizi məhv etmişdi. Ancaq biz dirçəldik. Nəyə görə? Məhz müstəqilliyə görə. Ona görə ki, bizim taleyimiz indi bizim əlimizdədir. Bizim gələcəyimiz etibarlı əllərdədir.

Bugünkü Azərbaycan bir daha göstərir ki, müstəqillik ən böyük sərvətimizdir. Bu, həqiqətən də belədir. Müstəqillik ən böyük sərvətimizdir, ən böyük nemətimizdir, ən böyük xoşbəxtliyimizdir. Azərbaycanın müstəqilliyi əbədidir.

***

Rəsmi qəbul konsert proqramı ilə davam etdi.



# Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr edilən təntənəli konsertdə iştirak edib

**Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr edilən təntənəli konsert keçirilib**



Mayın 28-də Bakı Kristal Zalında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr edilən təntənəli konsert keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri konsertdə olublar.

Heydər Əliyev Fondunun dəstəyi ilə hazırlanan bədii-musiqili gecənin konsepsiyası 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, ötən 100 il ərzində respublikamızın müxtəlif sahələrdə əldə etdiyi nailiyyətlər, Azərbaycanın hazırda müstəqil, güclü və inkişaf etmiş ölkələr sırasında layiqli yerini tutması ideyası üzərində qurulub.

Hər bir azərbaycanlı üçün əziz olan bu bayram günündə Bakı Kristal Zalında sənət adamlarının çıxışları dövlətimizin gücünü, vətəndaşların dövlətə bağlılığını, xalq sevgisini və qürur hissini bir daha əyani təzahür etdirdi.

Xalq Artisti Alim Qasımov və Əməkdar Artist Fərqanə Qasımovanın ifasında "Qarabağ" şikəstəsi, "Natiq" ritm qrupunun "Sarı gəlin" kompozisiyası, dahi bəstəkar Üzeyir Hacıbəylinin "Koroğlu" opera-sından uvertüra, habelə Qara Qarayevin "Yeddi

gözəl", Fikrət Əmirovun "1001 gecə", Arif Məlikovun "Məhəbbət əfsanəsi" baletlərindən rəqslər, Xalq artistləri Azərinin, Zülfiyyə Xanbabayevanın, Samir Cəfərovun ifalarında "Ey Vətən", "Şuşanın dağları" və "Neftçilər" mahnıları böyük maraqla dinlənildi. Xalq artistləri Aygün Kazımova, Azər Zeynalov, Emin, Elçin Əzizov, Əməkdar artistlər Emil Əfrasiyab, Səbinə Babayeva, Tünzalə Ağayeva, Miri Yusif və Röyanın, "Rast" qrupunun, Azərbaycan Müdafiə Nazirliyinin əlahiddə nümunəvi hərbi orkestrinin çıxışları bayram təntənəsi yaşatdı.

Proqramdakı musiqi nömrələri, rəqslər Azərbaycanın zəngin tarixinə bir daha hərtərəfli nəzər salmağa imkan yaratdı.

Təqdirəlayiq haldır ki, 100 il bundan əvvəl – 1918-ci il mayın 28-də Azərbaycan özünün azad yaşamaq, müstəqil dövlət qurmaq hüququnu bütün dünyaya bəyan etdiyi kimi, hazırda da şərəfli tarixini, parlaq nailiyyətlərini və durmadan artan qüdrətini dünyaya nümayiş etdirir.

Müstəqil Azərbaycan hər bir Azərbaycan vətəndaşının qürur mənbəyidir. Bugünkü Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının arzuladığı qüdrətli dövlətdir. İndi Azərbaycanın əldə etdiyi uğurlar öz miqyası və əhəmiyyəti ilə seçilir. Bunun məntiqi nəticəsidir ki, hər bir Azərbaycan vətəndaşı qüdrətli, əzəmətli, müstəqil dövləti ilə fəxr hissi duyur. Hər bir xalqın ən ümdə arzusu olan müstəqilliyi Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcıları xalqımıza 100 il əvvəl bəxş etdilər. Təəssüf ki, bu müstəqilliyin ömrü cəmi 23 ay oldu. Ölkəmiz müstəqilliyinə ikinci dəfə 1991-ci ildə qovuşdu. Azərbaycan həm siyasi, həm də iqtisadi cəhətdən əsl müstəqil dövlətə məhz 1993-cü ildən – xalqın təkidli tələbi ilə ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra çevrildi. 2003-cü ildən isə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan hərtərəfli və dinamik










inkişafdadır, ölkəmizin beynəlxalq imici durmadan möhkəmlənir. Fəxrlə qeyd edə bilərik ki, hazırda Azərbaycan dünyanın müstəqil siyasət yürüdən azsaylı ölkələrindən biridir. Bir sözlə, Ulu Öndərin dediyi kimi, müstəqilliyimiz əbədi, dönməz və daimidir.

Tədbirdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Xalq Şairi Səməd Vurğunun "Azərbaycan" şeirini səsləndirdiyi videoçarx da nümayiş olundu.

Eyni zamanda, tədbirdə Bakı Media Mərkəzi tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə əlaqədar hazırlanmış videoçarxlar da nümayiş etdirildi.



Konsertdə Azərbaycan Xalq Cümhuriyyətinin növbəti ildönümlərinin əzəli Azərbaycan torpağı olan Qarabağımızda bayram ediləcəyinə əminlik ifadə olundu.

Sonda birlik və həmrəylik, müstəqilliyimizin əbədiliyinə qəti inam rəmzi olaraq incəsənət ustaları hamılıqla səhnəyə çıxaraq Azərbaycanın dövlət himnini oxudular.

İki saata yaxın davam edən konsert proqramına ümumilikdə 670 nəfərdən çox şəxs – tanınmış incəsənət xadimləri və yaradıcı heyət cəlb edilmişdi.

Bakı Kristal Zalındakı konsert proqramı Dənizkənarı Milli Parkda quraşdırılmış monitorda birbaşa yayımlandı.

Tədbirin sonunda Dənizkənarı Milli Parkda möhtəşəm bayram atəşfəşanlığı oldu.

# Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə Bakıda hərbi orkestrlərin çıxışları olub

## Hərbi orkestrlərin ifaları səslənib

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə mayın 28-də Bakının müxtəlif yerlərində hərbi orkestrlərin çıxışları olub.

Hərbi orkestrlərin çıxışları Dənizkənarı Milli Parkda iki istiqamətdə - Azadlıq meydanının qarşısında və Azneft meydanı qarşısındakı dövlət bayrağının önündə, Fəvvarələr meydanında, Əhmədli qəsəbəsində Ukrayna dairəsi yaxınlığındakı Heydər Əliyev parkında, Zərifə Əliyeva parkında və Zabitlər parkında təşkil edilib.





# Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illik və Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileylərinə həsr olunmuş süvari və gəmi yürüşləri təşkil olunub

## Süvari və gəmi yürüşləri keçirilib



Müqəddəs və yenilməz dövlət bayrağımız altında Azərbaycan sərhəd mühafizəsini təmin etməkdən şərəf duyan sərhədçilərimiz dahi öndər Heydər Əliyevin anadan olmasının 95 illik yubileyini və Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyini təntənəli surətdə qeyd edirlər.

Azərbaycanın hər bir sərhədçisi milli dövlətçilik salnaməsinin başlanğıc nöqtəsi olan dövlət sərhədlərinin yaranması və mühafizəsi tarixinin iştirakçısı, dahi öndər Heydər Əliyevin dövlətçilik ideyalarının daşıyıcısı olması ilə fəxr edir.

Müstəqillik dövründə dövlət bayrağımızın Azərbaycan Respublikasının Silahlı Qüvvələrində ilk dəfə 1992-ci il avqustun 22-də dahi öndər Heydər Əliyevin iştirakı ilə Naxçıvan Sərhəd Dəstəsində qaldırılması Azərbaycan Sərhəd Mühafizəsi tarixinin ən şərəfli səhifələrindən biri olmaqla yanaşı, hər bir sərhədçinin üzərinə əlavə məsuliyyət qoyur.

Ümummilli lider Heydər Əliyevin əmri ilə dövlət sərhədində əbədi ucaldılmış, şərəf, şücaət və şöhrət rəmzimiz olan milli üçrəngli dövlət bayrağımız altında xidmət aparmaq Dövlət Sərhəd Xidmətinin hər bir əməkdaşı üçün böyük qürur mənbəyidir.

Mayın 27-də Gürcüstan, İran və Rusiya ilə dövlət sərhədində, həmçinin Xəzər dənizində sərhəd sularında ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illik və Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileylərinə həsr olunmuş süvari və gəmi yürüşləri təşkil olunub.

Dövlət Sərhəd Xidmətinin ən nümunəvi hərbi qulluqçularının iştirak etdiyi sərhədçi yürüşlərinə quru sərhədlərində süvari dəstələr, sərhəd sularında isə DSX-nin Sahil Mühafizəsinin sərhəd gözətçi gəmiləri cəlb olunub.

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ərəfəsində üçrəngli bayrağımızı dalğalandıran yürüş iştirakçıları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ali Baş Komandanlığı altında xidmət etmək şərəfindən doğan iftixar hisslərini diqqətə çatdırıb, torpaqlarımızı işğaldan azad etməyə və bütün sərhədlərimiz boyu dövlət bayrağımızı yüksəltməyə hər an hazır olduqlarını bildiriblər.

Dövlət sərhədində Azərbaycan Respublikasının bayrağının ucaldılmasının əbədiliyini tərənnüm edən bu yürüşlər sərhədçilərimizin vətənpərvərliyinin və Heydər Əliyevin dövlətçiliyinə sadiqliyinin ifadəsi olub.

**Dövlət Sərhəd Xidmətinin Mətbuat mərkəzi**

# Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə yeni zirvə fəth olunub

**Böyük Qafqaz sıra dağlarında fəth olunan yeni zirvəyə “Cümhuriyyətin 100 illik zirvəsi” adı verilib**

Heydər Əliyev Fondunun təşəbbüsü, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, “Regional İnkişaf” İctimai Birliyi və Bakı Media Mərkəzinin təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyi münasibətilə yeni zirvə fəth olunub.

Qusar rayonu ərazisində, Böyük Qafqaz sıra dağlarında dəniz səviyyəsindən 3740 metr hündürlükdə yerləşən zirvəyə “Cümhuriyyətin 100 illik zirvəsi” adı verilib.

Ekspedisiya peşəkar alpinistlər və layihədə iştirak edən qurumların nümayəndələrindən ibarət olub.

Zirvədə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyinə həsr olunmuş məlumat lövhəsi bərkidilib.

Layihə Prezident İlham Əliyevin 2018-ci ilin Azərbaycan Respublikasında “Azərbaycan Xalq Cümhuriyyəti İli” elan edilməsi haqqında Sərəncamına əsasən həyata keçirilən tədbirlər çərçivəsində reallaşıb.






# Azərbaycan Prokurorluq orqanlarında Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyinə həsr olunmuş konfrans keçirilib

**Prokurorluq işçiləri Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyini qeyd ediblər**




Mayın 21-də "Boulevard Hotel"də Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyinə həsr olunmuş konfrans keçirilmişdir.

Konfransı giriş sözü ilə açan Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov 1918-ci il mayın 28-də müsəlman Şərqində yaradılmış və xalqımızın dövlətçilik tarixində misilsiz rolu olan ilk demokratik, parlamentli respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin tarixi əhəmiyyəti barədə məlumat verərək, ölkəmizin qədim və zəngin dövlətçilik ənənələrinin, çoxəsrlik sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişafının, xalqımızın milli oyanışı və dirçəlişi proseslərinin məntiqi nəticəsi kimi meydana çıxmış Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının xalqımızın öz müqəddəratını təyin etməyə qadir olduğunu əyani şəkildə bütün dünyaya nümayiş etdirdiyi qeyd olunmaqla respublikanın gələcək müstəqilliyi üçün etibarlı zəmin hazırladığı bildirilmişdir.




Baş prokuror ölkəmizin müstəqilliyini bərpa etməsindən sonra qazanılmış uğurlar, dövlət quruculuğu sahəsində ümummilli lider Heydər Əliyevin misilsiz xidmətləri və onun etibarlı davamçısı Prezident cənab İlham Əliyevin apardığı daxili və xarici siyasət, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən iqtisadi islahatlar haqqında məlumat vermişdir.

Xüsusi vurğulanmışdır ki, 1993-cü ildə xalqımızın təkidli tələbi ilə ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra onun cəsarəti sayəsində Azərbaycanın müstəqilliyinin qorunmasına və möhkəmləndirilməsinə, xalqımızın firavanlığı və ölkənin davamlı inkişafına xidmət edən siyasi kursun həyata keçirilməsinə başlanılmaqla Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə siyasi-hüquqi qiymət verilmiş, həmin dövrün dövlət rəmzləri və himni bərpa olunmuşdur.

Baş prokuror xüsusi vurğulamışdır ki, Prezident cənab İlham Əliyevin 2018-ci ili "Azərbaycan Xalq Cumhuriyyəti İli" elan etməsi və "Bu gün Cümhuriyyətin qurucuları Azərbaycanı görsələr, fəxr edərdilər. Biz də Cümhuriyyətin qurucuları ilə fəxr edirik" kəlamları xalqımızın qədim və zəngin dövlətçilik tarixinə böyük ehtiramın göstəricisidir.




Tədbirdə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Tarix İnstitutunun direktoru, Milli Məclisin deputatı, akademik Yaqub Mahmudov "Müasir Azərbaycan Respublikası Xalq Cümhuriyyətinin varisidir" mövzusunda məruzə ilə çıxış edərək Cümhuriyyətin xalqımızın dövlətiçilik tarixinin

şanlı səhifələrindən olduğunu vurğulamışdır. Prezident İlham Əliyevin 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunması və Cümhuriyyətin 100 illik yubileyinin yüksək səviyyədə qeyd edilməsi ilə bağlı sərəncamlarının önəmini vurğulayan akademik tariximizin, o cümlədən Cümhuriyyət dövrünün dərindən tədqiq edilməsində AMEA-nın Tarix İnstitutunun Azərbaycan Prokurorluğu orqanları ilə səmərəli əməkdaşlığını xüsusi vurğulamışdır.

Azərbaycan Xalq Cümhuriyyətinin tarixi və əldə etdiyi mühüm uğurlar barədə konfrans iştirakçılarına ətraflı məlumat verən Y.Mahmudov bildirmişdir ki, 1918-1920-ci illər xalqımızın tarixinin ən parlaq səhifələrindən biridir. Cümhuriyyətin qurucuları olduqca gərgin ictimai-siyasi şəraitdə Azərbaycanın müstəqilliyini elan etmiş və 23 aylıq qısa müddətdə bütün sahələrdə mütərəqqi islahatlar həyata keçirərək Azərbaycanın sonrakı müstəqilliyi üçün dövlətçilik ənənəsi formalaşdırmışlar.

Ümummilli lider Heydər Əliyevin Cümhuriyyət dövrünün dərindən araşdırılmasını daim diqqət mərkəzində saxladığını vurğulayan akademik diqqətə çatdırmışdır ki, bu istiqamətdə elmi tədqiqatlar fasiləsiz davam etdirilir, ilk mənbələr və arxiv sənədləri ölkəmizə gətirilir, sanballı elmi əsərlər hazırlanır və müxtəlif dillərə tərcümə edilir. Tarix İnstitutunun direktoru ulu öndər Heydər Əliyevin vəsiyyətinə əsasən nəşr edilən "Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası"nın Cümhuriyyət tarixinin bütün sahələrini əhatə edən ilk fundamental elmi əsər olduğunu vurğulamışdır. O, dövlətimizin başçısı İlham Əliyev tərəfindən də Cümhuriyyət dövrünün tədqiqinə daim xüsusi diqqət yetirməsinin bu sahədə işin daha geniş aparılmasına imkan yaratdığını bildirmişdir.

Çıxışından sonra akademik Yaqub Mahmudov "Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası"nı Baş prokurora təqdim etmişdir.



AMEA-nın Qafqazşünaslıq İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, Milli Məclisin deputatı, professor Musa Qasımlı "Müsəlman Şərqinin ilk demokratik respublikası" mövzusunda məruzəsində Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ilə nəticələnən ictimai-siyasi prosesin milli özünüdərk və milli sürurun formalaşmasına təkan verən maarifçilik hərəkatı ilə başladığını vurğulamışdır. Bu hərəkatda Cümhuriyyətin qurucularının misilsiz xidmətlərini xüsusi qeyd edən M.Qasımlı diqqətə çatdırmışdır ki, Avropa ölkələrindən fərqli olaraq, Azərbaycanda milli azadlıq hərəkatının ön sıralarında ziyalılar addımlayırdılar. Professor həmin dövrdə ziyalılarımızın azadlıq ideyalarına, demokratik dəyərlərə sadiqliyinin Azərbaycanın həmin dövrdə siyasi elitasının yüksək zəkasının və vətənpərvərliyinin göstəricisi olduğunu bildirmişdir. Cümhuriyyətin ağır ictimai siyasi şəraitdə elan edilməsinə baxmayaraq, mühüm uğurlar əldə etdiyini diqqətə çatdıran M.Qasımlı bu baxımdan 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin dünyanın ən böyük dövlətləri tərəfindən tanınmasının, nizami ordu yaradılmasının, müsəlman Şərqində ilk dəfə qadınlara seçki hüququnun verilməsinin önəmini xüsusi vurğulamışdır.




Professor Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi varisi olan müstəqil respublikamızın Cümhuriyyət dövrünün demokratik dəyərlərinə sadiq qalaraq sürətlə inkişaf etdiyini və dünya birliyində layiqli yer tutduğunu bildirmişdir. Qeyd etmişdir ki, məhz müstəqillik dövründə, xüsusən ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində Cümhuriyyət dövrünün tədqiqi və təbliği istiqamətində mühüm addımlar atılmışdır.

Baş prokurorun müavini Namiq Əsgərov "Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik tariximizdəki müstəsna rolu" mövzusunda çıxış edərək bildirmişdir ki, Şərqdə ilk demokratik Cümhuriyyətin qurulması sonrakı mərhələdə Azərbaycan dövlətçiliyinin qorunmasına, müstəqil respublika kimi inkişafına əsaslı hüquqi zəmin yaratmışdır. Müstəqil Azərbaycan dövlətində prokurorluq orqanlarının tarixinin də məhz Azərbaycan Xalq Cümhuriyyətinin yaranması günündən sonra başladığını qeyd edən Baş prokurorun müavini, prokurorluq orqanlarının Azərbaycan Xalq Cumhuriyyətinin Məhkəmə palatasında, Bakı və Gəncə dairə məhkəmələrinin tərkibində mürəkkəb və ağır şəraitdə öz səlahiyyətləri daxilində böyük işlər gördüyünü diqqətə çatdırmışdır.




XANLAR VƏLİYEV
İLQAR ABBASOV
NAZİM RƏCƏBOV
İLQAR CƏFƏROV
RAMİL MƏCİDOV
NAZİR BAYRAMOV
ANAR MƏMMƏDOV


ERKİN ƏLİXANOV
NATİQ HÜSEYNOV
ELŞƏN ABBASOV
KAMAL QILICOV
MÜQƏDDƏS SULTANOV
NAMİQ ƏSGƏROV
RÜSTƏM USUBOV



Konfransa yekun vuran Baş prokuror Zakir Qaralov bildirmişdir ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyi ölkəmizin çoxəsrlik tarixinin ən şərəfli və parlaq səhifələrindən biri kimi böyük ruh yüksəkliyi ilə qeyd edilməklə, xalqımız müasir Azərbaycan dövlətinin müstəqilliyinin və suverenliyinin bütün atributlarına sahib olmasından və onun qorunub saxlanılmasının etibarlı əllərdə olmasından qürur hissi duyaraq işıqlı gələcəyinə tam inamla baxır.

Əminlik ifadə olunmuşdur ki, Azərbaycan Respublikası Prokurorluq orqanları öz fəaliyyətini Prezident cənab İlham Əliyevin müəyyən etdiyi tələblər səviyyəsində qurmaqla, müstəqilliyimizin və suverenliyimizin dönməzliyinin və sarsılmazlığının təmin olunması, ictimai-siyasi sabitliyin və təhlükəsizliyin daha da möhkəmləndirilməsi, dövlətçiliyimizin qorunması istiqamətində davam etdirəcəkdir.

Tədbir çərçivəsində Tarix İnstitutu tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin tarixini özündə əks etdirən nəfis şəkildə hazırlanmış "Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası" və digər kitablar nümayiş etdirilərək konfrans iştirakçılarına təqdim edilmişdir.

Konfransın sonunda Heydər Əliyev Fondunun dəstəyi ilə Bakı Media Mərkəzinin hazırladığı "Əbədi ezamiyyət" sənədli filmi nümayiş etdirilmişdir.

**Baş Prokurorluq**

# Naxçıvanda Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi qeyd olunub

**Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyi münasibətilə Naxçıvanda tədbir keçirilib**



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2017-ci il mayın 16-da Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin qeyd olunması haqqında Sərəncam imzalayıb. Buna uyğun olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 25 yanvar tarixli Sərəncamına əsasən "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsinə dair Tədbirlər Planı" təsdiq olunub.

Mayın 28-də Naxçıvan şəhərinin baş meydanında - Heydər Əliyev Muzeyinin qarşısında Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyi münasibətilə tədbir keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yubiley tədbirində iştirak edib.

Azərbaycan Respublikasının dövlət himni səslənib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov milli dövlətçilik tariximizdə mühüm mərhələ təşkil edən Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə tədbir iştirakçılarını, muxtar respublika əhalisini, müstəqilliyimizin təminatçısı olan Azərbaycan Silahlı Qüvvələrinin muxtar respublika ərazisindəki ordu və birləşmələrinin şəxsi heyətini təbrik edərək deyib: İstiqlal bayramımızı əlamətdar dövrdə qeyd edirik. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 yanvar tarixli Sərəncamına əsasən 2018-ci il Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunmuşdur. Azərbaycan Respublikası Prezidentinin Xalq Cümhuriyyətinin 100 illik yubileyinin keçirilməsi haqqında Sərəncamında deyilir ki: "Azərbaycan Xalq Cümhuriyyəti dünyanın siyasi nizamının yenidən qurulduğu bir vaxtda ... Azərbaycanın yaşadığı mədəni yüksəliş mərhələsinin məntiqi yekunu kimi meydana çıxmışdır".

Ali Məclisin Sədri deyib: Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın istiqlal tarixinin şanlı səhifəsidir. Cəmi 23 ay yaşamasına baxmayaraq milli hökumətimizin keçdiyi şərəfli yol gələcək müstəqil dövlətçilik üçün mühüm siyasi və tarixi əsas yaratmışdır. Ümummilli liderimiz Heydər Əliyev ilk milli Azərbaycan dövlətinin siyasi tariximizdə oynadığı rola böyük dəyər verərək deyirdi: "Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın siyasi şüur səviyyəsinin, intellektual və mədəni potensialının, yüksək istedad və qabiliyyətinin göstəricisi

idi. Azərbaycan Xalq Cümhuriyyəti Avropanın demokratik dəyərləri ilə Şərq mədəniyyətinin xüsusiyyətlərini üzvi şəkildə birləşdirən yeni dövlət və cəmiyyət nümunəsi idi".

Azərbaycan Xalq Cümhuriyyəti ötən əsrin əvvəllərində aparılan müstəqillik uğrunda mübarizənin nəticəsi kimi meydana çıxmışdır. 1918-ci il mayın 28-də Milli Şuranın tarixi iclasında qəbul edilən İstiqlal Bəyannaməsində qeyd olunurdu ki, bu gündən etibarən Azərbaycan Cənub-Şərqi Zaqafqaziyanı əhatə edən tamhüquqlu müstəqil dövlətdir. Xalq Cümhuriyyəti hökuməti çətin tarixi şəraitdə üzərinə götürdüyü missiyanı şərəflə yerinə yetirmiş, Azərbaycanın ilk parlamenti və hökuməti, dövlət aparatı, milli ordusu təşkil edilmiş, müstəqil dövlətçilik atributları - bayraq, himn və gerb yaradılmış, Azərbaycan dili dövlət dili elan edilmiş, pul və poçt markaları dövriyyəyə buraxılmışdı. Milli iqtisadiyyatın, təhsil, səhiyyə və mədəniyyətin inkişafı ilə bağlı əhəmiyyətli qərarlar qəbul olunmuşdur.

Ali Məclisin Sədri deyib: Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik tariximizdəki yeri və rolundan bəhs edərkən onun Naxçıvanla əlaqələrinə xüsusi nəzər yetirmək lazımdır. Çünki o dövrdə Naxçıvan həm daxildə, həm də beynəlxalq aləmdə müxtəlif maraqların toqquşduğu ərazilərdən birinə çevrilmişdi. Ermənilərin Naxçıvana hücumları isə vəziyyəti daha da mürəkkəbləşdirmişdi. Ona görə də Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti və parlamenti Naxçıvanla bağlı bir sıra məsələləri diqqətdə saxlayır, hökumətin İrəvan və Tiflisdəki diplomatik nümayəndələri bununla bağlı səmərəli və işgüzar fəaliyyət göstərirdilər. Lakin reallıq bundan ibarət idi ki, mövcud siyasi və beynəlxalq vəziyyət Naxçıvan əhalisinin Azərbaycanla bir olmaq arzusunu həyata keçirməyə imkan vermirdi. Böyük dövlətlərin təsiri ilə qədim Azərbaycan torpaqları olan Zəngəzurun və İrəvanın Ermənistana verilməsindən sonra Naxçıvan Muxtar Respublikasının indiki ərazisi təcrid olunmuş vəziyyətə düşmüş, Azərbaycanın əsas ərazisi ilə əlaqə kəsilmişdi. Belə bir vəziyyətdə - 1918-ci ilin noyabrında Naxçıvanda yaradılmış Araz Türk Cümhuriyyəti Naxçıvanın Ermənistan daşnak hökuməti tərəfindən ilhaq edilməsinin qarşısını aldı və tarixi Azərbaycan torpaqlarını qoruyub saxladı. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin Naxçıvan məsələsində tutduğu mövqe və ərazinin qorunması ilə bağlı Naxçıvan sakinlərinin mütəşəkkil siyasi iradəsi sonrakı dövrdə Naxçıvanın Azərbaycanın tərkibində muxtariyyət statusu qazanmasında mühüm əhəmiyyət kəsb etmişdir.

Qeyd olunub ki, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin ilk dəfə olaraq keçmiş xanlıqların 113 min kvadratkilometrlik ərazisində müstəqil, bütöv Azərbaycan dövlətçiliyini bərpa etməsi onun ən mühüm xidmətlərindən biridir. Məhz bu hesaba Azərbaycanın ərazi bütövlüyü 1920-ci il 28 aprel bolşevik işğalı zamanı və ondan sonrakı dövrlərdə də qorunub saxlanmış, 1991-ci ildə isə bu ərazidə müstəqil Azərbaycan dövləti yaradılmışdır. Görkəmli dövlət xadimi Heydər Əliyevin 1993-cü ildə ölkəmizdə siyasi hakimiyyətə qayıdışından sonra dövlət müstəqilliyimiz daha da möhkəmlənmişdir. Ölkəmizdə demokratik prinsiplər bərqərar edilmiş, güclü ordu yaradılmış, müstəqilliyimiz əbədi və dönməz xarakter almışdır. Azərbaycan sübut etmişdir ki, Şərqdə və müsəlman aləmində ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin layiqli varisidir, onun davamçısıdır və ənənələrinə sadiqdir. Bu varisliyin əyani ifadəsidir ki, 1998-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin 80, 2008-ci ildə isə 90 illik yubileyləri ölkəmizdə yüksək səviyyədə qeyd olunmuş, Xalq Cümhuriyyətinə Xatirə abidəsi ucaldılmış, cümhuriyyət tarixi ilə bağlı elmi-tədqiqatlar aparılmış, yubiley nəşrləri həyata keçirilmişdir.

Ali Məclisin Sədri deyib: Azərbaycan Xalq Cümhuriyyətinin tarixdə ən böyük xidmətlərindən biri də bugünkü müstəqil və qüdrətli Azərbaycan dövlətidir. Ümummilli Liderimizin müəyyənləşdirdiyi müstəqillik yolu Azərbaycan Xalq Cümhuriyyətinin varisi olan müasir Azərbaycanın dövlətçilik yoludur. Ölkə Prezidenti cənab İlham Əliyev bu yolu uğurla davam etdirərək Azərbaycanı regionun lider dövlətinə, sülhün, sabitliyin və inkişafın təminatçısına çevirib. Bu gün müstəqil Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin siyasi varisi kimi dünya birliyində öz layiqli yerini tutur. 2018-ci il aprelin 11-də keçirilən Prezident seçkilərində xalqımızın ümummilli lider Heydər Əliyevin siyasi xəttini dəstəkləməsi də bir daha təsdiq etdi ki, bugünkü Azərbaycanda müstəqillik və demokratiya yolunun alternativi yoxdur. Xalq bu yolu dəstəkləyir və bu yola sadiqdir. Biz azərbaycanlı olmağımızla, müstəqil dövlətdə yaşamağımızla qürur duyuruq! Biz Azərbaycan Xalq Cümhuriyyətinin varisləri olmağımızla fəxr edirik!

Sonra Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyi münasibətilə yürüş keçirilib.

Azərbaycan Respublikasının dövlət bayrağını daşıyan "Bayraq" qrupunun nizami addımları ilə yürüşə start verilib.

Yürüşdə Heydər Əliyev adına Hərbi Liseyin kursantları, Naxçıvan Muxtar Respublikası Təhsil, Gənclər və İdman nazirliklərinin, Yeni Azərbaycan Partiyası Heydər Əliyev adına Gənclər Birliyinin fəal gəncləri, Əlahiddə Ümumqoşun Ordusunun, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının, Naxçıvan Əlahiddə Əməliyyat Briqadasının, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi Mülki Müdafiə Alayının nümunəvi bölmələrinin əsgərləri, eləcə də Naxçıvan Əlahiddə Əməliyyat Briqadasının süvari dəstəsi Heydər Əliyev Muzeyinin önündən başlayaraq Heydər Əliyev Sarayına və geriyə qədər olan yolu Hərbi Orkestrin ifa etdiyi təntənəli marş sədaları altında nizami addımlarla qət ediblər.

Minlərlə şəhər sakini yürüşə baxıb.

# Azərbaycan Beynəlxalq Prokurorlar Assosiasiyasının işinə dəyərli töhfələr verir

**Bakıda Beynəlxalq Prokurorlar Assosiasiyası (BPA) İcraiyyə Komitəsinin 45-ci iclası keçirilib**









1995-ci ildə Birləşmiş Millətlər Təşkilatının Vyana ofisində təsis edilmiş, dünya prokurorlarının yeganə qlobal təşkilatı olan 170-dən çox dövlətin üzvü olduğu Beynəlxalq Prokurorlar Assosiasiyası (BPA) ilə ölkəmiz uğurlu əməkdaşlıq edir. Assosiasiyanın əsas məqsədi transmilli cinayətkarlıq, narkotiklərin qanunsuz dövriyyəsi, çirkli pulların yuyulması və korrupsiyaya qarşı mübarizə sahəsində sürətli, səmərəli və işgüzar əlaqələrin qurulmasında prokurorlar arasında forum rolunu oynamaqdır.

Azərbaycan Respublikası təşkilat yarandığı vaxtlardan onunla işgüzar münasibətlər qurmuş, Baş Prokurorluq və Hərbi Prokurorluq Assosiasiyaya təşkilati üzv kimi qəbul edilmiş, ölkəmizin nümayəndələri uzun illərdir Assosiasiyanın rəhbər qurumları olan İcraiyyə Komitəsində və Senatda Azərbaycanı layiqincə təmsil edirlər.




Respublikamızın Assosiasiyanın işində fəal iştirakı, təşəbbüskarlığı və səmərəli təmsilçiliyi nəzərə alınaraq BPA-nın 2016-cı ildə İrlandiyanın paytaxtı Dublində keçirilmiş illik tədbirlərində Assosiasiyanın İcraiyyə Komitəsinin 45-ci iclasının 2018-ci ilin 9-10 aprel tarixlərində Bakı şəhərində keçirilməsi qərara alınıb.

Bununla əlaqədar Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralovun dəvəti ilə Beynəlxalq Prokurorlar Assosiasiyasının Prezidenti cənab Qerhard Yaroşun rəhbərlik etdiyi nümayəndə heyəti, eləcə də Kanada, İsveçrə, İrlandiya, Cənubi Afrika Respublikası, Tayland, Bəhreyn və Mavriki dövlətlərinin Baş prokurorları, habelə təşkilata üzv olan digər ölkələrin prokurorluq orqanlarının yüksək səviyyəli şəxsləri ölkəmizdə səfərdə olublar.

Səfər çərçivəsində qonaqlar əvvəlcə Fəxri Xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını və Şəhidlər Xiyabanını ziyarət ediblər.

Dünyanın 20-dən çox ölkəsinin prokurorluq orqanları yüksək təmsilçilərinin və Azərbaycan Respublikasının dövlət rəsmilərinin iştirakı ilə İcraiyyə Komitəsinin açılışı olub.

Açılış mərasimində çıxış edən Azərbaycan Respublikası Prezidentinin Hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi – şöbə müdiri Fuad Ələsgərov ölkə Prezidenti cənab İlham Əliyevin adından qonaqları salamlayıb, tədbirin ölkəmizin ictimai-siyasi həyatında mühüm əhəmiyyətə malik bir sıra tədbirlərlə eyni vaxta təsadüf etdiyini qeyd edərək hazırkı iclasın dövlətimizin hüquqi dövlətin qurulması və qanunun aliliyinin təmin edilməsi işinə, eləcə də bu fəaliyyətdə prokurorların roluna və beynəlxalq tərəfdaşlarla əməkdaşlığa töhfə verdiyini bildirib.

İclasa sədrlik edən Baş prokuror Zakir Qaralov ölkəmizin təşkilatla fəaliyyətə başladığı vaxtdan etibarən uğurla əməkdaşlıq etdiyini və Assosiasiyanın ali idarəetmə orqanlarında fəal təmsil olunduğunu vurğulayıb, Azərbaycanın ədliyyə naziri Fikrət Məmmədovun BPA-nın uzun illər İcraiyyə Komitəsinin üzvü olmuş, hazırda Assosiasiyanın senatoru və fəxri üzvü, Baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevin isə İcraiyyə Komitəsinin üzvü olmasını qeyd edib.

Baş prokuror ölkəmizin belə mötəbər tədbirə ev sahibliyi etməsindən məmnunluğunu ifadə edərək hazırkı iclasın təşkilatın işinə verdiyi töhfələrinə görə yaddaqalan olacağına və

əməkdaşlığımızın daha da inkişafı və dərinləşməsinə xidmət edəcəyinə əminliyini bildirib.

Beynəlxalq Prokurorlar Assosiasiyasının Senatoru və fəxri üzvü, ədliyyə naziri Fikrət Məmmədov açılışda Assosiasiyanın tarixi və keçdiyi inkişaf yolu və Azərbaycanın BPA-nın inkişafında töhfələri ilə bağlı foto-slaydlardan ibarət əyani prezentasiya ilə çıxış edib, İcraiyyə Komitəsinin 2002-ci ildə Bakıda keçirilmiş iclasını və Komitə üzvlərinin böyük şərəf verilərək ümummilli lider Heydər Əliyev tərəfindən qəbul olunduğunu xatırladaraq Bakı iclasının yaddaqalan və belə tədbirlər üçün yüksək standart kimi müəyyən etdiyini vurğulayıb.

Bildirib ki, Assosiasiyanın işində yaxından iştirak edilərək ölkəmiz tərəfindən BPA-nın rus dilində saytı və dünya prokurorları üçün korrupsiyaya qarşı internet şəbəkəsi aparılır, bütün nəşrləri Azərbaycan və rus dillərinə tərcümə olunmaqla qurumun təcrübəsindən ölkəmiz və müxtəlif digər dövlətlər tərəfindən geniş bəhrələnilir.

Assosiasiyanın prezidenti Qerhard Yaroş çıxış edərək iclasın yüksək səviyyədə təşkilinə görə Azərbaycan tərəfinə öz dərin təşəkkürlərini bildirib, Azərbaycanın Assosiasiyanın işinə verdiyi önəmli töhfələri və onun fəaliyyətində göstərdiyi təşəbbüskarlıq və mühüm dəstəyi xüsusi vurğulayıb.

İki gün davam edən iclasda İcraiyyə Komitəsi üzvlərinin gördüyü işlərə, qurumun maliyyə durumuna dair hesabatlar müzakirə olunaraq qəbul edilib, bir sıra vəzifələrə təyinatların aparılması, Assosiasiyanın ixtisaslaşdırılmış şəbəkələrinin fəaliyyəti və gələcək inkişafı, qurumun üzvləri arasında, həmçinin təşkilatın beynəlxalq əlaqələrinin daha da inkişaf etdirilməsi, transmilli cinayətkarlığa qarşı mübarizə, cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım məsələləri ilə bağlı geniş diskussiyalar aparılıb, bir sıra mühüm qərarlar qəbul edilib.

Yekunda İcraiyyə Komitəsinin növbəti iclasının, həmçinin Assosiasiyanın növbəti İllik Konfransı və Ümumi Yığıncağının 2018-ci ilin 9-13 sentyabr tarixlərində Cənubi Afrika Respublikasının Yohannesburq şəhərində keçirilməsi qərara alınıb.

Səfər zamanı Beynəlxalq Prokurorlar Assosiasiyanın prezidenti Qerhard Yaroş, Baş katibi Han Moraal, icraçı direktoru xanım Yanne Holst Hübner və təşkilatın digər rəsmiləri Azərbaycan Respublikasının Baş Prokurorluğunda Baş prokuror Zakir Qaralov tərəfindən qəbul ediliblər.

Baş prokuror Assosiasiyasının İcraiyyə Komitəsinin iclasına məhz Azərbaycan Respublikasının ev sahibliyi etməsinin həm Assosiasiyanın fəaliyyətində, həm də cinayətkarlığın bütün formalarına qarşı mübarizədə beynəlxalq əməkdaşlığa xüsusi önəm verən ölkəmizin ictimai həyatında mühüm hadisə olduğunu diqqətə çatdırıb, daha öncə BPA-nın İcraiyyə Komitəsinin Bakıda keçirilmiş iclasını xatırladaraq bu tədbirlərin qarşılıqlı əlaqələrin inkişafında mühüm rol oynadığını qeyd edib.

Görüş zamanı qonaqlara son illər ərzində ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasi, iqtisadi və hüquqi islahatlar, ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi istiqamətində prokurorluq orqanlarının fəaliyyəti barədə geniş məlumat verilib.

Mövcud səmərəli əməkdaşlıqdan məmnunluğunu ifadə edən Qerhard Yaroş ölkəmizlə təşkilat arasında qurulmuş münasibətlərin bundan sonra daha da möhkəmlənəcəyinə əminliyini ifadə edib, Azərbaycan Prokurorluğunun dəstəyi ilə 2017-ci ildə Bakıda keçirilmiş Assosiasiyanın "Kibercinayətkarlıqla mübarizəyə dair Konfrans"ına yüksək səviyyədə ev sahibliyinə görə Azərbaycan tərəfinə dərin minnətdarlığını bildirərək İcraiyyə Komitəsinin 45-ci iclasında da ölkəmizin öz müsbət təcrübələrini tətbiq edəcəyinə ümidvar olduğunu bəyan edib.

Assosiasiya rəsmiləri daha sonra Beynəlxalq Prokurorlar Assosiasiyasının senatoru və fəxri üzvü, ədliyyə naziri Fikrət Məmmədovla görüşüblər.

Görüşdə ədalət mühakiməsinin səmərəli həyata keçirilməsində və cinayətkarlıqla mübarizə üzrə dünya prokurorlarının səylərinin birləşdirilməsində Assosiasiyanın rolu vurğulanıb, ikitərəfli əlaqələrin inkişafından məmnunluq ifadə olunub, Azərbaycanın BPA ilə uğurlu əməkdaşlığı, Assosiasiyanın işinə verdiyi dəyərli töhfələri, habelə onun rəhbər orqanlarında fəal təmsilçiliyi yüksək qiymətləndirilib, təşkilatın gələcək fəaliyyətinə yinə dair faydalı fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində Baş prokuror Zakir Qaralovla Tayland Krallığının Baş prokuroru cənab Khemçai Çutivonqsi, Bəhreyn Krallığının Baş prokuroru cənab Əli Albuainaini, Mavriki Respublikasının Baş prokuroru cənab Saatyajit Boolell və digər ölkələrin Baş prokurorlarının rəhbərlik etdikləri nümayəndə heyətləri arasında ikitərəfli görüşlər keçirilib.

Azərbaycanda uğurla həyata keçirilən hüquqi islahatlara böyük maraq göstərdiyini diqqətə çatdıran xarici qonaqlar ölkələrimiz arasında hüquqi sahədə əməkdaşlığın geniş perspektivlərə malik olduğunu vurğulayaraq, dövlətlərarası əməkdaşlığın



prokurorluq orqanları arasında da genişlənməsinin qarşılıqlı əlaqələrin daha da möhkəmlənməsi işinə xidmət etdiyini bildiriblər. İkitərəfli görüşlərdə hüquqi sahədə əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılıb, həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyindən, hüquqi əməkdaşlıq sahəsində müqavilə bazasının formalaşdırılmasından danışılıb, tərəfləri maraqlandıran məsələlər müzakirə edilərək ölkələrimizin prokurorluq orqanları arasında qarşılıqlı münasibətlərin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə olunub.

Səfər zamanı iştirakçılar Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin milli memarlıq üslubunda inşa edilmiş və ən müasir avadanlıqla təchiz edilmiş inzibati binasında olub, Baş İdarədə yaradılmış yüksək iş şəraiti ilə yaxından tanış olan qonaqlara korrupsiyaya qarşı mübarizədə qətiyyətli siyasi iradənin təzahürü olan qurumun fəaliyyəti barədə məlumat verilib. Sonra Assosiasiya rəsmiləri ilə quruma üzv olan ölkəmizin gənc prokurorluq əməkdaşlarının görüşü keçirilib, əməkdaşlara təşkilatın cinayətkarlıqla mübarizənin müxtəlif istiqamətləri üzrə fəaliyyət göstərən ixtisaslaşdırılmış şəbəkələri və digər layihələri barədə ətraflı məlumat verilib, geniş fikir mübadiləsi aparılaraq iştirakçıların çoxsaylı sualları cavablandırılıb.

Qonaqlar həmçinin ölkəmizin tarixi və mədəni abidələri, o cümlədən Bakının müasir rəmzlərindən olan Heydər Əliyev Mərkəzi və "İçərişəhər" Dövlət Tarix Memarlıq Qoruğu ilə tanış olublar. Eyni zamanda, bölgələrə səfər edilərək Şəkidə məhkəmə kompleksinin və rayon prokurorluğun fəaliyyəti, rayonun qədim tarixi guşələri ilə tanış olunub. İştirakçılar Qəbələdə “ASAN” Xidmət Mərkəzinin fəaliyyəti, həmçinin müasir məhkəmə binası ilə tanışlıqdan da xoş təəssüratla ayrılıblar, "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksinə səfər edərək ölkəmizin turizm potensialının və yaradılmış ən yüksək beynəlxalq standartlara cavab verən infrastrukturun əyani şahidi olublar.

Azərbaycan Respublikasının prokurorluq orqanları cinayətkarlığa qarşı mübarizədə səylərin birləşdirilməsi və qabaqcıl təcrübənin öyrənilməsi məqsədilə bundan sonra da beynəlxalq tərəfdaşlarla əməkdaşlığını davam etdirəcəkdir.

**Baş prokurorluq**

# Baş prokuror Zakir Qaralov Türkiyə Respublikasının Ədliyyə naziri Əbdülhəmid Gülün başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

## Türkiyənin Ədliyyə naziri Baş Prokurorluqda olub



Aprelin 3-də Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov Türkiyə Respublikasının Ədliyyə naziri Əbdülhəmid Gülün başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonağı səmimi salamlayan Baş prokuror tarixən xalqlarımızın milli köklərə söykənən münasibətlərinin siyasi, iqtisadi, mədəni və digər sahələrdə də dinamik inkişaf etdirildiyini bildirərək, bu əlaqələrin Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "bir millət, iki dövlət", Türkiyə dövlətinin qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, Azərbaycanın kədəri bizim kədərimizdir" kəlamları ilə ifadə edildiyi, hər iki qardaş ölkənin dövlət başçılarının ciddi səyləri, apardıqları uzaqgörən xarici siyasət nəticəsində Azərbaycan-Türkiyə əlaqələrinin etibarlı strateji əməkdaşlıq səviyyəsinə qalxmaqla dostluq və qardaşlıq prinsiplərinə əsaslandığını xüsusi vurğulamışdır.

Baş prokuror mövcud ikitərəfli hüquqi əməkdaşlıq əlaqələrini məmnunluqla vurğulayaraq, Türkiyədə 2016-cı ildə baş vermiş 15 iyul hadisələri ilə bağlı başlanmış cinayət işi üzrə aparılan geniş istintaq-əməliyyat tədbirlərində Azərbaycanın hüquq mühafizə orqanlarının aktiv fəaliyyətini qeyd etmişdir.

Türkiyədə dövlət çevrilişinə cəhd zamanı qardaş Azərbaycan dövləti və xalqının göstərdiyi dəstəyə görə təşəkkürünü ifadə edən nazir Əbdülhəmid Gül ikitərəfli əlaqələrin bütün sahələrdə bundan sonra da genişlənəcəyinə əminliyini bildirməklə Azərbaycan Xalq Cumhuriyyətinin yaradılmasının 100 illiyi münasibətilə təbriklərini çatdırmışdır.

Görüş zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə geniş məlumat verilmiş, qonaq tərəfindən bir neçə gün öncə ölkəmizdə yad edilən azərbaycanlıların soyqırımının 100 illiyi ilə əlaqədar Azərbaycan xalqına başsağlığı vermişdir.

Görüşdə hüquqi sahədə əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılmışdır.

Nümayəndə heyəti daha sonra Baş Prokurorluğun Tarix muzeyi ilə tanış olmuşdur.

**Baş Prokurorluq**

# Baş prokuror Zakir Qaralov Müstəqil Dövlətlər Birliyinin seçki müşahidə missiyası qərargahının rəhbəri Yevgeni Slobodanı qəbul edib

**MDB seçki müşahidə missiyası qərargahının rəhbəri Baş Prokurorluqda olub**

Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov aprelin 4-də Müstəqil Dövlətlər Birliyinin (MDB) seçki müşahidə missiyası qərargahının rəhbəri Yevgeni Sloboda ilə görüşmüşdür.

Baş prokuror seçicilərin azad şəkildə öz iradələrini ifadə etməsi, seçkilərin demokratik və şəffaf şəraitdə keçirilməsi üçün ölkəmizdə görülən işləri qeyd etməklə seçki qanunvericiliyinin pozulması ilə əlaqədar prokurorluq orqanlarının qarşısında duran vəzifələr barədə ətraflı məlumat vermişdir.

Görüş zamanı seçki prosesində yol verilən qanun pozuntuları ilə bağlı Baş Prokurorluğa daxil olan cinayət xarakterli məlumatların təxirəsalınmadan araşdırılmasının təmin edilməsi məqsədi ilə İşçi qrupunun yaradıldığı xüsusi qeyd edilmişdir.

Yevşeni Sloboda ölkəmizdə olduğu müddətdə keçirdiyi görüşlərin əhəmiyyətindən söz açaraq seçkilərin normal keçirilməsi üçün hər cür şəraitin yaradıldığını, ötən seçkilərlə müqayisədə dairə seçki komissiyalarının üzvlərinin peşəkarlıqlarının daha da artdığının şahidi olduğunu qeyd edərək bu işdə Mərkəzi Seçki Komissiyası ilə yanaşı, prokurorluq orqanlarının maarifləndirmə sahəsindəki əməyini yüksək qiymətləndirmişdir.

Görüşdə tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

**Baş Prokurorluq**

# Baş prokuror Zakir Qaralov Əlcəzair Xalq Demokratik Respublikasının ədliyyə naziri Əl-Tayib Louhu qəbul edib

**Əlcəzair Xalq Demokratik Respublikasının ədliyyə naziri Baş Prokurorluqda olub**



İyunun 21-də Baş prokuror Zakir Qaralov Əlcəzair Xalq Demokratik Respublikasının ədliyyə naziri Əl-Tayib Louh ilə görüşüb.

Görüşdə ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı qeyd olunaraq bu əlaqələrin möhkəmlənməsində dövlət başçıları cənab İlham Əliyevin və cənab Əbdüləziz Buteflikənin xüsusi rolu vurğulanıb.

Baş prokuror ölkəmizin İslam və ərəb dünyası ilə əlaqələrə xüsusi əhəmiyyət verdiyini qeyd edərək, Dövlət başçısı tərəfindən 2017-ci ilin "İslam Həmrəyliyi İli"nin elan olunması çərçivəsində dost Əlcəzair Xalq Demokratik Respublikası ilə ikitərəfli münasibətlərin inkişafı məqsədi ilə iki ölkənin Ədliyyə nazirlikləri tərəfindən imzalanan əməkdaşlıq haqqında Anlaşma Memorandumunun, həmçinin cari səfər çərçivəsində imzalanan Ekstradisiya haqqında müqavilənin əlaqələrimizin inkişafında yeni təkan olduğunu vurğulayıb.

Qeyd olunub ki, Əlcəzairin ədliyyə naziri Əl-Tayib Louhun dəvəti ilə Azərbaycanın ədliyyə na-

ziri Fikrət Məmmədovun 2017-ci ildə nümayəndə heyəti ilə bu ölkədə səfərdə olması və Əlcəzairdən Azərbaycana nazir səviyyəsində ilk dəfə edilən bu səfər tarixi hadisə olmaqla münasibətlərimizin inkişafına, eyni zamanda, Anlaşma Memorandumu və Ekstradisiya haqqında müqavilə iki ölkə arasında əməkdaşlığa dair imzalanan ilk sənədlər olmaqla müqavilə-hüquq bazasının təməlini qoyaraq, qarşılıqlı fəaliyyətin müxtəlif sahələrdə dərinləşməsinə dəyərli töhfə olmuşdur.

Görüşdə əməkdaşlığın perspektivləri müzakirə olunub, hər iki dövlətdə ədliyyə və məhkəmə sistemində aparılan islahatlar ətrafında geniş fikir mübadiləsi aparılıb, ölkəmizdə ümummilli lider Heydər Əliyev tərəfindən təməli qoyulmuş və Prezident İlham Əliyevin rəhbərliyi ilə məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi üzrə görülən işlərə və əldə olunan nailiyyətlərə böyük maraq göstərilərək, təcrübə mübadiləsinin aparılmasının hər iki tərəf üçün faydası qeyd olunub.

Ölkəmizdə səfərindən məmnunluğunu ifadə edən nazir Əl-Tayib Louh respublikamızın hərtərəfli tərəqqisini qeyd edib, qarşılıqlı etimada əsaslanan Əlcəzair-Azərbaycan əlaqələrinin bundan sonra da inkişaf etdirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini söyləyib.

Nazir Azərbaycanda gedən proseslərdən məlumatlı olduğunu bildirərək, ölkəmizin sürətli inkişafında, əmin-amanlığın və sabitliyin təmin olunmasında ölkə Prezidenti cənab İlham Əliyevin müstəsna rolunu və xidmətlərini vurğulayıb.

Respublikamızda aparılan məhkəmə-hüquq islahatlarına böyük maraq göstərərək təqdir edib, öz ölkəsində də bu sahədə köklü islahatların aparıldığını bildirib. Nazir Əl Tayib Louh hüquqi sahədə təcrübə mübadiləsinin əhəmiyyətini qeyd edərək bunun üçün qarşılıqlı fəaliyyətin inkişaf etdirilməsində maraqlı olduğunu söyləyib.

Görüşdə əməkdaşlığın perspektivləri müzakirə olunub, korrupsiyaya qarşı mübarizə və digər qarşılıqlı maraq doğuran məsələlər ətrafında faydalı fikir və təcrübə mübadiləsi aparılıb.

**Baş Prokurorluq**

# Baş prokuror Zakir Qaralov Rusiya mətbuatında Azərbaycana qarşı yönəlmiş təxribatla əlaqədar həmin ölkənin baş prokuroruna müraciət ünvanlayıb

**"İzvestiya" qəzetində ölkəmizin ərazi bütövlüyünə qarşı yönəlmiş təxribata reaksiya verilib**

Baş prokuror Zakir Qaralov "İzvestiya" qəzetinin "İz.ru" informasiya portalının redaksiyası tərəfindən 16 aprel 2018-ci il tarixdə həmin portalda yayılmış məlumatda Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində yerləşən qondarma rejimin bayrağı və digər şüarların nümayiş etdirilməsi ilə əlaqədar Rusiya Federasiyasının Baş prokuroru Yuriy Çaykaya müraciət etmişdir.

Müraciətdə ölkəmizin suverenliyi və ərazi bütövlüyünə qarşı yol verilmiş qanunazidd hərəkətlər qəti şəkildə pislənərək, informasiya portalının redaksiyası tərəfindən yol verilmiş təxribatın ictimaiyyət arasında geniş rezonans doğurması bildirilməklə obyektiv və ədalətli şəkildə araşdırma aparılması və həmin hərəkətlərə qısa müddətdə hüquqi qiymət veriləcəyinə əminlik ifadə olunmuşdur.

**Baş Prokurorluq**

# Prokurorluq orqanlarında vətəndaşların müraciətlərinə baxılması işi daim diqqət mərkəzindədir

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları prokurorluq orqanları tərəfindən daim diqqətdə saxlanılaraq vətəndaşların qəbulu, onların ərizə və şikayətlərinə baxılaraq həll olunması üçün müvafiq tədbirlər görülür.

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Baş prokuror Zakir Qaralov bölgələrdə vətəndaşları qəbul edib.

## Baş prokuror Zakir Qaralov Samux şəhərində vətəndaşları qəbul edib



Baş prokuror Zakir Qaralov aprelin 27-də Samux rayon prokurorluğunun inzibati binasında Gəncə şəhər, Samux, Göygöl, Goranboy, Daşkəsən, Xocalı və Kəlbəcər rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror və Samux rayon İcra Hakimiyyətinin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad ediblər.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Baş prokuror bölgədə yaşayan 21 vətəndaşın müraciətini dinləyərək, qaldırılan məsələlər üzrə onların qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verib.

## Baş prokuror Zakir Qaralov Masallı şəhərində vətəndaşları qəbul edib



Baş prokuror Zakir Qaralov mayın 25-də Masallı rayon prokurorluğunun inzibati binasında Masallı, Lənkəran, Astara, Lerik və Yardımlı rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror və Masallı rayon İcra Hakimiyyətinin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad ediblər.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Baş prokuror bölgədə yaşayan 22 vətəndaşın müraciətini dinləyərək, qaldırılan məsələlər üzrə onların qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verib.

## Baş prokuror Zakir Qaralov Ağstafa rayonunda vətəndaşları qəbul edib



Baş prokuror Zakir Qaralov iyunun 22-də Ağstafa rayon prokurorluğunun inzibati binasında Ağstafa, Qazax, Şəmkir, Tovuz və Gədəbəy rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror və Ağstafa rayon İcra Hakimiyyətinin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad ediblər.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Baş prokuror bölgədə yaşayan 15 vətəndaşın müraciətini dinləyərək, qaldırılan məsələlər üzrə onların qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verib.

***

Vətəndaşların müraciətlərinin bir qismi yerində həllini tapıb, digər müraciətlər isə araşdırılması üçün nəzarətə götürülüb.

Vətəndaşlar bölgə sakinlərinin yerlərdə qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə ediblər.

Yekunda tabe prokurorların iştirakı ilə müşavirə keçirilməklə, vətəndaş-məmur münasibətlərinin sağlam zəmində qurulması, cinayətkarlığa qarşı mübarizənin səmərəliliyi və kəsərliliyinin artırılması, vətəndaşların müraciətlərinə obyektiv baxılması və onların qəbulu işinin düzgün təşkili ilə əlaqədar prokurorluq orqanlarının qarşısında duran vəzifələrlə bağlı konkret tapşırıqlar verilib.

**Baş Prokurorluq**

# Azərbaycan Respublikasının prokurorluq orqanlarına qulluğa qəbulla əlaqədar müsabiqənin yazılı imtahan mərhələsi keçirilib




İyunun 8-də prokurorluq orqanlarına qulluğa qəbul olunmaq arzusunda olan şəxslər üçün vakant ştat vahidləri üzrə elan edilmiş müsabiqənin yazılı imtahan mərhələsi keçirilmişdir.

Baş Prokurorluğun Müsabiqə Komissiyası tərəfindən imtahanın tam aşkarlıq şəraitində, şəffaf və obyektiv prosedurlar əsasında keçirilməsi üçün bütün zəruri tədbirlərin görülməsi təmin edilmişdir. İmtahanı 30-a yaxın dövlət qurumlarının, beynəlxalq və qeyri-hökumət təşkilatlarının, kütləvi informasiya vasitələrinin nümayəndələri müşahidə etmişlər.

Ümummilli lider Heydər Əliyev tərəfindən təməli qoyulmaqla Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla reallaşdırılan dövlət gənclər siyasətinə uyğun olaraq prokurorluğa işə qəbulun müsabiqə yolu ilə həyata keçirilməsi prokurorluğun kadr tərkibinin hərtərəfli biliyə və yüksək mənəvi keyfiyyətlərə malik, dövlətçilik ideyalarına sədaqətləri ilə seçilən gənc mütəxəssislər hesabına komplektləşdirilməsi üçün geniş imkanlar yaratmış, ölkə həyatının bütün sahələrində gənclərin əməyindən hərtərəfli istifadə olunması barədə dövlət başçısının






verdiyi tapşırıqların icrası yolunda mühüm vasitə olmuşdur.

2002-ci ildən başlayaraq müsabiqə yolu ilə işə qəbul edilmiş 780 gənc hüquqşünas hazırda prokurorluğun kadr korpusunun 65 faizini təşkil etməklə, təyinat aldıqları müxtəlif vəzifələrdə səmərəli fəaliyyət göstərirlər.

Hazırkı müsabiqənin yazılı imtahan mərhələsində 30-u qadın olmaqla iştirak etmiş 215 namizəd Bakı Dövlət Universitetinin, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının, Naxçıvan Dövlət Universitetinin, Milli Aviasiya Akademiyasının və digər ali təhsil müəssisələrinin məzunlarıdır.

**Baş Prokurorluq**

# Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi ilə Qida Təhlükəsizliyi Agentliyi arasında Anlaşma Memorandumu imzalanıb



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən dayanıqlı sosial-iqtisadi inkişaf kursunun başlıca prioritetlərindən biri kimi əhalinin sağlamlığının qorunmasına və qida təhlükəsizliyinin təmin edilməsi yönündə reallaşdırılmış ardıcıl və məqsədyönlü tədbirlərin nəticəsi olaraq son illər qida məhsullarının keyfiyyətinin yüksəldilməsi və ixrac potensialının artırılması sahəsində mühüm nailiyyətlər əldə olunmuş, nəzarət sisteminin müasir tələblərə uyğunlaşdırılması üçün əlverişli hüquqi baza yaradılmışdır.

Görülmüş tədbirlərin davamı kimi dövlət başçısının "Azərbaycan Respublikasında qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2017-ci il 10 fevral tarixli Fərmanına əsasən Qida Təhlükəsizliyi Agentliyinin yaradılması digər sahələr kimi bu sektorda da dövlət idarəçiliyinin təkmilləşdirilməsinə əlverişli zəmin yaratmaqla əhalinin sağlamlığının qorunması ilə bağlı insan və vətəndaş hüquqlarına dövlət təminatının etibarlılığını daha da gücləndirmişdir.

Agentliyin digər dövlət qurumları ilə qarşılıqlı əməkdaşlığının qurulması çərçivəsində Baş prokuror Zakir Qaralovla Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli arasında cari ilin mart ayında keçirilmiş görüşdə iki qurum arasında qida təhlükəsizliyinə və qida məhsulları istehlakçılarının hüquqlarının müdafiəsinə dövlət nəzarətinin həyata keçirilməsi zamanı korrupsiya hüquqpozmalarının müəyyən edilməsinə dair əməkdaşlığın təkmilləşdirilməsi və tədbirlərin genişləndirilməsi istiqamətində səmərəli fikir mübadiləsi aparılmış, bununla bağlı mövcud olan milli fəaliyyət planlarının birgə icra edilməsi imkanları nəzərdən keçirilmiş, o cümlədən Agentliklə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi arasında anlaşma memorandumunun imzalanmasına dair ilkin razılıq əldə olunmuşdur.

Mayın 2-də Baş prokuror yanında Korrupsiyaya




qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında hər iki qurumun rəhbər vəzifəli şəxslərinin iştirakı ilə "Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi və Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi arasında korrupsiya ilə mübarizə sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu" imzalanmışdır.

Mərasimdə çıxış edən Azərbaycan Respublikası Baş prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə reallaşdırılan siyasi, iqtisadi və institusional islahatlarının maliyyə intizamının gücləndirilməsi, şəffaflığın və hesabatlılığın təmin edilməsi və digər bu kimi korrupsiyaya qarşı mübarizə tədbirləri ilə dəstəklənməsində dövlət orqanları və digər qurumlarla əməkdaşlığın əhəmiyyətini vurğulayaraq, hazırki sənədin imzalanmasının istər tərəflər arasında korrupsiya hüquqpozmalarının aşkar edilməsi və araşdırılması, istərsə də başqa əməkdaşlıq istiqamətləri kontekstindən əvəzsiz rola malik olduğunu bildirmiş, bu yeni sazişin cəmiyyətin və dövlətin maraqlarına xidmət edəcəyindən əminliyini ifadə etmişdir. Həmçinin, əhalinin sağlamlığının mühafizəsi və keyfiyyətli ərzaq tələbatının ödənilməsi baxımından mühüm strateji sahə olan qida sektorunda şəffaflığın təmin edilməsi üçün mövcud olan geniş hüquqi və institusional vasitələrin səmərəli tətbiqi imkanlarından danışan Kamran Əliyev bu mühüm sahədə korrupsiya hüquqpozmalarının aşkar edilməsi və araşdırılmasına dair tərəflərin birgə fəaliyyətinin qanunla müəyyən edilmiş tələblər səviyyəsində qurulması üçün bütün zəruri tədbirlərin görüləcəyini qeyd etmişdir.

Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli çıxış edərək ölkəmizdə qida təhlükəsizliyinin təmin edilməsi istiqamətində atılan addımlardan biri kimi əhalinin təhlükəsiz və keyfiyyətli qida məhsulları ilə təmin edilməsi və qida məhsullarının təhlükəsizliyinə nəzarət sisteminin səmərəliliyini daha da artırılmasının sevindirici hal olduğunu qeyd etmişdir. Ölkədə həyata keçirilən mütərəqqi sosial-iqtisadi və hüquqi islahatlar çərçivəsində rəhbəri olduğu qurum qarşısında olduqca mühüm vəzifələr qoyulduğunu bəyan edən Qoşqar Təhməzli agentlik tərəfindən qida zəncirinin bütün mərhələlərində qida təhlükəsizliyinə və qida məhsulları istehlakçılarının hüquqlarının müdafiəsinə dövlət nəzarətinin həyata keçirilməsi zamanı baş verə biləcək hər növ qanun pozuntularının qarşısının alınması yönündə Baş İdarə və eləcə də digər aidiyyəti dövlət qurumları ilə əməkdaşlığın bu sahənin inkişafına əvəzsiz töhfə olacağını vurğulamış, birgə fəaliyyət yönümlü əlaqələrin daha da genişləndirilməsi üçün bütün səylərin səfərbər ediləcəyini bildirmişdir.

İmzalanma mərasimindən sonra mətbuat nümayəndələrinin sualları cavablandırılmışdır.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

# Baş Prokurorluğun Elm-Tədris Mərkəzi tərəfindən müxtəlif sahələr üzrə kurslar təşkil olunub

**Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi ilə əlaqədar qanunvericiliyə edilən dəyişikliklərin mənimsənilməsi məqsədilə prokurorluq işçiləri üçün distant (məsafədən) ixtisasartırma kursu**

Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi ilə əlaqədar qanunvericiliyə edilən dəyişikliklərin mənimsənilməsi məqsədilə Baş Prokurorluğun Elm-Tədris Mərkəzi tərəfindən 1.123 nəfər prokurorluq işçisi üçün mart – aprel aylarında distant (məsafədən) ixtisasartırma kursu təşkil olunub.

Mərkəzin internet səhifəsinin tədris platformasında (distant) texniki uyğunlaşmalar aparılıb, dinləyicilər barədə fərdi məlumatlar tonlanmaqla onların hər birinə loqin və parol verilib. Dinləyicilərin təlimi üçün təqdim edilən materiallar Azərbaycan Respublikası Prezidentinin "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 10.02.2017-ci il tarixli Sərəncamından irəli gələn qanunvericiliyə edilmiş dəyişikliklərin hamısını əhatə edib. Cinayət, cinayət-prosessual, cəzaların icrası, cinayət təqibi zamanı azadlığı məhdudlaşdırılmış şəxslərin hüquq və azadlıqlarının müdafiəsinə dair milli və beynəlxalq qanunvericilik və məhkəmə təcrübəsi sahələrinə aid materiallar bloklar üzrə yerləşdirilib, hər bir bloka daxil olan bilgilərin mənimsənilməsinin təsbit edilməsi üçün test tapşırıqları verilib. Cəmi 1.050 test tapşırığı hazırlanıb. Tədris materialları və testlər platformaya yerləşdirilib.

Distant (məsafədən) ixtisasartırma kursunun yekunu üzrə nümayiş etdirilən göstəricilərə dair məlumatlar Baş prokurora məruzə olunub və dinləyicilərin şəxsi işlərinə əlavə olunması üçün qiymətləri əks etdirən sənədlər Baş Prokurorluğun Kadrlar idarəsinə təqdim edilib.

**"Baxış və digər istintaq hərəkətlərinin icrası zamanı Kriminalistika şöbəsinin prokurorlarının funksional vəzifələrinin həyata keçirilməsinin taktiki və metodiki məsələləri" mövzusunda ixtisasartırma kursu**

Aprelin 23–28-də Mərkəzdə Bakı şəhər prokurorluğunun İstintaq idarəsi, Kriminalistika şöbəsinin prokurorları üçün "Baxış və digər istintaq hərəkətlərinin icrası zamanı Kriminalistika şöbəsinin prokurorlarının funksional vəzifələrinin həyata keçirilməsinin taktiki və metodiki məsələləri" üzrə ixtisasartırma kursu təşkil olunub.

Dinləyicilərə prokurorluq orqanlarında kriminalistika xidmətinin təşkili, funksional vəzifələr, prosessual sənədləşməsinin xüsusiyyətləri, hadisə yerinə və sübutlara baxış keçirilməsi, maddi sübutların aşkar edilməsi, fiksasiyası, götürülməsi, qablaşdırılması, sənədləşdirilməsi xüsusiyyətləri və digər mövzularda mühazirələr deyilib, praktiki məşğələlər aparılıb, trasoloqiya, daktiloskopiya və kriminalistik foto çəkilişlərlə bağlı laboratoriya işləri görülüb.

Kursun yekunu üzrə əldə olunan bilik və bacarıqların yoxlanılması üçün aprelin 28-də iki mərhələdə (laboratoriya işlərinin təhlili və şifahi sorğu-sual etmə üsulu ilə) qiymətləndirilmə təşkil olunub.

## "Gömrük orqanlarının əməliyyat-axtarış fəaliyyəti" mövzusunda ixtisasartırma kursu



Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin müraciətinə əsasən Baş Prokurorluğun Elm-Tədris Mərkəzində mayın 1-dən 29-dək Dövlət Gömrük Komitəsinin 48 işçisi üçün "Gömrük orqanlarının əməliyyat-axtarış fəaliyyəti" mövzusunda ixtisasartırma kursu təşkil edilib.

Kurs çərçivəsində dinləyicilərə əməliyyat-axtarış fəaliyyəti sahəsində milli qanunvericiliyin əsasları və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent təcrübəsi tədris olunub. Təlimlər müasir texnika və texnologiyalardan istifadə etməklə həyata keçirilib, təcrübədə istifadə edilməsi üçün əksər məşğələlərin elektron mətni və insan hüquqlarının müdafiəsinə aid yeni ədəbiyyatlar dinləyicilərə təqdim edilib.

Kurs zamanı əldə olunan bilik və bacarıqlar qiymətləndirilərək nəticələri Dövlət Gömrük Komitəsinin rəhbərliyinə göndərilib.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

# Baş Prokurorluğun Elm-Tədris Mərkəzi ADA Universiteti ilə tədris sahəsində əməkdaşlıq edir




Mayın 1-3-də ADA Universitetində Avropa İttifaqı (Aİ) məsələləri üzrə Bilik Mərkəzi, Böhran İdarəçiliyi Təşəbbüsü (CMİ) ilə ADA Universitetinin birgə təhlükəsizlik məsələləri ilə bağlı mövzulara həsr olunan təlim təşkil olunub.

Tədbirdə Azərbaycan Respublikasının Milli Məclisi, Ədliyyə Nazirliyi, Xarici İşlər Nazirliyi, Daxili İşlər Nazirliyi, Müdafiə Nazirliyi, Ombudsman Aparatı, ASAN Xidmət və digər dövlət qurumlarının nümayəndələri iştirak ediblər. Baş Prokurorluqdan Elm-Tədris Mərkəzinin rəis müavini Günay Əyyubova təmsil olunub.

Təlimin əsas mövzusu regional təhlükəsizliyin problemlərinə aid edilib. Mövzuları Avropa ekspertləri – Böhran İdarəçiliyi Təşəbbüsündə (CMİ) Avropa Proqramının rəhbəri xanım Roksana Kristesku, Avropa Siyasət Mərkəzində yüksək səviyyəli siyasətçi və Beynəlxalq Siyasət Araşdırmaları Mərkəzinin baş elmi işçisi xanım Amanda Paul, ABŞ-ın Vaşinqton şəhərində yerləşən Vilson



Mərkəzində Qlobal Tərəfdaşlıq və Milli Müharibə Kollecində milli təhlükəsizlik strategiyası üzrə professor cənab Vilyam Hil tədris ediblər. Digər ekspertlər – xanımlar Mariya-Şarlotta Foğjeğon, Katya Alfors, Lusi Bardin də tədris prosesinə cəlb ediliblər.

Yekunda uğurlu iştiraka görə dinləyicilərə sertifikatlar təqdim olunub.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

## Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin işçiləri Azərbaycan Polisinin 100 illik yubileyi münasibətilə təşkil olunan tədbirdə iştirak ediblər

İyunun 20-də Azərbaycan Polisinin 100 illik yubileyi münasibətilə Daxili İşlər Nazirliyinin Polis Akademiyasında "Azərbaycan polisinin tarixi və inkişaf perspektivləri" beynəlxalq elmi-praktiki konfrans keçirilib.

Tədbirdə Rusiya, Belarusiya, digər xarici ölkələrin Universitetlərinin alimləri, eləcə də həm yerli, həm də xarici hüquq-mühafizə orqanlarının nümayəndələri iştirak ediblər. Baş Prokurorluğun Elm-Tədris Mərkəzindən İnsan hüquq və azadlıqlarının müdafiəsi problemləri kafedrasının rəisi Talıb Cəfərov və Kriminalistika kafedrasının rəisi Elxan Əsgərov təmsil olunublar.

Polis Akademiyasının rəisi Nazim Əliyev konfransı açıq elan edib. Tədbirdə Rusiya Federasiyasından Saratov Dövlət Hüquq Akademiyasının dosenti İrina Yefremova, Nijniy Novqorod Dövlət Universitetinin dosenti Svetlana Tixonova, Azərbaycan Respulikasından Dövlət Təhlükəsizlik Xidməti Akademiyasının



rəisi Əli Şəfiyev, Fövqəladə Hallar Nazirliyi Akademiyasının rəisi Pənah Süleymanov, Vergilər Nazirliyi Hüquq Departamentinin baş direktoru Yeganə Balakişiyeva, Silahlı Qüvvələrin və Dövlət Sərhəd Xidməti Akademiyalarının nümayəndələri və başqalarının çıxışları dinlənilib.

Təhsildə fərqlənən müdavimlərə döş nişanları və diplomlar təqdim olunub, polisin fəaliyyəti barədə videofilm nümayiş etdirilib.




Sonda konfrans materiallarını əks etdirən toplu iştirakçılara təqdim olunub. Topluya Baş Prokurorluğun Elm-Tədris Mərkəzi, İnsan hüquq və azadlıqlarının müdafiəsi problemləri kafedrasının rəisi Talıb Cəfərovun "Cinayətkarlığın kriminoloji tədqiqinin viktimoloji aspektləri" məqaləsi də yer alıb.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

# Baş Prokurorluğun Hüquqi təminat idarəsi tərəfindən müxtəlif sahələr üzrə seminarlar təşkil olunub

## Şamaxı və Oğuz rayon prokurorluqlarında ""Müqavilələr Hüququ haqqında Vyana Konvensiyası" və ondan irəli gələn vəzifələr" mövzusunda seminarlar keçirilib



Mayın 15-də Şamaxı, 16-da Oğuz rayon prokurorluğunda ""Müqavilələr Hüququ haqqında Vyana Konvensiyası"və ondan irəli gələn vəzifələr" mövzusunda seminarlar keçirilib.

Tədbirlərdə Şamaxı, İsmayıllı, Qobustan, Ağsu, Göyçay, Kürdəmir, Ucar, Oğuz, Qəbələ, Ağdaş, Şəki, Qax, Balakən, Zaqatala rayon və Zaqatala hərbi prokurorluqlarının işçiləri iştirak ediblər.

Tədbirlərdə çıxış edən Baş Prokurorluğun Hüquqi təminat idarəsinin böyük prokuroru Rəşad Qasımov qeyd edib ki, müxtəlif münasibətləri tənzimləyən beynəlxalq aktlar universaldır və onların təsir dairəsi çoxsaylı dövlətlərin ərazisində qüvvədə olması ilə ölçülür. BMT və onun ixtisaslaşmış qurumları, regional beynəlxalq təşkilatlar, beynəlxalq konqreslər, konfranslar və digər forumların qəbul etdiyi və geniş sahələri tənzimləyən sənədlər müxtəlif statusa malikdir. Dövlətlər arasındakı müqavilələrə şamil olunan Konvensiyanın məzmununa uyğun olaraq onun məqsədini müqavilələr hüququnun məcəlləşdirilməsi və BMT-nin Nizamnaməsində göstərilmiş məqsədlərinə nail olmaq təşkil edir.

Konvensiyanın müxtəlif fəsillərində bəyan olunan istiqamətlər-müqavilələrin bağlanılması və qüvvəyə minməsini tənzimləyən normalar, qeyd-şərtlər, müqavilənin etibarsızlığına, ləğv edilməsinə, müqavilədən çıxmağa və ya qüvvəsinin dayandırılmasına münasibətdə yerinə yetirilməli olan prosedur və bununla əlaqədar məhkəmə araşdırması, arbitraj və barışıq proseduru barədə məlumat verilib. Seminarlarda

Azərbaycan Respublikasının tərəfdar çıxdığı bəzi beynəlxalq müqavilələrə qoşulma proseduru və onların hüquqi nəticələrinə dair təcrübədən danışılaraq, milli qanunvericiliyin beynəlxalq prioritetlərə uyğunlaşması mexanizminə dair konkret misallar çəkilib.

İştirakçıların mülahizələri dinlənilib, sualları cavablandarılıb.

## Qanunvericiliyə edilən yeni dəyişikliklər üzrə Sabirabad və Cəlilabad rayon prokurorluqlarında seminarlar keçirilib



İyunun 22-də Sabirabad rayon prokurorluğunda, 28-də Cəlilabad rayon prokurorluğunda «Azərbaycan Respublikasının 1 dekabr 2017-ci il tarixli "«Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında» və «Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişikliklər edilməsi haqqında» qanunları və onlardan irəli gələn vəzifələr" mövzusunda seminarlar keçirilib.

Sabirabad rayon prokurorluğunda keçirilən seminarda Şirvan şəhər, Ağcabədi, Sabirabad, Beyləqan, Saatlı, İmişli, Kürdəmir, Hacıqabul, Zərdab, Cəbrayıl rayon və Füzuli hərbi prokurorluqlarının, Cəlilabad rayon prokurorluğunda keçirilən seminarda Astara, Biləsuvar, Yardımlı, Lerik, Lənkəran, Masallı, Neftçala, Salyan, Cəlilabad rayon, Lənkəran hərbi prokurorluqlarının müvafiq işçiləri iştirak ediblər.

Mövzular Baş Prokurorluğun Hüquqi təminat idarəsinin böyük prokuroru Mahir Tağıyev və idarənin prokuroru vəzifəsini icra edən Vüsal Mehrəliyev tərəfindən aparılıb.

Bildirilib ki, Azərbaycan Respublikası Prezidentinin «Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə» 10 fevral 2017-ci il tarixli Sərəncamının icrası nəticəsində Cinayət və Cəzaların İcrası məcəllələrinə edilən dəyişiliklər probasiya nəzarətinin və elektron nəzarət vasitələrinin tətbiqi, ictimai işlər və azadlığın məhdudlaşdırılması növündə cəzaların icrası, həbs və ev dustaqlığı qətimkan tədbirlərinin tətbiqi, qətimkan tədbirləri üzrə elektron nəzarət vasitələrinin tətbiqi ilə bağlı və digər məsələləri tənzimləyir. Bu dəyişikliklərin mahiyyəti açıqlanıb, əvvəlki normalardan fərqli cəhətləri və onların təcrübədə tətbiqi məsələlərini izah olunub.

İştirakçıların mövzusu ilə bağlı fikirləri, təcrübədə rastlaşan məsələlər barədə məlumatlar dinlənilib, suallar cavablandırılıb.

**Baş Prokurorluğun Hüquqi təminat idarəsi**

# Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsi tərəfindən müxtəlif sahələr üzrə seminarlar təşkil olunub

## "Vətəndaşların qəbulu işinin təşkili" mövzusunda seminar keçirilib



Aprelin 24-də Bakı şəhər prokurorluğunun və Bakı şəhəri rayon prokurorluqlarının vətəndaşların qəbulu işinin təşkilinə məsul olan işçilərə Baş Prokurorluqda "Vətəndaşların qəbulu işinin təşkili" mövzusunda seminar keçirilib.

Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsi, Vətəndaşların qəbulu şöbəsinin böyük prokuroru Yaqut Əliyeva, həmin şöbənin prokuroru Toğrul Əhmədov prokurorluq orqanlarında vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması məqsədilə həyata keçirilən tədbirlər barədə məlumat veriblər. Baş Prokurorluq üzrə «Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında» 01.11.2010-cu il tarixli 10/100 №-li əmrin müddəaları şərh edilib, vətəndaşların qəbulu işinin düzgün təşkili və həyata keçirilməsinə dair konkret tövsiyələr verilib. Xüsusi diqqət vətəndaşların yaşayış yerlərində qəbulunun prosedurlarına, həmin qəbulların planlaşdırılmasına, təşkili və həyata keçirilməsinin xüsusiyyətlərinə, rayon prokurorlarının və onların vətəndaşların qəbuluna məsul olan köməkçilərinin vəzifələrinə ayrılıb. Vətəndaşların yaşayış yerləri üzrə qəbulu işində tətbiq edilən müasir informasiya kommunikasiya vasitələrinin əhəmiyyətindən də danışılıb.

Bakı şəhər prokurorluğu və Bakı şəhərinin rayon prokurorluqlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin vəziyyətinin təhlili aparılıb, bu sahədə müşahidə olunan müsbət dinamika ilə yanaşı mövcud olan nöqsan və çatışmazlıqlar da qeyd edilib.

Sonda maraq doğuran məsələlər üzrə suallar cavablandırılıb.

## Ağcabədi rayon prokurorluğunda “Arxiv işinin təşkili” mövzusunda seminar keçirilib



Mayın 4-də Ağcabədi rayon prokurorluğunda Ağcabədi, Bərdə, İmişli, Beyləqan, Zərdab, Ağdam, Füzuli, Laçın və Tərtər rayon prokurorluqlarının işçilərinə “Arxiv işinin təşkili” mövzusunda seminar keçirilib.

Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsinin böyük prokuroru vəzifəsini icra edən (arxiv mudiri) Şahin Şükürov arxiv fondunun formalaşdırılması, mühafizəsi, istifadəsi və arxivlərin fəaliyyəti barədə danışıb, bu sahədə Baş prokurorluq üzrə normativ aktların tələblərindən irəli gələn məsələlərin həllində tövsiyələrini verib.

Maraq doğuran suallar cavablandırılıb.

## Mülki müdafiə məsələləri üzrə məşğələ keçirilib



Mayın 11-də Baş Prokurorluğun Tarix muzeyində Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsi və Fövqəladə Hallar Nazirliyinin Mülki müdafiə idarəsinin təşkilatçılığı ilə Baş Prokurorluğun rəhbər heyəti üçün mülki müdafiə üzrə məşğələ keçirilib.

Məşğələnin keçirilməsində məqsəd fövqəladə hadisələr zamanı Baş Prokurorluğun rəhbər heyətinin funksional vəzifələrinin öyrənilməsi, mülki müdafiə planlarının dəqiqləşdirilməsi, əməkdaşların təhlükəsizliyini təmin edən tədbirlərin həyata keçirilməsi üzrə hazırlıq səviyyəsinin yüksəldilməsi, fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılması zamanı mülki müdafiə orqan və qüvvələrinin idarə edilməsinin təşkilində praktiki vərdişlərin artırılması olub.

Məşğələdə çıxış edən Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsinin prokuroru Yadigar Aslanov mülki müdafiənin təşkili məsələsinin əhəmiyyətini vurğulayıb, Baş Prokurorluqda bu sahədə ardıcıl həyata keçirilən tədbirlər barədə məlumat verib.

Fövqəladə Hallar Nazirliyinin əməkdaşları Şəmsəddin Hüseynov və Anar Nazıyev qeyd ediblər ki, mülki müdafiə tədbirlərinin təşkili və həyata keçirilməsi qaydasını müəyyən edən sənədlər Azərbaycan Respublikasının mülki müdafiə planı və Azərbaycan Respublikasının illik mülki müdafiə tədbirləri planıdır. Azərbaycan Respublikasının mülki müdafiə planı fövqəladə hadisələr zamanı ölkədə mülki müdafiənin idarə edilməsi üçün əsas sənəddir. Planda fövqəladə hadisələr nəticəsində yarana biləcək vəziyyət və real imkanlar nəzərə alınmaqla əhalinin mühafizəsinin təşkili, fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılması üçün xilasetmə və digər təxirəsalınmaz işlərin yerinə yetirilməsinin təminatı, eləcə də belə şəraitdə idarəetmənin təşkili (idarəetmə məntəqələrindən və rabitə kanallarından istifadə olunması, xəbərdarlıq siqnallarının verilməsi qaydası və s.) barədə əsas göstərişlər öz əksini tapır.

Həmçinin Baş Prokurorluğun rəhbər heyətinin fövqəladə hallar zamanı yerinə yetirməli olduğu hərəkətlər barədə danışılıb, həmin hərəkətlərin təhlili aparılıb.

Mülki müdafiə işinin təşkili məsələləri müzakirə edilib, Baş Prokurorluqda bu sahədə fəaliyyətin həyata keçirilməsinə dair zəruri tövsiyələr verilib, məşğələ iştirakçılarının sualları cavablandırılıb.

## «Məxfi kargüzarlıq işinin təşkili» mövzusunda seminar keçirilib




İyunun 11-də Mingəçevir şəhər prokurorluğunda «Məxfi kargüzarlıq işinin təşkili» mövzusunda seminar keçirilib.

Tədbirdə Mingəçevir şəhər, habelə Yevlax, Şəki, Zaqatala, Balakən, Qax, Qəbələ, Ağdaş, Oğuz, Göyçay və Ucar rayon prokurorluqlarının məsul əməkdaşları iştirak ediblər.

Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsinin böyük prokuroru (məxfiçilik üzrə) Seyfulla Aslanov prokurorluq orqanlarında məxfiçilik və məxfilik rejiminin təmin olunması, bu sahədə icraya nəzarət və məxfi kargüzarlıq işinin təşkili sahəsində ardıcıl həyata keçirilən tədbirlər barədə məlumat verərək aidiyyəti normativ hüquqi aktların müvafiq müddəaları, dövlət sirrinin qorunması və məxfiçilik rejiminə əməl olunmasının qaydaları izah edilib. Məxfi kargüzarlıq işinin təşkilinin prinsipləri və əsasları, bu sahədə mövcud olan prosedur və qaydalar barədə ətraflı məlumat verilmiş, məxfi sənədlərlə işin xüsusiyyətləri açıqlanıb. Prokurorluq orqanlarında bu sahədə mövcud olan normativ bazanın təkmilləşdirilməsi istiqamətində son zamanlar görülmüş işlər barədə məlumat verilib.

Maraq doğuran məsələlər üzrə suallar cavablandırılıb.

**Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsi**

# Hərbi Prokurorluq tərəfindən yeni metodik tövsiyələr hazırlanıb

Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda «Silahlı Qüvvələrdə suisid hallarının qarşısının alınması məqsədilə profilaktik tədbirlərin həyata keçirilməsinə dair» və «Ərazi hərbi prokurorluqlarının əməkdaşları tərəfindən hərbi qulluqçuların bilavasitə hərbi hissələrdə qəbulunun təşkili və keçirilməsinə dair» metodik tövsiyələr hazırlanmışdır.

Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş ordu quruculuğu prosesləri ümummilli liderimizin siyasi kursunun ən layiqli davamçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı, möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısı tərəfindən həyata keçirilən kompleks islahatlar nəticəsində ölkədə iqtisadi inkişafın sürətlənməsi onun təhlükəsizlik və müdafiə potensialının möhkəmlənməsinə bilavasitə təsir göstərərək Silahlı Qüvvələrdə modern islahatlar aparmağa imkan vermiş, ordunun maddi-texniki imkanlarının daha da güclənməsinə, eyni zamanda hərbi qulluqçuların məişət şəraitinin yaxşılaşdırılmasına zəmin yaratmışdır.

Ölkə rəhbərinin cəbhə bölgələrinə müntəzəm səfərləri, əsgər və zabitlərlə görüşlər keçirməsi, xidmətdə fərqlənən hərbi qulluqçulara yüksək mükafatlar təqdim etməsi Silahlı Qüvvələrin şəxsi heyətində böyük ruh yüksəkliyi yaratmaqla onları mətin mübarizəyə ruhlandırır.

Azərbaycan Respublikasının Hərbi prokurorluq orqanları da Azərbaycan Respublikasının Silahlı Qüvvələrində hərbi intizamın möhkəmləndirilməsi, hərbi nizamnamələrin tələblərinə dönmədən əməl edilməsi, hərbi qulluqçuların hüquq və azadlıqlarının qorunması, baş verə biləcək cinayətlərin və qanun pozuntularının qarşısının alınması məqsədilə kəsərli mübarizə aparılması sahəsində üzərlərinə düşən bütün vəzifələrin icrasını təmin etmək üçün zəruri tədbirlər görməkdə davam edirlər.

Bunun da nəticəsidir ki, Silahlı Qüvvələrdə ildən-ilə qeydə alınmış cinayətlərin, o cümlədən hərbi cinayətlərin dinamikasında, xüsusən də qəsdən adam öldürmə və özünü öldürmə həddinə çatdırma cinayətlərinin sayında nəzərəçarpacaq dərəcədə azalma müşahidə edilir.

Lakin bütün müsbət dinamikaya baxmayaraq Silahlı Qüvvələrdə baş vermiş cinayət hadisələrinin təhlili onu göstərir ki, intihar hadisələri hələ də orduda baş verməkdədir. Bu səbəbdən də həmin hadisələrin qarşısının alınması həm hüquq-mühafizə orqanlarının, həm də hərbi qurumların rəhbərliklərinin qarşısında aktual məsələ olaraq dayanır. Çünki baş vermiş hər bir intihar hadisəsi təkcə sosial deyil, həm də siyasi xarakter daşımaqla dövlət tərəfindən ordu quruculuğu istiqamətində aparılan işlərə kölgə salmaqla qapalı şəraitdə yaşayan hərbi qulluqçuları mənəvi-psixoloji vəziyyətlərinə mənfi təsir göstərərək onları ruhdan salır, həmçinin hərbi xidmətdən yayınmaq istəyən şəxslərə bəhanələr üçün əsaslar verir.

Respublika Hərbi Prokurorluğunun rəhbərliyi tərəfindən qeyd olunan məsələnin ciddiyyəti nəzərə alınmaqla hər il Silahlı Qüvvələrdə özünü öldürmə həddinə çatdırma və həmin hadisələrə şərait yaradan tabelik münasibətlərində olmayan hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozma cinayətlərinin qarşısının alınması məqsədilə Respublika Hərbi Prokurorluğunda mütəmadi olaraq bu növ cinayətlər üzrə istintaq və məhkəmə təcrübəsi ümumiləşdirilərək, nəticələri Respublika Hərbi Prokurorluğunun geniş Kollegiya iclaslarında Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, DİN-in Daxili Qoşunlarının səlahiyyətli nümayəndələrinin iştirakları ilə müzakirə edilməklə zəruri tədbirlər görülür. Həmçinin hərbi intizamın vəziyyətinə mənfi təsir göstərdiyinə və ordunun nüfuzuna xələl gətirdiyinə görə, qeyd edilən hadisələrin baş vermə səbəblərinin və həmin hadisələrə şərait yaradan halların aradan qaldırılması üçün Müdafiə nazirinə, Daxili Qoşunlar komandanına, Dövlət Sərhəd Xidməti rəisinə məktub, ordu birləşmələrinin komandirlərinə təqdimatlar, hərbi hissələrdə qəbullar və görüşlərin keçirilərək hüquqi mövzuda söhbətlər aparılması, maarifləndirmə sahəsində işlərin davam etdirilməsi məqsədilə Kollegiyanın qərarı isə icra olunması üçün ərazi hərbi prokurorluqlarına göndərilir.

Bundan başqa, orduda intihar hadisələrinin və digər ağır cinayət hadisələrinin baş verməsinə şərait yaradan halların qabaqcadan müəyyən edilməsi və qarşısının alınması məqsədilə həyata keçirilən qabaqlayıcı tədbirlər çərçivəsində Silahlı Qüvvələrdə hüquq qaydalarının və hərbi intizamın möhkəmləndirilməsi, cinayətkarlığın qarşısının alınması, qanunlara hörmət hissinin aşılanması, hüquqi təbliğatın gücləndirilməsi sahəsində Müdafiə Nazirliyinin və digər qoşun növlərinin Hərbi prokurorluq orqanları ilə hər il birgə tədbirlər planı təsdiq olunmaqla icra edilir. Hərbi Prokurorluğun rəhbər işçiləri Novruz bayramı, Silahlı Qüvvələr günü və digər əlamətdar günlərdə Müdafiə Nazirliyi və digər qoşun növlərinin rəhbər vəzifəli şəxsləri ilə birlikdə müvafiq rayon (şəhər) icra başçılarının iştirakı və dəstəyi ilə cəbhə bölgələrində və düşmənlə təmas xəttində olan hərbi hissələrin hərbi qulluqçuları ilə görüşlər keçirərək onların qayğıları ilə maraqlanır, şəxsi heyətin istifadəsi üçün hərbi hissələrə zəruri əşya və məişət avadanlıqları, xidmətdə fərqlənmiş hərbi qulluqçulara qiymətli hədiyyələr təqdim edirlər.

Hərbi Prokurorluq tərəfindən hazırlanmış «Silahlı Qüvvələrdə suisid hallarının qarşısının alınması məqsədilə profilaktik tədbirlərin həyata keçirilməsinə dair» metodik tövsiyə daha çox hərbi hissə komandirləri, şəxsi heyətlə birbaşa təmasda olan bölük komandirləri, hərbi hissələrin kiçik komandir heyəti üçün nəzərdə tutulmuş bir vəsait olmaqla hərbi hissələrdə intihara meylli hərbi qulluqçuların aşkar olunması, onlarla preventiv və profilaktik xarakterli tədbirlərin həyata keçirilməsində, həmçinin intihar hadisələrinə təsir edən və şəxsdə psixi-emosional gərginliyə səbəb olan amillərin aşkara çıxarılmasında qeyd olunan vəzifəli şəxslərə köməklik etmək məqsədi daşıyır.

Metodik tövsiyə "suisidal vəziyyətin yaranma mexanizmi","süisidal hərəkətlərin baş verməsinin səbəb və şəraiti", "suisidal hadisələrin qarşısının alınması məqsədilə görülməli olan ümumi profilaktik tədbirlər", "xüsusi profilaktik tədbirlər" və "Nəticə" bölmələrindən ibarətdir.

"Suisidal vəziyyətin yaranma mexanizmi" adlanan bölmədə suisidin anayışı, suisidal halların növləri, suisidal

fikirlər, onların formalaşma mexanizmi, suisidə hazırlıq və bilavasitə suisidə yönəlmiş hərəkətlər barədə nəzəri məlumatlar öz əksini tapır.

"Süisidal hərəkətlərin baş verməsinin səbəb və şəraiti" adlanan hissədə hərbi qulluqçuları intihara sövq edən və hərbi hissələrdə formalaşmış intihara şərait yaradan hallar, konfliktli situasiyalar qruplaşdırılıb.

"Suisidal hadisələrin qarşısının alınması məqsədilə görülməli olan ümumi profilaktik tədbirlər" adlanan bölmədə hərbi qulluqçuların hərbi xidmətlə bağlı çətinliklərinin, xidmət problemlərinin aradan qaldırılması və bununla da suisid hadisələrinin qarşısının alınması məqsədilə hərbi kollektivdə sağlam mənəvi-psixoloji vəziyyətin yaradılması, ictimai ədalətə və qanunçuluğa riayət edilməsinin təmin edilməsi, hərbi qulluqçuların asudə vaxtlarının təşkili, tibb təminatının keyfiyyətinin yüksəldilməsi istiqamətindəki tədbirlər barədə məlumatlar yer alıb.

"Suisidal hadisələrin qarşısının alınması məqsədilə görülməli olan xüsusi profilaktik tədbirlər" adlanan bölmədə xarici ölkələrin təcrübəsi nəzərə alınmaqla susidə meylli hərbi qulluqçuların müəyyən edilməsi məqsədilə onların arasında anket-sorğuların keçirilməsi, həmçinin hərbi qulluqçuların arasında suisid hadisələrinin qarşısının alınması üçün əsgərlərə yaddaş vərəqələrinin verilməsi, kiçik komandir heyətinin maarifləndirilməsi məqsədilə onlara yaddaş kitabçalarının paylanması, suisidə meylli hərbi qulluqçularla fərdi söhbətlərin aparılması qaydası, həmin söhbətlər zamanı hansı xüsusatlara diqqət yetirilməli olması, bundan başqa, suisid hadisələrinin qarşısının alınması zamanı hərbi hissə komandanlığı tərəfindən həyata keçirilməli olan stimulverici və hüquqi-maarifləndirmə tədbirləri göstərilib.

Silahlı Qüvvələrdə intihar və digər ağır cinayət hadisələrinin baş verməsinə şərait yaradan halların qabaqcadan müəyyən edilməsi və qarşısının alınması məqsədilə hərbi prokurorluq orqanları tərəfindən həyata keçirilən tədbirlərdən biri də vətəndaşların qəbuludur. Xüsusən də gənc əsgərlərin ərizə və şikayətlərinə diqqətlə yanaşılmaqla, onların baxılmasına xüsusi önəm verilməsi intihar hadisələrinin qarşısının alınması üçün görülməli vacib tədbirlərdən biridir.

Dövlət başçısı, möhtərəm prezidentimiz cənab İlham Əliyev vətəndaşların problemlərinin həllini daim ümdə məsələ kimi qarşıya qoyur və onların müraciətlərinə maksimum dərəcədə diqqət göstərilməsini bütün dövlət qulluqçularından qətiyyətlə tələb edir.

Ölkə Prezidentinin tapşırıq və tövsiyələrinə uyğun olaraq vətəndaşların konstitusion hüquqlarını daha yaxşı təmin etmək üçün müstəqillik illərində formalaşdırılmış qanunvericilik bazası mütəmadi olaraq təkmilləşdirilir. Bu baxımdan 12 noyabr 2015-ci il tarixli "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu və həmin Qanunun tətbiqi barədə ölkə başçısının Fərmanını xüsusi qeyd etmək lazımdır. Yeni Qanun ilk növbədə vətəndaşların müraciətlərinə baxılmasında tələbkarlığın artırılmasına və Konstitusiyada öz əksini tapmış insan və vətəndaş hüquqlarından və azadlıqlarından istifadə, bu hüquqların və azadlıqların dövlət təminatının daha etibarlı surətdə həyata keçirilməsinə yönəlib. Qanunun qəbul edilməsində əsas məqsəd vətəndaşlara daha yüksək qayğının təmin edilməsi, müraciətlərə baxılması və onlara cavab verilməsi üçün daha konkret müddətlərin müəyyən edilməsi, hər bir dövlət orqanında, idarə və müəssisədə, yəni müraciətə baxan subyektdə bu sahədə məsuliyyətin daha da yüksəldilməsidir.

Qanunun müddəaları müraciətlərə baxan subyektlər, həmçinin Respublika Hərbi Prokurorluğu tərəfindən diqqətlə öyrənilərək Hərbi Prokurorluğun rəhbərliyi tərəfindən prokurorluğun işçilərinə hərbi qulluqçuların hüquqlarının müdafiəsinin təmin edilməsi məqsədilə onların müraciətlərinə vaxtında və düzgün baxılması, xidmət yerlərində, o cümlədən xidmət şəraiti çətin və dağlıq ərazidə yerləşən hərbi hissələrdə, döyüş postlarında qəbulunun səmərəli təşkili barədə ciddi tapşırıqlar verilib.

Hərbi Prokurorluğun Kollegiya iclaslarının qərarlarında, əməliyyat müşavirələrinin protokollarında, icmal və tövsiyə xarakterli məktublarda hərbi qulluqçuların bilavasitə hərbi hissələrdə qəbulu işinin səmərəliliyinin artırılması barədə verilən konkret tapşırıqlara baxmayaraq bir sıra hallarda hərbi prokurorluq işçiləri tərəfindən qəbullar zamanı nöqsanlara yol verilməsi halları olur ki, bu halları aradan qaldırmaq və hərbi hissələrdə qəbul işini müasir tələblərə uyğun təşkil etmək məqsədilə «Ərazi hərbi prokurorluqlarının əməkdaşları tərəfindən hərbi qulluqçuların bilavasitə hərbi hissələrdə qəbulunun təşkili və keçirilməsinə dair» metodik tövsiyələr hazırlanmışdır.

Metodik tövsiyədə hər bir qəbulun keçirilməsinin spesifik xüsusiyyətləri, hərbi qulluqçuların kateqoriyası, onların şəxsi keyfiyyətləri və s. amillər nəzərə alınmaqla hərbi qulluqçuların bilavasitə hərbi hissələrdə qəbulunun təşkilinin ümumi prinsipləri, qəbulun keçirilməsinə hazırlıq, hərbi qulluqçuların qəbulu və keçirilmiş qəbulun nəticələrinin rəsmiləşdirilməsi ilə bağlı məsələlər öz əksini tapıb.

«Hərbi qulluqçuların bilavasitə hərbi hissələrdə qəbulunun təşkilinin ümumi prinsipləri» adlanan bölmədə hərbi hissələrdə qəbulların hansı qaydada təşkil olunması, qəbulların təşkilindən öncə qəbulu keçirəcək prokurorluq əməkdaşı tərəfindən hansı məlumatların təhlil olunmalı və nəzərə alınmalı olması şərh olunub.

«Hərbi qulluqçuların bilavasitə hərbi hissələrdə qəbulunun keçirilməsinə hazırlıq mərhələsi» adlanan bölmədə qəbuldan bilavasitə əvvəl qəbulu keçirən prokurorluq işçisinin hansı sənədlərlə tanış olmasının, hərbi hissənin vəzifəli şəxslərindən hansı məlumatların dəqiqləşdirilməsinin zəruri olması göstərilib.

«Hərbi qulluqçuların qəbulu» adlanan bölmədə qəbulu aparan prokurorluq işçisinin qəbula necə başlaması, qəbul zamanı hansı xüsusatlara diqqət yetirməyin zəruri olması, hərbi qulluqçuların psixoloji durumundan asılı olaraq qəbul zamanı söhbətin aparılması qaydası, qəbulda olan şəxslərə hansı məsələlərin izah olunmasının zəruriliyi qeyd olunub.

«Qəbulun nəticələrinin rəsmiləşdirilməsi» adlanan bölmədə isə keçirilən qəbul zamanı əldə olunan məlumatların aidiyyəti üzrə göndərilməsi və ya nəticələrinin hansı qaydada rəsmiləşdirilməli olması izah olunub.

Güman edirik ki, Respublika Hərbi Prokurorluğu tərəfindən hazırlanan metodik tövsiyələr hərbi hissələrdə intihar hallarının qarşısının alınmasında və hərbi prokurorluq işçiləri tərəfindən hərbi hissələrdə qəbul işinin müasir tələblərə uyğun təşkil edilməsində öz töhvəsini verəcək.

**Hərbi Prokurorluq**

# Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanlarında müxtəlif sahələr üzrə seminarlar təşkil olunub

## Naxçıvan Muxtar Respublikası Prokurorluğunda "18 iyun-Azərbaycan Respublikasında İnsan Hüquqları günüdür" mövzusunda seminar keçirilib

İyunun 11-də Naxçıvan Muxtar Respublikası Prokurorluğunda "18 iyun-Azərbaycan Respublikasında İnsan Hüquqları günüdür" mövzusunda seminar keçirilmişdir.

Qeyd olunmuşdur ki, müstəqil Azərbaycanda insan hüquq və azadlıqlarının qorunması sahəsində sistemli tədbirlərin həyata keçirilməsi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. 1993-cü ilin iyununda ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra respublikada siyasi sabitliyin, qanunçuluğun və hüquq qaydalarının bərpası istiqamətində kompleks tədbirlərin həyata keçirilməsi, insan hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində bir çox qanunlar və aktlar qəbul olunmuşdur. İnsan hüquq və azadlıqları ilə bağlı müddəalar BMT Baş Məclisinin 1948-ci il 10 dekabr tarixli "Ümumdünya İnsan Hüquqları Bəyannaməsi", 1950-ci il 4 noyabr tarixdə Romada imzalanmış "İnsan hü-quqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyası və digər beynəlxalq paktlar əsas götürülməklə işlənib hazırlanmışdır.

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi nəticəsində 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Azərbaycan Respublikası Konstitusiyasında insan və vətəndaş hüquqlarının və azadlıqlarının qorunması dövlətin ali məqsədi hesab edilmiş, Konstitusiyamız insan və vətəndaş hüquqlarını qorumağı qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları üzərinə bir vəzifə olaraq qoymuşdur. Dövlətin əsas vəzifəsi yalnız insan hüquq və azadlıqlarını elan etmək deyil, həm də onun müdafiəsini təmin etməkdir. Demokratiyanın bərqərar olduğu müstəqil Azərbaycanda dövlət öz vətəndaşlarının hüquq və azadlıqlarına hərtərəfli imkan yaratmışdır.

1998-ci ilin 22 fevralında ümummilli lider Heydər Əliyev "Azərbaycan Respublikasında insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərman imzalamış, bu mühüm sənəddə insan hüquqlarının təminatı yönümündə həyata keçirilən tədbirlərin mahiyyəti və konsepsiyası müəyyən edilmişdir. Ulu öndər Heydər Əliyev tərəfindən 1998-ci ilin iyunun 18-də Azərbaycan Respublikasında "İnsan hüquqlarının Müdafiəsinə dair Dövlət Proqramı" təsdiq olunmuşdur. Dövlət Proqramında Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsinin və insan hüquqlarının təmin olunmasının dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edildiyini nəzərə alaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Azərbaycan Respublikasında İnsan Hüquqları gününün təsis edilməsi haqqında" 18 iyun 2007-ci il tarixli sərəncam imzalamışdır. Həmin sərəncama əsasən 18 iyun tarixi Azərbaycan Respublikasında İnsan Hüquqları günü kimi təsis edilmişdir.

Ulu öndər Heydər Əliyevin siyasi kursunu hərtərəfli şəkildə davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycanda 2006-cı ildən uğurla həyata keçirilən "İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planı" da bu sahədə böyük əhəmiyyətə malikdir. Bu sənədin məntiqi davamı olaraq yeni istiqamətlər müəyyən edilmişdir. Ölkə başçısının 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" təsdiq olunmuş, insan və vətəndaş hüquq və azadlıqları sahəsində aparılan məqsədyönlü tədbirlərdən biri də ölkəmizdə İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) təsisatının yaradılmasıdır.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş insan və vətəndaş hüquq və azadlıqlarına hörmət, hüquq və azadlıqların ən ali dəyər kimi yüksək tutulması ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Respublikamızda beynəlxalq standartlara cavab verən qanunverici bazanın işlənib hazırlanması vətəndaşların öz hüquqlarını azad və sərbəst şəkildə həyata keçirməsinə zəmanət verir. Milli Konstitusiyamızın əsasında qəbul edilmiş bütün qanunlarda da insan və vətəndaş hü-quq və azadlıqlarına geniş yer verilmişdir. İnsan hüquq və azadlıqlarının müdafiəsinin təmini ilə bağlı ölkəmizdə həyata keçirilən islahatlar Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da kompleks şəkildə davam etdirilir. Muxtar respublikada hüquq institutlarının müdafiəsi mexanizmlərinin və ədalət mühakiməsinin səmərəliliyinin artırılması, əhalinin da-ha yüksək keyfiyyətli hüquqi yardımla təmin edilməsi məqsədilə mühüm işlər görülmüşdür. Naxçıvan Muxtar Respublikasında insan hüquqlarının müdafiəsi ilə bağlı qanunvericiliyin inkişafı tarixində mühüm hadisələrdən biri də Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının yaradılması olmuşdur. Hüquqmühafizə orqanlarının fəaliyyətləri də məhz insan hüquq və azadlıqlarının qorunması prinsipləri əsasında, onların təmin edilməsi istiqamətində qurulmuşdur.

Bütövlükdə müstəqil Azərbaycan insan hüquqları və azadlıqlarının təminatı sahəsində çox böyük və şərəfli yol keçmişdir. Bütün bunlar isə ulu öndər Heydər Əliyev siyasi kursunun təntənəsidir.

## Naxçıvan şəhər prokurorluğunda “Vətəndaşların qəbulu işinin təşkili” mövzusunda seminar keçirilib

İyunun 5-də Naxçıvan şəhər, Babək və Şahbuz rayon prokurorluqlarının məsul işçilərinin iştirakı ilə Naxçıvan şəhər prokurorluğunda “Vətəndaşların qəbulu işinin təşkili” mövzusunda seminar keçirilmişdir.

Seminarda Muxtar Respublika Prokurorluğunun Müraciətlərə baxılması şöbəsinin böyük prokuroru Həbib Hacızadə vətəndaşların qəbulu işinin səmərəliyinin artırılması məqsədilə həyata keçirilən ardıcıl tədbirlər və qəbul olunmuş normativ-hüquqi aktlar barədə məlumat verərək qeyd etmişdir ki, müraciət etmək hüququ vətəndaşların əsas konstitusion hüquqlarından biridir. Fiziki və hüquqi şəxslərin öz hüquqlarının həyata keçirilməsi və qanuni mənafelərinin qorunması məqsədilə dövlət orqanlarına müraciət etmək imkanının milli qanunvericilikdə təsbit edilməsi həmin orqanların üzərinə mühüm vəzifələr qoymaqla onların bu sahədə olan fəaliyyətinin daim prioritet xarakter daşımasını şərtləndirmişdir. Vətəndaşların müraciətlərinə baxılmasının əsas prinsipləri, müraciətlərə baxılması qaydası və müddəti və vətəndaşların qəbul ediməsi qaydası “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikası Qanununda öz əksini geniş tapmışdır.

Prokurorluq orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılmasının, bu sahədə vəzifələrin daha dəqiq və ardıcıl surətdə yerinə yetirilməsinin, habelə effektiv nəzarət mexanizminin yaradılmasının təmin edilməsi məqsədilə, Azərbaycan Respublikasının Baş Prokuroru tərəfindən “Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında” 01.11.2010-cu il tarixli 10/100 №-li əmr təsdiq olunmuşdur.

Qeyd olunmuşdur ki, əmrin tələbinə əsasən Prokurorluqda müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin təşkili zamanı müasir informasiya texnologiyalarından geniş və səmərəli istifadə edilməlidir. Vətəndaşların prokurorluq orqanlarına müraciət etməsi və qəbul olunmasının, müraciətlərin verilməsi və onlara baxılması qaydaları barədə tam və müfəssəl məlumatlandırılmasının təmin edilməsi məqsədilə bütün tabe prokurorluqların inzibati binalarında (qəbul otaqlarında və ya vətəndaşlar üçün münasib olan digər yerlərdə) ərizə və şikayətlər üçün qutuların, vətəndaşların prokurorluqda qəbulu barədə qrafiklərin (tabe prokurorluqlarda, həmçinin, vətəndaşların Baş Prokurorluğun rəhbərliyi tərəfindən qəbulu barədə qrafiklərin, rayon (şəhər) və ərazi hərbi prokurorluqlarında isə bundan əlavə olaraq yerlərdə keçirilən qəbulların və vətəndaşların müvafiq yuxarı prokurorluqların rəhbərliyi tərəfindən qəbulu qrafiklərinin), Baş Prokurorluğun, habelə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin “Qaynar xətt” əlaqə mərkəzlərinin fəaliyyətinə dair zəruri məlumatların, “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikası Qanununun və bu

əmrin müvafiq müddəalarının yerləşdirilməsi təmin edilməlidir.

Tabe prokurorluqlarda vətəndaşların müəyyən olunmuş qrafiklər üzrə qəbulu təmin edilməli, Qrafiklər hər təqvim ilinin əvvəlində prokurorluq orqanlarının rəhbərləri tərəfindən təsdiq olunmalıdır. Rayon (şəhər) prokurorları həftədə iki dəfədən az olmayaraq vətəndaşları şəxsən qəbul etməli, vətəndaşların müraciətləri ilə əlaqədar təxirəsalınmaz tədbirlərin görülməsi tələb edildikdə, onların dərhal qəbul edilməsi təmin edilməlidir. Prokurorluq orqanlarının rəhbərləri, onların müavinləri, müvafiq idarə (şöbə) rəisləri və idarə (şöbə) rəislərinin müavinləri şəxsi qəbuldan daxil olmuş müraciətləri nəzarətə götürməklə həmin müraciətlərin vaxtında qanuni həll olunmasını və bu barədə onların müəlliflərinə ətraflı cavabların verilməsini təmin etməlidirlər.

Seminarda müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin düzgün təşkili və həyata keçirilməsi, təkrar müraciətlərə baxılması proseduru və təcrübədə yaranan problemlər müzakirə edilib, tabe prokurorluqların fəaliyyətində daha tez rastlanan nöqsan və çatışmazlıqlar təhlil edilmişdir.

Sonra bu sahədə işin düzgün təşkilinə və hayata keçirilməsinə dair konkret tövsiyələr verilmiş və bu sahədəki fəaliyyətlə bağlı qarşıya çıxan suallar cavablandırılmışdır.

## Culfa rayon prokurorluğunda seminar keçirilib

Mayın 4-də Culfa və Ordubad rayon prokurorluqları əməkdaşlarının iştirakı ilə Ordubad rayon prokurorluğunda "Avropa İnsan Hüquqları Konvensiyasının 6-cı maddəsi (Ədalətli məhkəmə araşdırması hüququ)" mövzusunda seminar keçirilmişdir.

Tədbirdə qeyd olunmuşdur ki, Konvensiyada qeyd olunmuş hüquqlardan biri də 6-cı maddədə öz əksini tapmış ədalətli məhkəmə araşdırması hüququdur. Belə ki, hər kəs, onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsi ilə, ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir. Məhkəmə qərarı açıq elan edilir, lakin demokratik cəmiyyətdə əxlaq, ictimai qayda və ya milli təhlükəsizlik mülahizələrinə görə, həmçinin yetkinlik yaşına çatmayanların maraqları və ya tərəflərin şəxsi həyatının müdafiəsi bunu tələb etdikdə, yaxud məhkəmənin fikrincə aşkarlığın ədalət mühakiməsinin maraqlarını poza biləcəyi xüsusi hallar zamanı ciddi zərurət olduqda mətbuat və ictimaiyyət bütün proses boyu və ya onun bir hissəsində məhkəmə iclasına buraxılmaya bilər. Cinayət törətməkdə ittiham olunan hər kəsin onun təqsiri qanun əsasında sübut edilənədək təqsirsiz hesab edildiyi qeyd olunmuşdur.

Cinayət törətməkdə ittiham olunan hər kəs, qeyd olunan hüquqlara malikdir: ona qarşı irəli sürülmüş ittihamın xarakteri və əsasları haqqında onun başa düşdüyü dildə dərhal və ətraflı məlumatlandırılmaq, öz müdafiəsini hazırlamaq üçün kifayət qədər vaxta və imkana malik olmaq, şəxsən və ya özünün seçdiyi müdafiəçi vasitəsi ilə özünü müdafiə etmək və ya müdafiəçinin xidmətini ödəmək üçün vəsaiti kifayət etmədiyi zaman, ədalət mühakiməsinin maraqları tələb etdikdə, belə müdafiədən pulsuz istifadə etmək, onun əleyhinə ifadə vermiş şahidləri dindirmək və ya bu şahidlərin dindirilməsinə nail olmaq və onun əleyhinə ifadə vermiş şahidlər üçün eyni olan şərtlərlə onun lehinə olan şahidlərin çağırması və dindirməsi hüququna malik olmaq, məhkəmədə istifadə olunan dili başa düşmürsə və ya bu dildə danışa bilmirsə, tərcüməçinin pulsuz köməyindən istifadə etmək.

Ölkə Konstitusiyasının 148-ci maddəsində Azərbaycan Respublikasının tərəfdar cıxdığı beynəlxalq müqavilələrin Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsi olduğu təsbit olunmuşdur. Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyində qanunçuluq, hər kəsin qanun və məhkəmə qarşısında hüquq bərabərliyi, Konstitusiya ilə təsbit edilmiş insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması, azadlıq hüququnun təmin edilməsi, şəxsiyyətin toxunulmazlığı hüququnun təmin edilməsi, mülkiyyət hüququnun təmin edilməsi, hüquqi yardım almaq və müdafiə hüququnun təmin edilməsi, özünü və qohumlarını ifşa etməkdə sərbəstlik, təqsirsizlik prezumpsiyası, məhkəmə baxışını tələb etmək hüququnun təmin olunması, cinayət mühakimə icraatının yalnız məhkəmə tərəfindən həyata keçirilməsi, cinayət mühakimə icraatının yalnız məhkəmə tərəfindən həyata keçirilməsi, cinayət mühakimə icraatının aşkarlığı, cinayət mühakimə icraatının obyektivliyi, qərəzsizliyi və ədalətliliyi, eyni əmələ görə təkrar məhkum etmənin yolverilməzliyi, məhkəməyə təkrar müraciət etmək və digər hüquqlar təsbit olunmuşdur.

Prokurorluq orqanlarında ədalətli məhkəmə apaşdırması hüququnun təmin edilməsi məqsədilə mühüm tədbirlər həyata keçirilir.

Sonra seminarda qarşıya çıxan suallar cavablandırılmış və "Avropa İnsan Hüquqları Konvensiyasının 6-cı maddəsi üzrə Təlimat"ın öyrənilməsi tövsiyə edilmişdir.

## Şərur rayon prokurorluğunda “Azərbaycan Respublikası Prokurorluğu orqanlarında kargüzarlıq işinin təşkili” mövzusunda seminar keçirilib

Mayın 1-də Şərur, Kəngərli və Sədərək rayon prokurorluqlarının məsul işçilərinin iştirakı ilə Şərur rayon prokurorluğunda “Azərbaycan Respublikası Prokurorluğu orqanlarında kargüzarlıq işinin təşkili” mövzusunda seminar keçirilmişdir.

Müraciətlərə baxılması şöbəsinin rəisi Nihad Abbasov “Azərbaycan Respublikası Prokurorluğu orqanlarında kargüzarlığın aparılmasına dair Təlimat”ın müddəaları barədə məlumat verərək qeyd etmişdir ki, dövlət orqanlarında kargüzarlıq işini tənzimləyən qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı mühüm tədbirlərin görülməsi, ölkə başçısının 23.06.2016-cı il tarixli Fərmanları ilə “Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası” və “Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılmasına nəzarətin həyata keçirilməsi Qaydası”nın təsdiq edilməsi prokurorluq orqanlarında yeni kargüzarlıq qaydalarının müəyyən edilməsini, prokurorluğun bu sahədə fəaliyyətini nizama salan yeni Təlimatın təsdiqlənməsini zəruri etmiş və Azərbaycan Respublikası Baş prokurorunun 10/13 №-li əmri ilə təsdiq olunmuş “Azərbaycan Respublikası Prokurorluğu orqanlarında kargüzarlığın aparılmasına dair Təlimat” təsdiq edilmişdir. Müvafiq əmrdə isə prokurorluq işçiləri tərəfindən Təlimatın dərindən öyrənilməsi və onun tələblərinə dönmədən əməl edilməsi tələb edilmişdir.

Bildirilmişdir ki, təlimat prokurorluq orqanlarında məxfi olmayan kargüzarlığın aparılması işini, o cümlədən sənədlərin hazırlanmasını, sənədlərin və müraciətlərin qəbulunu, qeydiyyatını, hərəkətini, icrasını, uçotunu və arxivləşdirilməsini tənzimləyir. Kargüzarlıq prokurorluq orqanlarının öz vəzifələrini həyata keçirməsi ilə əlaqədar sənədləşdirmə, müraciətlər və sənədlərlə işin təşkili üzrə fəaliyyətidir. Kargüzarlığı bilavasitə mütəxəssislər, dəftərxana müdirləri, arxiv qeydiyyatçıları və dəftərxananın digər işçiləri həyata keçirirlər. Prokurorluq işçiləri və kargüzarlığı aparan işçilər bu Təlimatın onların xidməti vəzifələrinə aid hissədə tələblərinin yerinə yetirilməsinə görə məsuliyyət daşıyırlar. Xidməti sənədlərlə yalnız prokurorluğun aidiyyəti olan işçiləri tanış ola bilərlər. Digər şəxslərin həmin sənədlərlə tanış olmasına, onlara dair arayış və ya xidməti məlumatların verilməsinə, qanunvericilikdə nəzərdə tutulan hallar istisna olmaqla sənədlərin surətlərinin verilməsinə, kütləvi informasiya və digər vasitələrlə yayılmasına yalnız prokurorluğun rəhbərliyinin razılığı ilə yol verilir. Prokurorluq işçiləri işdən çıxdıqda və ya müvəqqəti işdə olmadıqda icra olunmamış sənədlər struktur qurumun rəhbərinin və ya müvafiq prokurorun göstərişinə əsasən bu barədə mütləq qeydiyyat aparılmaqla digər icraçıya verilir. Dəftərxana müdirləri və kargüzarlığı həyata keçirən digər işçilər işdən çıxarkən onlara təhkim olunmuş ştamplar, möhürlər, blanklar və sənədlər struktur qurumun rəhbərinin, rayon və şəhər prokurorunun təsdiq etdiyi aktla yeni təyin olunmuş və ya həmin vəzifənin icrası müvəqqəti həvalə olunmuş şəxsə verilir.

Nihad Abbasov vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması xüsusiyyətləri, sənədlərin dövriyyəsinin təşkili, sənədlərin icrasına nəzarət və sənədlərin tərtib edilmə qaydası, kompüter üsulu ilə hazırlanan sənədlərə o dair tələblər, sənədlərin çoxaldılması və surətlərinin çıxarılması qaydaları, tərcümə ediməsi, işlərin nomenklaturunun, işlərin və nəzarət icraatlarının tərtib edilməsi, sənədlərin dəyərləndirilməsinə dair ekspertizanın keçirilməsi, sənədlərin saxlanılmasının təmin olunması, möhür və ştampların uçotu, saxlanılması və istifadə edilməsi və kargüzarlığın elektron qaydada aparılmasının xüsusiyyətləri barədə izahlar vermişdir.

Sonra bu sahədə işin düzgün təşkilinə və həyata keçirilməsinə dair konkret tövsiyələr verilmiş və bu sahədəki fəaliyyətlə bağlı qarşıya çıxan suallar cavablandırılmışdır.

## Babək rayon prokurorluğunda etik davranış qaydaları, cinayət mühakimə icraatında prokurorluğun rolu, beynəlxalq standartlar barədə seminar keçirilib

Aprelin 12-də Naxçıvan şəhər və Babək rayon prokurorluqları əməkdaşlarının iştirakı ilə Babək rayon prokurorluğunda “Azərbaycan Respublikası Prokurorluğu işçilərinin etik davranış Kodeksi”nin tələblərindən irəli gələn vəzifələrin və Beynəlxalq Prokurorlar Assosiasiyasının prokurorlar üçün müəyyən etdiyi peşəkar məsuliyyət standartları, prokurorların əsas vəzifələri və hüquqları və Cinayət mühakimə

icraatı sistemində prokurorluğun rolu haqqında Avropa Şurası Nazirlər Komitəsinin 6 oktyabr 2000-ci il tarixli 19 saylı Tövsiyələrinin nəzərə alınması" mövzusunda seminar keçirilmişdir.

Qeyd olunmuşdur ki, hər bir prokurorluq işçisi "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Qanunu, digər normativ hüquqi aktlarla və Azərbaycan Respublikası Baş Prokurorluğunun 08.02.2008-ci il tarixli geniş Kollegiya iclasında təsdiq edilmiş Azərbaycan Respublikası Prokurorluğu işçilərinin etik davranış Kodeksi ilə müəyyənləşdirilən davranış qaydalarına riayət etməli, prokurorluq işçiləri fəaliyyəti dövründə prokurorluq işçilərinin andına sadiq olmalı, xidməti işini və işdən kənar davranışını həmin anda və bu Kodeksə uyğun qurmalıdır. Kodeks prokurorluq orqanları işçilərinin riayət etməli olduqları davranışı, etik normaları, insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasında, prokurorluq orqanlarında korrupsiyanın və prokurorluq işçilərinin fəaliyyətində maraqların toqquşmasının qarşısının alınmasında onların üzərinə düşən vəzifələri, cəmiyyətdə prokurorluq orqanları işçilərindən gözlənilən davranışın məzmun və dairəsini müəyyən edir.

Prokurorluq orqanlarının üzərinə qanunvericiliklə qoyulmuş vəzifələrin layiqincə yerinə yetirilməsi prokurorluq işçilərinin yuksək əxlaqi və peşə keyfiyyətlərindən, ləyaqətindən, cəmiyyətdə hörmətindən, asudə vaxtda davranış mədəniyyətindən birbaşa asılıdır. Hər bir prokurorluq işçisi təmsil etdiyi orqanın nüfuzunu yüksəltməli, vətəndaşların ədalət mühakiməsinə və hüquq mühafizə orqanlarına olan inamını artırmalı, bu vəzifənin məsuliyyətli və şərəfli bir iş olduğunu, ədalət mühakiməsinin həyata keçirilməsində onun rolunu nəzərə alaraq, öz xidməti fəaliyyətində üzərinə düşən vəzifənin əhəmiyyətini dərk etməli, qanunlara, insan və vətəndaş hüquq və azadlıqlarına hörmətlə yanaşmalı, bu hüquq və azadlıqları təsbit edən milli və beynəlxalq standartlara ardıcıl və müntəzəm riayət etməli, cəmiyyətdə qəbul edilmiş ümumi əxlaq normaları və davranış qaydalarını gözləməli, prokurorluq işçisi adını uca tutmalı, şərəf və ləyaqətini qorumalıdır.

Prokurorluq işçisi öz xidməti fəaliyyətini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyası və qanunlarını, "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanı, Beynəlxalq Prokurorlar Assosiasiyasının prokurorlar üçün müəyyən etdiyi peşə məsuliyyəti, əsas hüquq və vəzifə standartlarını, Azərbaycan Respublikası Baş prokurorunun müvafiq əmrlərinin tələblərini rəhbər tutmalı, Prokurorluq işçiləri üçün etika və davranış üzrə Avropa rəhbər prinsiplərini və Cinayət mühakimə sistemində prokurorluğun rolu haqqında Avropa Şurası Nazirlər Komitəsinin 6 oktyabr 2000-ci il tarixli 19 saylı Tövsiyələrini nəzərə almalı, həmçinin cəmiyyətdə qəbul edilmiş etik qaydalara dönmədən əməl etməli, şəxsin, cəmiyyətin və dövlətin maraqları naminə prokurorluq işçisi öz vəzifə borcunu layiqincə yerinə yetirməlidir.

Prokurorluq işçisi xidməti fəaliyyətində yüksək peşəkarlığı, insani keyfiyyətləri və işdən kənar davranış mədəniyyəti ilə prokurorluq orqanlarının nüfuzunu daim artırmalı, bütün hallarda elə fəaliyyət göstərməlidir ki, hər bir şəxs üçün nümunə kimi qəbul edilmiş olsun. Etik davranış qaydalarının onun tərəfindən pozulmasının nəticələrini aradan qaldırmağa, o cümlədən ictimai etimadın bərpası üçün tədbirlər görməyə borcludur. Prokurorluq işçisi öz peşə fəaliyyətində şəxsi maraqlarını cəmiyyətin və peşəsinin mənafelərindən üstün tutmamalı, öz fikirlərini ifadə etmək azadlığına, qanunvericiliklə müəyyən edilmiş qaydada ictimai birliklərdə birləşmək, milli və beynəlxalq təşkilatların fəaliyyətində iştirak etmək hüququna malikdirlər. Eyni zamanda prokurorluq işçiləri hər hansı siyasi partiyanın və ya təşkilatın üzvü olmamalı, siyasi aksiyalarda iştirak etməməli, siyasi partiyalara maddi və ya digər hər hansı şəkildə dəstək verməməli, qanunvericiliklə nəzərdə tutulmuş hallar istisna olmaqla təşviqatla məşğul olmamalı, habelə ideoloji təsirə məruz qalmasına dəlalət edən hərəkətlərdən çəkinməlidir. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, ayrı-ayrı fiziki və hüquqi şəxslərin, ictimai birliklərin maraqları dairəsində fəaliyyət göstərməməli, vəzifə səlahiyyətlərindən və qulluq mövqeyindən sui-istifadə etməməlidir.

Prokurorluq işçisi xidməti fəaliyyətində qanunun aliliyini rəhbər tutmaqla yalnız faktlara əsaslanmalı, qanunçuluq, hər kəsin qanun qarşısında hüquq bərabərliyi prinsiplərinə riayət etməli, vətəndaşların hüquq və azadlıqlarına, hüquqi şəxslərin mənafelərinə əməl və hörmət etməli, insanların hüquq və azadlıqlarını, qanuni maraqlarını pozan, onların şərəf, ləyaqət və işgüzar nüfuzunu ləkələyə biləcək qərarlara və hərəkətlərə (və ya hərəkətsizliyə) yol verməməli, nəzərə almalıdır ki, milli qanunvericiliklə və beynəlxalq konvensiyalarla təsbit edilən insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi Azərbaycan dövlətinin ali məqsədidir.

Sonra seminarda qarşıya çıxan suallar cavablandırılmış və Azərbaycan Respublikası Prokurorluğu işçilərinin etik davranış Kodeksinin tələblərinə əməl edilməsi qeyd olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun**
**Hüquqi təminat və informasiya şöbəsi**

# Naxçıvan Muxtar Respublikasında tələbələr prokurorluq orqanlarının iş prinsipləri ilə tanış olublar



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" 2015-ci il 27 iyul tarixli Sərəncamı ilə Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisası Naxçıvan Muxtar Respublikası Prokurorluğunun hamiliyinə verilib.

Aprelin 9-da Naxçıvan Dövlət Universitetin bu ixtisas üzrə 2-ci kurs tələbələri Naxçıvan Muxtar Respublikası Prokurorluğunda olublar. Tələbələr buradakı kitabxananın fondu ilə maraqlanıb, prokurorluq orqanlarında müraciətlərin baxılması qaydaları haqqında məlumatlar alıblar. Sonra onlara prokurorluğun kriminalistik avtomaşınının iş prinsipi izah olunub, cinayət işinin istintaqı zamanı aparılan istintaq hərəkətləri, o cümlədən cinayət işinin başlanması, təqsirləndirilən şəxs qismində cəlbetmə, ittihamı elanetmə qaydaları, dindirmə və üzləşdirmə məsələləri, ittihamın müdafiəsi, istintaq hərəkətlərinin sənədləşdirilməsi haqqında danışılıb, mövzu ilə bağlı slaydlar nümayiş etdirilib.

Naxçıvan Muxtar Respublikasının prokuroru vəzifəsini icra edən Səbuhi Şahverdiyev tələbələrlə görüşdə bildirib ki, "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncam tələbələrin nəzəri biliklərinin təcrübədə tətbiqi, onların gələcək fəaliyyətə hazırlanmaları, yaxşı mütəxəssis kimi yetişmələri baxımından böyük əhəmiyyətə malikdir. Sərəncamda nəzərdə tutulan vəzifələrin uğurlu icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Prokurorluğunda görüləcək işlərə dair təsdiq olunmuş tədbirlər planı uğurla icra olunur, Hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələr üçün seminar-məşğələlər keçirilir. Onların prokurorluqda istintaq olunan cinayət işləri üzrə ayrı-ayrı istintaq hərəkətlərinin aparılmasında iştirakının və kriminalistik texnikanın mövcud imkanlarından səmərəli istifadəsinin, dövlət ittihamçıları ilə birgə dövlət ittihamının müdafiəsi üzrə məhkəmələrdə iştirakı təmin olunur. Prokuror diqqətə çatdırıb ki, ötən dövrdə bu istiqamətdə xeyli iş görülüb və həyata keçirilən tədbirlər hazırda da davam etdirilir.

Naxçıvan Dövlət Universitetinin Sosial idarəetmə və hüquq fakültəsinin müəllimi Pərviz Qəribov Naxçıvan Muxtar Respublikası Prokurorluğunda öz ixtisaslarını daha dərindən öyrənmələri məqsədilə tələbələr üçün yaradılan şəraitə görə minnətdarlığını bildirib.

Sonda suallar cavablandırılıb. Həmin gün tələbələr Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsində və Naxçıvan Şəhər Prokurorluğunda da olublar.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi**

# Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi BMT-də məruzə ilə çıxış edib

BMT-nin Korrupsiyaya qarşı Mübarizə Konvensiyasının qəbul edilməsinin 15 illiyi ilə bağlı BMT Baş Assambleyasının yüksək səviyyəli müzakirələri keçirilib.

BMT Baş Assambleyasının prezidenti Miroslav Layçak və BMT-nin baş katibi Antonio Quterreşin də iştirak etdikləri tədbirdə ölkəmizi Azərbaycan Respublikası Baş prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevin rəhbərliyi ilə nümayəndə heyəti təmsil edib.

Tədbirin yüksək səviyyəli seqmentində çıxış edən Kamran Əliyev korrupsiyanın istənilən cəmiyyətdə demokratiyaya və qanunun aliliyinə təhlükə təşkil etdiyini, onun iqtisadi inkişafını ləngitdiyini bildirib. Qeyd edib ki, korrupsiyaya qarşı mübarizə Prezident İlham Əliyevin Azərbaycanda həyata keçirdiyi dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. O, Azərbaycanın BMT-nin Korrupsiyaya qarşı Mübarizə Konvensiyası başda olmaqla, beynəlxalq və regional sənədlərə qoşulduğunu, qısa müddət ərzində ölkəmizdə beynəlxalq standartlara uyğun müasir qanunvericilik sisteminin yaradıldığını, bu vaxta qədər korrupsiyaya qarşı dörd milli fəaliyyət planının icra edildiyini bildirib. Baş prokurorun müavini korrupsiyanın qarşısının alınması sahəsində milli siyasəti müəyyənləşdirən Korrupsiyaya Qarşı Mübarizə Komissiyasının və konvensiyanın müddəalarına uyğun olaraq ixtisaslaşmış antikorrupsiya qurumunun – Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin təsis olunması və onların uğurlu fəaliyyəti barədə məlumat verib.

Kamran Əliyev Azərbaycanda korrupsiyaya qarşı mübarizə sahəsində dövlət xidmətlərinin şəffaflığına xüsusi əhəmiyyət verildiyini və bunun bariz nümunəsi kimi Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılan və Azərbaycan brendi hesab edilən “ASAN xidmət”in 2015-ci ildə BMT-nin ictimai xidmətlər üzrə mükafatına layiq görüldüyünü bildirib.

Korrupsiyaya qarşı mübarizənin digər istiqaməti kimi ölkəmizdə ədliyyə sahəsində aparılan islahatlara toxunan baş prokurorun müavini bu islahatların Avropa Şurasının Ədliyyənin Səmərəliliyi üzrə Komissiyası tərəfindən yüksək dəyərləndirildiyini vurğulayıb.

Çıxışda, eyni zamanda, korrupsiyaya qarşı mübarizədə beynəlxalq əməkdaşlığa da mühüm önəm verildiyi bildirilib və Azərbaycanın konvensiyanın icrasının icmalı mexanizmində, eləcə də korrupsiyaya qarşı mübarizə aparan prokurorların şəbəkəsinin işində fəal iştirak etdiyi qeyd olunub.

Tədbir çərçivəsində bir sıra ölkələrin antikorrupsiya qurumlarının rəhbərləri və BMT-nin Cinayətkarlığa və Narkotiklərə qarşı Mübarizə Ofisinin rəsmiləri ilə ikitərəfli görüşlər keçirilib.

Tədbirdə Azərbaycan Respublikasının BMT yanında daimi nümayəndəsi Yaşar Əliyev də iştirak edib.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

# Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi ilə İran İslam Respublikasının Baş Təftiş Təşkilatı arasında Anlaşma Memorandumu imzalanıb



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən islahatlar çərçivəsində Azərbaycanda beynəlxalq standartlar səviyyəsində mütərəqqi antikorrupsiya qanunvericiliyi formalaşdırılmaqla yanaşı ölkəmizin bu sahədə beynəlxalq əlaqələri daim diqqət mərkəzində saxlanılır.

Azərbaycan Respublikası Baş prokurorunun müavini - Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevin başçılıq etdiyi nümayəndə heyəti əvvəlcədən razılaşdırılmış Anlaşma Memorandumunun imzalanması məqsədilə iyunun 17-18-də İran İslam Respublikasının Tehran şəhərində səfərdə olmuşdur.

Səfər çərçivəsində Kamran Əliyevlə qonşu ölkənin Baş Təftiş Təşkilatının sədri Nasir Serac arasında keçirilmiş görüş zamanı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları, antikorrupsiya sahəsində görülən işlər, eləcə də, bu sahədə ixtisaslaşmış qurumlar olan Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiya və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarə Baş İdarəsinin fəaliyyət istiqamətləri və strukturu barədə qarşı tərəfə ətraflı məlumatlar verilmiş,



habelə "ASAN" xidmət mərkəzlərinin uğurlu fəaliyyətindən danışılmışdır.

Naser Serac öz növbəsində 2017-ci ildə Azərbaycan Respublikasında səfərdə olarkən ölkəmizdə həyata keçirilən geniş quruculuq işləri, o cümlədən korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən tədbirləri yüksək qiymətləndirmiş, bu sahədə təmsil etdiyi qurumun Azərbaycanın müvafiq dövlət qurumları ilə birgə səmərəli təcrübə mübadiləsi aparmasına maraqlı olduğunu diqqətə çatdırmışdır.

Tədbir Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi və İran İslam Respublikasının Baş Təftiş Təşkilatı arasında korrupsiyaya qarşı mübarizə və onun qarşısının alınması sahəsində Anlaşma Memorandumunun imzalanması ilə başa çatmış, daha sonra hər iki tərəf mətbuat nümayəndələrinin suallarını cavablandırmışdır.

İyunun 18-də Azərbaycan nümayəndə heyəti ilə İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) qərargahında qurumun baş katibi cənab Halil İbrahim Akca arasında keçirilmiş görüşdə ECO baş katibi ölkəmizin təşkilata verdiyi töhvələri xüsusi vurğulayaraq Bakıda İqtisadi Əməkdaşlıq Təşkilatına (ECO) üzv dövlətlərin korrupsiyaya qarşı mübarizə qurumlarının rəhbərlərinin və ombudsmanlarının üçüncü iclasının yüksək səviyyəli təşkilinə görə bir daha Azərbaycanın siyasi rəhbərliyinə təşəkkürünü bildirmiş, o cümlədən ölkəmizin ECO-nun Korrupsiya Agentlikləri və Ombudsmanlarının Regional Əməkdaşlıq Mərkəzinə (RCCACO) qoşulmaq qərarından məmnunluğunu ifadə etmişdir.

Həmin gün nümayəndə heyəti ilə İran İslam Resublikasının Məhkəmə və Ədliyyə Qüvvələrinin sədrinin ictimai və cinayətin qarşısının alınması məsələləri üzrə müavini Hakim Ülfət, Maliyyə Monitorinq Xidmətinin rəisi Nasiri Əliabad və İqtisadi işlər və maliyyə nazirinin investisiya, iqtisadi və texniki məsələlər üzrə müavini Məhəmməd Xəzai arasında keçirilmiş görüşlərdə müvafiq olaraq iki ölkənin ədliyyə, məhkəmə və maliyyə qurumlarının fəaliyyəti müzakirə olunmuş, hüquqi əməkdaşlıq imkanları nəzərdən keçirilmiş, görüşlər zamanı bu sahələrdə Azərbaycanın müsbət təcrübəsinə xüsusi maraq göstərilmişdir.

Azərbaycan Respublikasının nümayəndə heyəti, həmçinin İranın regionlarına səfər edərək Baş Təftiş Təşkilatının bölgələrdəki nümayəndəliklərinin fəaliyyəti ilə yaxından tanış olmuşlar.

Səfər çərçivəsində keçirilmiş görüşlərdə həmçinin, ölkəmizin İran İslam Respublikasında fövqəladə və səlahiyyətli səfiri Bünyad Hüseynov da iştirak etmişdir.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

# Hərbi prokurorluğun nümayəndə heyəti Rusiyada səfərdə olub



Ölkələrimizin Hərbi Prokurorluq orqanları arasında işgüzar əlaqələrin daha da möhkəmləndirilməsi məqsədilə Rusiya Federasiyası baş prokurorunun müavini - Rusiya Federasiyasının baş hərbi prokuroru Valeri Petrovun dəvəti əsasında Azərbaycan Respublikası baş prokurorunun müavini - Azərbaycan Respublikasının hərbi prokuroru Xanlar Vəliyevin rəhbərlik etdiyi nümayəndə heyəti iyunun 4-7-də Rusiya Federasiyasında səfərdə olmuşdur.

İyunun 4-də Rusiya Federasiyasının Baş Hərbi Prokurorluğunda baş hərbi prokuror Valeri Petrov, onun birinci müavini Y.V.İvanov, müavini A.Y.Devyatko və digər rəhbər vəzifəli şəxslərlə Azərbaycan Respublikası hərbi prokurorunun rəhbərlik etdiyi nümayəndə heyəti arasında rəsmi görüş keçirilmişdir. Görüşdə ölkələrimizin prokurorluq, ədliyyə və məhkəmə orqanları arasındakı əməkdaşlığın yüksək səviyyədə olduğunu bildirən hər iki hərbi prokuror, bunun tarixən xalqlarımız və dövlətlərimiz arasında siyasi, hüquqi, iqtisadi, mədəni və digər sahələrdə formalaşmış səmimi münasibətlərə söykəndiyini qeyd etmişlər. Bununla əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin xalqlarımızın rifahı naminə gördükləri nəhəng işlər xüsusi vurğulanıb. Görüşdə hüquqi sahədə faydalı fikir mübadiləsi aparılıb, həm ikitərəfli, həm də beynəlxalq səviyyədə qarşılıqlı səmərəli fəaliyyət, o cümlədən hüquqi əməkdaşlıq sahəsində mövcud münasibətlər müzakirə edilmişdir.

Sonra hər iki dövlətin Hərbi prokurorluqlarının fəaliyyətlərinin təşkili məsələləri ilə əlaqədar yuxarıda adları çəkilən və digər vəzifəli şəxslərin iştirakı ilə brifinq keçirilmişdir. Brifinqdə çıxış edən Baş Hərbi Prokurorluğun rəhbər vəzifəli şəxsləri, o cümlədən Təşkilat İdarəsinin rəisi N.A.Sennikova, Hərbi idarəetmə orqanlarında, hərbi hissələrdə və təşkilatlarda qanunların icrasına nəzarət İdarəsinin rəis müavini A.A.Prokudin, Məhkəmələrdə cinayət işlərinə baxılması zamanı hərbi prokurorların iştirakının təmini idarəsinin rəis müavini A.A.Belov və Cinayət işləri üzrə aparılan istintaq zamanı



qanunların icrasına nəzarət idarəsinin rəis müavini A.V.Bragin Rusiya Federasiyasının Hərbi prokurorluğu orqanları haqqında, eləcə də Silahlı Qüvvələrdə və digər hərbi birləşmələrdə qanunların icrasına nəzarətin təşkili, məhkəmələrdə cinayət işlərinə baxılmasında hərbi prokurorların iştirakı və məhkəməyədək cinayət təqibinin həyata keçirilməsi zamanı hərbi prokurorların fəaliyyəti barədə məlumatlar verilmişdir. Ardınca müvafiq slaydlar nümayiş etdirilmişdir.

Brifinqdə çıxış edən nümayəndə heyətinin rəhbəri, Azərbaycan Respublikasının hərbi prokuroru Xanlar Vəliyev Hərbi prokurorluq orqanlarının strukturu, fəaliyyət istiqamətləri, qanunların icrasına və tətbiqinə nəzarət istiqamətində gördüyü işlər barədə ətraflı məlumat vermişdir. Brifinq zamanı nümayəndə heyətlərinin fəaliyyət istiqamətləri üzrə verdikləri qarşılıqlı suallar cavablandırılıb, ətraflı fikir mübadiləsi aparılmışdır.

İyunun 5-də nümayəndə heyəti baş hərbi prokurorun birinci müavini Y.V.İvanovun müşayiəti ilə Rusiya Federasiyasının Müdafiə Nazirliyinin Hərbi Universitetinin fəaliyyəti ilə tanış olmuşdur. Universitetin rəisi İ.V.Mişutkin, rəis müavini V.N.Luqovoy və digər vəzifəli şəxslər tərəfindən Universitetin fəaliyyəti, elmi nailiyyətləri, təhsil istiqamətləri, fakültələri, tədris proqramları, maddi-texniki bazası, test və trenajor-simulyator qurğuları və sair barədə nümayəndə heyətinə geniş məlumat verilmişdir.

Daha sonra nümayəndə heyəti Universitetin prokuror-istintaq, xarici dillər, maliyyə-iqtisad və digər fakültələrinin, eləcə də kriminalistika, informatika, idarəetmə və başqa kafedralarının fəaliyyəti haqqında ətraflı məlumatlandırılmışdır. Kriminalistika kafedrasının rəisi A.A.Barakşin nümayəndə heyətini kafedranın məhkəmə-tibbi ekspertizası, ballistika və digər bölmələri ilə tanış etmişdir. Tanışlıq zamanı müasir avadanlıq və dünyada analoqu olmayan proqram təminatı nümayiş etdirilmişdir.

İnformatika və idarəetmə kafedrasının rəisi O.K.Şevçenko kursantların tədris prosesində istifadə etdikləri müxtəlif növ informasiya texnologiyaları avadanlığı və proqram təminatı haqqında məlumat verilmişdir.

Hərbi prokuror Xanlar Vəliyev nümayəndə heyəti ilə birlikdə bu universitetdə təhsil alan Azərbaycan Respublikasının vətəndaşı olan dörd kursantla görüşüb, onların qayğı və problemləri ilə maraqlanmışdır.

Habelə universitetin rəisi İ.V.Mişutkinlə Azərbaycan vətəndaşlarının gələcəkdə burada təhsil almaları, habelə Hərbi Prokurorluq orqanlarının əməkdaşları üçün ixtisasartırma kurslarının təşkili imkanları müzakirə olunmuşdur.

İyunun 6-da Rusiya Federasiyasının Ali Məhkəməsində baş hərbi prokurorun müavini A.Y.Devyatko və Məhkəmələrdə cinayət işlərinə baxılması zamanı hərbi prokurorların iştirakının təmini idarəsinin rəisi İ.A.Şaboltanovun iştirakı ilə Ali Məhkəmənin sədr müavini V.A.Davıdov və Hərbi qulluqçuların işləri üzrə Məhkəmə Kollegiyasının hakimi, hakimlər tərkibinin sədri İ.V. Kruplov ilə görüş keçirilmişdir. Görüşdə nümayəndə heyətinin rəhbəri Xanlar Vəliyev Azərbaycanda həyata keçirilən məhkəmə-hüquq islahatları, fəaliyyət göstərən birinci, apellyasiya və kassasiya məhkəmələri barədə



məlumat vermişdir. Bununla yanaşı, məhkəmələrdə dövlət ittihamının müdafiəsi sahəsində hərbi prokurorluq orqanlarının iş təcrübəsi bölüşülmüşdür.

V.A.Davıdov Rusiya Federasiyasının qanunvericiliyində bir sıra cinayətlərin dekriminallaşdırılmasına dair qanun layihəsi, bununla əlaqədar "cinayət xətası" növündə yeni anlayışdan istifadə edilməsi və müvafiq məcəllə layihəsinin işlənib hazırlanmasının mümkünlüyü barədə məlumat vermişdir. O, Ali Məhkəmə tərəfindən aparılan analitik fəaliyyət, Plenumun qərarlarının qəbul olunması, onların layihələrinin tərtib edilməsi, məhkəmə təcrübəsi və cəza siyasəti barədə ətraflı məlumat verilmiş, sualları cavablandırılmışdır.

Nümayəndə heyətinin rəhbəri, hərbi prokuror Xanlar Vəliyev səfər çərçivəsində keçirdiyi bütün görüşlərdə Ermənistanın təcavüzünə məruz qalan Azərbaycanın ərazilərinin 20 faizinin işğal altında saxlanıldığını, işğal olunmuş ərazilərdə etnik təmizləmə siyasətinin aparılması nəticəsində 1 milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü xüsusi vurğulamışdır. Hərbi prokuror Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin ərazi bütövlüyünün istənilən yolla bərpa ediləcəyinə və həmvətənlərimizin öz dədə-baba torpaqlarına, doğma yurdlarına qayıdacaqlarına əmin olduqlarını bildirmişdir.

İyunun 6-da baş hərbi prokuror V.G.Petrov, onun birinci müavini və müavinləri, habelə idarə rəisləri ilə nümayəndə heyətinin keçirdiyi görüşdə baş tutmuş tədbirlər və aparılmış müzakirələrlə bağlı qarşılıqlı xoş təəssüratlar bölüşülmüşdür.

Hərbi prokuror Xanlar Vəliyev yüksək qonaqpərvərliyə, səmimi və doğma davranışa görə təşəkkürünü bildirərək, münasibətlərin bu tərzdə davam edəcəyinə əminliyini vurğulamış və baş hərbi prokuror V.G.Petrovu nümayəndə heyəti ilə birlikdə Azərbaycan Respublikasına səfərə dəvət etmişdir.

Baş hərbi prokuror V.G.Petrov dəvətə görə minnətdarlığını bildirib, münasib olan vaxtda Azərbaycana səfər edəcəyini demişdir.

**Hərbi Prokurorluq**

# Qazaxıstan Respublikası Prokurorluğunun informasiya-kommunikasiya texnologiyaları sahəsində təcrübəsi öyrənilib




Mayın 16-19-da Baş Prokurorluğun İnformasiya-kommunikasiya texnologiyaları idarəsinin rəisi Murad Dadaşovun rəhbərlik etdiyi nümayəndə heyəti Qazaxıstan Respublikasının Baş Prokurorluğunda tətbiq edilən elektron proqramların öyrənilməsi məqsədilə Qazaxıstan Respublikasına səfər edib.

Nümayəndə heyəti Qazaxıstan Respublikası Baş prokurorunun müavini Axmetjanov Marat Muratoviç tərəfindən qəbul olunub. Sonra Qazaxıstan Respublikası Baş Prokurorluğunun inzibati binasında istifadə olunan proqram təminatlarının işləmə prosesləri izlənilib, tarix muzeyi ilə tanış olunub, qonaqlar üçün nəzərdə tutulmuş xatirə kitabında qeydlər yazılıb.

Qazaxıstan Respublikası ərazisində, habelə Qazaxıstan Respublikası Prokurorluq orqanlarında tətbiq olunan proqram təminatları və texnologiyalar haqqında məlumat verilib. Qeyd olunub ki, Qazaxıstan Respublikasının Cinayət-Prosessual Məcəlləsində edilən dəyişikliklərə əsasən, cinayət işi üzrə istintaqın ənənəvi olaraq kağızda və yaxud elektron qaydada aparılacağı müstəntiqin sərancamına verilib. Ənənəvi istintaq prosesi zamanı kağız, katridj, yanacaq sərfiyyatına və vaxt itkisinə yol verilirdisə, elektron istintaq zamanı bütün proseslər, o cümlədən – təqsirləndirilən şəxs barəsində qətimkan tədbirinin seçilməsi üçün vəsatətin, təqdimatın, məhkəmə qərarının, bütün sorğuların və onlara gələn cavabların, ekspertizaların təyin edilməsi barədə qərarların və ekspert rəylərinin elektron qaydada alındığından, müstəntiq cinayət işi üzrə aparılan istintaqın əksər vaxtını xidməti otağını tərk etmədən həyata keçirə bilmə imkanına malikdir.

Qazaxıstan Respublikası Baş Prokurorluğunun Hüquqi Statistika və Xüsusi Qeydlər Komitəsinin sədri Jakipbaev Kairat Tulegenoviç ilə də görüş keçirilib. Komitə tərəfindən yaradılan proqram təminatları haqqında geniş məlumatlar verilib.

Əldə edilən təcrübə mübadiləsi nəticəsində hazırda Baş Prokurorluğun İnformasiya-kommunikasiya texnologiyaları idarəsi tərəfindən "İTTİHAM" proqramı yazılır.

**Baş Prokurorluğunun İnformasiya-kommunikasiya texnologiyaları idarəsi**

AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU

**Ə M R**

**№ 10/41**

04 iyun 2018-ci il Bakı şəhəri

**Baş Prokurorluq üzrə "Distant (məsafədən) ixtisasartırma kursunun təşkili haqqında" 19.02.2018-cı il tarixli 10/10 nömrəli əmrə dəyişikliklər edilməsi barədə**

Baş Prokurorluq üzrə normativ hüquqi aktları "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 17 noyabr 2017-ci il tarixli 885-VQD nömrəli Qanuna uyğunlaşdırılması məqsədilə, "Prokurorluq haqqında" Qanunun 10-cu maddəsini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

**1.** Baş Prokurorluq üzrə "Distant (məsafədən) ixtisasartırma kursunun təşkili haqqında" 19.02.2018-cı il tarixli 10/10 nömrəli əmrə aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 4, 5, 6, 7, 9 və 10-cu bəndlər ləğv edilsin.

**1.2.** 8-ci bənddən *"Qiymətləndirmə tarixindən ən azı bir ay əvvəl"* sözləri çıxarılsın.

**1.3.** 11-ci bənddə *"və yoxlamanın yekunu üzrə dinləyicilərin bilik"* sözləri çıxarılsın, *"onların"* sözü *"dinləyicilərin"* sözü ilə əvəz edilsin.

**2.** Əmr elan və icra olunması üçün Baş Prokurorluğun struktur qurumlarına, habelə bütün tabe prokurorluqlara göndərilsin, "Azərbaycan Prokurorluğu" jurnalında dərc edilsin.

**Zakir Qaralov**
Azərbaycan Respublikasının Baş prokuroru
I dərəcəli dövlət ədliyyə müşaviri

AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU

**Ə M R**

**№ 10/42**

04 iyun 2018-ci il Bakı şəhəri

**Azərbaycan Respublikası Baş prokurorunun 01.03.2017-ci il tarixli 10/13 nömrəli əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğu orqanlarında kargüzarlığın aparılmasına dair" Təlimata dəyişikliklər edilməsi barədə**

Baş Prokurorluq üzrə normativ hüquqi aktları "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 934-VQD nömrəli Qanununa uyğunlaşdırılması məqsədilə, "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutub,

**ƏMR EDİRƏM:**

**1.** Azərbaycan Respublikası Baş prokurorunun 01.03.2017-ci il tarixli 10/13 nömrəli əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğu orqanlarında kargüzarlığın aparılmasına dair" Təlimata aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 4.3-cü bəndin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

**"4.3.** *Prokurorluqda sənədlərin ümumi icra müddəti 30 gündür."*

**1.2.** 1 №-li Əlavənin (Təşkilat-sərəncamverici və informasiya-sorğu sənədlərinin əsas növlərinin Siyahısı) 1-ci bəndinin 12-ci yarımbəndi aşağıdakı redaksiyada verilsin:

**"12.** *Protest – Azərbaycan Respublikasının Cinayət-Prosessual, Mülki Prosessual və İnzibati Xətalar Məcəllələrində nəzərdə tutulmuş qaydada və hallarda məhkəmə qərarlarından və səlahiyyətli orqanın (vəzifəli şəxsin) inzibati xəta haqqında iş üzrə qərarlarından və ya qərardadlarından verilən şikayət. Protest öz hüquqi statusuna, hüquqi nəticələrinə görə digər tərəfin şikayətinə bərabər tutulur."*

**1.3.** 1 №-li Əlavənin (Təşkilat-sərəncamverici və informasiya-sorğu sənədlərinin əsas növlərinin Siyahısı) 1-ci bəndinin aşağıdakı məzmunda 17-ci yarımbənd əlavə edilsin:

**"17.** *Qərardad – Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulan hallarda inzibati xəta haqqında işin başlanmasının rədd edilməsi haqqında qəbul edilən əsaslandırılmış hüquqi akt."*

**2.** Əmr elan olunması üçün Baş Prokurorluğun struktur qurumlarına, habelə bütün tabe prokurorluqlara göndərilsin, "Azərbaycan Prokurorluğu" jurnalında dərc edilsin və "Azərbaycan Respublikası Baş Prokurorluğunun normativ hüquqi aktları" informasiya sisteminə daxil edilsin.

**Zakir Qaralov**
Azərbaycan Respublikasının Baş prokuroru
I dərəcəli dövlət ədliyyə müşaviri

AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU

**Ə M R**
**№ 10/43**

04 iyun 2018-ci il Bakı şəhəri

## Baş Prokurorluq üzrə "İnzibati xətalar haqqında işlər üzrə icraat zamanı prokuror nəzarətinin təşkili barədə" 03.03.2016-cı il tarixli 10/14 nömrəli əmrə dəyişikliklər edilməsi barədə

Baş Prokurorluq üzrə normativ hüquqi aktların "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" 15.12.2017-ci il tarixli 934-VQD №-li və "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə" 17.11.2017-ci il tarixli 874-VQD №-li Qanunlara uyğunlaşdırılması məqsədilə, habelə "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 23.02.2017-ci il tarixli 1256 №-li Fərmanının icrası ilə əlaqədar, "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutub,

**ƏMR EDİRƏM:**

**1.** Baş Prokurorluq üzrə "İnzibati xətalar haqqında işlər üzrə icraat zamanı prokuror nəzarətinin təşkili barədə" 03.03.2016-cı il tarixli 10/14 nömrəli əmrə aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 1.1-ci bənddə *"qərardan"* sözündən sonra *"və ya qərardaddan"* sözləri əlavə edilsin.

**1.2.** 2-ci bənddə *"İXM-nin 191.1, 195.1, 197.4, 197.5, 205, 249, 284.2, 339.2 – 339.5, 340.2, 341, 376, 399, 410.3, 531, 558.2, 559, 563.2, 567, 568, 569, 573, 594-1, 595.2, 596, 601 və 606.1-ci maddələrində"* sözləri *"İXM-nin 54.2-ci maddəsinin birinci cümləsində"* sözləri ilə əvəz edilsin.

**1.3.** 2.1-ci bənddə *"və təşkilatlarından"* sözləri *"(qurumlarından)"* sözü ilə əvəz edilsin.

**1.4.** 2.7-ci bənddə *"orqanlarını"* sözündən sonra *"(qurumlarını)"* sözü əlavə olunsun.

**1.5.** 2.8-ci bəndin birinci cümləsində *"və təşkilatlarından"* sözləri *"(qurumlarından)"* sözü ilə əvəz edilsin.

**1.6.** 2.16-cı bəndin birinci cümləsində *"və təşkilatlarından"* sözləri *"(qurumlarından)"* sözü ilə əvəz edilsin.

**1.7.** 4.1-ci bəndə aşağıdakı redaksiyada ikinci abzas əlavə edilsin:

*"Rayon (şəhər) məhkəmələrinin qərarlarından apellyasiya instansiyası məhkəməsinə protest inzibati xətalar haqqında işlərin baxılmasında iştirak edən prokuror tərəfindən verilsin."*

**1.8.** 4.2.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

**"4.2.1.** *İnzibati xətalar haqqında işlərə baxılarkən Dövlət qulluğu haqqında qanunvericilik şamil edilən mərkəzi icra hakimiyyəti orqanları adından dövlət orqanının rəhbəri (rəhbər müavini), dövlət orqanı aparatının rəhbəri*

*(rəhbər müavini), dövlət orqanı aparatında şöbə müdiri (müdir müavini), dövlət orqanı aparatında sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin rəhbərləri, onların müavinləri, şöbə müdirləri (müdir müavinləri), sektor müdirləri, o cümlədən:*

*– daxili işlər naziri, onun müavinləri, Baş Dövlət Yol Polisi İdarəsinin rəisi, onun müavinləri, Baş Dövlət Yol Polisi İdarəsinin Mərkəzi Məlumat Xidmətinin rəisi, Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinin rəisi, onun müavinləri, Baş İctimai Təhlükəsizlik İdarəsinin rəisi, onun müavinləri;*

*– ədliyyə naziri, onun müavinləri, Ədliyyə Nazirliyinin Aparatının Qeydiyyat və notariat baş idarəsinin rəisi, onun müavini;*

*– fövqəladə hallar naziri, onun müavinləri, Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin rəisi, onun müavinləri, Dövlət Yanğın Nəzarəti Xidmətinin rəisi, onun müavinləri, Nüvə və Radioloji Fəaliyyətin Tənzimlənməsi üzrə Dövlət Agentliyinin, Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyinin, Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin vəzifəli şəxsləri;*

*– vergilər naziri, onun müavinləri, Vergilər Nazirliyinin Aparatının rəhbəri, onun müavinləri, Vergilər Nazirliyi yanında departamentlərin baş direktorları, onların müavinləri;*

*– Dövlət Gömrük Komitəsinin sədri, onun müavinləri, Komitənin Aparatının Gömrük Sahəsində Hüquqpozmalara qarşı Mübarizə Baş İdarəsinin rəisi, onun müavinləri, həmin idarənin şöbə (bölmə) rəisləri, Komitənin sisteminə daxil olan ərazi və ixtisaslaşdırılmış baş gömrük idarələrinin və gömrük idarələrinin rəisləri və onların müavinləri, həmin idarələrin şöbələrinin rəisləri, onların müavinləri, bölmə rəisləri, baş inspektorlar, böyük inspektorlar, müstəntiqlər və təhqiqatçılar;*

*– Dövlət Miqrasiya Xidmətinin rəisi, onun müavinləri, Xidmətin Miqrasiya Nəzarəti Baş İdarəsinin rəisi, onun müavini, həmin Baş İdarənin idarələrinin rəisləri, onların müavinləri, müvafiq şöbələrinin (bölmələrinin) rəisləri, baş inspektorları;*

*– hərbi qulluqçu və toplanışa çağırılmış hərbi vəzifəli hesab edilməyən şəxslər barəsində Dövlət Sərhəd Xidmətinin rəisi, onun birinci müavini, Sərhəd Qoşunlarının Komandanı, Əlahiddə Sərhəd Diviziyasının komandiri, Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin rəisi, Sərhəd Nəzarətinin rəisi, Xidmətin Aparatının müvafiq idarəsinin rəisi, onun müavini, həmin idarənin müstəntiqləri və təhqiqatçıları;*

*– Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, onun müavini, Xidmətin müvafiq strukturlarının rəhbərləri (rəisləri);*

*– Xüsusi Dövlət Mühafizə Xidmətinin rəisi, onun müavinləri, Feldyeger Rabitəsi İdarəsinin rəisi, onun müavini;*

*– hərbi qulluqçu və toplanışa çağırılmış hərbi vəzifəli hesab edilməyən şəxslər barəsində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, onun müavinləri;*

*– Milli Televiziya və Radio Şurasının sədri;*

*– Maliyyə Bazarlarına Nəzarət Palatasının Direktorlar Şurasının sədri, sədrin müavini, Baş icraçı direktor və onun müavinləri, Direktorlar Şurasının üzvləri, İdarə Heyətinin üzvləri (departament direktorları), idarə rəisləri;*

*– Mərkəzi Bankın sədri, onun müavinləri, baş direktorları tərəfindən çıxarılmış qərar və qərardadlardan protestləri Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini".*

**1.9.** 4.2.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

**"4.2.2.** *hərbi qulluqçular və toplanışa çağırılmış hərbi vəzifəlilər barəsində Dövlət Sərhəd Xidmətinin rəisi, onun birinci müavini, Sərhəd Qoşunlarının Komandanı, Əlahiddə Sərhəd Diviziyasının komandiri, Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin rəisi, Sərhəd Nəzarətinin rəisi, Xidmətin Aparatının müvafiq idarəsinin rəisi, onun müavini, həmin idarənin müstəntiqləri və təhqiqatçıları; Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, onun müavinləri tərəfindən çıxarılmış qərar və qərardadlardan protestləri Azərbaycan Respublikasının Hərbi prokuroru".*

**1.10.** 4.2.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

**"4.2.3.** *Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri və onun müavinləri, Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin və İctimai Təhlükəsizlik İdarəsinin rəisləri; Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, onun müavini, Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Aparatının Qeydiyyat və notariat şöbəsinin rəisi; Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar naziri və onun müavinləri, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti İdarəsinin rəisi; Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin rəhbəri, onun müavini; Naxçıvan Muxtar Respublikasının vergilər naziri, onun müavini, Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyi Aparatının rəhbəri, Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin Naxçıvan Şəhər Vergilər İdarəsinin rəisi, onun müavini, Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin rayon vergilər şöbələrinin rəisləri, onların müavinləri; Naxçıvan Muxtar Respublikasının Dövlət Gömrük Komitəsinin sədri, onun müavini; Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi, onun müavini, həmin Xidmətin müvafiq şöbələrinin (bölmələrinin) rəisləri, baş inspektorları; Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi və onun müavini; hərbi qulluqçu və toplanışa çağırılmış hərbi vəzifəli hesab edilməyən şəxslər barəsində Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, onun müavini, Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrinin rəisləri, onların müavinləri; Naxçıvan Muxtar*

*Respublikası Televiziya və Radio Şurasının sədri; Maliyyə Bazarlarına Nəzarət Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinin rəisi; Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri, onun müavini tərəfindən çıxarılmış qərar və qərardadlardan protestləri Naxçıvan Muxtar Respublikasının prokuroru.*

*Hərbi qulluqçular və toplanışa çağırılmış hərbi vəzifəlilər barəsində Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, onun müavini, Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrinin rəisləri, onların müavinləri tərəfindən çıxarılmış qərar və qərardadlardan protestləri Naxçıvan Muxtar Respublikasının Hərbi prokuroru".*

**1.11.** 4.2.5-ci bənd aşağıdakı redaksiyada verilsin:

**"4.2.5.** *Yerli icra hakimiyyəti orqanları, habelə mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin yerli bölmələrinin rəhbərləri, onların müavinləri; mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələrinin rəhbərləri, onların müavinləri, mərkəzi icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanların rəhbərləri, onların müavinləri, həmin orqanların yerli bölmələrinin rəhbərləri, onların müavinləri, o cümlədən:*

*– Daxili İşlər Nazirliyinin şəhər, rayon polis idarələrinin (şöbələrinin) və ərazi polis bölmələrinin rəisləri, onların müavinləri, nəqliyyatda polis idarələrinin, şöbələrinin, xətt bölmələrinin, məntəqələrinin rəisləri, onların müavinləri; şəhər, rayon polis idarələrinin (şöbələrinin) və ərazi polis bölmələrinin pasport, qeydiyyat və şəxsiyyət vəsiqəsi şöbələrinin, bölmələrinin, qruplarının rəisləri, baş inspektorları və inspektorları; ərazi polis orqanlarının dövlət yol polisi idarələrinin, şöbələrinin rəisləri, onların müavinləri, dövlət yol polisi bölmələrinin rəisləri, dövlət yol polisi qruplarının rəhbərləri; dövlət yol polisinin yol hərəkətinə nəzarət fəaliyyətinə cəlb edilmiş Baş Dövlət Yol Polisi İdarəsinin, dövlət yol polisi idarələrinin şöbə rəisləri və onların müavinləri, bölmə rəisləri, xüsusilə mühüm tapşırıqlar üzrə baş inspektorları və inspektorları, baş dövlət avtomobil müfəttişləri və dövlət avtomobil müfəttişləri, böyük mühəndisləri və mühəndisləri, ərazi polis orqanlarının dövlət yol polisi şöbələrinin, bölmələrinin, qruplarının baş dövlət avtomobil müfəttişləri və dövlət avtomobil müfəttişləri, inzibati təcrübə üzrə baş inspektorları və inspektorları, böyük mühəndisləri və mühəndisləri, axtarış üzrə baş inspektorları və inspektorları, yol nəqliyyat hadisəsi üzrə baş inspektorları və inspektorları, təbliğat inspektorları, alay komandirləri və onların müavinləri, qərargah rəisləri, bölük komandirləri və onların müavinləri, tağım komandirləri, yol patrul xidməti baş inspektorları və inspektorları; polis sahə rəisləri;*

*– Ədliyyə Nazirliyinin regional qurumlarının rəisləri, rayon (şəhər) qeydiyyat şöbələrinin rəisləri;*

*– Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidmətinin ərazi və regional dövlət yanğın nəzarəti idarələrinin rəisləri;*

*– Vergilər Nazirliyinin ərazi vergilər departamentlərinin (idarələrinin) baş direktorları (direktorları), onların müavinləri, rayon vergilər şöbələrinin direktorları, onların müavinləri;*

*– Dövlət Miqrasiya Xidmətinin regional miqrasiya idarələrinin rəisləri, onların müavinləri, həmin idarələrin müvafiq şöbələrinin (bölmələrinin) rəisləri, baş inspektorları;*

*– hərbi qulluqçu və toplanışa çağırılmış hərbi vəzifəli hesab edilməyən şəxslər barəsində Dövlət Sərhəd Xidmətinin sərhəd dəstələrinin rəisləri;*

*– hərbi qulluqçu və toplanışa çağırılmış hərbi vəzifəli hesab edilməyən şəxslər barəsində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrinin rəisləri, onların müavinləri tərəfindən çıxarılmış qərar və qərardadlardan protestləri müvafiq rayon (şəhər) prokurorları".*

**1.12.** 4.2.6-cı bənd aşağıdakı redaksiyada verilsin:

**"4.2.6.** *hərbi qulluqçular və toplanışa çağırılmış hərbi vəzifəlilər barəsində Dövlət Sərhəd Xidmətinin sərhəd dəstələrinin rəisləri; Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrinin rəisləri, onların müavinləri tərəfindən çıxarılmış qərar və qərardadlardan protestləri ərazi hərbi prokurorları verirlər".*

**1.13.** 4.2.7-ci yarımbənd – 4.4-cü bənd müvafiq olaraq 4.3 – 4.5-ci bəndlər hesab edilsin.

**1.14.** 7-ci bəndin 2-ci abzasında *", təşkilatlarından"* sözü *"(qurumlarından)"* sözü ilə əvəz edilsin.

**1.15.** 8-ci bəndə aşağıdakı redaksiyada ikinci abzas əlavə edilsin:

*"Bu səbəbdən qeyd edilən məlumatlar prokurorluq orqanlarında istifadə edilən "Statistik hesabatların hazırlanmasına dair" kompüter proqramında yerləşdirilmiş "Forma İnzibati" (əlavə olunur) başlıqlı elektron cədvəldə və qurum rəhbərinin imzası ilə təsdiq edilmiş kağız daşıyıcılarda hər ilin yanvar ayının 5-dək Baş Prokurorluğun Təşkilat-analitik idarəsinə təqdim edilsin.".*

**1.16.** 1 №-li əlavədə *", təşkilatlarından"* sözü *"(qurumlarından)"* sözü ilə əvəz edilsin.

**2.** Əmr elan və icra olunması üçün Baş Prokurorluğun struktur qurumlarına, habelə bütün tabe prokurorluqlara göndərilsin, "Azərbaycan Prokurorluğu" jurnalında dərc edilsin və "Azərbaycan Respublikası Baş Prokurorluğunun normativ hüquqi aktları" informasiya sisteminə daxil edilsin.

**Zakir Qaralov**
Azərbaycan Respublikasının Baş prokuroru
I dərəcəli dövlət ədliyyə müşaviri

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Cinayət Məcəlləsini "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 765-VQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12 (I kitab), maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 5, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445; 2016, № 4, maddələr 634, 636, 638, 653, № 5, maddə 845, № 6, maddələr 993, 1001, № 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, № 2, maddə 161, № 3, maddə 330, № 5, maddələr 694, 697, 700, 702, 733, № 7, maddələr 1268, 1271, 1293, № 12, (I kitab), maddə 2231; Azərbaycan Respublikasının 2017-ci il 6 mart tarixli 1037-VQD nömrəli Qanunu) 213-cü maddəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** Adında "Vergi" sözü "Vergiləri, işsizlikdən sığorta və ya məcburi dövlət sosial sığorta haqlarını" sözləri ilə əvəz edilsin.

**2.** 213.1-ci maddəyə "vergiləri" sözündən sonra ", işsizlikdən sığorta" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 24 aprel 2018-ci il
№ 1074-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsini "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 765-VQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2, I kitab, maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12, I kitab, maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19; Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 969-VQD nömrəli, 2018-ci il 1 fevral tarixli 981-VQD, 984-VQD nömrəli, 13 fevral tarixli 1002-VQD nömrəli, 6 mart tarixli 1035-VQD və 1038-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 410-cu maddə üzrə:

**1.1.** adında və 410.1-ci maddədə (birinci halda) "Dövlət büdcəsindən" sözlərindən sonra "və büdcədənkənar dövlət fondlarından" sözləri əlavə edilsin;

**1.2.** 410.1-ci (ikinci və üçüncü hallarda), 410.2-ci

və 410.3-cü maddələrdə "dövlət büdcəsindən" sözlərindən sonra "və büdcədənkənar dövlət fondlarından" sözləri əlavə edilsin.

**2.** 460-cı maddənin adına və dispozisiyasına "və ya məcburi dövlət sosial sığorta haqlarını" sözlərindən əvvəl ", işsizlikdən sığorta" sözləri əlavə edilsin.

**3.** Aşağıdakı məzmunda 477-1-ci maddə əlavə edilsin:

**"Maddə 477-1. İşsizlikdən sığorta haqqında qanunvericiliyin pozulması**

**477-1.1.** Sığortaedən tərəfindən işsizlikdən sığorta haqqında qanunvericiliyin pozulmasına, yəni:

**477-1.1.1.** sığortaedən kimi sığortaçıda qeydiyyata durmamasına;

**477-1.1.2.** işçiləri işsizlikdən sığorta etdirməməsinə;

**477-1.1.3.** "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada, məbləğdə və vaxtda sığorta haqqını sığortaçıya ödəməməsinə;

**477-1.1.4.** Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 77-ci maddəsinin birinci hissəsinə uyğun olaraq işçiyə xəbərdarlıq edildiyi gündən 5 gün müddətində həmin işçinin peşəsi, ixtisası və əməkhaqqı barədə sığortaçıya rəsmi məlumat verməməsinə;

**477-1.1.5.** sığorta haqqının hesablanmasına və ödənilməsinə, sığorta ödənişinin təyin edilməsinə əsas olan məlumatları sığortaçıya (elektron və ya kağız daşıyıcıda) təqdim etməməsinə;

**477-1.1.6.** Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə müəyyən edilmiş hallarda özünün yenidən təşkil olunması və ya ləğv edilməsi barədə sığortaçıya məlumat verməməsinə;

**477-1.1.7.** sığorta haqqının hesablanmasının və köçürülməsinin uçotunu düzgün aparmamasına və bu barədə sığortaçıya hesabatı təqdim etməməsinə, sığorta ödənişi üçün əsas olan sənədlərin və məlumatların qorunub saxlanılmasını təmin etməməsinə görə –

fiziki şəxslər yüz manat məbləğində, vəzifəli şəxslər iki yüz manat məbləğində, hüquqi şəxslər dörd yüz manat məbləğində cərimə edilir.

**477-1.2.** Sığortaolunan tərəfindən sığorta ödənişinin miqdarının dəyişməsinə və ya dayandırılmasına səbəb olan "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş hallar barədə 10 gündən gec olmayaraq sığortaçıya məlumat verilməməsinə görə –

inzibati xəta nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) bir misli miqdarında cərimə edilir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 24 aprel 2018-ci il
№ 1075-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikasının 2017-ci il 14 fevral tarixli 530-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2, I kitab, maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12, I kitab, maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19; Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 969-VQD nömrəli, 2018-ci il 1 fevral tarixli 981-VQD, 984-VQD nömrəli, 13 fevral tarixli 1002-VQD nömrəli, 6 mart tarixli 1035-VQD və 1038-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 33.1.6-cı maddəyə "fövqəladə şəraitdə" sözlərindən sonra ", yaxud hərbi vəziyyət dövründə" sözləri əlavə edilsin.

**2.** 43.1-ci maddəyə "517-1," rəqəmlərindən sonra "517-2," rəqəmləri əlavə edilsin.

**3.** Aşağıdakı məzmunda 88.1.5-2-ci maddə əlavə edilsin:

**"88.1.5-2.** hərbi idarəetmə orqanlarının vəzifəli şəxsləri – hərbi vəziyyət rejiminin tələbləri pozulduqda;".

**4.** 89.3-cü və 89.6-cı maddələrə "Fövqəladə" sözündən sonra "və ya hərbi" sözləri əlavə edilsin.

**5.** Aşağıdakı məzmunda 517-2-ci maddə əlavə edilsin:

**"Maddə 517-2. Hərbi vəziyyət rejiminin tələblərinin pozulması**

**517-2.1.** Xüsusi icazə vərəqəsi və (və ya) şəxsiyyəti təsdiq edən sənəd olmadan komendant saatı vaxtında küçələrdə və ya digər ictimai yerlərdə olmağa görə –

xəbərdarlıq edilir və ya əlli manat məbləğində cərimə edilir.

**517-2.2.** Nəqliyyat vasitələrinin hərəkətinə qoyulmuş məhdudiyyətin pozulmasına görə –

fiziki şəxslərə xəbərdarlıq edilir və ya onlar otuz manatdan əlli manatadək məbləğdə, vəzifəli şəxslər yüz manatdan yüz əlli manatadək məbləğdə, hüquqi şəxslər min manatdan min beş yüz manatadək məbləğdə cərimə edilir.

**517-2.3.** Rabitədən istifadə üçün müəyyən edilmiş xüsusi qaydaların pozulmasına görə –

fiziki şəxslərə xəbərdarlıq edilir və ya onlar otuz manatdan altmış manatadək məbləğdə, vəzifəli şəxslər yüz manatdan iki yüz manatadək məbləğdə, hüquqi şəxslər min manatdan iki min manatadək məbləğdə cərimə edilir.

**517-2.4.** Gündəlik tələbat mallarının, o cümlədən ərzaq və sənaye məhsullarının əldə olunmasına (satışına) tətbiq edilmiş xüsusi qaydaların pozulmasına görə –

fiziki şəxslərə xəbərdarlıq edilir və ya onlar otuz manatdan altmış manatadək məbləğdə, vəzifəli şəxslər iki yüz manatdan üç yüz manatadək məbləğdə, hüquqi şəxslər min beş yüz manatdan iki min beş yüz manatadək məbləğdə cərimə edilir.

**517-2.5.** Karantin tələblərinin, icbari sanitariya-gigiyena, epidemiya əleyhinə və baytarlıq tədbirlərinin pozulmasına görə –

fiziki şəxslər əlli manatdan doxsan manatadək məbləğdə, vəzifəli şəxslər üç yüz manatdan beş yüz manatadək məbləğdə, hüquqi şəxslər iki min beş yüz manatdan üç min beş yüz manatadək məbləğdə cərimə edilir.

**517-2.6.** Hərbi vəziyyətin elan olunduğu ərazidə (ərazilərdə) tətbiq edilmiş xüsusi giriş-çıxış rejiminin, habelə yaşayış və ya olduğu yeri seçmək hüququna qoyulmuş məhdudiyyətin pozulmasına görə –

yüz manat məbləğində cərimə edilir.

**517-2.7.** Şəxslərin xüsusi icazə vərəqələrinin və şəxsiyyətini təsdiq edən sənədlərinin yoxlanılmasına, qanunda nəzərdə tutulmuş əsaslarla onların şəxsi əşyalarına, mənzillərinə və nəqliyyat vasitələrinə baxış keçirilməsinə maneçilik törədilməsinə görə –

fiziki şəxslər yüz manat məbləğində, vəzifəli şəxslər iki yüz manat məbləğində cərimə edilir.

**517-2.8.** Hərbi vəziyyət rejimini pozmaqda şübhə edilən mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq idarə, müəssisə və təşkilatlara məxsus bina və otaqların, nəqliyyat vasitələrinin yoxlanılmasına maneçilik törədilməsinə görə –

fiziki şəxslər yüz manat məbləğində, vəzifəli şəxslər üç yüz manatdan beş yüz manatadək məbləğdə, hüquqi şəxslər iki min manatdan üç min manatadək məbləğdə cərimə edilir.

**517-2.9.** Mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, idarə, müəssisə və təşkilatların keçirildiyi xüsusi iş rejiminə əməl olunmamasına görə –

vəzifəli şəxslər üç yüz əlli manatdan beş yüz əlli manatadək məbləğdə, hüquqi şəxslər iki min beş yüz manatdan üç min beş yüz manatadək məbləğdə cərimə edilir.

**517-2.10.** Azərbaycan Respublikası vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına gəlməsi və Azərbaycan Respublikasından getməsi üçün tətbiq edilmiş xüsusi qaydaların pozulmasına görə –

yüz əlli manatdan üç yüz manatadək məbləğdə cərimə edilir.

**517-2.11.** Müdafiə ehtiyaclarının yerinə yetirilməsini təmin etmək məqsədi ilə mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, idarə, müəssisə və təşkilatların güc və əmək ehtiyatlarının (resurslarının) səfərbər olunmasına, səfərbərlik planlarına (tapşırıqlarına) uyğun olaraq onların istehsalat fəaliyyətinin növünün və ya iş rejiminin dəyişdirilməsinə maneçilik törədilməsinə görə –

fiziki şəxslər iki yüz manatdan üç yüz əlli manatadək məbləğdə cərimə edilir və ya işin halları və pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla on beş günədək müddətə inzibati həbs tətbiq olunur, vəzifəli şəxslər beş yüz manatdan yeddi yüz manatadək məbləğdə, hüquqi şəxslər dörd min manatdan altı min manatadək məbləğdə cərimə edilir.

**517-2.12.** Mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, idarə, müəssisə və təşkilatların fəaliyyətinin tətil və ya digər üsullarla dayandırılmasının qadağan edilməsi ilə bağlı tələbin pozulmasına görə –

fiziki şəxslər iki yüz manatdan üç yüz əlli manatadək məbləğdə cərimə edilir və ya işin halları və pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla on beş günədək müddətə inzibati həbs tətbiq olunur, vəzifəli şəxslər beş yüz manatdan yeddi yüz manatadək məbləğdə, hüquqi şəxslər üç min manatdan dörd min beş yüz manatadək məbləğdə cərimə edilir.

**517-2.13.** Yığıncaqlar, mitinqlər, küçə yürüşləri, nümayişlər və piketlərin, habelə digər kütləvi tədbirlərin keçirilməsi ilə bağlı qoyulmuş qadağa və ya məhdudiyyətə əməl olunmamasına görə –

fiziki şəxslər üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə edilir və ya işin halları və pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla otuz günədək müddətə inzibati həbs tətbiq olunur, vəzifəli şəxslər altı yüz manatdan doqquz yüz manatadək məbləğdə cərimə edilir, hüquqi şəxslər dörd min manatdan altı min manatadək məbləğdə cərimə edilir.

**517-2.14.** Silah, döyüş sursatı, xüsusi vasitələr, zəhərli və ya partlayıcı maddələrin satışı ilə bağlı qoyulmuş məhdudiyyətə və ya qadağaya, yaxud narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları və ya tərkibində güclü təsirə malik olan maddələr olan dərman preparatlarının, spirtli içkilərin dövriyyəsi üzrə müəyyən edilmiş xüsusi rejimə əməl olunmamasına, habelə fiziki şəxslərdən odlu və soyuq silahın, döyüş sursatının, zəhərləyici və ya partlayıcı maddələrin, hüquqi şəxslərdən isə həmçinin təlim hərbi texnikasının və radioaktiv maddələrin müvəqqəti götürülməsinə maneçilik törədilməsinə görə –

fiziki şəxslər dörd yüz manatdan altı yüz manatadək məbləğdə cərimə edilir və ya işin halları və pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla iki ayadək müddətə inzibati həbs tətbiq olunur, vəzifəli şəxslər yeddi yüz manatdan min manatadək məbləğdə, hüquqi şəxslər dörd min beş yüz manatdan altı min beş yüz manatadək məbləğdə cərimə edilir.

**517-2.15.** Hərbi vəziyyətin elan olunduğu ərazidə (ərazilərdə) tətbiq edilmiş kütləvi informasiya vasitələrinin xüsusi fəaliyyət rejiminə əməl edilməməsinə görə –

vəzifəli şəxslər min manatdan min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər altı min manatdan səkkiz min manatadək məbləğdə cərimə edilir.

**517-2.16.** Hərbi vəziyyət dövründə stasionar və ya müvəqqəti yaşayış yerlərində məskunlaşdırılması şərtilə əhalinin, təsərrüfat və sosial təyinatlı obyektlərin, maddi və mədəni sərvətlərin təhlükəsiz rayonlara təxliyə olunmasına (köçürülməsinə) maneçilik törədilməsinə görə –

fiziki şəxslər beş yüz manatdan səkkiz yüz manatadək məbləğdə cərimə edilir və ya işin halları və pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla bir aydan iki ayadək müddətə inzibati həbs tətbiq olunur, vəzifəli şəxslər min manatdan min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər altı min manatdan səkkiz min manatadək məbləğdə cərimə edilir.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 1 may 2018-ci il
№ 1094-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, “Hərbi vəziyyət haqqında” Azərbaycan Respublikasının 2017-ci il 14 fevral tarixli 530-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12 (I kitab), maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 5, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445; 2016, № 4, maddələr 634, 636, 638, 653, № 5, maddə 845, № 6, maddələr 993, 1001, № 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, № 2, maddə 161, № 3, maddə 330, № 5, maddələr 694, 697, 700, 702, 733, № 7, maddələr 1268, 1271, 1293, № 12, (I kitab), maddə 2231; Azərbaycan Respublikasının 2017-ci il 6 mart tarixli 1037-VQD nömrəli Qanunu) 61.1.11-ci maddəsinə “fövqəladə” sözündən sonra “və ya hərbi” sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 1 may 2018-ci il
№ 1095-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 8-ci və 16-cı bəndlərini rəhbər tutaraq, “Hərbi vəziyyət haqqında” Azərbaycan Respublikasının 2017-ci il 14 fevral tarixli 530-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikasının Əmək Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 213; 2001, № 3, maddə 143, № 6, maddə 362, № 11, maddələr 672, 679, № 12, maddə 731; 2002, № 1, maddə 2, № 5, maddə 241, № 6, maddə 328; 2003, № 1, maddələr 9, 23; 2004, № 1,

maddə 10, № 2, maddə 57, № 3, maddə 133, № 6, maddə 413, № 7, maddə 505, № 9, maddə 672, № 12, maddə 981; 2005, № 3, maddə 151, № 4, maddə 278, № 7, maddə 560, № 10, maddə 874, № 11, maddə 1001, № 12, maddə 1094; 2006, № 3, maddələr 220, 222, № 5, maddə 385, № 11, maddə 923, № 12, maddələr 1004, 1025, 1030; 2007, № 5, maddələr 401, 437, № 6, maddə 560, № 8, maddə 756, № 11, maddələr 1049, 1053; 2008, № 3, maddə 156, № 7, maddələr 600, 602, № 10, maddə 887, № 11, maddə 960; 2009, № 2, maddə 48, № 5, maddə 294, № 6, maddə 399, № 12, maddələr 949, 969; 2010, № 2, maddələr 70, 75, № 4, maddə 275; 2011, № 1, maddə 11, № 2, maddələr 70, 71, № 6, maddə 464, № 7, maddə 598; 2012, № 11, maddə 1054; 2013, № 2, maddələr 89, 101, № 11, maddə 1268; 2014, № 2, maddə 92, № 10, maddə 1162, № 11, maddə 1339, № 12, maddə 1527; 2015, № 2, maddə 97, № 3, maddə 250, № 6, maddə 680; 2016, № 2 (I kitab), maddələr 190, 201, № 5, maddə 847, № 11, maddə 1767; 2017, № 6, maddələr 1031, 1048; № 12 (I kitab), maddələr 2187, 2189; 2018, № 1, maddə 13) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 32-ci maddənin 4-cü hissəsinə "fəaliyyətinə xitam verilməsi" sözlərindən sonra "və ya fəaliyyətinin dayandırılması" sözləri əlavə edilsin.

**2.** 99-cu maddənin 2-ci hissəsinə "habelə" sözündən əvvəl "hərbi vəziyyət rejiminin təmin edilməsi," sözləri əlavə edilsin.

**3.** 134-cü maddəyə aşağıdakı məzmunda 6-cı hissə əlavə edilsin:

**"6.** Hərbi vəziyyət dövründə səfərbərlik planlarına (tapşırıqlarına) uyğun olaraq əmək məzuniyyəti başqa vaxta keçirilə bilər.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 1 may 2018-ci il
№ 1096-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 8-ci və 10-cu bəndlərini rəhbər tutaraq, "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikasının 2017-ci il 14 fevral tarixli 530-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

"Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 11, maddə 387, № 12, maddə 454; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 3, maddə 226; 2001, № 11, maddə 683; 2002, № 8, maddə 463; 2004, № 2, maddə 57, № 5, maddə 321, № 8, maddə 598; 2005, № 4, maddə 278, № 6, maddə 464; 2006, № 3, maddə 225; 2007, № 11, maddələr 1049, 1053; 2010, № 4, maddə 276; 2012, № 5, maddə 414; 2014, № 11, maddə 1332; 2015, № 4, maddə 366; 2017, № 5, maddə 684) aşağıdakı məzmunda 16.4-1-ci maddə əlavə edilsin:

"16.4-1. Hərbi və ya fövqəladə vəziyyətin elan edilməsinə səbəb olmuş halların aradan qaldırılmasına və müəyyən edilmiş tədbirlərin həyata keçirilməsinə mane olan siyasi partiyanın fəaliyyəti hərbi və ya fövqəladə vəziyyət başa çatanadək dayandırıla bilər.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 1 may 2018-ci il
№ 1099-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979; № 12, maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19; Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 969-VQD nömrəli, 2018-ci il 1 fevral tarixli 981-VQD və 984-VQD nömrəli, 13 fevral tarixli

1002-VQD nömrəli, 6 mart tarixli 1035-VQD və 1038-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 64.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"64.2.** Qanunlarla, digər hüquqi aktlarla və ya hüquqi şəxsin təsis sənədləri ilə müəyyən edilmiş səlahiyyətli şəxslər, yaxud müvafiq qaydada səlahiyyət verilmiş, əsas iş yeri həmin hüquqi şəxs olan işçilər və ya vəkillər hüquqi şəxsin nümayəndələri hesab edilirlər.".

**2.** 65.1-ci maddədə "icraata" sözü "icraatda" sözü ilə, "buraxılır" sözü "iştirak edə bilər" sözləri ilə əvəz edilsin.

**3.** Aşağıdakı məzmunda 65.1-1-ci maddə əlavə edilsin:

**"65.1-1.** Məhkəmənin baxdığı inzibati xəta haqqında iş üzrə icraata fiziki şəxsin müdafiəçisi qismində yalnız vəkil, zərər çəkmiş fiziki şəxsin nümayəndəsi qismində isə onun yaxın qohumu və ya vəkil buraxılır.".

**4.** 65.2-ci maddədə "Müdafiəçi" sözü "Bu Məcəllənin 65.1-1-ci maddəsində nəzərdə tutulan hallar istisna olmaqla, müdafiəçi" sözləri ilə əvəz edilsin.

**5.** 67-ci maddənin "Qeyd" hissəsi aşağıdakı redaksiyada verilsin:

**"Qeyd:** Bu Məcəllədə "qohum" dedikdə, babaya və nənəyə qədər əcdadları ümumi olan şəxslər, ər-arvadın yaxın qohumları, babanın, nənənin, valideynin, övladlığa götürənin, doğma və ögey qardaş və bacının, uşağın, övladlığa götürülənin və ya nəvənin əri (arvadı) və ya onların yaxın qohumları nəzərdə tutulur. Yaxın qohumlara babalar, nənələr, valideynlər, övladlığa götürənlər, doğma və ögey qardaşlar və bacılar, ər-arvad, uşaqlar, övladlığa götürülənlər, nəvələr aiddirlər.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 1 may 2018-ci il
№ 1110-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (II kitab), maddə 585; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddə 233, № 8, maddə 463; 2003, № 6, maddə 276; 2004, № 5, maddə 321, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761, № 11, maddə 890; 2005, № 1, maddə 4, № 4, maddə 278, № 6, maddə 462, № 8, maddə 686, № 10, maddə 874, № 12, maddə 1079; 2006, № 1, maddə 3, № 2, maddə 64, № 5, maddə 390, № 10, maddə 847, № 11, maddə 929, № 12, maddə 1032; 2007, № 2, maddələr 65, 68, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddə 1221; 2008, № 6, maddə 462, № 7, maddələr 606, 607, № 12, maddələr 1045, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 966; 2010, № 3, maddələr 171, 173, 178, № 7, maddə 593, № 12, maddə 1058; 2011, № 6, maddə 480, № 7, maddələr 589, 599; 2012, № 7, maddə 674, № 11, maddə 1062, № 12, maddə 1215; 2013, № 2, maddə 77, № 6, maddələr 616, 626, № 7, maddə 786, № 11, maddə 1265, № 12, maddə 1493; 2014, № 2, maddələr 90, 102, № 4, maddələr 328, 344, № 6, maddə 600, № 11, maddələr 1354, 1362; 2015, № 4, maddə 342, № 5, maddə 511, № 11, maddələr 1270, 1288; 2016, № 2 (II kitab), maddə 218, № 10, maddə 1607, № 12, maddələr 2020, 2031, 2034, 2039; 2017, № 5, maddə 751, № 12 (I kitab), maddələr 2232 və 2267) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 7.0.31-ci maddədə "mülki iddiaçının və ya mülki cavabdehin nümayəndə qismində dəvət etdiyi digər şəxs və ya zərər çəkmiş şəxsin qohumudur" sözləri "həmçinin zərər çəkmiş fiziki şəxsin, yaxud mülki iddiaçı və ya mülki cavabdeh olan fiziki şəxsin yaxın qohumu, habelə zərər çəkmiş hüquqi şəxsin, yaxud mülki iddiaçı və ya mülki cavabdeh olan hüquqi şəxsin qanunlarla, digər hüquqi aktlarla və ya hüquqi şəxsin təsis sənədləri ilə müəyyən edilmiş səlahiyyətli şəxsləri, yaxud müvafiq qaydada səlahiyyət verilmiş və əsas iş yeri həmin hüquqi şəxs olan işçiləridir" sözləri ilə əvəz edilsin.

**2.** 102.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"102.2.** Cinayət prosesində zərər çəkmiş şəxsin, mülki iddiaçının və ya mülki cavabdehin nümayəndəsi qismində aşağıdakı şəxslər iştirak edə bilərlər:

**102.2.1.** zərər çəkmiş şəxsin, mülki iddiaçının və ya mülki cavabdehin qanuni mənafeyini təmsil etmək üçün notariat qaydasında təsdiq edilmiş etibarnaməsi olan vəkil;

**102.2.2.** zərər çəkmiş fiziki şəxsin, yaxud mülki iddiaçı və ya mülki cavabdeh olan fiziki şəxsin qanuni mənafeyini təmsil etmək üçün notariat qaydasında təsdiq edilmiş etibarnaməsi olan yaxın qohumu;

**102.2.3.** zərər çəkmiş hüquqi şəxsin, yaxud mülki iddiaçı və ya mülki cavabdeh olan hüquqi şəxsin qanunlarla, digər hüquqi aktlarla və ya hüquqi şəxsin təsis sənədləri ilə müəyyən edilmiş səlahiyyətli şəxsləri, yaxud müvafiq qaydada səlahiyyət verilmiş və əsas iş yeri həmin hüquqi şəxs olan işçiləri.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 1 may 2018-ci il
№ 1111-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 17, № 5, maddə 323; 2002, № 5, maddə 236; 2003, № 1, maddələr 23, 24, № 6, maddə 279; 2004, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761; 2005, № 4, maddələr 277, 278; 2006, № 2, maddə 64, № 12, maddə 1006; 2007, № 1, maddələr 3, 4, № 2, maddə 68, № 5, maddə 439, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756; 2008, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1046; 2009, № 6, maddə 402; 2010, № 2, maddə 75, № 4, maddə 276; 2011, № 6, maddələr 471, 476, № 7, maddələr 583, 619, № 12, maddələr 1096, 1105; 2012, № 5, maddə 411, № 6, maddə 511; 2013, № 5, maddə 472, № 6, maddə 625, № 11, maddələr 1266, 1307; 2015, № 6, maddə 677, № 12, maddə 1435; 2016, № 5, maddə 836, № 6, maddə 1016, № 11, maddələr 1761, 1763, № 12, maddə 2047; 2017, № 2, maddə 155, № 4, maddə 523, № 5, maddələr 706, 750, № 11, maddələr 1935, 1975) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 19-cu maddənin "Qeyd" hissəsinin birinci cümləsində ikinci halda "götürənin" sözü "götürülənin" sözü ilə, ikinci cümləsində ikinci halda "götürənlər" sözü "götürülənlər" sözü ilə əvəz edilsin.

**2.** 402-ci maddədə "rədd edilməsi," sözlərindən sonra "apellyasiyanın qeyri-mümkün hesab edilməsi, kassasiya şikayətinin qaytarılması," sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 1 may 2018-ci il
№ 1113-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsini "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 20 oktyabr tarixli 816-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 586, № 12, maddə 835; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 237, 240, 244, № 8, maddə 463; 2004, № 6, maddə 399; 2005, № 4, maddə 278; 2006, № 11, maddə 929; 2007, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddələr 1197, 1218; 2008, № 6, maddə 462, № 7, maddələr 602, 607; 2010, № 3, maddə 171, № 4, maddə 275, № 7, maddə 591; 2011, № 2, maddələr 70, 71, № 6, maddə 473, № 7, maddə 600, № 12, maddə 1107; 2012, № 5, maddə 406, № 11, maddələr 1056, 1063; 2013, № 8, maddə 889; 2015, № 10, maddə 1107, № 11, maddə 1271; 2016, № 6, maddələr 981, 1000; 2017, № 6, maddə 1058, № 12 (I kitab), maddə 2268) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 26-cı maddəyə "islah işləri" sözlərindən sonra ", azadlığın məhdudlaşdırılması" sözləri əlavə edilsin.

**2.** 38.2-ci maddəyə "uyğun olaraq cəzanın" sözlərindən sonra "azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin.

**3.** 51.4-cü maddədə "qəsdən" sözü "qərəzli" sözü ilə əvəz edilsin, həmin maddəyə "hissəsinin" sözündən sonra "azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin.

**4.** 133-cü maddənin adında və mətnində "qazancından" sözü "aylıq pul təminatından" sözləri ilə əvəz edilsin.

**5.** 159.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"159.1.** Hökmlə məhkumun xüsusi və ya hərbi rütbədən, fəxri addan, yaxud dövlət təltifindən məhrum edilməsi haqqında məsələ nəzərdə tutulduğu halda, məhkumun müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilmiş ali xüsusi və ya ali hərbi rütbədən, yaxud fəxri addan və ya dövlət təltifindən məhrum edilməsi məsələsinə baxılması üçün bu barədə təqdimat və məhkəmə hökmünün surəti müvafiq icra hakimiyyəti orqanına, digər dövlət orqanı tərəfindən verilmiş xüsusi və ya hərbi rütbədən, yaxud təltifdən məhrum edilməsi hallarında isə bu barədə məhkəmə hökmünün surəti icra olunması üçün həmin orqana göndərilir.".

**6.** 172-ci maddə üzrə:

**6.1.** adı aşağıdakı redaksiyada verilsin:

"Hamilə qadınlar və azyaşlı uşaqları olan şəxslər tərəfindən cəzanın çəkilməsinin təxirə salınması";

**6.2.** 172.1-ci maddədə "və azyaşlı uşaqları" sözləri "və ya on dörd yaşına qədər uşağı" sözləri ilə və hər iki halda "səkkiz" sözü "on dörd" sözləri ilə əvəz edilsin;

**6.3.** 172.2-ci (hər iki halda) maddədə, 172.3-cü maddənin birinci cümləsində (hər iki halda), 172.4-cü maddənin birinci cümləsində (hər iki halda), 172.5-ci (hər iki halda), 172.6-cı (hər iki halda), 172.7-ci (hər iki halda) və 172.8-ci (hər iki halda) maddələrdə "səkkiz" sözü "on dörd" sözləri ilə əvəz edilsin.

**7.** 173-cü maddə üzrə:

**7.1.** adı aşağıdakı redaksiyada verilsin:

"Hamilə qadınların və azyaşlı uşaqları olan şəxslərin cəzanın çəkilməsinin təxirə salınması şərtlərinə riayət etməmələrinin nəticələri";

**7.2.** 173.1-ci (hər iki halda), 173.2-ci (hər iki halda) maddələrdə və 173.4-cü maddənin birinci cümləsində "səkkiz" sözü "on dörd" sözləri ilə əvəz edilsin.

**8.** 176.4-cü maddədə "səkkiz" sözü "on dörd" sözləri ilə əvəz edilsin.

**9.** 178.5-ci və 182.2-ci maddələrə "boyun qaçırdıqda" sözlərindən sonra ", o cümlədən elektron nəzarət vasitəsini gəzdirməkdən imtina etdikdə, onu zədələdikdə və ya digər üsulla yararsız vəziyyətə saldıqda, yaxud həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etmədikdə" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 1 may 2018-ci il
№ 1115-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsini "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 20 oktyabr tarixli 816-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (II kitab), maddə 585; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddə 233, № 8, maddə 463; 2003, № 6, maddə 276; 2004, № 5, maddə 321, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761, № 11, maddə 890; 2005, № 1, maddə 4, № 4, maddə 278, № 6, maddə 462, № 8, maddə 686, № 10, maddə 874, № 12, maddə 1079; 2006, № 1, maddə 3, № 2, maddə 64, № 5, maddə 390, № 10, maddə 847, № 11, maddə 929, № 12, maddə 1032; 2007, № 2, maddələr 65, 68, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddə 1221; 2008, № 6, maddə 462, № 7, maddələr 606, 607, № 12, maddələr 1045, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 966; 2010, № 3, maddələr 171, 173, 178, № 7, maddə 593, № 12, maddə 1058; 2011, № 6, maddə 480, № 7, maddələr 589, 599; 2012, № 7, maddə 674, № 11, maddə 1062, № 12, maddə 1215; 2013, № 2, maddə 77, № 6, maddələr 616, 626, № 7, maddə 786, № 11, maddə 1265, № 12, maddə 1493; 2014, № 2, maddələr 90, 102, № 4, maddələr 328, 344, № 6, maddə 600, № 11, maddələr 1354, 1362; 2015, № 4, maddə 342, № 5, maddə 511, № 11, maddələr 1270, 1288; 2016, № 2 (II kitab), maddə 218, № 10, maddə 1607, № 12, maddələr 2020, 2031, 2034, 2039; 2017, № 5, maddə 751, №12 (I kitab), maddələr 2232, 2267) 510.1-ci maddəsində "azyaşlı" sözü "on dörd yaşına qədər" sözləri ilə, hər iki halda "səkkiz" sözü "on dörd" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 1 may 2018-ci il
№ 1116-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 20-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 695; 2007,

№ 5, maddə 437, № 10, maddələr 932, 938; 2008, № 7, maddə 602; 2009, № 1, maddə 6; 2014, № 11, maddə 1374; 2015, №11, maddə 1273; 2016, № 6, maddə 992; 2017, № 1, maddə 8, № 11, maddə 1982) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 21-ci maddə üzrə:

**1.1.** Adı aşağıdakı redaksiyada verilsin:

"Narkotik vasitələrin, psixotrop maddələrin, habelə onların prekursorlarının və qanunsuz kultivasiya edilən tərkibində narkotik maddələr olan bitkilərin (onların hissələrinin) miqdarı";

**1.2.** 21.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

**"21.3.** Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin şəxsi istehlak miqdarından artıq və külli miqdarı, habelə onların prekursorlarının və qanunsuz kultivasiya edilən tərkibində narkotik maddələr olan bitkilərin (onların hissələrinin) xeyli və külli miqdarı müvafiq qanunlarla müəyyən edilir.".

**2.** 22.2-ci maddə ləğv edilsin.

**3.** 26.6-cı maddəyə "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi" sözlərindən sonra ", Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi" sözləri əlavə edilsin.

**4.** 27.2-ci maddədə "tibbi rəyi" sözləri "həkim-məsləhət komissiyasının rəyi" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 1 may 2018-ci il
№ 1118-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Narkoloji xidmət və nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 20-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Narkoloji xidmət və nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 577; 2002, № 5, maddə 240; 2003, № 12 (I kitab), maddə 697; 2007, № 6, maddə 560, № 10, maddə 938; 2008, № 7, maddə 602; 2012, № 4, maddə 281; 2014, № 11, maddə 1372; 2015, № 11, maddə 1272) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 4.0.8-ci maddəyə "maddələrin" sözündən sonra "və onların prekursorlarının" sözləri əlavə edilsin.

**2.** 18.0.3-cü maddəyə "maddələrin" sözündən sonra ", onların prekursorlarının" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 1 may 2018-ci il
№ 1119-VQD

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## "Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 8 fevral tarixli 278 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 20 noyabr tarixli 816-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

"Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 8 fevral tarixli 278 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 257; 2015, № 5, maddə 542; Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 29 mart tarixli 1897 nömrəli Fərmanı) 2-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

**"2.** Müəyyən edilsin ki:

**2.1.** Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 48.0.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

**2.2.** həmin Məcəllənin 93-1.3-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirirlər;

**2.3.** həmin Məcəllənin 168-1.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi həyata keçirir;

**2.4.** həmin Məcəllənin 195-2.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi həyata keçirir;

**2.5.** həmin Məcəllənin 318-2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti həyata keçirirlər;

**2.6.** həmin Məcəllənin 87.2-ci və 87.4-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 19 aprel 2018-ci il
№2

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## “Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2017-ci il 20 noyabr tarixli 816-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

“Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 610; 2001, № 10, maddə 646; 2002, № 5, maddələr 273, 279, № 7, maddə 413, № 8, maddə 478, № 9, maddə 563; 2003, № 8, maddə 434; 2004, № 1, maddə 19, № 5, maddə 345; 2005, № 1, maddə 18, № 4, maddə 299, № 9, maddə 799, № 12, maddə 1101; 2006, № 8, maddə 676, № 11, maddə 935; 2007, № 1, maddə 10, № 3, maddə 223, № 9, maddə 865, № 12, maddə 1247; 2008, № 1, maddələr 7, 10; 2009, № 7, maddələr 531, 534; 2010, № 7, maddə 615; 2011, № 11, maddə 999; 2013, № 5, maddə 509, № 6, maddə 649, № 8, maddə 900; 2014, № 4, maddə 348, № 6, maddə 625; 2015, № 12, maddələr 1450, 1461; 2016, № 4, maddələr 667, 669, № 10, maddə 1644; 2017, № 3, maddə 353, № 5, maddə 814, № 7, maddə 1321; Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 28 mart tarixli 1894 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 3-cü hissənin ikinci abzasında “180–189” rəqəmləri “180–183, 185–188” rəqəmləri ilə əvəz edilsin.

**2.** 4-cü hissədən “184-cü (Aldatma və ya etibardan sui-istifadə etmə yolu ilə əmlaka ziyan vurma),” sözləri çıxarılsın və həmin hissədə “oğurlama” sözü “talama” sözü ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 19 aprel 2018-ci il
№3

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 22 aprel tarixli 744 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Giriş-çıxış və qeydiyyat” idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2017-ci il 20 noyabr tarixli 816-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 22 aprel tarixli 744 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 4, maddə 258, № 12, maddə 1058; 2009, № 2, maddə 75, № 7, maddə 532, № 8, maddə 618, № 10, maddə 776; 2010, № 2, maddə 88, № 7, maddə 610, № 8,

maddə 717, № 9, maddə 770; 2011, № 4, maddə 282, № 10, maddə 891; 2012, № 8, maddə 787; 2013, № 9, maddə 1046, № 11, maddələr 1321, 1339; 2014, № 2, maddə 122, № 9, maddələr 1027, 1062; 2015, № 2, maddə 121, № 5, maddələr 521, 543, № 9, maddə 989; 2016, № 2 (II kitab), maddə 228, № 3, maddə 470, № 5, maddələr 869, 879, № 9, maddə 1464, № 10, maddə 1643, № 11, maddə 1816; 2017, № 2, maddələr 173, 185, № 5, maddələr 776, 817, № 8, maddə 1521; 2018, № 2, maddə 189; Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 29 mart tarixli 1899 nömrəli və 5 aprel tarixli 1911 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi haqqında Əsasnamə"nin 8.6.1.2-ci yarımbəndinə "ömürlük azadlıqdan məhrum etmə," sözlərindən sonra "azadlığın məhdudlaşdırılması," sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 19 aprel 2018-ci il
№5

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanını "Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 24 noyabr tarixli 1125 nömrəli Fərmanına uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

"Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəliFərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 610; 2001, № 10, maddə 646; 2002, № 5, maddələr 273, 279, № 7, maddə 413, № 8, maddə 478, № 9, maddə 563; 2003, № 8, maddə 434; 2004, № 1, maddə 19, № 5, maddə 345; 2005, № 1, maddə 18, № 4, maddə 299, № 9, maddə 799, № 12, maddə 1101; 2006, № 8, maddə 676, № 11, maddə 935; 2007, № 1, maddə 10, № 3, maddə 223, № 9, maddə 865, № 12, maddə 1247; 2008, № 1, maddələr 7, 10; 2009, № 7, maddələr 531, 534; 2010, № 7, maddə 615; 2011, № 11, maddə 999; 2013, № 5, maddə 509, № 6, maddə 649, № 8, maddə 900; 2014, № 4, maddə 348, № 6, maddə 625; 2015, № 12, maddələr 1450, 1461; 2016, № 4, maddələr 667, 669, № 10, maddə 1644; 2017, № 3, maddə 353, № 5, maddə 814, № 7, maddə 1321 Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 28 mart tarixli 1894 nömrəli və 19 aprel tarixli 3 nömrəli fərmanları) 2-ci hissəsinin altıncı abzasında "Nazirlər Kabineti yanında Dövlət Feldyeger Xidməti" sözləri "Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 11 iyun 2018-ci il
№ 129

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanını "Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi

ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 24 noyabr tarixli 1125 nömrəli Fərmanına uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

"Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12, maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 mart tarixli 1868, 7 mart tarixli 1878 nömrəli, 19 mart tarixli 1893 nömrəli, 29 mart tarixli 1895 nömrəli fərmanları) 4.13-cü və 5.62-ci bəndlərində "Nazirlər Kabineti yanında Dövlət Feldyeger Xidməti" sözləri "Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 11 iyun 2018-ci il
№ 135

## AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN

AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİNİN QƏRARI

### Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 177-ci maddəsinin "Qeyd" hissəsinin 1 və 3-cü bəndlərinin şərh edilməsinə dair

23 aprel 2018-ci il                                                    Bakı şəhəri

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Südabə Həsənova (məruzəçi-hakim), Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin,

maraqlı subyektlərin nümayəndələri Bakı Apellyasiya Məhkəməsinin hakimi Namiq Məmmədov və Azərbaycan Respublikası Milli Məclisi Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin məsləhətçisi Kəmalə Paşayevanın,

ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Cinayət hüququ və kriminologiya kafedrasının professoru, hüquq üzrə elmlər doktoru Şəhla Səmədovanın,

mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsi Cinayət Kollegiyasının sədri Şahin Yusifov, Azərbaycan Respublikası Baş Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin rəis müavini, Apellyasiya və kassasiya instansiyası məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbənin rəisi Mürvət Həsənov və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Təşkilat-İnspeksiya İdarəsinin şöbə rəisi Nahid Məmmədzadənin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə müvafiq olaraq xüsusi konstitusiya icraatı üzrə açıq məhkəmə iclasında Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 177-ci maddəsinin "Qeyd" hissəsinin 1 və 3-cü bəndlərinin həmin Məcəllənin 16 və 177.2.2-ci maddələri, Azərbaycan Respublikası Konstitusiyasının 60 və 71-ci maddələri, eləcə də "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 6 və 7-ci maddələri baxımından şərh olunmasına dair Bakı Apellyasiya Məhkəməsinin müraciəti əsasında konstitusiya işinə baxdı.

İş üzrə hakim S.Həsənovanın məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssislərin çıxışlarını, ekspertin rəyini dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Bakı Apellyasiya Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) müraciət edərək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra – Cinayət Məcəlləsi) 177-ci maddəsinin "Qeyd" hissəsinin 1 və 3-cü bəndlərinin həmin Məcəllənin 16 və 177.2.2-ci maddələri, Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra – Konstitusiya) 60 və 71-ci maddələri, eləcə də "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 6 və 7-ci maddələri baxımından şərh olunmasını xahiş etmişdir.

Müraciətdə göstərilmişdir ki, Bakı Apellyasiya Məhkəməsinə A.Həmzəyevin Cinayət Məcəlləsinin 177.2.2-ci maddəsi ilə məhkum olunmasına dair hökmdən verilmiş apellyasiya protestinə əsasən cinayət işi daxil olmuşdur. Həmin cinayət işi üzrə məhkəmə hökmü ilə müəyyən edilmişdir ki, təqsirləndirilən şəxs təkrarən oğurluq cinayətləri törətmişdir.

Belə ki, o, özgənin əmlakını gizli yolla talamaq məqsədi ilə 10 sentyabr 2015-ci il tarixində yaşayış binasının liftinin maşın bölməsindən bir ədəd əyləc dolağını gizli olaraq talamaqla əmlak mülkiyyətçisinə 106 manat ziyan vurmuşdur.

Daha sonra A.Həmzəyev özgənin əmlakını ələ keçirmək məqsədi ilə 2015-ci il 11 sentyabr tarixindən 24 dekabr tarixinədək müxtəlif binalarda yerləşən liftlərin maşın bölməsindən naqilləri ayırıb, hər birinin dəyəri 106 manat olan əyləc dolaqlarını gizli olaraq talamaqla zərərçəkmiş şəxsə hər bir epizod üzrə 106 manat ziyan vuraraq 62 epizod üzrə təkrarən oğurluq cinayətləri törətmişdir.

A.Həmzəyev göstərilən hərəkətlərə görə Bakı şəhəri Suraxanı Rayon Məhkəməsinin 23 oktyabr 2017-ci il tarixli hökmü ilə Cinayət Məcəlləsinin 177.2.2-ci maddəsində nəzərdə tutulmuş cinayət əməlini törətməkdə təqsirli bilinərək 3 il 3 ay müddətinə azadlıqdan məhrum edilmiş, ona təyin edilmiş azadlıqdan məhrumetmə cəzası Cinayət Məcəlləsinin 70-ci maddəsinə əsasən 1 il 6 ay sınaq müddəti müəyyən olunmaqla şərti olaraq tətbiq edilmişdir.

Dövlət ittihamçısı apellyasiya protesti verərək Cinayət Məcəlləsinin 70-ci maddəsinin tətbiqinə dair müddəanın hökmdən xaric edilməsini və A.Həmzəyevə Cinayət Məcəlləsinin 177.2.2-ci maddəsində nəzərdə tutulmuş sanksiyaya uyğun azadlıqdan məhrumetmə növündə cəza təyin olunmasını xahiş etmişdir.

Bakı Apellyasiya Məhkəməsinin qənaətinə görə, əməlin təkrar oğurluq kimi tövsif edilməsi üçün əvvəl (ilkin) törədilmiş əməl üzrə vurulmuş ziyanın məbləğinin beş yüz manatdan, təkrar törədilməsi halında isə yüz manatdan artıq olmasının tələb edilib-edilməməsi məsələsinə qanunvericilikdə aydınlıq gətirilməməsi hüquqi müəyyənlik prinsipini pozaraq məhkəmə təcrübəsində çətinliklər yaradır. Belə ki, Cinayət Məcəlləsinin 177.1, 178.1 və 179.1-ci maddələrində nəzərdə tutulmuş məsuliyyət əmlakın mülkiyyətçisinə və ya digər sahibinə beş yüz manatdan yuxarı, lakin beş min manatdan artıq olmayan məbləğdə ziyan vurulduğu hallarda yaranır. Bu Məcəllənin 177.2.1–177.2.3-2, 177.2.5 və 177.3.1-ci maddələrində nəzərdə tutulmuş məsuliyyət əmlakın mülkiyyətçisinə və ya digər sahibinə yüz manatdan yuxarı məbləğdə ziyan vurulduğu hallarda yaranır. Göründüyü kimi, sadə şəkildə oğurluq cinayəti üzrə məsuliyyətin yaranması üçün mülkiyyətçiyə və ya əmlakın digər sahibinə vurulmuş ziyanın məbləği beş yüz manatdan, təkrar törədilməsi halında isə yüz manatdan artıq olmalıdır.

Müraciətedənin qənaətinə görə, eyni əməllər təkrar törədildikdə vurulmuş ziyanın məbləğindən asılı olaraq onlara hüquqi qiymət verilməsi ilə bağlı vahid məhkəmə təcrübəsinin formalaşdırılması üçün göstərilən maddələrin şərh edilməsi zərurəti yaranmışdır.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətlə bağlı aşağıdakıların qeyd edilməsini vacib hesab edir.

Konstitusiyanın 13-cü maddəsinin I hissəsinə əsasən, Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur.

Mülkiyyət iqtisadi və hüquqi kateqoriya olub, özündə mülkiyyətçinin əldə etdiyi və ona məxsus maddi sərvətlərə malik olmaq, onlardan istifadə etmək və onlara dair sərəncam vermək kimi faktiki ictimai münasibətlərin məcmusunu təşkil edir. Hüquq normaları ilə tənzimlənərkən bu münasibətlər hüquqi forma alır və hüquqi qaydada mülkiyyətçinin, ona məxsus daşınar və daşınmaz əmlaka malik olmaq, ondan istifadə etmək və ona dair sərəncam vermək kimi hüquqları ilə ifadə olunur.

Mülkiyyət, həmçinin cinayət qanunvericiliyi ilə qorunan obyektlər sırasına daxil edilmiş və onun qorunması Cinayət Məcəlləsinin əsas vəzifələrindən biri kimi müəyyən olunmuşdur. Belə ki, Cinayət Məcəlləsinin 2.1-ci maddəsinə əsasən, bu Məcəllənin vəzifələri sülhü və bəşəriyyətin təhlükəsizliyini təmin etməkdən, insan və vətəndaş hüquq və azadlıqlarını, mülkiyyəti, iqtisadi fəaliyyəti, ictimai qaydanı və ictimai təhlükəsizliyi, ətraf mühiti, Azərbaycan Respublikasının konstitusiya quruluşunu cinayətkar qəsdlərdən qorumaqdan, habelə cinayətlərin qarşısını almaqdan ibarətdir.

Onu da qeyd etmək lazımdır ki, Cinayət Məcəlləsinin mülkiyyət əleyhinə olan cinayətlərdən bəhs edən normaları qanunverici tərəfindən daim təkmilləşdirilir.

Azərbaycan Respublikası Prezidentinin "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 2017-ci il 10 fevral tarixli 2668 nömrəli Sərəncamı ilə cinayət-hüquq siyasətinin liberallaşdırılması, böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə görə həbs və azadlıqdan məhrumetmə tədbirlərinin tətbiqinin məhdudlaşdırılması, cinayətlərin dekriminallaşdırılması və bunun nəticəsində daha geniş alternativ cəzaların tətbiqi nəzərdə tutulmaqla növbəti

islahatların həyata keçirilməsinə mühüm təkan verilmişdir. Sərəncamın icrası ilə əlaqədar qəbul olunmuş "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 20 oktyabr tarixli 816 nömrəli Qanunu ilə Cinayət Məcəlləsinin Ümumi və Xüsusi hissələrinin bir çox maddələrinə, o cümlədən Məcəllənin 177-ci maddəsinə və onun "Qeyd" hissəsinə dəyişikliklər edilmişdir.

Cinayət Məcəlləsinin 177.1-ci maddəsinin sanksiyasına və "Qeyd" hissəsinə edilmiş dəyişikliklərdə, cinayət məsuliyyətinin əmlakın mülkiyyətçisinə və ya digər sahibinə beş yüz manatdan yuxarı, lakin beş min manatdan artıq olmayan məbləğdə ziyan vurulduğu hallarda yaranması və üç yüz altmış saatdan dörd yüz səksən saatadək ictimai işlər və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılması nəzərdə tutulmuşdur. Bu dəyişikliklərdən əvvəl isə oğurluq cinayətinə görə məsuliyyət əmlakın mülkiyyətçisinə və ya digər sahibinə yüz manatdan yuxarı, lakin üç min manatdan artıq olmayan məbləğdə ziyan vurulduğu hallarda yaranırdı (Cinayət Məcəlləsinin 2017-ci il 1 dekabr tarixindən ləğv edilmiş mətni).

Beləliklə, ölkədə gedən iqtisadi-sosial proseslər nəzərə alınaraq mülkiyyət əleyhinə olan cinayətlərin ilk dəfə törədilməsi zamanı cinayət məsuliyyəti yaradan məbləğ yüz manatdan beş yüz manatadək artırılmışdır.

Konstitusiya Məhkəməsinin Plenumu bu dəyişiklikləri nəzərə alaraq Cinayət Məcəlləsinin müvafiq normalarının təhlil olunmasını zəruri hesab edir.

Cinayət Məcəlləsinin 23-cü fəsli mülkiyyət əleyhinə olan cinayətlərə həsr olunmuşdur. Bu kateqoriyadan olan cinayətlərə oğurluq, dələduzluq, mənimsəmə və ya israf etmə, soyğunçuluq, quldurluq və s. cinayət əməlləri aiddir. Həmin cinayətlər arasında talama cinayətləri xüsusi yer tutur.

Talama – özgənin əmlakını tamah məqsədi ilə hüquqazidd yolla və əvəzsiz olaraq, həmin əmlakın mülkiyyətçisinə və başqa sahibinə ziyan vurmaqla götürmə və özünün və ya başqa şəxslərin xeyrinə keçirmədir.

Cinayət Məcəlləsinin 177-ci maddəsi oğurluğu özgənin əmlakını gizli olaraq talama kimi müəyyən etmişdir. Bu cinayətin obyektiv cəhətini təşkil edən götürmənin gizli üsulu oğurluğu talamanın başqa formalarından fərqləndirir. Oğurluq zamanı təqsirkar zərərçəkmişin əmlakını onun iradəsindən kənar, gizli götürərək öz sərəncamına keçirir. Götürmənin gizliliyi dedikdə, cinayətin həm mülkiyyətçidən, həm də digər şəxslərdən xəbərsiz həyata keçirilməsi başa düşülür.

Oğurluq cinayətinin tərkib əlamətlərinin müəyyən edilməsi həmin əmələ cinayət-hüquqi qiymət verilməsi üçün böyük əhəmiyyət kəsb edir.

Cinayət tərkibinin formalaşmasında zəruri və fakültativ əlamətlərin böyük əhəmiyyəti vardır. Zəruri əlamətlər hər bir cinayət tərkibinə məxsus elə əlamətlərdir ki, onlar mövcud olmadıqda cinayət tərkibi yaranmır. Fakültativ əlamətlər isə bütün cinayət tərkibləri üçün zəruri olmayan və fərqli tərkiblərdə müxtəlif rol oynayan əlamətlərdir. Belə əlamətlərə cinayətin obyektiv tərəfini səciyyələndirən cinayətin törədilmə vaxtı, yeri, üsulu, cinayətin subyektiv tərəfini xarakterizə edən motiv və məqsəd və s. aiddir.

Cinayət tərkibi əlamətlərinin zəruri və fakültativ əlamətlərə bölünməsi ayrı-ayrı cinayət tərkiblərinin müəyyənləşdirilməsi və oxşar cinayətlərin bir-birindən fərqləndirilməsi üçün böyük əhəmiyyət kəsb edir. Məsələn, özgənin əmlakını gizli olaraq talama oğurluq cinayətinin zəruri əlaməti (177-ci maddə), ümumi təhlükəli üsul qəsdən adam öldürmə cinayətinin tövsifedici əlaməti (120.2.4-cü maddə) hesab olunur.

Cinayət tərkibinin konkretləşdirilmiş və qiymətləndirici əlamətlərinin də böyük hüquqi əhəmiyyəti vardır. Konkretləşdirilmiş əlamətlər Cinayət Məcəlləsinin normalarının mətnində birmənalı müəyyənləşdirilmişdir. Məsələn, oğurluq cinayətlərində vurulmuş ziyanın məbləği (177-ci maddənin "Qeyd" hissəsi), iqtisadi fəaliyyət sahəsində olan cinayətlərdə xeyli və külli miqdarda vurulmuş ziyanın həddi (190-cı maddənin "Qeyd" hissəsi) və s.

Cinayət Məcəlləsinin 177-ci maddəsinin təhlili belə qənaətə gəlməyə əsas verir ki, özgənin əmlakını gizli olaraq talama oğurluq cinayətinin obyektiv cəhətinin zəruri əlamətidir. Gizli olaraq talama həmin əməllər təkrar törədildiyi hallarda da zəruri əlamət kimi çıxış edir. Mülkiyyətçiyə və ya əmlakın digər sahibinə vurulmuş ziyanın məbləği isə konkretləşdirilmiş əlamət kimi qanunverici tərəfindən cinayət tərkibinin zəruri əlamətləri nəzərə alınmaqla həmin maddənin "Qeyd" hissəsində göstərilmişdir.

Buna görə də Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, Cinayət Məcəlləsinin 177.2-ci maddəsinin "eyni əməllər" ifadəsi həmin Məcəllənin 177.1-ci maddəsində göstərilən oğurluğun yalnız zəruri əlamətini, yəni özgənin əmlakını gizli olaraq talamanı nəzərdə tutur. Cinayət Məcəlləsinin 177-ci maddəsinin "Qeyd" hissəsinin 1-ci bəndində göstərilən beş yüz manatdan yuxarı məbləğ həmin Məcəllənin 177.1-ci maddəsinə, yüz manatdan yuxarı məbləğ isə 177.2-ci maddəsinə aid olmaqla cinayət tərkibinin konkretləşdirici əlaməti kimi çıxış edir.

Qeyd olunmalıdır ki, Cinayət Məcəlləsinin 177-ci maddəsinin "Qeyd" hissəsinin 3-cü bəndi eyni cinayətlərin törədilməsi ilə yaranan təkrarlıqla yanaşı, müxtəlif cinayətlərin törədilməsi ilə yaranan təkrarlığı da müəyyən edir. Bu bəndə əsasən, Məcəllənin 177-183-cü, habelə 213-3, 217, 227, 232 və 235-ci maddələri ilə nəzərdə tutulmuş cinayətlərdən hər hansı birini və ya bir neçəsini törətmiş şəxs tərəfindən bu Məcəllənin 177-183-cü maddələri ilə nəzərdə tutulmuş cinayətlərin hər hansı birinin yenidən törədilməsi (bu Məcəllənin 16.3-cü maddəsində göstərilən hallar istisna olunmaqla) onların təkrar törədilməsi hesab olunur.

Konstitusiya Məhkəməsinin Plenumu "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 18.5, 61.1.1 və 65-ci maddələrinin şərh edilməsinə dair" 2013-cü il 18 mart tarixli Qərarında təkrarlıq institutu ilə bağlı qeyd etmişdir ki, cinayətlərin çoxluğu cinayət məsuliyyətini ağırlaşdıran hal kimi səciyyələndirilir. Cinayətin şəxs tərəfindən ardıcıl olaraq törədilməsi ona cinayət törətmə təcrübəsi əldə etməyə imkan verir, onun sonrakı cinayət fəaliyyətini daha təhlükəli edir.

Konstitusiya Məhkəməsinin Plenumu "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 177-ci maddəsinin "Qeyd" hissəsinin 3-cü bəndinin şərh edilməsinə dair" 2013-cü il 4 mart tarixli Qərarında isə göstərmişdir ki, şəxs tərəfindən cinayətin təkrar törədilməsi, bir qayda olaraq, onun sabit kriminal meyilliliyinə dəlalət edir, bu isə nəticə etibarilə onun yüksək ictimai təhlükəliliyinə işarə edir.

Konstitusiya Məhkəməsinin Plenumu bir daha qeyd edir ki, cinayətin təkrar törədilmiş hesab edilməsi üçün təqsirkarın ən azı iki ictimai-təhlükəli əməli törətməsi faktı müəyyən edilməlidir. Bu fakt həmişə təkrarlığın təqsirkar şəxsdə mənfi xüsusiyyətlərin mövcudluğu ilə xarakterizə olunduğunu göstərir. Təkrarlıq ona daxil olan cinayətlərin müxtəlif vaxtlarda törədilməsini ehtiva edir. Təqsirkar şəxsin müxtəlif həyat şəraitində qanuna uyğun davranış qaydasını seçmək imkanının olmasına baxmayaraq, şüurlu olaraq cinayət qanunu ilə qadağan olunmuş davranış qaydasını seçməsi onun yüksək ictimai təhlükəliliyini sübut edir.

Konstitusiyanın 94-cü maddəsinin I hissəsinin 17-ci bəndi cinayətlərin və başqa hüquq pozuntularının müəyyən edilməsini, onların törədilməsinə görə məsuliyyətin təyin edilməsini qanunvericilik hakimiyyəti orqanının müstəsna səlahiyyətinə aid etmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, qanunverici Konstitusiya ilə ona verilmiş səlahiyyətdən istifadə edərək ədalət prinsipinin təmin olunması məqsədilə Cinayət Məcəlləsinin 177.2-ci maddəsində göstərilən ağırlaşdırıcı hallarda oğurluğun, o cümlədən təkrar oğurluğun təhlükəlilik dərəcəsini və belə əməlləri törədən şəxslərin ictimai təhlükəliliyini nəzərə alaraq, həmin əməllərə görə daha sərt cinayət məsuliyyəti müəyyən etmişdir.

Göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

– Cinayət Məcəlləsinin 177.2-ci maddəsində "eyni əməllər" ifadəsi həmin Məcəllənin 177.1-ci maddəsində göstərilən oğurluğun yalnız zəruri əlamətini, yəni özgənin əmlakını gizli olaraq talamanı nəzərdə tutur;

– Cinayət Məcəlləsinin 177-ci maddəsinin "Qeyd" hissəsinin 1-ci bəndində göstərilən beş yüz manatdan yuxarı məbləğ həmin Məcəllənin 177.1-ci maddəsinə, yüz manatdan yuxarı məbləğ isə 177.2-ci maddəsinə aid olmaqla cinayət tərkibinin konkretləşdirici əlaməti kimi çıxış edir;

– oğurluğun təkrar, yəni iki dəfə və ya iki dəfədən çox törədilməsi zamanı əmlakın mülkiyyətçisinə və ya digər sahibinə hər bir əməl üzrə yüz manatdan yuxarı məbləğdə ziyan vurulduğu hallarda Cinayət Məcəlləsinin 177.2.2-ci maddəsi ilə cinayət məsuliyyəti yaranır.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 177.2-ci maddəsində "eyni əməllər" ifadəsi həmin Məcəllənin 177.1-ci maddəsində göstərilən oğurluğun yalnız zəruri əlamətini, yəni özgənin əmlakını gizli olaraq talamanı nəzərdə tutur.
2. Oğurluğun təkrar, yəni iki dəfə və ya iki dəfədən çox törədilməsi zamanı əmlakın mülkiyyətçisinə və ya digər sahibinə hər bir əməl üzrə yüz manatdan yuxarı məbləğdə ziyan vurulduğu hallarda Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 177.2.2-ci maddəsi ilə cinayət məsuliyyəti yaranır.
3. Qərar dərc edildiyi gündən qüvvəyə minir.
4. Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində, "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.
5. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr** **Fərhad Abdullayev**